Xədicə Heydərova

NƏSİMİNİN DİLİNDƏ İŞLƏNƏN ONOMASTİK VAHİDLƏRİN İZAHLI LÜĞƏTİ

(dini-təsəvvüfi və poetik onomastikon)



Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu Elmi Şurasının 16 noyabr 2022-cu il tarixli iclasının (9 №-li protokolu) qərarı ilə nəşr olunur.

Bakı–2023

Elmi məsləhətçi: **Nadir Məmmədli**
filologiya elmləri doktoru

Redaktor: **İsmayıl Məmmədli**
filologiya elmləri doktoru, professor

Rəyçilər: **Qəzənfər Paşayev**
Əməkdar elm xadimi, professor

Nəsrulla Məmmədov
filologiya elmləri doktoru, professor

Tünzalə Baxşıyeva
filologiya elmləri doktoru

Arzu Hüseynova
filologiya üzrə fəlsəfə doktoru

Xədicə Heydərova. Nəsiminin dilində işlənən onomastik vahidlərin izahlı lüğəti (dini-təsəvvüfi və poetik onomastikon). Bakı: 2023,– 320 səh.

Lüğət böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadilli şeirlərində işlənən onomastik vahidləri əks etdirir. Əsər predmet-tematik prinsiplə tərtib edilmisdir. Şairin dilində olan onimlər konkret mövzular üzrə – onomalogiyanın mifonimiya, antroponimiya, toponimiya, ktematonimiya, zoonimiya, kosmonimiya, etnonimiya yarımşöbələrinə daxil olan onimlərin Nəsiminin əqidəsinə, dünyabaxışına uyğun şəkildə qruplaşdırılması şəklində sistemləşdirilmişdir. Lüğət tələbələrin, universitet müəllimlərinin, doktorant və aspirantların, ədəbiyyatşünas və dilçilərin, ümumən isə nəsimisevərlərin istifadəsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-541-15-1

© X.İ.Heydərova, 2023

MÜNDƏRİCAT

ÖN SÖZ 5

KLASSİK ŞAİRİN ƏSƏRLƏRİNDƏ İŞLƏNƏN ONİMLƏRİN KLASSİFİKASİYASINI HƏYATA KEÇİRƏN LÜĞƏT 7

MÜƏLLİFDƏN 9

LÜĞƏTDƏ GEDƏN İXTİSARLAR 22

LÜĞƏTDƏ VERİLMİŞ ŞƏRTİ İŞARƏLƏR 22

LÜĞƏTİN QURULUŞU 23

I fəsil. MİFONİMLƏR 27

Teonimlər 28
Təkallahlılıqla bağlı teonimlər 28
Ərəbmənşəli teonimlər 28
Qeyri-ərəbmənşəli teonimlər 80
Çoxallahlılıqla bağlı teonimlər 84
Demononimlər (mələklərin, cinlərin adları) 88
Mifoantroponimlər
(peyğəmbərlərin və əfsanəvi şəxslərin adları) 98
Mifotoponimlər (mifik coğrafi adlar) 120
Mifooronimlər (mifik dağ adları) 120
Mifospeleonimlər (mifik mağara, uçurum, quyu adları) 124
Mifohidronimlər (mifik çay, dəniz, bulaq adları) 125
Mifoekklezionimlər (dini ibadət yerləri) 126
Mifoaqoronimlər (mifik meydanların, aləmlərin adları) 127
Mifodrimonimlər (mifik bağların adları) 130
Cənnət bağlarının adları 131
Mifokosmonimlər 141
Mifoktematonimlər 150
Mifoxrematonimlər (mifik mədəniyyət əşyalarının adları) 150
Mifobiblionimlər (mifik dini kitablar) 151
Mifoxrononimlər (mifik bayramların, əlamətdar günlərin adları) 154
Mifofitonimlər (mifik bitki adları) 160
Mifozoonimlər (mifik heyvan adları) 162
Mifoornitonimlər (mifik quşlar) 163

II fəsil. ANTROPONİMLƏR ... 169
İslam dini və məzhəbləri ilə bağlı şəxsiyyətlərin adları ... 170
Şiə imamlarının adları ... 183
Ləqəb, təxəllüs və künyələr ... 188
Tarixi şəxsiyyətlərin adları ... 205
Alimlərin, şairlərin adları ... 208
Poetik obrazların adları ... 211

III fəsil. TOPONİMLƏR ... 219
Xoronimlər (ölkə, bölgə adları) ... 220
Astionimlər (şəhər adları) ... 231
Hidronimlər (su hövzələri) ... 235
Ekklezionimlər (dini ibadət yerləri) ... 239

IV fəsil. KTEMATONİMLƏR ... 245
İdeonimlər (əsərlərin adları) ... 246
Biblionimlər (dini kitablar) ... 246
Quran surələrinin adları ... 255
Artionimlər (musiqi adları) ... 263
Xrematonimlər (maddi mədəniyyət əşyalarının adları) ... 289
Xrononimlər (bayramların, tarixi günlərin adları) ... 272

V fəsil. PERİFERİK ONİMLƏR ... 281
Etnonimlər (xalq, tayfa, qəbilə adları) ... 282
Astronimlər (göy cisimlərinin adları) ... 289
Kosmonimlər (bürclərin adları) ... 301
Zoonimlər (heyvan adları) ... 304

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT ... 305
BAŞ SÖZLƏRİN İNDEKSLƏŞMƏSİ ... 311

ÖN SÖZ

Altı əsrə yaxındır ki, qismətinə bol-bol kədər və sevinc payı düşən Nəsiminin poeziyası ürəkləri fəth edir. Nəsimi Azərbaycan dilini ərəb-fars dilləri səviyyəsinə qaldırmışdır. Bu, Nəsiminin nəhəngliyindən xəbər verir. Adı dünyanın ölməz sənətkarları sırasında şərəfli yer tutan, poeziyasında yeni, çox əlamətdar olan bir dövrün başlanğıcı olan Nəsiminin Azərbaycan dilində məhəbbət lirikası əlçatmazdır:

Düşdü yenə dəli könül gözlərinin xəyalinə,
Bilməyirəm bu könlümün fikri nədir, xəyalı nə?

və ya:

Dodağın qənd imiş, bal ayında neylər?
Bu ziba xətt imiş, xal onda neylər?

Təsadüfi deyil ki, Nəsimi haqqında poema yazan Xalq şairi Qabil Nəsiminin dilinin saflığına, büllurluğuna, axıcılığına, şirinliyinə heyranlığını gizlədə bilmir:

O uzaq, o qədim lisana bir bax,
Büllur bulaq kimi şürülər, çağlar.
Əsər var yazılıb otuz il qabaq
Otuz cür lüğətə ehtiyacı var.

Azərbaycanda Nəsiminin yaradıcılığı bir əsrə yaxındır ki, həm ədəbiyyatşünaslıq, həm də dilçilik baxımından tədqiq olunur, dissertasiyalar, monoqrafiyalar yazılır.

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şairin 650 illik yubileyi qeyd edildi. Prezidentin başqa bir sərəncamı ilə 2019-cu il Nəsimi ili elan edildi və onlarla əsərlər mey-

dana gəldi.

Nəsimi yaradıcılığı hər vaxt elmi camiənin diqqət mərkəzində olub.

Budur yeni bir orijinal əsər – Xədicə Heydərovanın "Nəsiminin dilində işlənən onomastik vahidlərin izahlı lüğəti" əsəri Nəsiminin dilində xüsusi isimlərə həsr olunmuşdur. Lüğət predmet-tematik prinsip əsasında işlənmişdir. Tədqiqat Həmid Araslı, Cahangir Qəhrəmanov və Qəzənfər Paşayevin Nəsimi ilə bağlı əsərləri əsasında aparılmışdır.

Əsər V fəsildən ibarətdir: Mifonimlər, Antroponimlər, Toponimlər, Ktematonimlər və Periferik onimlər.

Müəllif haqlı olaraq lüğəti mifonimlərlə başlamışdır. Çünki Allahın adları, Tanrının dərgahı, axirət, Merac gecəsi ilə bağlı varlıqların, məkanların adları və s. Nəsimi yaradıcılığının nüvəsini təşkil edir.

Lüğət tərtib etmək, xüsusən də Xədicə Heydərovanın hazırladığı lüğət kimi əsərləri ərsəyə gətirmək iynə ilə gor qazmaq kimi çətin bir işdir.

Çəkinmədən demək olar ki, müəllif istəyinə nail olmuşdur.

Xədicə Heydərovanın "Nəsimi dilində işlənən onomastik vahidlərin izahlı lüğəti" əsərini əhəmiyyətli və orijinal əsər hesab edirəm.

Qəzənfər Paşayev
Əməkdar elm xadimi, professor

KLASSİK ŞAİRİN ƏSƏRLƏRİNDƏ İŞLƏNƏN ONİMLƏRİN KLASSİFİKASİYASINI HƏYATA KEÇİRƏN LÜĞƏT

Xədicə Heydərovanın "Nəsiminin dilində işlənən onomastik vahidlərin izahlı lüğəti" adlı əsəri onomastikanın maraqlı problemlərindən birinə həsr olunub. Hər bir lüğət xalqın elmi, mədəni inkişafı və tələbatı nəticəsində meydana çıxır. Lüğətçilik vacib və lazımlı bir sahə olduğundan bu sahədəki problemlərə həsr olunmuş lüğətlər çox əhəmiyyətlidir. Müasir dövrdə Azərbaycan onomastikasının nailiyyətlərinə baxmayaraq klassik şairlərin əsərlərində işlənən onimlər az öyrənilmişdir. Bir çox alimlər əsərlərində Nəsiminin leksikasından bəhs etmişlər. Azərbaycan dilçiliyində Nəsiminin əsərlərində işlənən onomastik vahidlərin izahlı lüğəti məsələsi indiyə qədər diqqətdən kənarda qalmışdır. Belə bir lüğət ilk dəfə olaraq Xədicə Heydərova tərəfindən tərtib edilmişdir. Lüğətdə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadilli şeirlərində işlənən onomastik vahidlər sistemləşdirilərək ayrı-ayrı qruplarda izah edilir və onlara dilçilik aspektində yeni bir baxış həyata keçirilir, sözün mənası açılır, zəruri üslubi xarakteristikası verilir. Onomastik vahidlərin mənaları verilməklə yanaşı, eləcə də məna çalarları şərh edilir.

Məlumdur ki, hər bir şairin dil üslubu onun ancaq özünəməxsus olan cəhətləri ilə, leksik tərkibinin müxtəlifliyi ilə səciyyələnir. Xədicə Heydərova lüğəti tərtib edərkən şairin dini-fəlsəfi görüşlərini əks etdirən onomastik vahidlərin fərqli yanaşma tələb etdiyini yazır və "Mifonimlər", "Antroponimlər", "Toponimlər", "Ktematonimlər", "Periferik onimlər" adı altında qruplaşmalar aparır. Nəsiminin əsərlərindəki onimlərin seçilməsi, sistemləşdirilməsi, hər bir adın izahının verilməsi tədqiqatın əsas məqsədlərindəndir. Xədicə Heydərova Nəsiminin anadilli şeirlərində işlənən

onomastik vahidləri dərindən, hərtərəfli tədqiq edərək lüğətin orijinallığını, elmi məzmununun dərinliyini təmin etmişdir. Belə ki, araşdırmada hər bir onimə xüsusi bir tələbkarlıqla yanaşılır, yeri gəldikcə hər bir sözə aid bir neçə nümunə verilir. Nəsiminin əsərlərində işlətdiyi onomastik vahidlərin hərtərəfli araşdırılması onun dünyagörüşünün, inancının, düşüncəsinin öyrənilməsinə xidmət edir. Müəllif qarşıya qoyduğu bu məqsədə nail olmuşdur.

X.Heydərovanın bu əsəri müasir Azərbaycan dilçiliyi üçün yenilikləri ilə fərqlənir. Lüğət predmet-tematik prinsiplə tərtib edilmişdir. Müəllifin belə bir təcrübəyə əl atması Nəsiminin xüsusi isimlər aləminin klassifikasiyasını, əqidə və düşüncə mənzərəsini yaratmaq məqsədini güdür. Həqiqətən də təqdim edilən lüğətdən belə aydın olur ki, Nəsimi yaradıcılığının nüvəsini məhz mifoloji leksika təşkil edir.

Daha bir diqqətəlayiq məqam budur ki, Xədicə Heydərova Azərbaycan dilçiliyində ilk dəfə olaraq teonimləri tədqiqata cəlb etmiş və lüğətə əlavə etmişdir. Bölgüyə əsasən belə məlum olur ki, mistik şair həm təkallahlılıq, həm də çoxallahlılıqla bağlı teonimlərdən istifadə etmişdir. Lüğət məqalələrində yeri gəldikcə beytin şərhinə də yer verilmişdir.

Nəsiminin anadilli şeirlərində işlənən onomastik vahidlərin tədqiqi yalnız Azərbaycan dilinin tarixi üçün deyil, həm də türkologiya elmi üçün də dəyərlidir. Araşdırma Azərbaycan onomastika sahəsində olan boşluğu aradan qaldırmağa xidmət edir. Nəsiminin əsərlərində işlənmiş onomastik vahidlərin izahlı lüğətinin tərtib edilməsi digər klassik şairlərin dilində işlənən leksik vahidlərin tərtib edilməsi üçün bir cığır açmışdır. Lüğətin tərtibi nəzəri və praktiki əhəmiyyət kəsb edir.

Tünzalə Baxşıyeva
AMEA Nəsimi adına Dilçilik İnstitutu Toponimiya sektorunun baş elmi işçisi, filologiya elmləri doktoru, dosent

MÜƏLLİFDƏN

Təqdim edilən lüğət Azərbaycanın XIV əsr görkəmli şairi İmadəddin Nəsiminin dilində işlənən onomastik leksikaya həsr olunmuşdur. Nəsimi təsəvvüf ədəbiyyatının nümayəndəsi olmaqla bərabər, hürufi görüşləri ilə fərqlənən batini şair olmuşdur. Bu baxımdan onun yaradıcılığında yer alan onomastik vahidlər məna tutumu cəhətdən diqqəti cəlb edir.

İmadəddin Nəsimi yaradıcılığında onimlərin tədqiqatı əsasən Həmid Araslının [11; 12], qismən isə Q.Paşayevin [24] və C.Qəhrəmanovun [8; 9; 10; 17] tərtibatları üzərində həyata keçirilmişdir.

Əsər üzərində iş aparılarkən əvvəl əlifba sıralı düzülüş nəzərdə tutulmuşdu, amma sonrakı prosesdə batini şairin dini-fəlsəfi görüşlərini əks etdirən onomastik vahidlərin fərqli yanaşma tələb etdiyi müşahidə olundu. Çünki onlar həm real, həm də mifik kateqoriyaya aid elementlərə malikdir. Bu səbəbdən məna yaxınlığı olan onimləri qruplaşdıraraq lüğətin predmet-tematik prinsip əsasında tərtibatını həyata keçirmək qərarına gəlindi.

Qarşıda daha bir problem dururdu: onomastik vahidlərin klassifikasiyasının məntiqi və elmi şəkildə həyata keçirilməsi. S.N.Volkova bu barədə yazır: "Изучая художественный текст, несомненно, надо рассматривать все типы онимов в их взаимодействии, то есть необходимо комплексно анализировать ономастикон. Одним из способов исследования любой системы ИС является полевый подход, с точки зрения которого выделяются ядро, околоядерное пространство и периферия" [48]. (Bədii mətni araşdırarkən onimlərin bütün növlərini bir-biri ilə qarşılıqlı münasibətdə gözdən keçirmək lazımdır. Yəni onomastikon kompleks şəkildə təhlil edilməlidir. Xüsusi isimlərin istənilən sisteminin tədqiqat vasitələrindən biri yerli yanaşmadır, ona əsasən, nüvə, nüvəətrafı sahə və periferiya təyin edilir).

Demək, onomastikanın paradiqmatik ardıcıllığını bədii ədəbiyyat nümunəsinə bilib-öyrəndiyimiz qaydada tətbiq etmək doğru olmaz. Bunun

üçün məhz Nəsiminin əsərlərində işlənən onimlərin sayı, növü, bir növün daha çox onimlərə malik olması və s. məsələlər nəzərə alınaraq ardıcıllığı müəyyənləşdirilməlidir. Bu ideya bizim paradiqmatik bölgümüzə sanki bir təkan oldu. Çünki elə onimlər bölməsi var ki, Nəsiminin dilində bir, ya iki vahidi işlənir və ya elə yarımşöbə var ki, onu ayrıca fəsil kimi götürmək mümkün deyil, eyni zamanda heç bir fəslə də aid etmək olmur. Bu baxımdan nüvəətrafı bölmələri V fəsildə "Periferik onimlər" adı altında toplamaq qərarına gəldik.

2005-ci ildə Nəsiminin dilində onomastik vahidlərə dair dissertasiya müdafiə etmiş Arifə Zeynalova şairin yaradıcılığında aşağıdakı xüsusi isimlərin olduğunu göstərir: "Antroponimlər, toponimlər, hidronimlər, zoonimlər, kosmonimlər, ideonimlər" [30, s. 44]. Arifə xanım mifik kateqoriyaya daxil olan mifoantroponimlər, mifotoponimlər, mifozoonimlər və s.-ni bilavasitə yuxarıda göstərilən bölmələrə aid edir.

Apardığımız tədqiqat göstərdi ki, Nəsiminin dilində işlənən mifonimlər o qədər zəngin və çoxçeşidlidir ki, say və növ baxımından digərlərini üstələdiyinə görə hətta onun yaradıcılığında olan onomastik vahidləri iki kateqoriyaya ayırmaq mümkündür: mifoloji və real. Bu səbəbdən biz mifonimlər və real kateqoriyalı onomastik vahidləri bir-birindən fərqləndirdik. Eyni zamanda Azərbaycan dilçiliyində ilk dəfə olaraq aşağıdakı şairin yaradıcılığına aid onomastik söz qruplarını tədqiqata cəlb etdik: təkallahlılıq və çoxallahlılıqla bağlı teonimlər (Allahın adları), mifoktematonimlərin növləri olan mifoxrononimlər (mifik əlamətdar günlər), mifobiblionimlər (mifik kitabların adları) və mifoxrematonimlər (mifik mədəniyyət əşyalarının adları), mifotoponimlərin növləri olan mifodrimonimlər (mifik bağların adları), mifoaqoronimlər (mifik meydanların, aləmlərin adları) və mifoekklezionimlər (mifik dini ibadət yerləri).

Beləliklə, Nəsimi yaradıcılığındakı onomalogiyanın aşağıdakı yarımşöbələrinə aid söz qruplarını seçərək 5 fəslə ayırdıq:

I fəsil. Mifonimlər

II fəsil. Antroponimlər

III fəsil. Toponimlər

IV fəsil. Ktematonimlər


V fəsil. Periferik onimlər

Biz lüğəti mifonimlərlə başlamağı lazım bildik, çünki yuxarıda göstərdiyimiz kimi, Allahın adları, Tanrının dərgahı, axirət, cənnətin qatları, Merac gecəsi ilə bağlı varlıqların, məkanların adları və s. Nəsimi yaradıcılığının ideoloji əsasını, daha doğrusu, nüvəsini təşkil edir. Biz bu fəsli Allahın adları ilə (teonimlərlə) başladıq. Belə bir təcrübəni A.K.Tolstoyun poetik yaradıcılığındakı xüsusi isimləri araşdırmış S.M.Pronçenkonun yanaşmasında görə bilirik. O, paradiqmatik ardıcıllığın ön sırasında aqionimləri (pravoslav xristianlarının müqəddəslərinin adlarını) verir [55]. Bu o deməkdir ki, əsərin nüvəsini təşkil edən onimlər öndə yer almalıdır.

Beləliklə, "I fəsil Mifonimlər"in yarımfəsillərini aşağıdakı şəkildə müəyyənləşdirdik: Teonimlər, Demononimlər, Mifoantroponimlər, Mifotoponimlər, Mifokosmonimlər, Mifoktematonimlər, Mifofitonimlər, Mifozoonimlər, Mifoornitonimlər. Bax: **Şəkil 1.**

Burada "Teonimlər" yarımfəsli zənginliyi ilə diqqəti cəlb edir. Mistik şair həm təkallahlılıq, həm də çoxallahlılıqla bağlı onimlərdən istifadə etmişdir. "Təkallahlılıqla bağlı teonimlər" bölməsi "Ərəbmənşəli teonimlər" və "Qeyri-ərəbmənşəli teonimlər"ə ayrılır.

Tədqiqatımız nəticəsində məlum oldu ki, Nəsimi əsərlərində öz əksini tapmış ərəbmənşəli teonimlərə həm əsmai-hüsnadan olan onimlər – Quranda olan Allahın adları (məs., *Axır, Allah, Ali, Alim, Baqi, Bari, Batin, Bəsir, Cabbar, Əziz, Rəhman, Rəhim, Zahir və s.*), həm əsmayi-hüsnaya daxil olması mübahisəli olan Tanrının ad və sifətləri (məs., *Adil, Xəllaq, Züləŕş, İlah, Mütləq, Zat* və s.), həm də klassik ədəbiyyatda şairlərin yaradıcı təxəyyülünün məhsulu olan və sufi terminologiyasına daxil olan onimlər (məs., *Hu, Hüvə, Nəqqaş, Xəttati-Əzəl, Vahibüssüvər* və s.) daxildir.



Şəkil 1

*"**Əvvəl-Axır** batinü zahir həqiqət halını*
Surətü mə'ni mana dər cism, dər can göstərir." [12, s.144]

Burada **Axır** الآخر "son, Allahdan sonra heç bir şey olmayan", **Əvvəl** "hər şeydən ilk olan" anlamlarını daşıyan əsmayi-hüsnadandır. Hər iki söz Quranda Hadid surəsinin 3-cü ayəsində birgə işlənmişdir və dini terminologiyada Allaha aid edilərək varlığının başlanğıcı və sonu olmadığını ifadə edir. Həmid Araslının tərtibatı ilə olan ikicildlikdə Nəsimi Tanrının *Əvvəl* və *Axır* isimlərini yanaşı şəkildə 18 yerdə işlədir. Nəsimi yaradıcılığında ümumilikdə 83 ədəd ərəbmənşəli teonim müəy-

yənləşdirilmişdir.

Cəmi 7 ədəd olan "qeyri-ərəbmənşəli teonimlər"ə *Tanrı, Çələb, Xuda, Xudavənd, Kirdigar, Pərvərdigar, Yekta* onimləri aiddir. Bunlardan *Tanrı, Çələb* – türk, digərləri isə fars mənşəlidir.

"Ey Kərimi-ləmyəzəl, ey Xaliqi-Pərvərdigar,
Həm sənin qatındadır sirri-nihanım aşikar." [12, s. 170]

Bu beytdə Nəsimi Allaha müraciət edərək Onu əsmayi-hüsnadan olan *Kərim* və *Xaliq* teonimləri ilə yanaşı, fars mənşəli "bütün yaradılışları bəsləyən və yetişdirən" mənalı Pərvərdigar پروردگار xüsusi ismi ilə çağırır.

Çoxallahlılıq onomastik vahidlərinə bütpərəstlik elementləri olan *Lat, Üzza, Əhriman, Mənat* və *Yəzdan* onimləri aiddir. Maraqlıdır ki, atəşpərəstliyin xeyir tanrısı olan *Yəzdan* klassik ədəbiyyatda *Allah* sözünə sinonim kimi işlənmişdir:

*"Nə Sün'i-paki-**Yəzdan**san, a dilbər,*
Müsəvvərsən, müənbərsən, münəvvər!" [11, s. 203]

"Tövhidi iki görənə, gözsüz qulaqsız əhvələ,
*Bilsin ki, cümlə kainat bir məzhəri-**Yəzdan** gəlir."* [12, s. 204]

Nəsimi "məzhəri-Yəzdan" deyərkən Fəzlullah antroponimindəki izafət tərkibini (Fəzl + Allah) əvəzləməyə çalışmışdır: Fəzl "məzhər", Allah isə "Yəzdan" ilə. Yaxud Məhəmməd peyğəmbər üçün *Rəsuli-Yəzdan,* həzrət Əli üçün isə "Şiri-Yəzdan" ləqəblərini işlədir:

*"Buyurdu Şahi-mərdan **Şiri-Yəzdan**,*
Özün biləni yarılğar uğanım." [12, s. 326]

Mifonimlərin "Demononimlər" yarımfəslinə aşağıdakı 12 onim

daxildir: *Cəbrail, Əzazil, Mikail, İsrafil, Əzrail, Harutü Marut, İblis, Rizvan, Ruhül-əmin, Şeytan, Div.* Nəsimi şeytanın dörd adı *(Əzazil, Əzrail, İblis, Şeytan)* ilə yanaşı, fars mifologiyasında müsbət qəhrəmanlara qarşı qoyulan həddən artıq cəsamətli, buynuzlu və əfsanəvi çirkin məxluqun adı olan Div mifozoonimini İblisə şamil edir və onun üçün aşağıdakı ifadələri işlədir: *Divi-dun, Divü xənnasü həsud, Divi-ləin, Divimə'un, Divi-rəcim, Divi-zahirbin, Divi-nameəhrəm.* Məsələn:

*"**Divi-dun** oldu, Əzimi bilmədi*
Məzhəri-Zati-Qədimi bilmədi." [12, s. 304]

Şair peyğəmbərlərə əmr və vəhylərin vasitəçisi vəzifəsini yerinə yetirən dörd böyük mələkdən biri olan Cəbrayılı Qurana (əş-Şuəra, 26/193) əsasən həm də *Ruhül-əmin* adlandırır:

"Bəzmində əzəl saqisi lə'lin mana sunmuş,
*Ol badəyi kim, **Ruhül-əmin**dir dolu camı."* [11, s. 99]

Mifoantroponimləri biz antroponimlərdən ayıraraq ayrıca yarımşöbə şəklində təqdim edirik. Bura dini kitablarda, əfsanələrdə adları çəkilən və islama qədər olmuş, ümumilikdə sayı 28-ə çatan peyğəmbərlərin, əfsanəvi şəxslərin adları aiddir, məs., Adəm, İbrahim, Azər, Musa, Davud, Süleyman, Bilqeys və s. Biz İsa peyğəmbərin də adını bu sıraya daxil etdik. Çünki axtardığımız mənbələrdə onun haqqında heç bir tarixi sənədin olmaması faktını aşkar etdik [Bax: 49, s. 2].

Mifotoponimlərə mifik coğtafi adlar daxildir. Buraya Nəsimi yaradıcılığında qarşılaşdığımız mifooronimlər (mifik dağ adları, məs., *Tur, Qaf, Sinan, Vadiyi-əqdəs* və s.), mifospeleonimlər (mifik mağara, uçurum, quyu adları, məs., *Çahi-Babil, Kəhf*), mifohidronimlər (mifik çay, dəniz, bulaq adları: *Kövsər*, *Səlsəbil*), mifoekklezionimlər (dini ibadət yerləri, məs., *Beytimə'mur*), mifoaqoronimlər (mifik meydanların, aləmlərin adları: *Aləmi-*

İtlaq, Aləmül-Qeyb, Ə'raf, Ərəsat, Lahut) və mifodrimonim (*İrəm bağı* və cənnət bağları (*Darüssəlam, Mə'va, Xüld, Nəim, Firdövs, Darülqərar, Ədn)*) daxildir. Nəsimi əsərlərində mifooronimlər 6, mifospeleonimlər 2, mifohidronimlər 3, mifoekklezionim 1, mifoaqoronimlər 5 və mifodrimonimlər 8 vahid təşkil edir.

Mifokosmonimlərə Nəsimi yaradıcılığında yer almış qədim yunan alimi Ptolomeyin nəzəriyyəsinə əsaslanan orta əsr şərq nücum elminin anlayışları aiddir. Ptolomey sisteminin əsasını aşağıdakı 4 postulat təşkil edir: Yer kainatın mərkəzindədir; Yer tərpənməzdir; bütün göy cisimləri Yerin ətrafında hərəkət edir; bütün göy cisimlərinin hərəkəti sabit sürətlə çevrə – fələk boyunca baş verir. "Dünyanı iç-içə keçmiş şəkildə soğanın qatları kimi doqquz fələk çevrələyir. Yerin səmasından başlayaraq yeddi səyyarənin yeddi fələyi vardır. Birinci fələkdə Ay olmaq üzrə sıra ilə Utarid (Merkuri), Zöhrə (Venera), Şəms (Günəş), Mərrix (Mars), Müştəri (Yupiter), Zühal (Saturn) səyyarələri yerləşir. Səkkizinci fələk sabit ulduzlar və bürclər fələyidir. Doqquzuncusu isə cisimdən arınmış olan və bütün fələkləri saran ən böyük; ən yüksək fələkdir ki fələki-atlas (atlas fələyi), fələki-əzəm (ən böyük fələk), fələki-əflak (fələklər fələyi) adı ilə tanınır. Hükəma fəlsəfəsinə görə, səkkizinci fələyə Kürsi, doqquzuncuya isə Ərş deyilir." [39, *felek* maddəsi]. Dini təsəvvürlərə görə isə, Allah öz Ərşi və Kürsüsü altında yeddi qat göylərin üstündə, Ərşın nuru ilə bir-birindən yüksəkdə səkkiz cənnət yaratmışdır. Lakin biz cənnətləri mifotoponimlər yarımfəslinin mifodrimonimlər bölməsinə aid etdik. Çünki cənnətlər dini görüşlərə görə, bu dünyada xeyir əməllər etmiş insanların düşəcəyi və əbədi məskan salacağı çox gözəl əbədi bağlardır. Beləliklə, Nəsiminin dilində *Ərş, Kürsi, Fələk* kimi 3 ədəd mifokosmonim əks olunmuşdur.

Nəsimi yaradıcılığında "Mifoktematonimlər" yarımfəslinə mifoxrematonimlər (mifik mədəniyyət əşyalarının adlarından Qiyamət günündə çalınacaq nəfəsli musiqi alətin sinonim adları olan *Nəfir* və *Sur*), mifobiblionimlər (mifik dini kitablar, məs., *Ərşi-münəqqəş, Lövhi-məhfuz, Ümmül-*

kitab), mifoxrononimlər (mifik bayramların, əlamətdar günlərin adları, məs., *Ərbəin, Fərda, Qiyamət, Leylətül-me'rac və s.*) daxildir. Ərbəin ərəb dilində 40 gün deməkdir. Dini rəvayətə görə, Allah-taala Adəmin palçığını 40 gün yoğurmuş, nəhayət 40-cı gün – ərbəin günündə vücudu tam əmələ gətirmişdir. Bax: [44, s. 302]. Aşağıdakı misralarda Nəsimi həmin əfsanədən bəhs edir:

"Kaf ilə nundan yaratdın on səkiz min aləmi,
Qüdrətindən ***ərbəin*** *gündə tamam oldu cəsəd."* [12, s. 193]

Birinci beytdə "kaf ilə nun" Quranda Allahın "kun!" (ol") əmrini ifadə edir.

Statistik hesablamar Nəsimi şeirlərində ktematonimlərdən mifoxrematonimlərin 2, mifobiblionimlərin 3, mifoxrononimlərin 6 ədəd təşkil etdiyini göstərir.

"Mifofitonimlər" yarımfəslinə *Sidrətül-müntəha, Tuba* mifik ağaclarının adları aiddir.

Nəsiminin dilində işlənən mifozoonimlərdən *Buraq, Əjdəha, Qətmir* kimi mifik heyvan adlarını misal gətirə bilərik.


"Mifoornitonimlər" yarımfəslinə isə *Butimar, Ənqa, Hüdhüd* və s. kimi mifik quşlar daxildir. Bitumar İran mifologiyasında eşqindən ölən əfsanəvi quşun adıdır. Susuzluğunu şirin su ilə deyil, dəniz suyu ilə qarşılayan bu quş rəvayətə görə, dənizə aşiq imiş. Dəryanın bir gün quruya biləcəyindən qorxduğu üçün suyundan içməyə qıymaz, eləcə susuzluqdan yana-yana baxarmış. Ən sonunda Butimar aşiq olduğu dənizin üstündən uçarkən susuzluqdan ölür və əngin dəryada qərq olur. Yarına zərər verəcəyi qorxusu ilə bir udum belə su içmədiyi halda heç olmamış kimi bu dünyadan silinib yox olur. Nəsimi aşağıdakı beytində qəlbini kirli hesab etdiyi sufini həyatını mənasız şəkildə qurban verən Bitumara bənzədir.

"Səfasız sufi daim qayğuludur
Bu mə'nidən ki, ***Butimar****a bənzər."* [11, s. 253]

Nəsiminin dilində işlənən mifofitonimlər 2, mifozoonimlər 3, mifoornitonimlər 5 vahid müşahidə olunur. Ümumilikdə isə mifonimlər 183 ədəd təşkil edir.

Nəsiminin dilində antroponimlərin tədqiqi Azərbaycan dilçiliyində ilk dəfə Yusif Seyidov tərəfindən həyata keçirilmişdir. O, şəxs adlarını üç qrupda birləşdirmişdir: "1) tarixi şəxslərin adları; 2) dini və əfsanəvi şəxs adları; 3) ədəbi surət adları" [28, s. 34]. Arifə Zeynalova da antroponimləri məzmun baxımından, demək olar, eyni bölgülərə ayırır: "1) "Quran"da və "Quran"a qədərki digər dini kitablarda rast gəlinən antroponimlər; 2) dünya, eləcə də Şərq xalqlarının ədəbiyyatları ilə bağlı adlar; 3) real tarixi şəxsiyyətlərin adları" [30, s. 11].

Biz antroponimləri 4 qrupda birləşdirdik və buraya real kateqoriyaya aid olan şəxslərin adlarını daxil etdik: 1) İslam dini və məzhəbləri ilə bağlı şəxsiyyətlərin adları. Buraya aiddir: "Şiə imamlarının adları" və "Ləqəb, təxəllüs və künyələr"; 2) Tarixi şəxsiyyətlərin adları; 3) Alimlərin, şairlərin adları; 4) Poetik obrazların adları. Bax: **Şəkil 2.**




Şəkil 2

Lüğətin tərtibatı əsnasında tematik qrupların hər biri fərdi və fərqli yanaşma tələb edirdi. Çünki bəzilərinə daxil olan onimləri əlifba sırası ilə


düzmək mümkün idisə, digərlərini, məsələn, imamların adlarını birinci imamdan on ikinci imama qədər sıralamaq lazım idi. "Antroponimlər" fəslinin "İslam dini və məzhəbləri ilə bağlı şəxsiyyətlərin adları" bölməsini əlbəttə ki, Məhəmməd peyğəmbər və onun əhli-beyti (Əli ibn Əbu Talib, Fatimə və onların oğulları Həsən, Hüseyn) ilə başlamaq lazım idi və bu səbəbdən göstərilən ardıcıllığa riayət etdik. Ümumilikdə 83 ədəd qeyri-mifik antroponim müəyyənləşdirilmişdir. Bunlardan "İslam dini və məzhəbləri ilə bağlı şəxsiyyətlərin adları" və ona aid olan yarımbölmələrdə olan onimlər 55, tarixi şəxsiyyətlərin adları 7, alimlərin, şairlərin adları 7, poetik obrazların adları 14 vahid təşkil edir.

Araşdırmalar göstərir ki, Nəsiminin əsərlərində işlənən real kateqoriyalı toponimlərin dörd növü vardır: xoronim, astionim, hidronim, ekklezionim. Bax: **Şəkil 3.** Toponimlərin ümumi sayı 48 ədəddir. Bunlardan 18-i xoronim, 10-u astionim, 10-u hidronim və 10-u ekklezionimlərin payına düşür.



Şəkil 3

Biz Nəsiminin dilində maddi və mənəvi mədəniyyətin xüsusi adları olan ktematonimlərin ideonim (əsərlərin adları), xrematonim (maddi mədəniyyət əşyalarının adları*)* və xrononim (bayramların, tarixi günlərin adları) növlərini müəyyənləşdirdik. İdeonimlərin öz növbəsində biblionim, Quran surələrinin adları və artionim kimi çeşidləri vardır. Bax: **Şəkil 4**.



Şəkil 4


Nəsiminin əsərlərində xrononimlərdən *Bərat, Novruz, Qurban, Qədr, Aşur (Aşura)* və s. kimi onimlərə rast gəlmək mümkündür. Biz bu sıraya islam aləmində 4 ağır aydan biri hesab olunan və şiələr, hürufilər tərəfindən matəm ayı kimi xüsusi qaydaların (xına qoyulmaması, toy-bayram edilməməsi və s.) tətbiq edildiyi *Məhərrəm* ayını (şairin dilində *Mühərrəm*), müsəlmanların bayram hesab etdiyi *Cümə* və onun sinonimi *Adinə* gününü daxil etdik. Məhəmməd peyğəmbərin hədislərinə görə, Adəm Cümə günü yaradılmış, məhz Cümə günü cənnətə girmiş və yenə Cümə günündə cənnətdən çıxmışdır. Qiyamət Cümə günü qopacaqdır. Həmin gün qılınan namazlar günahların bağışlanmasına səbəb olur. Hətta Peyğəmbər Cümə günü qılınan namazdan əvvəl qüsl edilməsini məsləhət bilmişdir. Nəsimi Cümə (Adinə) gününə verdiyi dəyəri şeirlərində əsaslandırmağa çalışır:

"Adinə surətindən endi Rəsula ***Cüm'ə***
Tanıq bu Həq hədisə uş qövli-Mustafadır." [12, s. 18]

*"****Adinə****dir Qiyamət, ol gündədir nədamət*
Ol gündə həşr olisər, ol gündə macəradır." [12, s. 18]

Aparılan tədqiqat nəticəsində şairin əsərlərində ümumilikdə 48 ədəd ktematonim müəyyənləşdirildi. Bunlardan ideonimlərə daxil olan biblionimlər 8, Quran surələrinin adları 12, artionimlər 17 vahiddir. Xrematonimlər 2, xrononimlər isə 9 ədəd təşkil edir.

V fəsil olan "Periferik onimlər"-ə daxil etdiyimiz etnonimlər, astronimlər, zoonimlər və kosmonimlərin (bax: **Şəkil 5**) ümumi sayı 41 vahiddir. Bunlardan etnonimlər 13, astronimlər 17, zoonimlər 1 və kosmonimlər 10 ədəddir.



Şəkil 5

Yeri gəlmişkən, astronim və kosmonim terminlərinə aydınlıq gətirmək istərdik. Astronim astroloji cisimlərin – planet, ulduz, komet, asteroid və s.-nin adlarıdır, məs., *Ay, Yupiter, Günəş, Mars* və s. Kosmonim səma boşluqlarının, ulduz topluluqlarının, bürclərin (*Qız bürcü, Balıq bürcü və* s.), qalaktikaların (*Südyolu*, *Andromeda* və s.) adlarıdır. Azərbaycan onomalogiyasının banisi Afat Qurbanov astronomiyaya aid onomastik vahidləri ifadə etmək üçün yalnız "kosmonim" terminindən istifadə etmiş, onların aid olduğu yarımşöbəni isə kosmonimiya adlandırmışdır. [20, s. 34]. Amma Tofiq Əhmədov 1991-ci ildə nəşr olunmuş "Azərbaycan toponimikasının əsasları" əsərinin sonunda verdiyi qısa onomastik terminlər lüğətində [5] həm "astronim", həm də "kosmonim" terminlərinin, demək olar, eyni izahını verir. Rus dilçiliyində N.V.Podols-

kayanın “Rus onomastikasının terminologiyası” lüğətində hər iki termini yuxarıda göstərdiyimiz fərqli şərhlərlə görə bilirik [55]. Türk dilçiliyində də “Yer adları (Toponim) Terimleri Sözlüğü”ndə [45] adıçəkilən istilahlar öz əksini tapmışdır: **astronim**: (Yunanca *astur* “yıldız” *onim* “ad”) göy cisimlərinin (ay, yıldız, kometa, planet, asteroidus) adları; **kosmonim**: (Yunanca *kosmos* “kosmos, səma, kainat” *onim* “ad”) Göy cismi adı. Biz lüğətimizdə Nəsiminin dilində işlənən *Ay, Günəş, Mehr, Mərrix, Müştəri* və s. onomastik vahidlərini astronimlərə, *Dəlv, Əsəd, Cövza, Sərətan* və s. bürcləri kosmonimlərə aid etdik.

Beləliklə, Nəsimi yaradıcılığında onomastik vahidlərin statistik göstəricisi aşağıdakı şəkildədir: mifonimlər 184, antroponimlər 83, toponimlər 48, ktematonimlər 48, periferik onimlər 41 vahid.

Ümidvarıq, müasir lüğətçiliyimiz üçün fərqli yanaşma olan tematik prinsipli tərtibat istifadəçilər üçün maraqlı bir vasitə olacaqdır. Hər hansı bir onomastik vahidi əlifba sırası ilə tapa bilmək istəyənlər üçün də lüğətin sonunda indeksləmə tətbiq etmişik. Əlifba sırası ilə düzülmüş baş sözlərin qarşısında səhifələri verilmişdir.

Xədicə Heydərova
filologiya üzrə fəlsəfə doktoru, dosent

LÜĞƏTDƏ GEDƏN İXTİSARLAR

bekt. – bektaşilik
ər. – ərəbcə
fars. – farsca
hədis. – hədis
hüruf. – hürufilik
ivr. – ivritcə
klas. – klassik ədəbiyyata aid
sansk. – sanskritcə
soğd. – soğdca
şəxs əvəz. – şəxs əvəzliyi
təsəv. – təsəvvüf
türk. – türkcə
urd. - urduca
yönl.hal. – yönlük hal
yun. – yunan dilində

LÜĞƏTDƏ VERİLMİŞ ŞƏRTİ İŞARƏLƏR

□ – sərbəst söz birləşmələri, cümlələr
○ – hədislər, atalar sözləri, alqışlar, qarğışlar
◊ – frazeoloji ifadələr
/ – fonetik fərq və beytin misraları arası
// – məna çaları
< – mənşə baxımından keçid
¯ – sait səs üzərində uzun səsi bildirir

LÜĞƏTİN QURULUŞU

Lüğətin sözlüyünün hazırlanması zamanı müəyyən meyar və prinsiplər gözlənilmişdir:

1. Lüğət predmet-tematik prinsiplə tərtib edilmişdir. Yəni belə bir quruluş əlifba sistemindən fərqli olaraq sorğu yox, tədris və maarifləndirici xarakterlidir.
2. Lüğətin sözlüyünə şairin dilində işlənən onomastik vahidlər daxil edilmişdir.
3. Şairin dilində olan onimlər konkret mövzular üzrə – onomalogiyanın mifonimiya, antroponimiya, toponimiya, ktematonimiya, zoonimiya, kosmonimiya, etnonimiya yarımşöbələrinə daxiil olan onimlərin qruplaşdırılması şəklində sistemləşdirilmişdir.
4. Ümumi olaraq lüğət beş fəslə bölünmüşdür:
   I fəsil. Mifonimlər
   II fəsil. Antroponimlər
   III fəsil. Toponimlər
   IV fəsil. Ktematonimlər
   V fəsil. Periferik onimlər
5. Tematik qrupların hər birinə fərdi və fərqli yanaşılmışdır:
   1) bəzi qruplarda əlifba sırası tətbiq edilmişdir;
   2) imamların adları birinci imamdan on ikinci imama qədər sıralanmışdır;
   3) bürclər nücum elmindəki düzülüşünə uyğun şəkildə Qoç bürcündən Balıq bürcünə qədər ardıcıl şəkildə "Kosmonimlər" fəslinin "Bürclərin adları" yarımbaşlığında yerləşdirilmişdir;
   4) Əsmaül-hüsna əlifba sırası ilə verilsə də, nömrələnmə tətbiq edilmişdir;
   5) "Antroponimlər" fəslinin "İslam dini və məzhəbləri ilə bağlı

şəxsiyyətlərin adları" bölməsini Məhəmməd peyğəmbər və ardından onun əhli-beyti (Əli ibn Əbu Talib, Fatimə və onların oğulları Həsən, Hüseyn) ardıcıllığa ilə başlanmışdır.

6. Baş söz qara yağlı və böyük hərflərlə lüğət məqaləsinin əvvəllində gəlir. Məsələn, **AXIR**, **ALLAH** və s. lüğət məqaləsinin obyekti baş söz olduğuna görə, ardından gələn yazılar onun izahına təhkim edilmişdir.
7. Baş sözdən sonra sözün əski əlifbadakı yazılışı əks olunmuşdur.
8. Hər bir baş sözün etimologiyası kvadrat mötərizələrdə təqdim edilmişdir. Yeri gəldikcə onimin mənbə dildəki düzgün yazılışı elə oradaca verilmişdir. Məsələn: [*ər.* الآخر] .
9. İzahlar verilərkən yeri gəldikcə beytin şərhinə də yer verilmişdir. Məsələn:

   □ **Qadirin məqduru** – Qüdrətli (Allahın) təqdiri. Aşağıdakı beytdə: Həm 4 ünsür, həm bu ünsürlərdə olan xassələr, həm sadə, həm də mürəkkəb şeylər mənəm. Mən bütün mövcudatın əsası və törəməsi, Allahın təqdiriyəm.

   "Həm ənasir, həm təbaye, həm mürəkkəb, həm bəsit
   Cümlənin əslivü fər'i, ***Qadirin məqduru****yam."* [12, s.110]

10. Lüğət məqalələri şairin şeirlərindən seçilən nümunələrlə zənginləşdirilmişdir.
11. Lüğətdə söz birləşməsi şəklində olan onimlər □ işarəsi ilə təqdim edilmişdir. Məsələn:

    □ **Allahu Nur, Allahu Nurun** – "Allah nurdur!". Quranda Əl-Maidə (ayə 15), Ən-Nur (ayə 35) surələrindən iqtibas edilmiş ifadə: اللَّهُ نُورٌ .
12. Frazeoloji birləşmələr ◊ işarəsi ilə təqdim edilmişdir. Məsələn:
    ◊ **Rəhməti gəlmək –** rəhmi gəlmək, mərhəmət etmək.

13. Lüğətin sonunda baş sözlərin indeksləşməsi əks olunmuşdur: əlifba sırası ilə düzülüşü və hər birinin səhifəsi.
14. Həmid Araslının tərtibatında rast gəlinən ərəb mənşəli sözlərin tərkibindəki apostrofları lüğətimizdə ləğv etmədik. Çünki bu tip sözlərdən apostrofun götürülməsi məna dəyişikliyinə səbəb olur.
15. Qurana istinad verildikdə bəzən lokaniklik məqsədilə surə və ayələrin nömrələri arasına drob işarəsi tətbiq edilmişdir. Məsələn, 35/38 (yəni əl-Fatır surəsinin 38-ci ayəsi).
16. Omonimik və ya onomastik cəhətdən fərqli mənalar ifadə edən sözlər ayı-ayrı yarımbölmələrdə indeks nömrələmə ilə təqdim edilir. Məsələn, **LOĞMAN[1], LOĞMAN[2]** və s.




Ey künhü rif'ətindən bibəhrə Əqli-müdrəq

Vey gənci-binəhayət, Simurği-ləmməkansan.

I Fəsil

MİFONİMLƏR

میفونیملر



Cümlə aləm bil ki, Allah özüdür,

Adəm ol candır ki, günəş üzüdür.

TEONİMLƏR

Təkallahlılıqla bağlı teonimlər

Ərəbmənşəli teonimlər

ADİL عادل [*ər.* العادل] Ədalətli, haqqına qərar verən.

"Zər kimi qəlbin safi et, sən gövhərin sərrafısan,
*Ol **Adil**in Fəzli ilə çün ortaya mizan gəlir."* [12, s. 202]

AXIR/AXİR آخر [*ər.* الآخر] Son, Ondan sonra heç bir şey olmayan. Allahın adlarından – əsmayi-hüsnadan biri. Quranda Hadid surəsinin 3-cü ayəsində işlənmişdir və "ilk" mənasını ifadə edən əvvəl ilə birlikdə Allaha aid edilir. B a x **Əvvəl**.

*"Əvvəl-**Axır**, batinü zahir həqiqət halını*
Surətü mə'ni mana dər cism, dər can göstərir." [12, s. 144]

*"Əzəl əvvəl əbəd payanı **Axır***
Cəsəd əsğər, cahan əkbər rəvanım." [12, s. 329]

*"Zahirü batin, Əvvəlü **Axır***
Aşikaravü həm nihandır söz." [12, s. 9]

ALLAH الله [*ər.*] Yalnız Allaha məxsus olan əsl və əsas ad. Dini terminologiyada "ismi əzəm"dən[1] biri. Bu ad Allahın pak zatını tanıtdırır və Onun bütün camal və kamal sifətlərini özündə əks etdirir. Allaha aid

[1] Allahın mübarək adlarının cəmi olan duanın adı. İsmi-əzəm duası tək bir ad və ya cümlədən ibarət olmayıb, hədis kitablarından araşdırılaraq ortaya çıxarılmışdır.

olan bütün sifətlər bu adla birgə işlənir. Quranı-kərimdə Allah kəlməsi digər isimlərdən daha çox işlənmişdir.

*"Cümlə aləm bil ki, **Allah** özüdür,*
Adəm ol candır ki, günəş üzüdür." [12, s.273]

"Qul kəfa billaha düşdü könlümüz,
*Məzhəri-**Allah**a düşdü könlümüz."* [12, s.275]

"Ey camalın məzhəri-zati-qədim,
*Surətin **Allah**u Rəhmanür-rəhim."* [12, s.289]

*"Vəchimi **Allah**a təslim etmişəm,*
Surəti-Rəhmana tə'zim etmişəm." [12, s.291]

*"Fani olmaz hərgiz **Allah**ın üzü,*
Halik olsun divi-gümrahın üzü." [12, s.303]

□ **Allahu Nur, Allahu Nurun** – "Allah nurdur!". Quranda Əl-Maidə (ayə 15), Ən-Nur (ayə 35) surələrindən iqtibas edilmiş ifadə: اللَّهُ نُورٌ .

*"Gözlərin **Allahu Nurun** ayətin təfsir edər,*
Ey bu mə'nidən xəbərsiz, surəti-Rəhman budur!" [12, s.159]

*"Ey saçın zilli-ilahi, vey rüxün **Allahu Nur**!*
Rövzənin sərvi boyundur, indəha cənnatü hur." [12, s.195]

"Surətin nəqşində qıldı həq zühur,
*Üştə Müshəf, gəl oxu **Allahu nur**."* [12, s.269]

Allahü əkbər الله اكبر – Allah böyükdür.

"Surətin inna-hüdeynadır, camalın vəzzüha,
*Mə'niyi **Allahü əkbər** kün-fəkanı qandadır?"* [12, s.165]

Allahüs-Saməd اللَّهُ الصَّمَدُ – Allah əbədidir. İxlas surəsinin 2-ci ayəsindən iqtibas edilmişdir.

"Əvvəlü axır hüvəllahil-ləzi sən la-yəmut,
*Zahirü batin hüvəlbaqisən, **Allahüs-Saməd**."* [12, s.193]

ALİ عَلِيٌّ [*ər.* العليّ] Böyük, üstün, uca. Allahın 99 gözəl adlarından – əsmayi-hüsnadan biri. Quranın əl-Bəqəra surəsinin 255, Həcc surəsinin 62-ci, Loqman surəsinin 30-cu, Səba surəsinin 23, Ğafir surəsinin 12-ci ayələrində işlənir.

"Hər nəsnə irişdi mana əz ruyi-məhəbbət
*Əz-həzrəti-**Ali**."* [12, s.211]

ALİM عالم [*ər.* العالم] Gizli, aşkar, keçmiş, gələcək, hər şeyi ən incə xırdalıqlarına qədər bilən. Allahın adlarından – əsmayi-hüsnadan biri.

*"**Alim**ül-elm cümlə əşyasan,*
Ma ləna qeyrəküm vəla dəyyan." [11, s.181]

□ **Alimül-qeyb** – qeybi bilən (Allah). Bu ifadə Quranda 13 ayədə işlənir (عَالِمُ الْغَيْبِ): 6/73, 9/94, 9/105, 13/9, 23/92, 32/6, 34/3, 39/46, 59/22, 62/8, 64/18, 72/26, 35/38.

*"Yenə ol **Alimül-qeyb**in xəbər gəldi çərisindən,*
Ön əvvəl qarın altından gəlir casus çiydəmdən." [12, s.69]

BAQİ باقی [*ər.* الباقی] Həmişəyaşar, əzəli, daimi, əbədi və əzəli olan vücud. Elə bir vücud ki, heç vaxt fanilik Ona yol tapmaz və heç vaxt yoxluğa düçar olmaz. Allahın adlarından – əsmayi-hüsnadan biri. Həzrət Əli buyurmuşdur: "Allah-taala hər bir şeyin daxilindədir, amma ona qarışmış kimi deyil, həmçinin hər bir şeyin xaricindədir, amma onları tərk etmiş kimi deyil".

"Zatına kimsə irməz, vəsfini kimsə bilməz
*Zatü süfat ilə sən **Baqi**yü cavidansan."* [12, s.79]

"Bu cism evinə, taliba, seyr edərək çün can gəlir
*Bu evdə **Baqi** sanma kim, bir-iki gün mehman gəlir."* [12, s.200]

"Əşya ikilkdən oldu xali,
***Baqi** əhəd oldu layəzali."* [12, s.252]

*"Eşqimiz **Baqi**vü hüsnün layəzal*
Eşqə sığmaz çunü çəndü qeylü qal
Ləmyəlid hüsnün, vələmyuləd camal,
Hüsnünə sübhanəhü cəllə-cəlal." [12, s.287]

*"Çün əzəldən ta əbəd **Baqi** mənəm*
Kün-fəkanın xəlqü xəllaqi mənəm,
Vəhdətin bəzmində çün saqi mənəm
Ənfusun ayatü afaqi mənəm
*Küllə şey'in halikə, **Baqi** mənəm."* [12, s.290]

□ **Həyyü Baqi –** əbədi diri, həmişə mövcud olan.

*"Zatına **Həyyü Baqi** demişlər bu cövhərin*
Şol kim, bizim-cahanımız olmuş bu canımız." [12, s. 14]

BARİ باری [*ər.* الباریٔ] Hər şeyi təqdir etdiyi şəklə uyğun olaraq yaradıb varlığa çıxaran, yaradan.

*"Qatımdan getməz oldu **Bari**-hicran*
Çəkə bilməm, nedim sultani-canım." [24, s. 157]

BATİN باطن [*ər.* الباطن] **1.** Ağıl və düşüncənin dərk edə bilmədiyi kəs (Allah). Allahın adlarından – əsmayi-hüsnadan biri.

*"Çün zahirü **Batin** oldu Vahid*
Həm cövhəri-canü eyni-tənsən." [11, s. 164]

*"Zahirü **Batin**, əvvəlü axır,*
Səndən ötrü zühuri-şərhü bəyan." [12, s. 9]

*"Əvvəlü axır çü sənsən, **Batin**ü zahir çü sən*
Məqsədi-əqsa camalındır, gözümdən getmə dur." [11, s. 236]

"Əvvəlü axır hüvəllahil-ləzi sən la-yəmut
*Zahirü **Batin** hüvəlbaqisən, Allahüs-samad."* [12, s. 193]

*"Sifatın **Batin**i eylədi rövşən*
Ki, aləm varına olmadı məğrur." [12, s. 197]

2. *is. təsəv.* Arifin qəlbi və ruhu. Batin ruhlar aləminə, zahir isə cismani varlığa işarədir.[2]

"Səndən məni kimdir ayıran, sən
*Zahirdəvü **batin**imdə sənsən."* [11, s. 164]

[2] Göyüşov, Nəsib (2001). Təsəvvüf anlamları və dərvişlik rəmzləri (yığcam ensiklopedik açıqlamalar). Bakı, "Tural-Ə" Nəşriyyat-Poliqrafiya Mərkəzi. 240 səh., s.41

*"**Batin**i mə'mur olanın **batin**i*
Eşqi-rüxün gəncinə viranədir." [11, s. 255]

*"Aşiqin me'marı Həqdir, yapar anın **batin**in*
Ey evin Həqdən yapılmış, sənsən əhli-e'tibar!" [11, s. 191]

BƏSİR بصير [*ər.* البصير] Zahirdə və gizlində olan hər şeyi, insanların əməlində, fikrində və niyyətində olanları mükəmməl görən. Allahın adlarından – əsmayi-hüsnadan biri.

"Əhli-ürfan ol, nə əshabi-sərir,
*Bil ki, Həqdir həm Səmi'ü həm **Bəsir**."* [12, s. 270]

CABBAR جبّار [*ər.* الجَبَّار] Fəqirlərin fəqirliyini və zəiflərin zəifliyini aradan qaldıran, özünü qüdrətli bilənləri sındıran, məhv edən. Heç bir insan və ya məxluq Allahın əzəmət məqamına çatmaq iqtidarında deyil. Allahın adlarından – əsmayi-hüsnadan biri.

*"Üzünə **Cabbar**i-aləmdən salam,*
Olmasan, ey bədrsima, layənam." [12, s. 292]

CƏLİL جليل [*ər.* الجَلِيل] Ululuq və cəlal sahibi, üca, ali. Allahın adlarından – əsmayi-hüsnadan biri.

"Əslini qoydum yapışdım fər'inə,
*Fikr qıldım mən **Cəlil**in sün'inə."* [12, s. 297]

DƏYYAN ديّان [*ər.* الديّان] Bəndələrinə əməllərinə görə cəza verən. Allahın adlarından – əsmayi-hüsnadan biri.

"Alimül-elm cümlə əşyasan
*Ma ləna qeyrəküm vəla **dəyyan**."* [11, s. 181]

ƏHƏD احد [*ər.* الاحد] Tək, yeganə, şəriki olmayan. Zatı mücərrəd olub, hissələrdən ibarət olmayan. Allahın adlarından – əsmayi-hüsnadan biri.

"Nəsimidir vücudi-fərdi-mütləq
*Bu tövhidin **Əhəd**dəndir əsası."* [12, s. 51]

"Məcməi-məcmui-əsma oldu insanın adı
*Kim, **Əhəd** adından oldu şol müsəmma namvər."* [12, s. 169]

*"Fəzlinə bel bağladım, ya Vahidü Fərdü **Əhəd***
Cümlənin mə'budu sənsən daima həyyül-əbəd!" [12, s. 193]

"Oxuram ismində bismillahir-rəhmanir-rəhim
*Ey sifatındır sifati-qül hüvəllahü **Əhəd**."* [12, s. 193]

*"Üzün çün qul-hüvəllahü **əhəd**dir*
Həqiqət mö'cüzü, həqdən gələnsən." [11, s. 162]

"Ləm yəlid sənsən oxurlar, ey vələm yuləd, səni
*Ləm yəkun zatü sifatındır ləhü küfüvən **Əhəd**."* [12, s. 193]

*"Eşqin adı **Vahid** oldu bimisl*
Zati-Əhədə misal olurmu?" [12, s. 229]

Ə'LA اعلى [*ər.* الاعلى] Hər bir alilik və ucalıq sahibindən də uca. Allahın adlarından – əsmayi-hüsnadan biri. Həmçinin ali, qalib və qahir mənasında da işlədilir. Məxluqatın təsəvvür etdiyindən daha uca və aliliyin fövqündə olan.

Sən humayun laməkansan, kəndözündən bixəbər
Gəlmədin ta kim, görəsən mənzili-**Ə'la**yi-eşq. [11, s. 30]

"Əhsəni-təqvim bil məktubi-sübhanəlləzi
*Üştə Me'racı, **Ə'la**yi-laməkanı qandadır?"* [12, s. 165]

*"Yedi göydən dəxi **ə'la** könüldür billah, ey arif*
Könül içində buldular rümuzi-sirri-ma övha." [12, s. 172]

ƏVVƏL اوّل [*ər.* الاوّل] Hər şeydən öncə olan. Allahın adlarından – əsmayi-hüsnadan biri. Bəzi din alimləri bu ismə belə şərh verirlər: "Onun zatında tərkib sayı yoxdur və Onun heç bir şeylə münasibəti yoxdur." [13, s. 27].

□ **Əvvəlü axir** – Əl-Hədid surəsinin 3-cü ayəsindən iqtibas edilmişdir: "Əvvəl də, axır da, zahir də, batin də Odur. O, hər şeyi biləndir! (Allah Öz əzəli elmi və qüdrəti ilə hər şeyi görüb bildiyi halda, Özü görünməz, dərkolunmazdır. Allahın varlığı aşkar, mahiyyəti isə tamamilə gizlidir). (هُوَ **الْأَوَّلُ وَالْآخِرُ** وَالظَّاهِرُ وَالْبَاطِنُ وَهُوَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ)" [19, s. 536]. Bu anlayışlar Allaha aid olub, əvvəl "varlığının başlanğıcı olmayan", yəni "əzəli olan", axır isə "varlığının sonu olmayan" yəni "əbədi" anlamını ifadə edir.

*"Zahirü batin, **əvvəlü axır***
Aşikaravü həm nihandır söz." [12, s. 9]

*"**Əvvəlü axır**da üzündür, üzün*
Sün'i-Xuda, qüdrəti-Yəzdanımız." [12, s. 12]

*"**Əvvəl-axır**, batinü zahir Həqiqət halını*
Surətü mə'ni mana dər cism, dər can göstərir." [12, s. 144]

*"**Əvvəlü axır** hüvəllahil-ləzi sən la-yəmut*
Zahirü batin hüvəlbaqisən, Allahüs-samad." [12, s. 193]

"Gördügüm ol, bildigim ol, istəgim həm oldurur
***Əvvəl** oldur, **axır** oldur, anı gözlər gözlərim."* [12, s. 90]

*"**Əvvəl**im nun vəl-qələmdir, **axır**ım mayəstərun*
Sureyi-mərfuəm, bu bəhrin nükteyi-məcruruyam." [12, s. 112]

ƏZİM عظيم [*ər.* العظيم] Ağla və təsəvvürə gələ bilməyəcək qədər, gözlə görülməyəcək qədər sonsuz böyük və əzəmətli. Allahın adlarından – əsmayi-hüsnadan biri.

"Qıl Nəsimiyə tərəhhüm, ey üzü bədri-münir
*Gər xəta qıldım isə əstəğfürullahil-**Əzim**."* [12, s. 92]

"Nə hüsn olur, bu nə surət, zəhi behişti-nəim?
*Nə lütf olur, bu nə mə'ni, zi Rəbbi-Ərşi-**Əzim**?"* [12, s. 93]

"Surətin mahiyyətin təfsir edər inna-fətəh
*Hüsnünün keyfiyyətidir bəs əla-xülqil-**Əzim**."* [12, s. 92]

"Səcdə qılmazmı belə gör sidrəvü tuba tamam
*Kim, məlaik qamusu aydır sücudini **Əzim**."* [12, s. 94]

*"Xandasan, ey Fəzli-zül-Ərşi-**Əzim***
Mən fəraqından zi-can usanmışam." [12, s. 292]

"Var üzündə bistü yek hərfi-qədim
Çün üzün oldu siratül-müstəqim
*Əbcədü taha üzün Ərşi-**Əzim***
Surətin lövhündə Həq oldu müqim." [12, s. 292]

"Kim ki, əsrari-Nəsimi bilmədi
İzzəti-Fəzli-Nə'imi bilmədi,

*Divi-dun oldu, **Əzim**i bilmədi*
Məzhəri-zati-qədimi bilmədi." [12, s. 304]

ƏZİZ عزيز [*ər.* العزيز] Bənzəri, tayı-bərabəri olmayan qüdrət sahibi, məğlub edilməsi mümkün olmayan, hər bir işdə qalib. Allahın adlarından – əsmayi-hüsnadan biri.

"Xəlayiqlər xəyal eylər ki, hüsnün Yusifə bənzər,
***Əziz**im yeydürür, billah, bu el yanlış xəyal eylər."* [11, s. 214]

FƏRD فرد [*ər.* الفرد] *is.* Tək, vahid, yeganə. Allahın adlarından – əsmayi-hüsnadan biri.

*"Möhbətimiz sifati çün zati-qədimi-**Fərd** imiş*
Vahidi-bizəvalədir mərcə ilə südümüz." [11, s. 80]

*"Cahan içində Nəsimi əliftək olduvü **Fərd***
Əgər inanmaz isən üştə şər', üştə güvah!" [11, s. 303]

*"Kim ki, Nəsimi kimi Vahidü **Fərd** olmadı*
Vahidi-mütləq degil, Zati-Vəhid olmadı." [11, s. 106]

Fərdi-vahid olmaq – tək olanla (Allahla) vəhdət təşkil etmək, ona qovuşmaq.

*"Tövhidin bəhrinə **Fərdi-Vahid olub** qalmayan*
Yoxdurur tövhidi anın, küfrə iman göstərər." [12, s. 145]

*"Kim əliftək **Vahidü Fərd olmadı**,*
Bəlkə namərd olduvü mərd olmadı." [12, s. 303]

Fərdü mütləq – Allah.

*"Gəl səvadil-vəchini bil, **Fərdi-Mütləq**dir adı,*
Rövşən anla qabü qövseyn ilə öv-ədnamızı." [12, s. 34]

*"Nəsimidir vücudi**-Fərdi-Mütləq**,*
Bu tövhidin əhəddəndir əsası." [12, s. 51]

*"**Fərdü Mütləq**dir vücudum, bilgil, ey əhli-yəqin,*
Şol səbəbdən vaqif oldum, keçdim əz hirsü həva." [12, s. 173]

Fərdü əhəd – şəriki olmayan, yeğanə.

*"Fəzlinə bel bağladım, ya Vahidü **Fərdü Əhəd**!*
Cümlənin mə'budu sənsən daima həyyül-əbəd!" [12, s. 193]

Fərdi-yekta – bir dənə.

*"Hüsn içində **Fərdi-Yekta**san, nə şək,*
Hər kişinin nəqdini çaxar məhək. [12, s. 280]

ĞƏNİ غني [*ər.* الغنى] Heç bir hacəti və ehtiyacı olmayan. Allahın adlarından – əsmayi-hüsnadan biri.

*"Çün yəqin bildi Nəsimi eşqini, oldu **Ğəni***
Ol yəqini sən güman etmək dilərsən, etməgil!" [22, s. 147]

HADİ هادى [*ər.* الهادى] Doğru yol göstərən, Haqqa aparan. Allahın adlarından – əsmayi-hüsnadan biri.

*"Ariflərə **Hadi** mənəm, çünki hidayət nuruyam*
Sevdasıyam, sevdasının məşhuruyam, heyranıyam." [12, s. 99]

"Xaliqül-cinnin vücudu istivadır əşr ilə
***Hadi**yi-əhli-yəqin təhqiq ilə ol rahdır."* [12, s. 142]

*"**Hadi**yi-cümlə rəsul oldu üzün*
Sağərü saqiyü mül oldu üzün." [12, s. 282]

"Gərçi hidayət eylədi Musayı nara ol şəcər
*Aşiqə **Hadi**dir üzün, nuruna ol şəcər kimi."* [11, s. 100]

*"Gər desəm zülfünə mürsəl, nə əcəb, ya **Hadi***
*Mö'cüzat əhlinə ***hadi**yü peyəmbər dedilər."* [11, s. 263]

□ **Hadivü nafe** – Haqqa aparan doğru yolu göstərən müşk ətri, qoxu. Təsəvvüf termini kimi "qoxu" bir şeyin həqiqəti, mahiyyəti haqqında məlumat verən, onu duyanı həqiqətin mənbəyinə aparıb çıxaran deməkdir.

*"Həm mənəm ***hadivü nafe**, həm mənəm zarü müzürr*
Həm mənəm qüfranü rəhmət, həm anın məğruruyam." [12, s. 110]

HƏBİB حبيب[*ər.*] Təsəvvüf ədəbiyyatında: Allah.

*"Ol əzəli ***Həbib**i gör, ləmyəzəli təbibi gör,*
Qıl canını fəda ana, gör bu süfatı basəfa." [12, s. 174]

"Dəxi əksüklügüm yoxdur, şikayət etməzəm, billah,
***Həbib**in asitanından budur eybim ki, mən duram."* [12, s. 97]

"Olmasın bu sirrə məhrəm hər rəqib,
*Həmçinin pünhan gərək razi-***Həbib**."* [12, s. 264]

HƏKİM حكيم [*ər.* الحكيم] Öz işlərini hikmətlə yerinə yetirən. Mütəfəkkir, filosof, hikmət və fəlsəfə mütəxəssisi, bütün elm və fənləri bilən,

əllamə. Allahın adlarından – əsmayi-hüsnadan biri. "Quran Allah tərəfindən "həkim" (hikmətli) olaraq da vəsf edilir. Beləliklə, Quran diri və aqil bir varlıq, rəhbər, başçı və böyük müəllim kimi tanıtdırılır ki, o, insanlar üçün hikmət qapılarını açа bilər və onları doğru yola yönəldə bilər." [12, s. 76].

*"Ay camalın hüsni-surət kim, qılıbdır ol **həkim***
Faili-mütləqdürür hər şeydə məf'ul ol rəhim." [12, s. 94]

HƏQ/HƏQQ حق [*ər.* الحقّ] Haqq, doğru, həqiqi, ləyaqətli. Allahın adlarından – əsmayi-hüsnadan biri.

*"Könlümün məqsudi sənsən, hacəti **Həq**dən budur,*
Hacətindən ayru könlüm nəsnə, zinhar, istəməz." [11, s. 65]

*"Faniyi-mütləq olmuşam, **Həqq**iləyəm, **Həq** olmuşam,*
*Kim ki, **Həq**i dilər, budur çarəsi, üştə çarəsi"* [12, s. 50]

*"Faili-mütləqəm mən, **Həq**ləyəmü **Həq**əm mən,*
Də'vidə ismi-məf'ul mə'nidə failatam." [12, s. 87]

*"Faili-mütləqəm, **Həq**əm, **Həq**ilən,*
Kimsə bilməz, nə bəyyinatiləyəm." [12, s. 119]

"Zülfündənü xalından anın ayruyam, ayru,
*Ey **Həq**, mana ver sən yenə şol danəvü damı."* [11, s. 99]

*"Eynəl-yəqin **Həq** sirrinə idrak edən insan mənəm,*
Ey mə'rifətdən bixəbər, insafa gəlgil, biriya." [11, s. 17]

*"Hər kim səni deməzsə Rəhman sifətli **Həq**sən,*
İtirmiş ol qaragün həqq ilə həqşünası." [11, s. 83]

"Hər bir səri-mu Mənsur olub söylər ənəlhəq,
Həqq*a mey içənlər irişərlər bu xəyalə."* [11, s. 46]

"Boyundur tuba, ey huri, üzündür aləmin nuri,
Camalında görər ***Həqq****ianın ki, eyni binadır."* [12, s. 128]

Əhli-Həq – hürufilər. "Hürufilər özlərini tanıtmaq üçün "hürufi" sözündən çox da istifadə etməmişlər. Onlar özlərini ən çox dərviş, əhli-Fəzl, əhli-Həq, əhli-məna, ərbabi-Fəzl, ərbabi-təhqiq, talibani-təhqiq, talibani-raz, ərbabi-eşq, əhli-vəhdət, taifeyi-hürufiyyə kimi terminlərlə adlandırmışlar." [44, s. 127].

"Zad – Zəlalət mülkünü nitqilə mə'mur eylədi,
Sad – Səfa kəsb etdi andan ***əhli-Həq*** *buldu səbat."* [12, s. 223]

Əhli-Həq *hər yerdə məskən dutsa həqdir mənzili,*
Kə'bəvü bütxanəvü məscid, kəlisası nədir?" [12, s. 152]

Həqqi-mütləq – *təsəv. Allah.*

*"****Həqqi-mütləq*** *sənsən, ey Fəzli-Əzim,*
Ey üzü cənnatü firdövsi-nəim." [12, s. 292]

"Mütləq oldu, ***Həqqi-mütləq*** *baxıram,*
Bigüman həqqəm, mühəqqəq baxıram." [12, s. 291]

"Görmüşəm hər yerdə ***Həqqi-mütləq****i,*
Gər deyilsən laşə itirmə həqi." [12, s. 303]

Həq mənəm – *təsəv. və hüruf.* İnsanın nəfsini tərbiyə etməsi yolu ilə kamili-insana çevrilməsi və cismindən qurtularaq ruhunun Allaha qovuşmasına nail olmaq. "Ənəlhəq" sözünün Nəsimi tərəfindən

qarşılığı.

*"Bulmuşam **Həqq**i, ənəlhəq söylərəm,*
***Həq mənəm**, **Həq** məndədir, **həq** söylərəm."* [12, s. 289]

HƏMİD حميد [*ər.* الحميد] Mədh edilən, qulları tərəfindən əbədiyyətə qədər övülən, kamal sifətləri zikr edilərək həmd edilən. Allahın adlarından – əsmayi-hüsnadan biri.

"Həmdü sipas eylərəm hüsnünə, ey bibədəl
*Hüsnünə həmd eyləyən qeyrə **həmid** olmadı."* [11, s. 105]

HƏNNAN حنّان [*ər.* الحنّان] Üz çevirənləri qəbul edən; çox şəfqətli, mərhəmətli, çox rəhmli, kərəm və bərəkət sahibi. Allahın mərhəməti bütün kainatı bürümüş, qəzəbini keçmişdir. Hənnan adı həzrət Əlinin Məhəmməd peyğəmbərdən rəvayət etdiyi Cövşən-Kəbir duasında işlənən Tanrının 1001 ismindən biridir. Quranın Məryəm surəsinin 13-cü ayəsində Allahın Yəhya peyğəmbərə "hənnan" və "zəkat", yəni qəlb yumşaqlığı, saflığını bəxş etdiyini söyləməsi özünün də Hənnan olmasından xəbər verir: "Biz həm də ona Öz dərgahımızdan bir şəfqət və (günahlardan) paklıq bəxş etdik. O, (çox) müttəqi idi. (وَحَنَانًا مِّن لَّدُنَّا وَزَكَاةً وَكَانَ تَقِيًّا)" [19, s. 305]**.** Nəsimi Hənnan və Mənnan isimlərini Kəbə ilə yanaşı çəkir. Bu onunla əlaqədardır ki, Kəbə örtüyünün üstündə "La ilahə illəllah Muhammədun Resulullah, Allah Cəllə Cəlalühu, Sübhanəllahi və bihəmdihi Sübhanəllahi əl-Əzim, Ya Hənnan, Ya Mənnan!" yazılmışdır.

"Çün əzazil əhsəni-təqvimə baş endirmədi
*Anda sirri-Kə'beyi-**Hənnan** umarsan, nə əcəb!"* [12, s. 177]

Girdi hərəmi-Kə'beyi-təhqiqə Nəsimi,
***Hənnan**ə təvaf eylərü Mənnanəyə uğrar."* [11, s. 223]

HƏYY حی [*ər.* الحیّ] Diri, canlı. Həyat sahibi. Ölüm və fanilikdən uzaq olan diri. O kəs ki, həyat Onun özündəndir. Allahın 99 gözəl adlarından – əsmayi-hüsnadan biri.

*"Zatına **Həyyü** Baqi demişlər bu cövhərin,*
Şol kim, bizim-cahanımız olmuş bu canımız." [12, s. 14]

*"Abi-heyvandır dodağı kəndi **Həyyi-**cümlədən*
Nəfxeyi-İsa bağışlar ol ləbi-əhyayı gör." [12, s. 141]

*"Qıldı nəzər bu canıma ol şəhi-layəzali-**Həyy**,*
***Həyyi-**qədimi-künfəkan gör ki, nədir bu gün sana."* [12, s. 174]

□ **Heyyü Qəyyumü –** Ayət-ül-kürşidən (Bəqərə surəsi, 255-ci ayə) iqtibas edilmişdir: "Allahdan başqa heç bir tanrı yoxdur. (Diri, zatı ilə qaim olan, kainatı yaradıb idarə edən) əbədi və əzəli varlıq Odur. (اللَّهُ لا إِلَهَ إِلَّا هُوَ **الْحَيُّ الْقَيُّومُ**)" [19, s. 41]. Quranı-kərimdə "həyy" sözü beş dəfə istifadə olunmuşdur ki, onlardan üçü "qəyyum" sifəti ilə bərabər zikr olunur (Bəqərə surəsi, ayə 255; Ali İmran surəsi, ayə 2; Taha surəsi, ayə 111).

*"**Heyyü qəyyum**ü dəvamü dövlətəm,*
Aləmi-kəsrət içində vəhdətəm." [12, s. 318]

Həyyi-Mütləq – Allah.

"Əlif – Allahdur ki, olmaz nitqi-zatından cüda,
*Uş kitabü **Həyyi-Mütləq**, uş Məsihi-mö'cüzat."* [12, s. 224]

"Neçün ki, bu istivadadır həq,
*Ol maliki-mülkü **Həyyi-Mütləq**."* [12, s. 254]

Həyyi-Layəmut – ölümsüz olub daim həyat sahibi olan. Furqan surəsi ayə, ayə 58-dən iqtibas edilmiş ifadə (وَتَوَكَّلْ عَلَى **الْحَيِّ** الَّذِي **لَا يَمُوتُ** وَسَبِّحْ بِحَمْدِهِ ۚ وَكَفَىٰ بِهِ بِذُنُوبِ عِبَادِهِ خَبِيرًا).

*"Oxuyun **Həyyi-Layəmut** məni,*
Ki məmat olmazam, həyatiləyəm." [12, s. 119]

HU/HÜVƏ هو/ه [*ər. 3-cü şəxsin kişi cinsində təkini bildirən bitişən hu (ه) və şəxs əvəzliyi huvə (هو)*] *əvəz.* O. Təsəvvüfdə: Allahın zatına işarət edən adı. Təriqətlərdə mərasim və xidmətlərdən sonra edilən dualarda, oxunan "gülbəng" adlı dini duanın sonunda "hu" söyləyərək Allahı anmaq, Allahdan niyaz etməyə dəvət sözü. Quranda "Allah" kəlməsi ilə başlayan və "hüvə" ilə bitən ayələr ismi-əzəm hesab edilir.

"Qiblə olalı qaşlarun taqi bəsirət əhlinə,
*Canü könül yüzin görüb şamü səhərdə **hu** dirəm."* [17, s. 535].

□ **Hüvə-l-baqi** هو الباقى O, əbədidir.

"Nəsimi çünki həqqə vasil oldu,
***Hüvə-l-Baqi**, hüvəllahülbəqadır."* [24, s. 6-7]

Hüvə-llahül-Bəqa هو الله البقى O, əbədi Allahdır.

"Nəsimi çünki həqqə vasil oldu,
*Hüvəlbaqi, **hüvə-llahül-Bəqa**dır."* [24, s. 6-7]

Hüvə-llahüs-Saməd هو الله الصمد İxlas surəsinin 1 və 2-ci ayələrinin (**اللَّهُ الصَّمَدُ** (1) قُلْ **هُوَ** اللَّهُ أَحَدٌ (2)) sözlərinin qarışığı:

*"**Hüvəllahüs-səməd** söylər xətin, əlhəmdülillah kim,*
Üzündən pərdə rəf oldu, günəş çıxdı hicabından." [11, s. 186]

XALİQ خالق [*ər.* الخالق] Yaradan, hər şeyi yoxdan var edən. Allahın adlarından – əsmayi-hüsnadan biri.

*"Ey **Xaliq**in əmanətini zaye' eyləyən*
Layiqdir ada ol ki, zülumən-cəhul ola;
*Çox dualar qılmışam mən **Xaliq**in dərgahına*
Çün muradım hasil olmaz, mən duanı neylərəm?" [11, s. 142]

"Aləmin başına tabəndə üzün şəm'indən
***Xaliq**in rəhmətidir, nuri-təcəlla tökülür."* [11, s. 233]

*"Ey kərimi-ləmyəzəl, ey **Xaliq**i-Pərvərdigar*
Həm sənin qatındadır sirri-nihanım aşikar." [12, s. 170]

*"Ziba yaradıbdır, sənəma **Xaliq**i-sübhan,*
*Bu cism ilə cani; Gər dilərsən **Xaliq**i etmək əyan*
Hərfi sözsüz necə eylərsən bəyan?" [12, s. 295]

□ **Xaliqi-canafərin** – can verən, Yaradan, həyat verən Allah.

"Ey ləbin şə'nində münzəl ayəti-yöhyül-izam
*Canmıdır, yarəb, ləbin, ya **Xaliq**i-canafərin?"* [12, s. 68]

Xaliqi-cahandır söz – söz cahanı yaradandır. Allahın "kün" (كن) əmrinə işarə.

"Şeş cəhətdən münəzzəh anlavü bax
*Şöylə kim, **Xaliq**i-cahandır söz."* [12, s. 9]

Xaliqülbəşər خالق البشر *İnsanı yaradan; Allah.*

*"Hüsnünə **Xaliqülbəşər** xətmi-məlahət eylədi*
Dövlət anın kim uğradı xətməsinin duayinə." [11, s. 38]

XƏLLAQ خلاق [*ər.* الْخَلَّاقُ] Davamlı olaraq çox yaradan, hər növ və çeşidlərdə yaradan. Quranda Hicr surəsinin 86 və Yasin surəsinin 81-ci ayələrində işlənir. Allahın 99 adı (əsmayi-hüsna) cədvəllərinin bəzilərinə daxil edilir, bəzilərinə isə yox.

*"Ol aləmi-itlaqdan, ol şəmsi-din **Xəllaq**dan*
Ayrıldığiçün zərrəvəş bu dünyaya nalan gəlir." [12, s. 200]

*"Surətin kim, məzhəri-**Xəllaq** imiş*
Kə'beyi-can qibleyi-üşşaq imiş." [12, s. 277]

"Çün əzəldən ta əbəd Baqi mənəm,
*Kün-fəkanın xəlqü **Xəllaq**i mənəm."* [12, s. 290]

XƏTTATİ-ƏZƏL خطّاط ازل [*ər.*] *klas.* İlk xəttat (Allah). Nəsimi aşağıdakı beytdə bu adı işlətməklə Tanrının insan simasında cizdiyi xətlərə işarə vurur.

Hər kim oxıdı şol xəti-reyhani mühəqqəq
***Xəttati-Əzəl**dən."* [17, s. 223]

İLAH اله [*ər.*] İlah, məbud; Allah.

*"Sirrini səndə nihan etdi **İlah**,*
Kəndözün bil kim, olasan padişah." [12, s. 297]

*"Musiyəm, Turam, əsayam, həm münacati-**İlah**,*
Həm mənəm ruzi-həqiqət, Musinin beyzasıyam." [12, s. 108]

*"Şol Məhəmməd Mustafanın üz suyu çün, ya **İlah**,*
Rəhmət etgil mən fəqirü asiyə ruzi-cəza." [12, s. 176]

"Nacins söhbəti degil illa yedi damu,
*Fəzl ilə eylə ya **İlah**, əcrən minəl-əzab."* [12, s. 178]

*"Üzün lövhündə, ey huri, **İlah**ı görməyən qafil,*
Yəqin kim, güzgüsü anın üzündən getməmiş pası." [12, s. 52]

□ **Fəzli-İlah** – B a x **Antroponimlər**, **Fəzl.**

*"Ey Nəsimi, sana çün **Fəzli-İlah** oldu müin,*
Məni eyb eyləmə kim, tapuna sultan demişəm." [12, s. 96]

"Sən məndən olma qafil, istə ki, ta biləsən,
*Anı ki, tanımışsan, **Fəzli-İlah**ım oldur."* [11, s. 230]

KAFİ كافى [*ər.* الكافى] Kifayət edən, bəndələrinin ehtiyaclarını həll edən, bəndələri Ona təvəkkül etdikdə onların işlərində kifayət edən. Allahın 99 gözəl adlarından (əsmai-hüsnadan) biri. Kafi ismi Quranın Əz-Zumər surəsinin 36-cı ayəsində işlənir.

*"Sufi mənəm, safi mənəm, **Kafi** mənəm, Şafi mənəm*
Ərni mənəm, heyran mənəm, dərd ilə dərman olmuşam."
[11, s. 135]

KƏBİR كبير [*ər.* الكبير] Böyük, ulu.

"Ə'madır ol kim, əlləməl-əsmayı bilmədi
*Bu ismi-ə'zəmi oxu kim, şərhidir **kəbir**."* [12, s. 127]

KƏRƏM كرم [*ər.*] Kəramət sahibi olan, qüdrəti var ikən əfv edən, bəndəsinə vədə verdikdə yerinə yetirən, əta edən.

*"Həm Nəiməm, həm Rəhiməm, həm Kərimәm, həm **Kərəm***
Həm nəimü xüldəmü həm cənnəti-Rizvan mənəm!" [12, s. 86]

"Həşr ilə hesabım, yenə mizanü siratım
*Ehsanımü lütfüm, **kərəm**im, həm həsənatım."* [12, s. 91]

"İsmi cəlalın məzhəri olan kişidə daima
*Xülqi-həsən, lütfü **kərəm**, həm Fəzl ilə ehsan gəlir."* [12, s. 201]

"İnsanı görün kim, necə bu tinəti qıldı
*Həq öz **kərəm**indən."* [12, s. 208]

*"Mə'şuqi-həqiqi zi **kərəm** çünki buraxdı*
Bürqə zi rüxi-xud,
Məhv oldu fələklərdə kəvakib, günəşü mah
Qıl səcdə bedərgah." [12, s. 212]

KƏRİM كريم [*ər.* الكريم] Əliaçıq, səxavətli, lütf və ehsanı bol olan, təmənnasız ikram edən. Az itaət müqabilində çox savab verən. Günahlardan keçən. Allahın 99 gözəl adlarından (əsmai-hüsnadan) biri.

"Axirət bazarıdır, yoxdur savaş,
*Həq **kərim**dir, alana verir bəlaş."* [12, s. 277]

"Yolunda qoydu Nəsimi cahan ilə canı,
*Təfavüt etməz anı gər qəbul qılsa **Kərim**."* [12, s. 93]

*"Həm nəimam, həm Rəhimam, həm **Kərim**əm, həm kərəm,*
Həm nəimü xüldəmü həm cənnəti-Rizvan mənəm!" [12, s. 86]

□ **Kərimi-ləmyəzəl** – əbədi olaraq yaxşılıq və kərəmi bol olan (Allah).

*"Ey **Kərimi-ləmyəzəl**, ey Xaliqi-Pərvərdigar,*
Həm sənin qatındadır sirri-nihanım aşikar." [12, s. 170]

*"Arifin sormaz hesabın ol **Kərimi-ləmyəzəl**,*
Bu cəhətdən münfəildir, sufiyi-pəşminəpuş." [12, s. 332]

QADİR قادر [*ər.* القادر] Qüdrətli, böyük qüvvət və qüdrət sahibi olan. Allahın 99 gözəl adlarından (əsmai-hüsnadan) biri.

*"Qamu əşyada sənsən **Qadir**ü şah,*
Qulundur qeysərü xaqanü fəğfur." [11, s. 250]

"Vəslü fəraqa vasitə çünki qədərdir, ey könül,
*Cəhd ilə kimsə **Qadir**in mən' edəməz qəzasını."* [12, s. 47]

*"**Qadiri-**qəhhari-Mehdi möhtədi,*
Fel'i-müstəqbəlü mazi, mübtədi." [12, s. 321]

*"Qaf – **Qadir**sən bizi irgürməyə,*
Fey – Fələkdən keçirib seyrana mən." [12, s. 225]

□ **Qadirin məqduru** – Qüdrətli (Allahın) təqdiri. Aşağıdakı beytdə: Həm 4 ünsür, həm bu ünsürlərdə olan xassələr, həm sadə, həm də mürəkkəb şeylər mənəm. Mən bütün mövcudatın əsası və töräməsi, Allahın təqdiriyəm.

"Həm ənasir, həm təbaye, həm mürəkkəb, həm bəsit
*Cümlənin əslivü fər'i, **Qadirin məqduru**yam."* [12, s. 110]

QAFİR غافر[*ər.* الغَافِرٌ] Bağışlayan, Allah. □ **Qafirüz-zənb** غافر الذنب – günahı bağışlayan (Allah). Allahın 99 gözəl adlarından (əsmai-hüsnadan) biri.

*"Küntə-kənzin pərdəsindən **Qafirüz-zənb** oldu faş,*
Zahid istiğfara gəldi, hər dəm aydır: Ya Qəfur!" [12, s. 195]

QAİM قايم [*ər.* القَائِمٌ] Mövcud olan; davamlı, bərk. Allahın 99 gözəl adlarından (əsmai-hüsnadan) biri.

*"Həm sifətdə zati-**Qaim**dir bular,*
Ölməz-itməz nitqi-daimdir bular." [12, s. 321]

"Surətin lovhündə xətt oldu yedi,
Fəzli-Həqdən bizə kəşf oldu yedi,
***Qaim**ü daim üzündür sərmədi,*
Həq kitabıdır camalın əbcədi." [12, s. 302]

*"İbtidasız cövhərəm **Qaim** bənəfsi labəğeyr,*
Həm nəimi-xalidəm, həm ne'mətin məşkuruyam." [12, s. 109]

QAZİ قاضى [*ər.* القاضى] Allah.

"Qaziyə nəsnə vermərəm rüşvət içün bu də'vidə,
***Qazi**yi-həq qatında çün adil imiş şühudumuz."* [11, s. 80]

"Bir əcaib söhbət oldu guşeyi-cənnətdə duş,
***Qazi** oldu cür'əgirü seyyid oldu cür'ənuş."* [12, s. 332]

QAZİYÜL-HACAT قاضى الحاجات [*ər.*] Hökm verən, ehtiyacları həll edən, dilәkləri yerinə yetirən Allah. Allahın 99 gözəl adlarından (əsmai-hüsnadan) biri.

*"**Qaziyül-hacat** imiş lə'lin məgər kim, aşiqə,*
Hər nə kim, qıldı təmənna, üstəcib gəldi cavab." [11, s. 22]

"Vəqtidir kim, dua yerinə yetə,
*Müstəcab edə **qaziyül-hacat**."* [12, s. 260]

QƏDİM قديم [*ər.* القديم] Həmişə mövcud olmuş olan. Allahın 99 gözəl adlarından (əsmai-hüsnadan) biri.

*"Müənbər zülfünə həqdən **Qədim**i sabit olmuşdur*
Ki sübhanəlləzi-əsra anın şə'nində əsradır." [12, s. 126]

*"Var üzündə bistü yek hərfi-**Qədim***
Çün üzün oldu siratül-müstəqim," [12, s. 292]

"Əbcədü taha üzün ərşi-əzim
Surətin lövhündə həq oldu müqim." [12, s. 292]

"Vardır sualım çün sana, vergil cavab, qalma dona:
*Bu ruhi-**Qədim**i mana, degil ki, sən qandan gəlir?"* [12, s. 200]

*"Surətinin səfhəsində gör nə yazmış ol **Qədim***
Oxudum ol xətti bismillahir-rəhmanir-rəhiasm." [12, s. 92]

"Əzəldə var idi eşqin bu can içində mənim
*Zavala olmaya qabil binayi-əhdi-**Qədim.**"* [12, s. 93]

"Qıldı nəzər bu canıma ol şəhi-layəzali-həyy
*Həyyi-**Qədim**i-künfəkan gör ki, nədir bu gün sana."* [12, s. 174]

*"Bir gövhərəmü **Qədim** əzəldən*
Ey gövhəri-kan, kan mənəm mən!" [12, s. 25]

"Sərəfrazım, həbibimdir, bu dərdimə təbibimdir
*Bu gün yari-**Qədim**imdir, cahanda iftixarımdır."* [11, s. 245]

□ **Zati-Qədim –** zatı qədim olan (Allah).

"Kim ki, əsrari-Nəsimi bilmədi
İzzəti-Fəzli-Nə'imi bilmədi,
Divi-dun oldu, əzimi bilmədi,
*Məzhəri-**Zati-Qədim**i bilmədi."* [12, s. 304]

*"Ey camalın məzhəri-**Zati-Qədim***
Surətin Allahu rəhmanür-rəhim." [12, s. 289]

Qədimi-ləmyəzəl – qədim və əbədi (Allah).

*"Müshəfi-nuri-**Qədimi-Ləmyəzəl***
Xətti-məsturi-kitabi-bibədəl." [12, s. 322]

QƏFUR غفور [*ər.*] Bağışlayan, güzəşt edən, əfv edən. Allahın mübarək adlarından (əsmai-hüsnadan) biri.

"Küntə-kənzin pərdəsindən qafirüz-zənb oldu faş,
*Zahid istiğfara gəldi, hər dəm aydır: Ya **Qəfur**!"* [12, s. 195]

QƏHHAR قهّار [*ər.* القهّار] Yenilməyən yeganə qüdrət sahibi. Allahın 99 gözəl adlarından (əsmai-hüsnadan) biri.

*"Qadiri-**Qəhhar**i-Mehdi möhtədi*
Fel'i-müstəqbəlü mazi, mübtədi." [12, s. 321]

QƏYYUM قیّوم [*ər.* القیوم] Qaim olan, ona möhtac olduğu halda, özünün heç bir şeyə ehtiyacı olmayan, bütün məxluqatı yaradaraq varlığını davam etdirən. Allahın 99 gözəl adlarından (əsmai-hüsnadan) biri.

*"Həyyü **Qəyyum**ü dəvamü dövlətəm,*
Aləmi-kəsrət içində vəhdətəm." [12, s. 318]

LAMƏKAN لامكان [*ər.*] Yeri, yurdu olmayan, məkan xaricində olan, məkandan xaric olan; Allaha aid edilən əlamətlərdən biri.

*"Ey şəkərləb yari-şirin, **Laməkan**ım, mərhəba!*
Hər quşun olmaz səadətli hümatək kölgəsi,
Çünki simurğam deyərsən, laməkan Qafın qanı?" [12, s. 32]

"Nəsimi cövhəri-Fərd oldu, anın,
*Məkanı **Laməkan**, billah, degilmi?"* [12, s. 40]

LƏTİF لطیف [*ər.* اللطیف] Ən incə işlərin bütün incəliklərini bilən, ən incə işləri görən, qullarına incə yollarla müxtəlif faydalar verən. Allahın 99 gözəl adlarından (əsmai-hüsnadan) biri. // Maddi deyil, ruhi olan, gözlə görünməyən.

*"Əvvəl təb'i-**Lətif**ü xülqi-niku*
İkinci həm kərəm, cudü səxavət." [12, s. 20]

*"Kaf – Ki urdu yədi-qüdrət, dedi bir huri-**Lətif**:*
Gəlmədi sənciləyin, gəlməyə ta ruzi-şümar." [12, s. 219]

Sonuncu beytdə Nəsimi "huri-**Lətif**" deyərkən Məhəmməd peyğəmbərin merac gecəsində Allahı görməsi ilə bağlı hədisinə əsaslanır: "Rəbbimi yaşıl bağçada qıvrım saçlı, bığ yeri təzəcə tərləmiş bir gənc şəklində gördüm. (رَأَيْتُ رَبِّي فِي صُورَةِ شَابٍّ أَمْرَدَ، لَهُ وَفْرَةٌ جَعْدٌ قَطَطٌ، فِي رَوْضَةٍ خَضْرَاءَ)" [61] və ya ""Merac gecəsi Rəbbimi hələ saqqalı çıxmamış qıvrım saçlı bir gənc surətində gördüm (رَاَيْتُ رَبّی لَيلَة المِعراج فی صورتِ اَمْرَدٍ قطط). Bu, ümmül-kitab surətidir." [22, s. 67]. Məhəmməd peyğəmbərə aid edilən bu hədis şiə və sünni mənbələrində yuxu və ya gerçək olması ilə bağlı mübahisələrlə qarşılansa da, Fəzlullah Nəimi "Cavidannamə" əsərində göstərilən hədisi qəbul və təsdiq edir: "Haqq-təala ona görə özünü yeniyetmə gənc surətində bəyan etdi ki, Adəm Əleyhissəlamın həqiqətdə elə Ərşi-Xudanın özü olduğu məlum olsun və "Mələklər ərşi əhatə etmişlər" (39:75) ayəsinin mənası bilinsin" [26, s. 17-18]. Nəsimi "huri-Lətif" terminindən əlavə, "şabu-qətət", "əmrəd qətət", şabü əmrəd" (qıvrım saçlı, bığ yeri təzəcə tərləmiş gənc oğlan) birləşmələrini öz şeirlərində Tanrının qulam surətinə şamil edir: *"İsmi-ə'zəm cameyi-zati-sifət, Bəllidir fi surəti-şabi-qətət"* [12, s. 279]; *"Mustafa həqqi bu sifətdə görüb / Şabü əmrəd dediyi şab nədir?"* [12, s. 245]. "Əmrəd qətət üzündə sadəcə 7 ümmi xətt olan gəncdir. Bunun da anlamı Allahın özünü Məhəmməd peyğəmbərə 7 ümmi xətt ilə göstərmiş olmasıdır. Dolayısı ilə, bu 7 ümmi xətt surəti-ilahi olaraq qəbul edilmişdir. [Iskname, cd 30277]" [44, s. 280].

MALİKİ-MÜLK مالك الملك Mülkün, hər varlığın sahibi. Allahın 99 mübarək adlarından biri. // *təsəv*. Qula layiq olduğu qarşılığı verən Haqq.

"Neçün ki, bu istivadadır həq,
*Ol **Maliki-mülk**ü həyyi-mütləq."* [12, s. 254]

*"**Mülk ilə malik** mənəm, mühyüvü halik mənəm,*
Mürşidü salik mənəm, abidi-əsnamü lat." [12, s. 182]

MƏCİD مجيد [*ər.* المجيد] Böyük, kərəmi geniş olan, müəzzəm və mükərrəm. Allahın 99 gözəl adlarından – əsmayi-hüsnadan biri.

"Surəti-Rəhmanı bil, tanı anın ərşini
*Bilməyən ol surəti, Ərşi-**Məcid** olmadı."* [11, s. 105]

MƏLİK ملك [*ər.* الملك] *is.* **1.** Padşah, hökmdar. Əsmayi-hüsnadan, Allahın 99 gözəl adlarından biri.

*"Ey **Məlik**, mülkündə vəchin afitab*
Ey boyu sidrə, rüxün ümmül-kitab." [12, s. 264]

*"Həm fəqirəm, həm dilənçi, həm **məlik**, həm padşah*
Həm mənəm ustadi-sənət, həm anın muzduruyam." [12, s. 109]

2. *məc. təsəv.* Vəli. "Sadə həyat sürənlər. Bu səbəbdən vəlilərə "əba altında sultanlar" deyilir" [28].

*"Dövlətinə bu dünyanın olma müqəyyəd, ey **məlik***
Anın üçün ki, dünyanın dövləti bisəbat olur." [12, s. 136]

*"Dünyada mülkə, mala sən aldanma, ey **məlik***
Kim, dünyanın mətahi bəğayət həqirdir." [12, s. 30]

*"Gərçi fərraşi-**məlik**dir ənbərəfşan sünbülün,*
Çünki mən sultanı buldum, neylərəm fərraşını?" [12, s. 46]

*"Dust şəhrindədir, Nəsimi, **məlik***
Bu söz əhlini aşina gördüm." [12, s. 246]

*"Çün şəhriyarın şəhrinə bu gün Nəsimidir **məlik**,*
Buyruq anındır, hökm anın, həm şəhrinə, həm kəndinə." [20, s. 228]

MƏNNAN منّان [*ər.* المنّان] Təmənnasız bəxş edən, mərhəmətli, səxavətli, şəfqətli, yaxşılıq edən, yardımsevər, çox ehsan edən. Cövşən-kəbir duasında işlənən Allahın 1001 ismindən biri. B a x **Hənnan**.

□ **Hənnan ilə Mənnan** – Allahın mübarək sifətləri. Həzrət Əlidən Hənnan və Mənnanın mənasını soruşduqda, buyurdu: "**Hənnan** Ondan üz çevirənləri qəbul edən rəhmət sahibi, **Mənnan** isə bir şey istəməzdən əvvəl əta etməyə başlayan deməkdir."

*"**Hənnan ilə Mənnan**ımü / ey Mərvə Səfalım*
Həm zəmzəm ilə qibləmü Kə'bəm, ərəfatım." [12, s. 76]

"Girdi hərəmi-Kə'beyi-təhqiqə Nəsimi
***Hənnan**ə təvaf eylərü **Mənnan**aya uğrar."* [12, s. 223]

MÖ'MİN/MÖ'MÜN مؤمن [*ər.* المؤمن] Ona müti olanlara öz əzabından aman verən və həmçinin möminlərin qəlbində imanı sabit edən.

○ **Mö'minin mir'atı mö'mindir** *həds.* – "Möminin güzgüsü mömindir" (اَلْمُؤْمِنُ مِرْآةُ اَلْمُؤْمِنِ). Məhəmməd (s.a.v.) peyğəmbərin hədisi. "Burada birinci mömin insani-kamildir. İkinci mömin isə Haqq-taaladır. İnsani-kamilin könlü Allahın aynasıdır. Ona bu qədər qiymət vermək, Haqqın ucalığını və böyüklüyünü izhar etmək üçündür."[3]

*"**Mö'minə mö'mindürür güzgü**, arıt güzgünü*
Ta görəsən sən səni, zat olasan, həm sifat." [12, s. 182]

[3] Yılmaz, Davud. Gönül sohbetleri. İzmir: Atlas Matbaacılık Bornova, 2007, 243 səh., s. 211

*"Çün **Mö'minə mö'min oldu mir'at***
Mir'atına baxü anda gör zat." [12, s. 252]

*"**Mö'minin mir'atı Mö'mindir**", dedi Xeyrülbəşər*
Güzgüyi-safi dutun, güzgüdə Allahı görün!" [11, s. 179]

*"Rəsuli-səyyidi-kövneynə **Mö'min ayinədir***
*Bü **mö'min ayinəsində** göründü cümlə sifat."* [12, s. 183]

*"Camalın **mö'mini Mö'minə mir'at**,*
*Ki, daim **Mö'min**in ol mənzəridir."* [11, s. 254]

MÖVLA مولا || مولی [*ər.*] Cənab, sahib, hər cür ehtiyacları qarşılayan şəxs, rəhbər, ixtiyar sahibi. Həcc surəsinin 78-ci ayəsində Allah Mövla adlandırılır. "İbn Həcər əl-Əskəlani Qur'andan seçdiyi əsmayi-hüsna siyahısına "mövla" sözünü də daxil etmişdir" [59]. Nəsimi Mövla deyərkən məhz Allahı nəzərdə tutur.

"Nitq imiş aləmdə mövcud, eşq imiş qayimməqam
*Bizə bildirdi əzəldən rəhbəri-**Mövla**yi-eşq."* [11, s. 30]

"Biz xəlifəzadəyiz, yer mülkümüzdür ta əbəd
*Heçə dəyməz kimsədir, kim bilməsə **Mövla**mızı."* [12, s. 33]

"Həm kəlamam, ayətəm, həm Müshəfəm, səb'ülməsan
*Həm mənəm tövhidi-bürhan, pirimin **Mövla**sıyam."* [12, s. 108]

"Təala-şanəhü hüsnün süfatı kim, müəlladır
*Ki, ər-Rəhman ələl-Ərş istiva, ol səhni-**Mövla**dır."* [12, s. 126]

*"Saqiyi-vəhdət meyindən dilbəri-**Mövla**yı gör*
Gəl ki, məstani-ələst ol, bu məhəl övlayı gör." [12, s. 141]

"Nəsimi, qəlbini pak et, cahan sevdalarından keç
*Ki, mən əbdəm və ol **Mövla** ki, nəsnə girməz araya."* [12, s. 171]

*"Təvafi-Kə'bənin gərçi səvabı çoxdur, ey **Mövla***
Könül Allah evidir gəl, təvaf etmək anı ovla!" [12, s. 172]

*"Surəti-biçuni-**Mövla**dır üzün*
Əbcəd ilə mim, əlif, badır üzün." [12, s. 280]

MÜBİN مبين [*ər.* المبين] Haqq ilə batili bir-birindən ayıran, aydınlaşdıran, aşkara çıxaran. Hikmət və dəlili hər bir mümkün vardlıqda zahir olan.

*"Sadiqül və'di-**mübin**dir sözlərim*
Görünür əşya üzündə gözlərim." [12, s. 318]

*"Qaşü gözü mö'cüzü vəhyi-**mübin**dir anın*
Ol bilür ol sirri kim, eynivü dalı bilür." [12, s. 139]

MÜHİT محيت [*ər.* المُحيط] Hər şeyi bilən və əhatə edən. Allahın adlarından – əsmayi-hüsnadan biri.

*"Həm **mühit**ü həm kənaram, həm sədəf, dürdanəyəm*
Həm bu bəhrin gövhəri, həm gövhəri-ümman mənəm!" [12, s. 86]

*"Dəngizəm, bəhrəm, **mühit**əm, qətrəyəm, dəryayi-eşq*
Laməkan bünyadıyam, həm bəhrinin qəvvasıyam." [12, s. 108]

*"Külli-şey' oldu **mühit**ü ta həyati-cavidan*
Yəxrücül-meyyit oluban tapdı ol zatü sifat." [12, s. 189]

□ **Bəhri-mühit** – Haqq dənizi.

*"**Bəhri-mühit**ə düş kim, dəryayi-ə'zəm oldur,*
Adəmdən olma qafil, neçin ki, adəm öldür." [12, s. 166]

"Ey könül, onun evi sən, səndə zühur eylədi həq
***Bəhri-mühit** oldu adın, həddü kənarın yox imiş."* [12, s. 333]

*"**Bəhri-mühit**i həm ləbi-çeşmimdən axıtdım*
Həm qətrəyi mən bəhr ilə ümmana yetirdim." [12, s. 120]

*"**Bəhri-mühit** imiş könül, yoxdur anın kənarəsi,*
Lə'l ilə səlsəbil imiş, ab ilə səngi-xarəsi." [12, s. 50]

*"Mən **bəhri-mühit**ü həm giranam*
Ey bəhri-giran, giran mənəm mən!" [12, s. 26]

Dəryayi-mühit – b a x **Bəhri-mühit.**

*"**Dəryayi-mühit** cuşə gəldi,*
Kövn ilə məkan xüruşə gəldi." [12, s. 251]

"Əlfazi-Nəsimi gör nə candır
***Dəryayi-mühit**ü kövnü kandır."* [12, s. 254]

Külli-mühit olmaq – Mütləq Varlığa qovuşmaq.

*"Nəsimiyəm ki, hər şey, **külli-mühit oldum***
Həm bilənə həll oldum, bilməzə müşkilatam." [12, s. 88]

Mühiti-ə'zəm – nəhayətsiz Mütləq Varlıq.

*"Gərçi **Mühiti-Ə'zəm**əm, Adəm adımdır, Adəməm*
Tur ilə künfəkan mənəm, mən bu məkana sığmazam." [12, s. 7]

*"Hər qətrə **Mühiti-Ə'zəm** oldu,*
Hər zərrə Məsihü Məryəm oldu." [12, s. 251]

Mühiti-eşq – ilahi eşq.

*"Gəl, **Mühiti-Eşqə** bir gəz dala gör*
Vəhdətin dürrün içindən ala gör." [12, s. 267]

Mühit olmaq – *Haqqa qovuşmaq.*

*"Gər **mühit oldun**, cəhatın qandadır?*
Ey Kəmax, axar Fəratın qandadır?" [12, s. 268]

*"**Mühit oldu** vüsalın çün sərasər yabisü rətbə*
Kimin əqli xəbər versin bu dəryanın kənarından." [11, s. 156]

MÜSƏVVİR مصوّر [*ər.* المصوّر] Yaratdığı hər varlığa ayrı bir şəkil, surət və xüsusiyyət verən.

"Eynü şinü qafa bax, yarın camalın anda gör
*Qül təbarək, ya **Müsəvvir**, leysə fiha min fütur."* [12, s. 195]

"Xətin ümmül-kitabıdır bəyanı əhli-tövhidin
*Hürufu lövhi-məhfuzun **Müsəvvir** şərhi-Fürqandır."* [11, s. 206]

MÜSTƏAN مستعان [*ər.* المستعان] Özünə ehtiyac olunan və Özündən kömək istənilən. Allahın adlarından – əsmayi-hüsnadan biri.

"Çün Nəsimi zülfü xalından oxur ümmül-kitab,
*Kaşifi-əsrar olubdur ol zi Fəzli-**Müstəan**."* [11, s. 153]

*"Ey Nəsimi, Həq sənə oldu çü Fəzli-**Müstəan**,*
Şükri-əyyami-vüsalü rəhməti-Rəhmanidir." [11, s. 60]

"Dedi ya kafüha, əyzə-bikə
*Çün Əli bildi, **Müstə'an**dır söz."* [12, s. 9]

MÜTLƏQ مطلق [*ər.*] Qeydsiz, şərtsiz; sərbəst, azad; hökmən, necə olursa olsun; xalis, saf; tam, dolğun.

□ **Əqli-mütləq** – Allah.

*"Ey künhü rif'ətindən bibəhrə **Əqli-mütləq***
Vey gənci-binəhayət, simurği-laməkansan." [12, s. 79]

Faili-mütləq – Allah.

*"**Faili-mütləq**əm mən, həqləyəmü həqəm mən*
Də'vidə ismi-məf'ul mə'nidə failatam." [12, s. 87]

*"**Faili-mütləq**əm, həqəm, həqilən*
Kimsə bilməz, nə bəyyinatiləyəm." [12, s. 119]

"Ay camalın hüsni-surət kim, qılıbdır ol həkim
***Faili-mütləq**dürür hər şeydə məf'ul ol rəhim."* [12, s. 94]

*"Çərxi-müəlləq mənəm, **Faili-mütləq** mənəm*
Həqq iləyəm, həq mənəm ayət ilə bəyyinat." [12, s. 181]

*"**Faili-mütləq**dən özgə nəsnə yoxdur arada*
Gər sən idrak eyləməzsən, bil ki, səndəndir qüsur." [12, s. 195]

Fərdi-mütləq - Tək Mütləq Varlıq (Allah).

*Gəl səvadil-vəchini bil, **Fərdi-mütləq**dir adı*
Rövşən anla qabü qövseyn ilə öv-ədnamızı." [12, s. 34]

*"**Fərdü mütləq**dir vücudum, bilgil, ey əhli-yəqin*
Şol səbəbdən vaqif oldum, keçdim əz hirsü həva." [12, s. 173]

*Nəsimidir vücudi-**Fərdi-mütləq***
Bu tövhidin əhəddəndir əsası." [12, s. 51]

Faniyi-mütləq olmaq – Təsəvvüfi anlayışa görə, mənəvi yolçuluğun son mərtəbəsində aşiq öz iradəsində fani olaraq məşuqun iradəsi ilə hərəkət edər. Aşiq ilə məşuq adlı iki ayrı varlıq təsəvvürü ortadan qalxar və bir-birindən fərq edilə bilməyəcək hala gəlir. Ortada mütləq gözəllik sahibinin hüsnündən başqa bir şey bulunmadığı gözəllər şəklində görünənin və aşiqin gözündən bu gözəlliyə tamaşa edənin də Haqq olduğu anlaşılır.[4]

*"**Faniyi-mütləq olmuşam**, həqqiləyəm, həq olmuşam*
Kim ki, həqi dilər, budur çarəsi, üştə çarəsi." [12, s. 50]

Həqqi-mütləq – Allah.

[4] Üstüner Kaplan. XIV. ve XV. Yüzyil Divanlarinda tasavvuf. Tübar-XXIV-/2008-Güz., səh. 271-294, səh. 283.

"Mütləq oldu, ***Həqqi-mütləq*** *baxıram*
Bigüman həqqəm, mühəqqəq baxıram." [12, s. 320]

*"****Həqqi-mütləq*** *sənsən, ey Fəzli-Əzim*
Ey üzü cənnatü firdövsi-nəim." [12, s. 292]

"Görmüşəm hər yerdə ***Həqqi-mütləq****i*
Vəsfini eşit bu şəhrin şəhrinə
Qərq olasan mütləq anın bəhrinə." [12, s. 320]

Həyyi-mütləq – Diri Mütləq Varlıq.

"Əlif – Allahdur ki, olmaz nitqi-zatından cüda
Uş kitabü ***Həyyi-mütləq****, uş Məsihi-mö'cüzat."* [12, s. 224]

"Neçün ki, bu istivadadır həq
Ol maliki-mülkü ***həyyi-mütləq****."* [12, s. 254]

Ruhi-mütləq – Allah.

"Surəti-Rəhman buldum, surəti-Rəhman mənəm!
Ruhi-mütləq *həq kəlamı qaf-vəl-Qur'an mənəm!"* [12, s. 86]

Zati-mütləq – *Allah.*

"Vücudun ***Zati-mütləq****dir məgər kim*
Nəyə kim, baxar isəm anda sənsən." [11, s. 162]

*"****Zati-mütləq****sən, ey xücəstəliqa*
Küntü kənzin bəyanı oldu əyan." [11, s. 181]

*"**Zati-mütləq** vücudum oldu yəqin*
Seydi-Simurğa danə, dam oldum." [12, s. 236]

NƏQQAŞ نقّاش [*ər.*] Rəngli rəsm və təzyinat (qabarıq naxışlar) ustası, kitabların üz qabığına və səhifələrinə şəkillər çəkən, memari əsərlərin tavan və divarlarını, çiniləri, torpaq qabları və s.-ni rəsm və şəkillərlə bəzəyən usta. // *klas*. Allah.

*"**Nəqqaş**ı nəqş içində hüsnündə gördü zahir*
Güzgüsünün üzündən hər kim gedirdi pası." [11, s. 83]

"Ey camalın Ərşi-Rəhman qabiə-qövseyn qaşınız
*Nəqşi-ma-əvha yazıbdır hüsnünə **Nəqqaş**ınız."* [11, s. 69]

*"Surətin nəqşində hər kim görmədi **Nəqqaş**ını*
Vahibi-surət anın gözsüz yaratmış başını." [12, s. 46]

NUR نور [*ər.* النور] Nur bəxş edən. Allahın adlarından – əsmayi-hüsnadan biri.

"Həm ayəti-Rəhman mənəm, həm rəhməti-Rəhman mənəm
*Həm vəhyi-mütləq söylərəm, həm **Nur**i-Yəzdən gəlmişəm."*
[12, s. 23]

*"Ta ruzi-həşr **Nur**i-Hidayətdir, ey sənəm*
Müshəfi-ləmyəzəl ki, camalındadır sənin." [11, s. 176]

"Hüsnün təcəllisindən düşdü cahana şö'lə
*Ey pərtövi-xudayi, sənsən çü **Nur**i iman."* [11, s. 176]

*"Camalın pərtövi-**Nur**i-Xudadır*
Yolunda aşiqin canı fədadır." [11, s. 194]

□ **Nuri-mütləq** – Allah.

*"**Nuri-mütləq**, zati-mütləq səndədir.*
Müshəfin hərfi mühəqqəq səndədir." [12, s. 268]

RAZİQ رازق [*ər.* الرازق] Ruzi verən; bəsləyən. Allahın adlarından – əsmayi-hüsnadan biri.

*"**Raziq**i-ərzaqımız mər'əş degil*
Rizqi mər'əşdən umarsan, xoş degil." [12, s. 287]

RƏBB ربّ [*ər.*] Malik, müdəbbir, tərbiyə verən, tədbir görən, islah edən. Allahın adlarından – əsmayi-hüsnadan biri. Rəb sözü Allahdan başqa heç kimə aid edilə bilməz.

*"Nəfsini biləndir ki, yəqin **Rəbb**ini bildi,*
Həqdən bu məqamata irən bil ki, vəlidir." [11, s. 219]

"Kim ki, məhbubun liqasın gördü ol eynəl-yəqin,
*Vəchini sürdü turaba, **Rəbb**inə qıldı şəkur."* [11, s. 235]

*"Əvvəl bu nəfsini bil, ardınca **Rəbb**ini bil,*
Kim, kəndi gəldi Həqdən, mənbərdə Mustafadır." [12, s. 124]

"Mən ərəfna tanıyan nəfsini ol kimsənədir,
*Bildi **Rəbb**ini, anın adını insan dedilər."* [12, s. 132]

"Nəfsini hər kimsə kim, bildivü həqqi tanıdı,
*Arifi-**Rəbb** oldu, adı əbd ikən sultan olur."* [12, s. 133]

*"Ölmədən nəfsini öldür, arifi-**Rəbb** olasan,*
Nəfxeyi-ruhülqüdüsdən məhz rühüllahı gör!" [12, s. 140]

□ **Rəbbi-ərşi-əzim** رَبُّ العَرْشِ العَظِيمِ Böyük və əzəmətli Ərşin sahibi. (9; 129), (21;22), (23;86,116), (27;26).

Nə hüsn olur, bu nə surət, zəhi behişti-nəim?
*Nə lütf olur, bu nə mə'ni, zi **Rəbbi-Ərşi-Əzim**?"* [12, s. 93]

Rəbbül-fələq رَبُّ الفَلَقِ sübhün Rəbbi. Quranda Fələq surəsinin birinci ayəsindən iqtibas edilmişdir.

"Həqqi batil sanma, haq yoxdur demə,
*Rəbb mənəm, **Rəbbül-fələq** yoxdur demə."* [11, s. 296]

RƏHİM رحيم [*ər.* الرحيم] Axirətdə mömin qullarına acıyan, mərhəmət edən. Allahın adlarından – əsmayi-hüsnadan biri.

"Müshəfi-hüsnündə şol hərfü xətü xalın sənin
*Sətri-bismillahir-Rəhmanir-**Rəhim** olmuşdurur."* [11, s. 226]

*"Həm Nəiməm, həm **Rəhim**əm, həm Kəriməm, həm Kərəm*
Həm Nəimü Xüldəmü həm cənnəti-Rizvan mənəm!" [12, s. 86]

"Surətinin səfhəsində gör nə yazmış ol qədim
*Oxudum ol xətti bismillahir-rəhmanir-**rəhim**."* [12, s. 92]

"Ay camalın hüsni-surət kim, qılıbdır ol həkim
*Faili-mütləqdürür hər şeydə məf'ul ol **Rəhim**."* [12, s. 94]

"Üzü müshəf, xətti bismillah, xalı nöqtədür
*Sözü rəhmanir-**rəhim**, məcmui-Qur'an göstərir."* [12, s. 144]

*"Oxuram ismində bismillahir-rəhmanir-**rəhim***
Ey sifatındır sifati-qül hüvəllahü əhəd." [12, s. 193]

"Ey camalın məzhəri-zati-qədim
*Surətin Allahu rəhmanür-**rəhim**."* [12, s. 289]

RƏHMAN[1] رحمان [*ər.* الرحمان] Mərhəmətli, şəfqətli. Allahın adlarından – əsmayi-hüsnadan biri.

"Ey üzün "nəsrün-minəllah", vey saçın "fəthün-qərib"
*Ey bəşər surətli **Rəhman**, vey məläksima həbib!"* [11, s. 26]

"İki aləmdə didarından özgə
*Mana, ey surəti-**Rəhman**, gərəkməz."* [11, s. 70]

"Adəmin surətinə vəcdə qılanlar ki, səni
*Gördülər, surəti-**Rəhman** dedilər, gerçək imiş."* [11, s. 313]

*"Hər kim səni deməzsə **Rəhman** sifətli həqsən*
İtirmiş ol qaragün həqq ilə həqşünası." [11, s. 83]

"Nəsimi, ey Şəhi-Xuban, camalını görəli
*Gözündə surəti-**Rəhman** müsəvvər olmuşdur."* [11, s. 227]

*"Ey camalın Ərşi-**Rəhman** qabiə-qövseyn qaşınız*
Nəqşi-ma-əvha yazıbdır hüsnünə Nəqqaşınız." [11, s. 69]

□ **Rəhmanirrəhim, Rəhmanir-rəhim –** mərhəmətli və rəhimli. Bismillahın bir hissəsi. Allahın mübarək sifətləri.

*"Rey – **Rəhmanirrəhim** oldu camalın aşiqə*
Niçün Adəm dedi, bismillahi-zülfəzlül əla." [12, s. 215]

"Ey camalın məzhəri-zati-qədim
*Surətin Allahu **Rəhmanür-rəhim**."* [12, s. 289]

*"Fəzli-bismillahir-**Rəhmanir-rəhim***
Surətin lövhündə yazmışdır qədim." [12, s. 292]

RƏHMƏT رحمت [*ər.* الرَحْمَة] Yazığı gəlmə, rəhm etmə, mərhəmət, şəfqət göstərmə; bağışlama; Allahın mübarək sifətlərindən biri.

"Həm mö'cüzati Əhmədin gözləri sehridir anın
***Rəhmət**i-Həq bu cadunun ümmətinə vü alına."* [11, s. 15]

*"Ey **Rəhmət**i-ilahi, sənsən yerü gög mahı*
Vey qamu xubun şahı, didarına müştaqəm." [11, s. 138]

"Şükr edərəm ilahimə hər nəfəs, ey Nəsimi kim
*Əhli-kamala məntiqin **Rəhmət**i-Zülcəlalidir."* [11, s. 217]

"Şükr ilaha eylərəm dəmbədəm, ey Nəsimi, kim
*Gör bu camalı la tühəb, **Rəhmət**i-Zülcəlalidir."* [11, s. 218]

"Aləmin başına tabəndə üzün şəm'indən
*Xaliqin **rəhmət**idir, nuri-təcəlla tökülür."* [11, s. 233]

"Ərrəhim oxu, anla ər-Rəhman,
*Bişü kəm yoxü gənci-**Rəhmət**dir."* [12, s. 27]

□ **Rəhmət etmək** – rəhmi gəlmək.

"Şol Məhəmməd Mustafanın üz suyu çün, ya ilah
***Rəhmət etgil** mən fəqirü asiyə ruzi-cəza."* [12, s. 176]

Rəhməti-Rəhman – Rəhmanın mərhəməti.

"Ey Nəsimi, həq sənə oldu çü Fəzli-Müstəan
*Şükri-əyyami-vüsalü **rəhməti-Rəhmani**dir."* [11, s. 260]

"Divi-naməhrəm ki, dutmaz ismi-ə'zəmdən xəbər,
*Əhriməndən **rəhməti-Rəhman** umarsan, nə əcəb!"* [12, s. 177]

*"Həm ayəti-Rəhman mənəm, həm **rəhməti-Rəhman** mənəm,*
Həm vəhyi-mütləq söylərəm, həm nuri-yəzdən gəlmişəm."
[12, s. 23]

◊ **Rəhməti gəlmək –** rəhmi gəlmək, mərhəmət etmək.

*"**Rəhməti gəldi** irişdi Fəzli-Rəhmanın yenə*
Çiçəgi açıldı, güldü şol gülüstanın yenə." [11, s. 56]

RƏUF رؤوف [*ər.* الرؤوف] Bəndələrinə qarşı çox mehriban. Allahın adlarından – əsmayi-hüsnadan biri.

*"Həm munadiyü nidayam, həm ətufam, həm **rəuf***
Həm qulam, həm qulların rəzzaqiyü qəyyuruyam." [12, s. 113]

RƏZZAQ رزّاق [*ər.* الرزّاق] Bol ruzi verən. Allahın adlarından – əsmayi-hüsnadan biri.

"Həm munadiyü nidayam, həm ətufam, həm rəuf,
*Həm qulam, həm qulların **Rəzzaq**iyü Qəyyuruyam."* [12, s. 113]

"Allah ilə ol imdi, niyaz eylə, Nəsimi,
*Başəd ki, suçundan keçə, lütf eyləyə **Rəzzaq**."* [11, s. 29]

SADİQ صادق [*ər.* الصادق] Özü və sözü bir olan. Allahın adlarından – əsmayi-hüsnadan biri.

*"Sənsiz mühibbi-**sadiq**ə nazü nəimi-xüld,*
Dərdü əzabü möhnətü rəncü əna derəm." [11, s. 141]

SAMƏD صمد [*ər.* الصمد] İradə etdiyi hər şeyi həyata keçirə bilən, hiç kimə və ya heç bir şeyə möhtac olmayan. Allahın adlarından – əsmayi-hüsnadan biri.

*"Hüvəllahüs-**Saməd** söylər xətin, əlhəmdülillah kim,*
Üzündən pərdə rəf oldu, günəş çıxdı hicabından." [11, s. 186]

SANE' صانع [*ər.* الصانع] Sənətkarcasına düzəldən, yaradan. Surətlərə quruluş verən.

*"**Sane'**in ehsanıdır hüsnün təala şanəhu,*
Qüdrəti kamil olanın adəti ehsan olur." [12, s. 133]

SEYYİD سيّد [*ər.* السيّد] Ağa, lider, rəis. İtaət edilməsi vacib olan böyük və əzəmətli padşah.

*"Ya rəsuli-fəxri-aləm, **Seyyid**i-zatü sifat*
Bəhri-zatın gövhərisən, həm sifatın eyni-zat." [12, s. 186]

"Bir əcaib söhbət oldu guşeyi-cənnətdə duş
*Qazi oldu cür'əgirü **Seyyid** oldu cür'ənuş."* [12, s. 332]

SƏLAM سلام [*ər.* السلام] Hər təhlükədən salamata çıxaran, rifahın mənbəyi. (Cənnət əhli) "bir-birinə ancaq salam deyərlər" (İbrahim surəsi, 14:23). Eşitdikləri söz ancaq "salam" olacaqdır." (Vaqiə surəsi, 56: 26). Allahın adlarından – əsmayi-hüsnadan biri.

*"Üzündür Kə'bəsi əhli-**səlam**ın*
Mübarək xanədan, billah, degilmi?" [12, s. 39]

"Rövzənin darüssəlamı səndədir
*Gör kəlamı həm **səlam**ı səndədir."* [12, s. 268]

*"Gəldi ruhəfza ləbindən susamış canə **səlam***
Xızra ən'amı irişdi abi-heyvanın yenə." [11, s. 56]

*"Üzün darüssəlam oldu, **səlam**ın*
Yeridir Kə'bəvü həm beyti-mə'mur." [11, s. 250]

SƏMİ' سميع [*ər.* السميع] Hər şeyi eşidən, qullarının dualarını qəbul edən. Allahın adlarından – əsmayi-hüsnadan biri.

"Əhli-ürfan ol, nə əshabi-sərir,
*Bil ki, Həqdir həm **Səmi'**ü həm Bəsir."* [12, s. 270]

SÜBHAN سبحان [*ər.* السبحان] Əməlində, icrasında hər cür qüsurdan, nöqsandan uzaq, pak və təmiz olan. Allahın adlarından – əsmayi-

hüsnadan biri.

"Gözlərim gözləri gözlər həzrətini şahımın,
*Necəsi gözləməsin, **Sübhan**ı gözlər gözlərim."* [12, s. 90]

"Vəchi-Adəm ki, Ərşi-Rəhmandır,
*Gözlərim anda gördü **Sübhan**ı."* [12, s. 237]

"Müshəfi-Həqdir imamı – cümlə əşya sərbəsər,
*Gör imam oldu əyanü Fəzli-**Sübhan** oldu faş."* [12, s. 334]

*"Sibqətüllah və mən **əhsən**ə Həqdən üzünə*
*Abidun gözlərinə sibqeyi-**Sübhan** dedilər."* [12, s. 132]

Sübhanəhü سبحانه Ona (Allaha) eşq olsun!

"Ləmyəlid hüsnün, vələmyuləd camal,
*Hüsnünə **sübhanəhü** cəllə-cəlal."* [12, s. 287]

Sübhanəlləzi-əsra biəbdi سبحان الذي بعبده "O Sübhandır ki, qulunu apardı". İsra surəsinin 1-ci ayəsindən iqtibas edilmişdir: "Bəndəsini (Peyğəmbər əleyhissəlamı) gecə vaxtı (Məkkədəki) Məscidülhəramdan (Qüds şəhərindəki) Məscidüləqsaya aparan Allah pak və müqəddəsdir." (**سُبْحَانَ الَّذِي أَسْرَى بِعَبْدِهِ لَيْلاً مِّنَ الْمَسْجِدِ الْحَرَامِ إِلَى الْمَسْجِدِ الأَقْصَى**).

*"Zülfü **sübhanəlləzi-əsra biəbdi** ayəti,*
Yanağı üzrə müsəlsəl xətt ilə məstur idi." [12, s. 55]

*"Sirri-**sübhanəlləzi-əsra***
Yazdı vəchində dəsti-rəbbani." [12, s. 53]

"Müənbər zülfünə həqdən qədimi sabit olmuşdur
*Ki, **sübhanəlləzi-əsra** anın şə'nində əsradır."* [12, s. 126]

Sübhani سبحانی *sif.* İlahi, rəbbani, Sübhana məxsus.

"Kirpigi, qaşı ilə zülfündən,
*Kəşf edər sirri-razi-**sübhani**."* [12, s. 237]

ŞAFİ شافی [*ər.* الشافی] Şəfa verən. Allahın mübarək adlarından – əsmayi-hüsnadan biri.

*"Sufi mənəm, safi mənəm, Kafi mənəm, **Şafi** mənəm*
Ərni mənəm, heyran mənəm, dərd ilə dərman olmuşam."
[11, s. 135]

*"Məndən iç cami-müsəffa, saqiyi-**Şafi** mənəm*
Eyni-hövzün, kövsərin abi-zülalı məndədir." [12, s. 163]

ŞƏKUR شکور [*ər.* الشّکور] Həmişə şükr edən, razılıq ifadə edən. Allahın mübarək adlarından – əsmayi-hüsnadan biri.

"Kim ki, məhbubun liqasın gördü ol eynəl-yəqin
*Vəchini sürdü turaba, rəbbinə qıldı **şəkur**."* [11, s. 235]

TAHİR طاهر [*ər.* الطاهر] Təmiz, pak.

*"**Tahir**i qüdsi deyən ruhül-əmindir məntiqim*
On səkiz min aləmin sirrinə pünhan gəlmişəm." [12, s. 99]

"Kim ki, bu bəhrə dalmadı, ma'i-təhuru bulmadı
*Təyyibü **tahir** olmadı, yoxdur anın təharəti."* [12, s. 42]

"Dünyanın nazü nəimi cifədir, yə'ni nəcis
*Ey könül, **tahir**sən axır,jj sunma əl murdarına."* [12, s. 60]

*"Tey – **Tahir**dir vücudu onların kim, batini*
İçdilər cami-müsəffa, buldular sidqü səfa." [12, s. 216]

VAHİBİ-SURƏT واهب الصورة [*ər.*] *klas.* Surət, şəkil verən (Allah).

"Surətin nəqşində hər kim görmədi Nəqqaşını
***Vahibi-surət** anın gözsüz yaratmış başını."* [12, s. 46]

VAHİBÜS-SÜVƏR واهب الصور [*ər.*] *klas.* Forma verən, formalaşdıran (Allah haqqında).

"Dövri-qəmər məlahətin hüsnünə ixtimam edər
*Üzünə **Vahibüs-süvər** xubluğu müstədam edər."* [11, s. 284]

"Əhli-mə'ni xocəstə surətünə
*Mə'niyi-**Vahibis-süvər**."* [15, s. 92]

VAHİD/VƏHİD واحد [*ər.* الواحد *"tək, bir"*] "Tək, zatında, sifətlərində, adlarında və hökmlərində ortağı və bənzəri olmayan. Allahın adlarından – əsmayi-hüsnadan biri.

*"Eşqin adı **Vahid** oldu bimisl*
Zati-Əhədə misal olurmu?" [12, s. 229]

*"Məscud ilə sacid oldu **Vahid***
Məscudi-həqiqi oldu sacid." [12, s. 251]

"Cənnət bağı, nəimi-xalid ol
*Keç ikilikdən, əliftək **Vahid** ol!"* [12, s. 286]

*"Gərçi həqdən **Vahid** oldu nur ilə anəstunar*
Ey Nəsimi, çün ulaşdın nuruna, nar istəmə!" [12, s. 32]

*"Ey binəzirü **Vahid** , hüsnün camal içində*
Üzün qiyamət eylər xoş xəttü xal içində." [12, s. 66]

*"Tövhidin bəhrinə Fərdi-**Vahid** olub qalmayan*
Yoxdurur tövhidi anın, küfrə iman göstərər." [12, s. 145]

"Möhbətimiz sifati çün zati-qədimi-fərd imiş
***Vahid** i-bizəvalədir mərcə ilə süudumuz."* [11, s. 80]

*"Kim əliftək **Vahid**ü Fərd olmadı,*
Bəlkə namərd olduvü mərd olmadı ." [12, s. 303]

*"Kim ki, Nəsimi kimi **Vahid** ü Fərd olmadı*
***Vahid** i-mütləq degil, Zati-**Vəhid** olmadı."* [11, s. 64]

*"Nəsimi çün səni buldu, dü aləmdən **Vəhid** oldu,*
Kəsildi mavü mənlikdən, ulaşdı Zati-Yektayə." [11, s. 35]

VƏDUD ودود [*ər.* الودود] Çox sevən, çox sevilən, sevgi göstərən. O kəs ki, bəndələrini sevər, bəndələri də Onu sevərlər. Allahın adlarından – əsmayi-hüsnadan biri.

*"Həm cəmiləm, həm camalam, həm **Vədud**am, həm ədəd*
Kafirə mövtü müsibət, həm Xəlilin suruyam." [12, s. 110]

ZAHİR ظاهر [*ər.* الظاهر] Varlığı kainatda təcəllisi ilə aşkar olan, açıq olaraq görünən. Allahın adlarından – əsmayi-hüsnadan biri.

"Cümlə əşya zövc imiş həqdən çü yekta layəmut
*İstiva ərş üstünə **zahir** sirat oldu əyan."* [11, s. 153]

*"Əvvəlü axır çü sənsən, batinü **Zahir** çü sən*
Məqsədi-əqsa camalındır, gözümdən getmə dur." [11, s. 236]

"Çünki rəf' oldu üzündən, ey şəhi-xuban, niqab
*Qalmadı küfrü zəlalət, **Zahir** oldu afitab."* [11, s. 21]

"Səndən məni kimdir ayıran, sən
***Zahir**də vü batinimdə sənsən."* [11, s. 164]

*"Çün **Zahir**ü batin oldu Vahid*
Həm cövhəri-canü eyni-tənsən." [11, s. 164]

*"**Zahir**ü batin, əvvəlü axır*
Səndən ötrü zühuri-şərhü bəyan." [11, s. 181]

"Mə'budumü məqsudumü mətlubumü qəsdim
***Zahir**imü batinimü zat ilə sifatım."* [12, s. 91]

*"**Zahir**əm, zahirdə faşam, məzhərəm, həm müzhərəm*
Batinəm hər şeydə, yə'ni batinin məsturuyam." [12, s. 109]

*"**Zahir**ü batin mənəm, peydavü həm pünhan mənəm*
Məzhərəm, həm müzhərəm, həm məzhərin məzhuruyam."
[12, s. 112]

*"Çü **Zahir** batinin əlvanı oldu*
Dərunumda nə kim, var anı derəm." [12, s. 121]

*"Əvvəl-axır, batinü **Zahir** həqiqət halını*
Surətü mə'ni mana dər cism, dər can göstərir." [12, s. 144]

ZAT ذات [*ər.*] Əsil, cövhər, mahiyyət. // *klas.* Sifətləri olan varlıq. "Sifətlər zatdan zahir olur. Məsələn, yazı yazmaq, oturmaq, danışmaq sifətlərdir. Bu sifətləri meydana gətirən isə zatdır. Tanrının Zatını isə biz yalnız sifətlərinin əsər və hökmlərini müşahidə edərək görüb-düşünə bilərik. O, əbədi və əzəli dirilik, qüdrət, hər şeyi bilən, tayı-bərabəri olmayan və s. sifətləri ilə tanınır." [40].

*"Camalındır həqqin **zat**ü sifatı*
Müənbərdir boyun qədrü bəratı." [11, s. 111]

*"Kövni-məkandır ayətim, **zat**idürür bidayətim*
Sən bu nişanla bil məni, bil ki, nişana sığmazam." [11, s. 7]

*"Vəchində peydadır sənin ənvari-**Zat**i-kibriya*
Ol nurə qarşı daima şərməndədir şəmsüzzüha." [11, s. 17]

"Vəsfində Nəsimi deyil ol zat kim, anın
*Mislin görələr, ya bulalar **Zat**ına həmtay."* [11, s. 113]

*"**Zat** iləyəm, sifat ilə, gülşəkərəm nabat ilə*
Qədr iləyəm bərat ilə, bəstə dəhana sığmazam." [11, s. 8]

*"Həq əyan oldu sənə, ey məzhəri-**Zat**ü sifat*
Kənzi-məxfi aşikar olduvü həm yövmül-hesab. [11, s. 21]

"Nəsimi çün səni buldu, dü aləmdən Vəhid oldu,
*Kəsildi mavü mənlikdən, ulaşdı **Zat**i-Yektayə."* [11, s. 35]

*"Mərhəba, ey bəhri-**Zat**ın gövhəri-yekdanəsi*
Şəm'i-vəhdətdir cəmalın, kün-fəkan pərvanəsi [11, s. 82]

*"Surətindən zahir oldu mə'niyi-**Zat**ül-əhəd*
Əlləməl-əsmavü tahadır üzün nuri-düxan." [11, s. 153]

□ **Zati-Fərd Vahid** – Bir və tək olan Zat, Allah.

Vücudun şirkini məhv et, vücudi-Vahidə Fərd ol
*Ki, **Zati-Fərd Vahid**dən bu məsəl oldu, ol sail."* [12, s. 107]

Zati-Qədimi-Fərd – Allah.

*Möhbətimiz sifati çün **Zati-Qədimi-Fərd** imiş*
Vahidi-bizəvalədir mərcə ilə südümüz." [11, s. 80]

Zati-Mütəhhər – müqəddəs mahiyyətli.

"Sərasər nuri-mütləqdir vücudun,
*Nə mahiyyətsən, ey **Zati-Mütəhhər**?"* [11, s. 243]

"Surətdə gərçi adı bəşərdir Nəsiminin,
Mə'nidə gör ki, zati-mütəhhər degilmidir?" [11, s. 277]

*"Əcəb **Zati-Mütəhhər**sən, nəzirin yoxdur, ey dilbər*
Vücudun nuru bərqindən camalında inqab oynar." [11, s. 197]

"Surətdə gərçi adı bəşərdir Nəsiminin,
*Mə'nidə gör ki, **Zati-Mütəhhər** degilmidir?"* [11, s. 277]

"Yedi xəttin kitabından, səkiz cənnət əyan oldu
Bu vəch ilə yəqin oldu ki, ol ***Zati-Mütəhhər****dir."* [12, s. 153]

Zati-Mütləq – Allah.

Vücudun ***Zati-Mütləq****dir məgər kim*
Nəyə kim, baxar isəm anda sənsən." [11, s. 162]

Zati-Mütləq*sən, ey xücəstəliqa,*
Küntü kənzin bəyanı oldu əyan." [11, s. 181]

ZÜLCƏLAL ذو الجلال [*ər.*] Cəlal, əzəmət sahibi. Allahın adlarından – əsmayi-hüsnadan biri.

*"Yusifi-Misri canü dil, yə'ni ki, Fəzli-****Zülcəlal****,*
Gəldi səfavü zövq ilə şəhri-bədən sərayinə. [11, s. 41]

"Ərşi-rəhmandır camalın zülcəlal aydır anı,
*Ey üzün Qur'an, bəyani****-Zülcəlal****ı məndədir.* [12, s. 162]

"Bundan da ayrı bir kamal olurmu kim, ol ***Zülcəlal****,*
Aydır ki, mən sənsən, həmin şeytana ol üsyan gəlir." [12, s. 204]

*"Fəzl Rəbbi-****Zülcəlal*** *oldu bizə,*
Möhsünü hüsnü camal oldu bizə." [12, s. 298]

*"Lövhi-məhfuzi-hürufi-****Zülcəlal****,*
Rəqqi-mənşuri-Xudayi-pürkəmal." [12, s. 322]

Zülcəlali ذو الجلالى *sif.* Zülcəlala (Allaha) məxsus.

"Şükr edərəm ilahimə hər nəfəs, ey Nəsimi kim,
*Əhli-kamala məntiqin Rəhməti-**Zülcəlali**dir."* [11, s. 217]

"Şükr ilaha eylərəm dəmbədəm, ey Nəsimi, kim,
*Gör bu camalı la tühəb, Rəhməti-**Zülcəlali**dir."* [11, s. 218]

ZÜLƏRŞ ذو العَرْشِ [*ər.*] Ərş sahibi.

*"Xandasan, ey Fəzli-**Zülərşi**-Əzim*
Mən fəraqından zi-can usanmışam." [11, s. 292]

Qeyri-ərəbmənşəli teonimlər

ÇƏLƏB چلب [*türk.*] **1.** Allah, Tanrı.

*"**Çələb** səni necə şirin dodaqlı yaratmış,*
Ki, səlsəbil utanır ləblərin zülalından." [11, s. 152]

*"**Çələb** Nəsimiyə çün əskik eyləməz bir şal,*
Nə ətləsindən umar kimsənin, nə şalından." [11, s. 152]

2. Yiyə, ağa, sahib, əfəndi. ""Lehce-i Osmani" (1306) lüğətində bu söz üçün belə bir izah vardır: "Oxuma bilən, oxumuş. Çələbi adam – ədəbli, nəzakətli, incə rəftarlı" [39, Ic., *çelep* maddəsi]. "Allaha aid olan adam, Allah adamı; kübar, nəzakətli insan. XVII əsrin sonlarına qədər savadlı və əsil-nəcabətli kəslərə bu adla müraciət olunurdu." [34].

"Gözünü düzüb süzərsən, dilü cana qəsd edərsən
*Bu nədir ki, sən qılırsan, **çələb**im, bəgim, əfəndi?"* [11, s. 112]

XUDA خدا [*fars.*] Allah, Tanrı.

*"**Xuda**, saxla Nəsimini sirr içrə,*
Fələk fanidürür, baqi uğanım." [12, s. 329]

"Əvvəlü axırda üzündür, üzün,
*Sün'i-**Xuda**, qüdrəti-Yəzdanımız."* [12, s. 12]

"Şol meyi kim, günəş anın camıdır,
*Şol ki, buyurmuş və səqahüm **Xuda.**"* [12, s. 167]

"Yazdı alnında xuda inna fətəhna surəsin,
Qaf vəl-Qur'an üzündür, sidreyi-ə'la imiş." [11, s. 316]

*"Bəndə Nəsimi görəli nuri-**Xuda** üzündə mən,*
İndi şəhadət əhliyəm, çün əhli-iman olmuşam." [11, s. 134]

*"Camalın pərtövi-nuri-**Xuda**dır,*
Yolunda aşiqin canı fədadır." [11, s. 194]

*"Sinəm gəncineyi-sirri-**Xuda**dır,*
Nola gər surətən xürdü həqirəm." [12, s. 121]

□ **Fəzli-Xuda** – "Fəzlullah" (فضل الله) izafətindəki (Fəzl+Allah) Allah sözü Nəsimi tərəfindən Xuda ilə əvəz edilib.

*"Adəmi **Fəzli-Xuda** bil, adəmi,*
Kainata kəndxuda bil adəmi." [12, s. 302]

XUDAVƏND خداوند [*fars.*] Allah, Tanrı.

"Davudam, xətmi-Süleyman, məndədir məcmui-zat,
*Həm mənəm mehri-**Xudavənd**, divlərin ustasıyam."* [12, s. 108]

KİRDİGAR کردکار [*fars.* کردگار//گردگار] Allah, Tanrı.

"Zülfünə vermiş əmanət Həq əzəldə sirrini,
*Ey əmanətdar, əmini-**Kirdigar**ım, qandasan?"* [11, s. 149]

"Rümuzi-leylətül-əsra, gəl, ey zahid, eşit məndən
*Ki, ol bildi bu sirri kim, əmini **Kirdigar** oldu."* [11, s. 297]

PƏRVƏRDİGAR پروردکار [*fars.* پرورد pərvərd *"bəsləmə"* + *fars.* گار -kār > -gār *şəkilçisi*] Bütün yaradılışları bəsləyən və yetişdirən Allah.

*Ey kərimi-ləmyəzəl, ey Xaliqi-**Pərvərdigar**,*
Həm sənin qatındadır sirri-nihanım aşikar. [12, s. 170]

TANRI تنکری [*türk.*] Allah.

"Həq surətində insan sənsən gələn cahana
*Ey **Tanrı**nın süfatı, aləmdə cavidansan"* [12, s. 74]

*"Peyğəmbərin sözüdür, həm **Tanrı**nın kəlamı*
Şol əhdü şol əmanət gör kim, nə iddiadır." [12, s. 19]

"Nəsimi yar hicrində ümid üzməz vüsalından
*Ki, **Tanrı** aqibət bi gün bu hicranı vüsal eylər."* [11, s. 214]

*"Gər inanmazsan ki, adəm məzhəridir **Tanrı**nın,*
Həq-təalanın sözündən necə bürhan buldum uş." [11, s. 308]

*"Ol məqamı **Tanrı**nın kim, Ərş oxuyurlar anı,*
Mö'minin qəlbidürür kim, təxti-şahənşahdır." [12, s. 143]

YEKTA يكتا [*fars.*] Tək, yalqız; nadir, tayı-bərabəri olmayan, misilsiz. // *məc. təsəv.* 1) Allah.

"Nəsimi çün səni buldu, dü aləmdən Vəhid oldu
*Kəsildi mavü mənlikdən, ulaşdı Zati-**Yekta**yə."* [11, s. 35]

2) Allahın insanda təcəllisi.

*"Görk içində Fərdi-**Yekta**san, əya məhbubi-dil*
Şol cəhətdən səcdə qıldı hüsnünə hurü pəri ." [11, s. 92]

"Ey saçın hər tarına min can əsir
*Surətin **Yekta**vü adın binəzir."* [12, s. 273]

"Üzün xurşidi-xavərdir, ana mətlə' günəşdir kim
*Nə şəmsi-ləmyəzəlsən kim, camalın adı **Yekta**dır;* [12, s. 126]

*"Cümlə əşya zövc imiş həqdən çü **Yekta** layəmut*
İstiva ərş üstünə zahir sirat oldu əyan [11, s. 153]

*"Əliftək cövhəri-**Yekta** boyundur*
Dodağın çeşmeyi-heyvan oxurlar." [11, s. 210]

*"Hüsn içində Fərdi-**Yekta**san, nə şək*
Hər kişinin nəqdini çaxar məhək." [12, s. 280]

Çoxallahlılıqla bağlı teonimlər

ƏHRİMƏN اهریمن [*pəhl.* Avestada: Əngrə-Məynyu (مَینیوانگرە *"pisniyyətli və ya xəbis ruh"*] Zərdüşt dinində: şər tanrısı, şeytan, zülmət və ölüm allahı, Hörmüzdün (Ahura Məzda (اهورامزدا) – xeyir allahı) əkiz qardaşı və rəqibi. Qaranlıq gecələr və zülmət ona tabe imiş. Zərdüştün (e.ə. 1500-1000-ci illər) təliminə görə, insan ömrünün mənası Əhrimənlə mübarizədə Hörmüzə kömək göstərməkdir. Əhriman hər cür günahlar yaratmışdır: cadugərlik, xəstəliklər, qocalıq, ölüm, zəhərli sürünənlər və həşəratlar; ilk insan Qaya Martanı (orta əsr eposunda Kəyumərs) onu məhv etmişdir. Əhriman divlərin vasitəsilə fəaliyyət göstərirdi. Mitraizmin bəzi cərəyanlarında o, baş allah hesab olunurdu. // *məc.* İblis, Şeytan. Nəsimi yaradıcılığında Əhriman Şeytanı ifadə edir.

"Divi-naməhrəm ki, dutmaz ismi-ə'zəmdən xəbər
***Əhriman**dən rəhməti-Rəhman umarsan, nə əcəb!"* [12, s. 82]

*"Həmdəm nə rəsm ilə ola Cəbrilə **Əhriman***
Munis nə vəch ilə ola tuti ilə qürab." [12, s. 178]

LAT لات [*ər.*] İslamiyyətdən əvvəl indiki Səudiyyə Ərəbistanının Məkkə bölgəsində yerləşən Taif şəhərində Səqif qəbiləsinin tapındığı və ilahiləşdirdiyi ağ qaya üzərində tikilmiş, örtüklə örtülü, ətrafına çəpər çəkilmiş, öz xidmətçiləri olan və günəş ilahisi hesab edilən büt. Bax: [19, s. 819]. Ərəb müşriklərinin sitayiş etdiyi üç məşhur bütdən (Lat, Üzza, Mənat) biri. Quranda iki yerdə (Sad: 3; Nəcm: 19-20) adı çəkilir.

"Kafirin bütxanəsidir dünyanın kaşanəsi,
*Yoxdur imanı anın kim, səcdə qıldı **Lat**ına."* [12, s. 62]

"Qeyrə müqəyyid olma kim, hər nə ki, qeyridir anın,
*Gər həmə kün-fəkan isə, arifi-zata **Lat** olur."* [12, s. 135]

"Çünki sən məhkumi-nəfsi-şumsan, ey bülhəvəs,
*Kimsəyə kafir demə, qoynundakı **Lat**ın nədir?"* [12, s. 149]

"Mülk ilə malik mənəm, mühyüvü halik mənəm,
*Mürşidü salik mənəm, abidi-əsnamü **Lat.**"* [12, s. 182]

"Vəslin hərəm oldu, ey büti-çin,
*Çin eylədi Kə'bə ilə **Lat**ı."* [12, s. 235]

□ **Latü Mənat** – Lat və Mənat bütləri.

"Ey mütəhhər gəldigin dəm çün vücuda anədən,
*Kafirin deyri yıxıldı, titrədi **Latü Mənat**."* [12, s. 186]

Latü Üzza – Lat və Üzza bütləri.

*"Ey **Lata** tapan bibəsər, gəl gör bu mahın surətin,*
*Ta **Latü Üzza** başına deyri-muğanı yaxasan."* [12, s. 82]

2. *məc.* Kə'bə daşı.

"Gəl vəfanın bəhrinə dal, xalid ol,
*Kə'bəyi tanıvü **Lat**a abid ol!;*
Qaf – Qur'andır camalın, bu kəlamı Həq dedi,
*Fi – Fələk dövründə buldu Kə'bənin içində **Lat**."* [12, s. 287]

MƏNAT منات [*ər.* منوة //مناة] İslamdan əvvəl ərəblərdə olmuş bütlərdən biri. Məkkə və Mədinə arasındakı ərazilərdə Xəzrəc qəbilələri

ona ibadət edirdilər. Mənat – "mənnən" kəlməsindən törəmişdir. Bərəkətlənmək niyyəti ilə həmin daşın yanında qurbanlar kəsilərək qan axıdıldığı üçün "axıdılan" mənasını ifadə edən "yumnə" kəlməsindən yarandığı da hesab olunur. Məhəmməd peyğəmbər (s) Əli ibn Əbu Talibi göndərib bu daşı dağıtdırmışdı.

"Ey mütəhhər gəldigin dəm çün vücuda anədən,
Kafirin deyri yıxıldı, titrədi Latü ***Mənat****."* [12, s. 186]

Vəslin hərəm oldu, ey büti-çin,
Çin eylədi Lat ilə ***Mənat****i.* [17, s. 495]

ÜZZA عزّى [*ər.* العزّى *"çox uca, çox əziz"*] Məkkə və Taif arasında olan "Nəhlə" (xurmalıq) vadisində olan bir ağac. Qureyş qəbiləsi bu ağaca sitayiş edirdi. Məkkə fəth edildiyi gün Məhəmməd peyğəmbər (s) onu kəsdirmişdi.

"Ey Lata tapan bibəsər, gəl gör bu mahın surətin
Ta Latü ***Üzza*** *başına deyri-muğanı yaxasan."* [12, s. 82]

YƏZDAN یزدان [*fars.*] Zərdüştilikdə: xeyir ilahisinin adı. // *klas.* Allah, Tanrı.

*"Nə sün'i-paki-****Yəzdan****san, a dilbər,*
Müsəvvərsən, müənbərsən, münəvvər!" [11, s. 203]

"Əvvəlü axırda üzündür, üzün,
*Sün'i-Xuda, qüdrəti-****Yəzdan****ımız."* [12, s. 12]

*"Ey üzün nuri-zati-****Yəzdan****i,*
Vey rüxündür süfati-Rəhmani." [12, s. 53]

"Nəşr oldu, oyan, quruldu mizan,
*Həşr oldu, inan, bilindi **Yəzdan**."* [12, s. 253]

"Çün Nəsimidir bu gün Qur'ani-natiq Fəzl ilə,
*Sirri-**Yəzdan**, nuri-sübhan, qövli-Qur'an oldu faş."* [12, s. 334]

*"Gör bu qüdrət mö'cüzü **Yəzdan** edər,*
Cümlə əşya səndə uş seyran edər." [12, s. 267]

*"Nitqi-Heyyi-Zati-**Yəzdan**dır bular,*
Nuri-Ərşü vəchi-Rəhmandır bular." [12, s. 321]

□ **Fəzli-Yəzdan** – Fəzlullah adındakı ərəb izafətinin ikinci tərəfi olan Allah sözünün Yəzdan ilə əvəz edilməsi. Belə bir əvəzləmələr bütün hürufi şairlərin şeirlərində müşahidə olunur.

"Ey fəqihi-bitəharət, sor bu gün mai təhur,
*Gəl təharət qıl bu gün, kim **Fəzli-Yəzdan** oldu faş."* [12, s. 334]

"Adım Nəsimidir, bu gün oldum kəlami-natiq uş
*Həm ayinə, həm nuri-həq, həm **Fəzli-Yəzdan** olmuşam."*
[11, s. 133]

Məzhəri-Yəzdan – Adəm.

"Tövhidi iki görənə, gözsüz qulaqsız əhvələ,
*Bilsin ki, cümlə kainat bir **məzhəri-Yəzdan** gəlir."* [12, s. 204]

Rəsuli-Yəzdan – Məhəmməd peyğəmbər.

*"Rövzəsinə **Rəsuli-Yəzdan**ın,*
İrdiyincə təhiyyətü səlavat." [12, s. 260]

Surəti-Yəzdan – Allahın surəti Adəm

*"Ey sayeyi-Rəhman mənə, ey **surəti-Yəzdan** mənə,*
Dutdum üzüm səndən sənə, çün əhli-iman olmuşam." [12, s. 117]

"Ol qabü-qövseynə irən, ol surəti ziba görən,
*Həm surəti-ziba mənəm, həm **surəti-Yəzdan**ıyam."* [12, s. 99]

DEMONONİMLƏR
(mələklərin, cinlərin adları)

CƏBRAİL/CƏBRƏİL جبرائيل [*ər.*] Peyğəmbərlərə əmr və vəhylərin vasitəçisi və məmuru olan dörd böyük mələkdən (Cəbrail, Əzrail, Mikail və İsrafil) biri.

"İstiva sirrinə yol buldu üzündən ta ana
***Cəbrail** çəkdi Büraqı mindi getdi çün üqab."* [12, s. 179]

*"Xirəddir **Cəbrail**, Mürsəl dilimiz*
Könül içrə durar razi-nihanım." [12, s. 328]

*"**Cəbrəil**əm, həm Mikail, İsrafiləm, Əzrail*
Nazirəm, hər yerdə hazir, mən Həqin kimyasiyəm." [12, s. 108]

"Laməkanın aləmin gər seyr edərsəm nə əcəb
***Cəbrəil**əm, ruhi-qüdsün pərrü balı məndədir."* [12, s. 162]

"Seyyidin şe'ri sənin vəsfində mö'cüzdür tamam
*Bilmənəm ruhülqüdüs tə'lim edər, ya **Cəbrəil**."* [12, s. 331]

*"Həmdəm nə rəsm ilə ola **Cəbrilə** Əhriman*
Munis nə vəch ilə ola tuti ilə qürab." [12, s. 178]

CİN جن [*ər.*] Dinə görə, atəşin alovundan yaradılan, hər şəklə girə bilən, evlənmə, yemə-içmə, çoxalmaları olan və başqa məkan ölçüsündə yaşayan gözəgörünməz mövhumi varlıq.

"Alim olandurur qəvi insan
*Divü ifritü **cin** cəhalətdir."* [12, s. 28]

"Surətin eşqi kimin kim, qılmadı canında kar
*Şol gəzən cismindəki mə'nidə **cin**dir, can degil."* [12, s. 198]

"Tutma Şeytani-rəcimin qövlünü, Rəhmana uy
*Kim, uyan Şeytana **cin**dir, tabeyi-Rəhman degil."* [12, s. 199]

*"Qalu bəladə "la" deyən canlar ki adı **cin**dürür*
Ol bibəsər bu dünyadan bican gedər, bican gəlir." [12, s. 201]

□ **İnsü cin –** *insan və cin.*

*"Hüsnünə cümlə məlaik, **insü cin***
Səcdə qıldı, qeyri şeytanir-rəcim." [12, s. 289]

DİV دیو [*fars.*] Fars mifologiyasında müsbət qəhrəmanlara qarşı qoyulan çirkin, eybəcər, həddən artıq cəsamətli, buynuzlu əfsanəvi vücud, heyvan. // Şeytan. Nəsiminin şeirlərində "div" məhz Şeytan mənasında işlənir.

*"Müləvvəslər, cəhillər **Div**ü Şeytan*
Ariflərdir mələk əhli-imanım." [12, s. 328]

"Ey Süleyman məntiqindən quş dilin ögrənməyən
***Div**ə uymuşsan, anunçün tabeyi-əfsanəsən."* [11, s. 165]

*"**Div**i-naməhrəm ki, dutmaz ismi-ə'zəmdən xəbər*
Əhriməndən rəhməti-rəhman umarsan, nə əcəb!" [12, s. 177]

"Fəqih adəmdən ürkər, səcdə qılmaz
*Bu **Div**in xilqəti əmmara bənzər."* [12, s. 51]

□ **Divi-dun** – alçaq div; aşağıda, cəhənnəm qatında olan Şeytan.

*"**Divi-dun** oldu, əzimi bilmədi*
Məzhəri-zati-qədimi bilmədi." [12, s. 304]

Divü xənnasü həsud – paxıl şeytan.

"Qıldı gədayi müğtənim Fəzli-Xudanın ne'məti
*Ey **Divü xənnasü həsud**, gör kim, ana eyşxan gəlir."* [12, s. 203]

Divi-ləin – məlun, lənətlənmiş div.

"Şeytan siratı görmədi üzündə yarın müstəqim
*Yalğunə qeyyəndir cəza **Divi-ləin**in zallına."* [12, s. 63]

Divi-məl'un – lənətəgəlmiş şeytan.

"Mah-rüxsarın qatında kim ki, səcdə qılmadı
***Divi-məl'un**dur yəqin, anın adı şeytan olur."* [11, s. 225]

*"**Divi-məl'un**dur, saqın, əmmarə nəfsin mərkəbi*
Minmə, gər azğun degilsən nəfsi-şumun atına!" [12, s. 62]

"Fəqih, ey əhsəni-surət, səni məscud əgər bilməz
*Bu asi **divi-məl'un**un xətası rəhbərindəndir."* [11, s. 276]

"Mənliyindən keçməyən şeytan olur
***Divi- mə'lun**dur, qaçan insan olur?"* [12, s. 318]

*"**Divi-məl'un** dutmuş idi aləmi,*
Cümlə div idi, yox idi adəmi." [12, s. 324]

Divi-pəlid – murdar şeytan.

"Üzünə, ey nuri-həq, səcdə qılan ta əbəd,
Adı mələkdir anın, divi-pəlid olmadı." [11, s. 105]

Divi-rəcim – qovulmuş div.

*"**Divi-rəcim**i adəmə həmsöhbət etməyə*
Sahibnəzər bilir ki, xətadır, degil səvab." [12, s. 178]

*"Üzünə qarşı sücudu etmədi **divi-rəcim**,*
Dedi: Mən oddanəm, anı görərəm üştə türab." [12, s. 334]

*"**Divi-rəcim**ə, ey könül, etmə dəxi mütabiət,*
Tanrı sözün eşit, derəm, sidq ilə qıl mülazimət." [12, s. 190]

Divi-zahirbin – yalnız zahiri görə bilən div. Bəsirət gözü bağlı olan div.

"Tə'n edərsə gər bizə nadanü ə'ma qəm degil,
***Divi-zahirbin** nə bilsin sirri-napeydamızı."* [12, s. 33]

ƏZAZİL عزازيل [*ər.* عزازيل Əzazil < *ivr.* עזאזל Aze'ezel] İblisin (şeytanın) mələk kimi əsas hesab edilən və Allaha üsyan etməzdən əvvəlki adı.

Yəhudi və xristian qaynaqlarında bu ad Əzazil, Azael, Hazazel şəklində işlənir. Quranda Əzazil sözünə rast gəlinmir, amma Məhəmməd peyğəmbərin tanınmış səhabəsi, islam alimi və fəqihi Abdullah ibn Abbas ibn Əbdülmüttəlibin (687-ci ildə vəfat etmişdir) rəvayətlərindən gələn təsir kimi qeyd edilir. Təbəri və İbn Əbi Əd-Dünyaya görə, İbn Abbas demişdir: "Mələklərlə birlikdə olan İblisin adı ilk öncə Əzazildir."

*"**Əzazil**in sözün dutma, anın vəsfasına uyma*
Ki, İblisə uyan olmaz könül məqsuduna vasil." [12, s. 106]

*"Çün **Əzazil** əhsəni-təqvimə baş endirmədi,*
Anda sirri-Kə'beyi-hənnan umarsan, nə əcəb!" [12, s. 177]

"Sən əhsənsurətə inkar edənlər,
***Əzazil**dir ki, düşdü tanrıdan dur."* [12, s. 197]

*"Ey Həqdən irağ olan **Əzazil**,*
Gər div degilsən, adəmi bil!" [12, s. 252]

ƏZRAİL عزرائيل [*ər.* عزرائيل < *ivr.* אוּרִיאֵל Auriel "*Allahın odu*" <*ivr.* ʾÛrîʾēl] Ölüm mələyi.

*"Cəbrəiləm, həm Mikail, İsrafiləm, **Əzrail**,*
Nazirəm, hər yerdə hazir, mən Həqin kimyasiyəm." [12, s. 108]

*"Təvəhhüm **Əzrail**, fəhmim Mikail,*
Ki, İsrafildürür niqti-zəbanım." [12, s. 328]

HARUTÜ MARUT هاروت و ماروت[*ər.*] İnsanlara sehr, cadu öyrətdikləri üçün Allah tərəfindən cəzalandırılmış iki mələk – Harut və Marut. "Əhməd bin Hənbəlin "Müsnəd" əsərində Abdullah bin Ömərin nəql etdiyi hədisə

görə, mələklər Allah-taalaya insanlardan daha çox itaətkar olduqlarını sübut etmək istəyiblər. Bu məqsədlə Allahın izni ilə Harut və Marut seçilərək Yerə göndərilir. Yerdə Zöhrə adlı qadın onların qarşısına çıxır. Mələklər ona sahib olmaq istədiklərini bildirdikdə Zöhrə qarşılarına şərt qoyur ki, Allaha şərik qoşsunlar. Amma mələklər bu təklifi rədd edirlər. İkinci dəfə qadın bir uşaq gətirir və onu öldürmələrini istəyir. Mələklər bunu da rədd edir. Nəhayət, Zöhrə onlara şərab içmək təklif edir. Onu içən mələklər günahlar törədirlər. Başqa bir rəvayətə görə, Zöhrə onlardan ismi-əzəm duasını öyrənərək göyə ucalıb və Zöhrə ulduzuna çevrilib, Süleyman peyğəmbər isə bu iki mələyə dünya və ya axirət əzabı arasında seçim etməklərini istəyib. Harut və Marut bu dünyada cəza çəkmək istəyiblər. Bundan sonra onlar Babil quyusunda başıaşağı asılıblar. Bir başqa əsatirdə isə deyilir ki, guya yerə üç mələk enibmiş. Onlar insandan daha dözümlü və səbatlı olduqlarını sübut etmək istəyirmiş. Mələklərdən biri çox tezliklə səhvini başa düşüb və geri qayıdıb. Qalanlar isə Harut və Marut imiş. Onlar gözəl qadınlara aludə olub, sonra bütpərəstliyə meyl ediblər, qətl törədiblər və s." [66].

*"Gözün sehrindən ol **Harutü Marut**,*
Asılmış çahi-Babildə, yeridir." [11, s. 254]

İBLİS ابليس [*ər.* < *ivr.*] Şeytan. Allahın oddan yaratdığı mələk. İblis Allahın əmrinə qarşı çıxmış və Adəmə baş əyməmişdir. Buna görə də Rəbbin dərgahından qovulmuşdur.

*"Gər desəm həqsən, nigara, qüssədən **İblis** ərir,*
Vər desəm insan, bu sığmaz əqlə kim, insan budur." [12, s. 159]

"Ənbiya bir nöqtədən məhşuz imiş,
*Bu xəbər **İblis**dən məhfuz imiş."* [12, s. 278]

"Ənbiya bu nöqtədən məlfuz idi,
*Bu xəbər **İblis**dən məhfuz idi."* [12, s. 302]

İSRAFİL اسرافيل [*ər.*] Dini əfsanələrə görə, dörd böyük mələkdən (Cəbrail, Əzrail, Mikail və İsrafil) biri. "Onun vəzifəsi kainatda həyatın yaranması və məhv olması xəbərini verən böyük şeypuru çalmaqla dünyanı oyatmaqdan ibarətdir. "İsrafilin suru" ifadəsi də onunla əlaqədardır. Birinci peyğəmbər sayılan Adəmə iki dəfə səcdə edən İsrafil olmuşdur." [27].

"Çün ənəlhəq söyləyən Mənsurdur,
*Gəldi **İsrafil**, əlində surdur."* [12, s. 269]

"Həq-təala pərdəsiz oldu əyan,
*Sur uruldu suri-**İsrafil** oyan."* [12, s. 294]

"Həq götürdü pərdəyi, oldu əyan,
*Suruna urdu dəm **İsrafil**, oyan."* [12, s. 295]

*"Oldum **İsrafil**ü həm sur olmuşam,*
Gör ənəlhəqdən nə Mənsur olmuşam." [12, s. 289]

"Təvəhhüm Əzrail, fəhmim Mikail,
*Ki **İsrafil**dürür niqti-zəbanım."* [12, s. 328]

*"Qamu əşya suri-**İsrafil**dən uş natiq gərək,*
Ey yəqin əhli, bu gün nitqi-Süleyman oldu faş." [12, s. 334]

*"Xeymeyi-mir'ati-**İsrafil**ü İsa hikmətin,*
İstər isən gəl təvaf et məscidi-Əqsamızı." [12, s. 354]

*"Cəbrəiləm, həm Mikail, **İsrafil**əm, Əzrail,*
Nazirəm, hər yerdə hazir, mən həqin kimyasiyəm." [12, s. 108]

"Lövhi-məhfuzu mənəm, ruhül-əminin həmdəmi,
*Həşr üçün mizanü **İsrafil**ü həm sur olmuşam."* [12, s. 116]

MİKAİL ميكائيل [*ər.*] Ruzilərin bölüşdürülməsi ilə məşğul olan 4 böyük mələkdən biri.

*"Cəbrəiləm, həm **Mikail**, İsrafiləm, Əzrail*
Nazirəm, hər yerdə hazir, mən həqin kimyasiyəm." [12, s. 108]

*"Təvəhhüm Əzrail, fəhmim **Mikail***
Ki, İsrafildürür niqti-zəbanım." [12, s. 328]

RİZVAN رضوان [*ər.*] Cənnətin gözətçisi və qapıçısı olan mələyin adı.

"Cənnəti-ədnin gülüstanı rüxündür, şək deyil
*Ey gülüstanında ruhüllahi-**Rizvan** əndəlib."* [12, s. 26]

*"Gəl, ey aşiqlərin **Rizvan**ı – hüsnün*
*Ki, sənsiz aşiqə **Rizvan** gərəkməz."* [11, s. 70]

*"**Rizvan** idim əzəl günü ol rövzəyi görüb*
Hurü behiştü dari-səlam olmadan hənuz." [11, s. 72]

*"Camalın rövzeyi-**Rizvan** deyilmi?*
Dodağın çeşmeyi-heyvan deyilmi?" [11, s. 210]

"Lətifim, nazikim, xubim, həbibim, türfə məzbubim
*Hicazım, Kə'bəvü Turim, behiştim, hurü **Rizvan**ım."* [11, s. 125]

*"Uçmaq ilə **Rizvan** mənəm, damu ilə niran mənəm*
Dana ilə nadan mənəm, həm inü həm an olmuşam." [11, s. 135]

"Nurumsan, zülmətim, narım, şəbimsən, rövşənim, şəm'im
*Münəvvər nurumü hurim, nəimü xüldü **Rizvan**ım."* [11, s. 143]

*"Rövzeyi-**Rizvan**ə də'vət qılma, ey zahid, məni*
Çün mən ol dərgahdan səhni-gülüstan bulmuşam." [11, s. 146]

"Eynimdə sənsən rövşəni, könlüm dilər görmək səni
*Ey hurieyn **Rizvan** ilə hüsnündə heyran, qandasan?"* [11, s. 151]

RUHÜL-ƏMİN روح الأمين[*ər.*] Güvənilən ruh. Bu ifadə Quranda Cəbrayıl üçün işlənir (əş-Şuəra, 26/193).

"Bəzmində əzəl saqisi lə'lin mana sunmuş,
*Ol badəyi kim, **Ruhül-əmin**dir dolu camı."* [11, s. 99]

*"**Ruhül-əmin**ə sordum əsrarını dodağın,*
Nitqi dutuldu, qaldı ol bu sual içində." [12, s. 66]

Yarəb, ey sərvi-rəvan, hüsnün nə gülşəndir kim, ol,
*Bülbüli-**Ruhül-əmin**in bağı həm bostanıdır."* [11, s. 261]

"Nigaran nərgisi-məsti nə fəttan eyn imiş gör kim,
*Necə **Ruhül-əmin** əsrük xumarın əbhərindəndir."* [11, s. 276]

ŞEYTAN شيطان [*ər.*] Şəri təmsil edən varlıq. Quranı-kərimdə 88 yerdə adı çəkilir.

"Sufimidir ol cami-müsəffasına məşğul
*Pünhani içər eylə ki, **Şeytan** bilir ancaq."* [11, s. 28]

"Dilbəra, könlündə yoxdur aşiqə qılmaq vəfa
*Xeyri qoymaz miskinə qılmağa **Şeytan** sizlərə."* [11, s. 20]

"Hər salikin kim, ayağı mərdanə basmaz bu yola
*İmanidən ayrı düşər, ol kafirü **Şeytan** gəlir."* [12, s. 202]

"Bundan da ayrı bir kamal olurmu kim, ol zülcəlal
*Aydır ki, mən sənsən, həmin **Şeytan**a ol üsyan gəlir."* [12, s. 204]

*"Budur, səbəb qəhr etməyə **Şeytan**ı ol lütf issi kim*
Bu cavidani ne'mətə gör kim, necə küfran gəlir." [12, s. 204]

*"Qıl həzrətinizdən anı mərdud çü **Şeytan***
Ol üzü qərani." [12, s. 207]

"Zey – Zaval irmiyə bu din mülkünə
*Rey – Rəfiq olmayacaq **Şeytan**a mən."* [12, s. 225]

"Bunların əslini nədəndir bil
*Gər nə **Şeytan**san, olma əgridil!"* [12, s. 249]

"Kim ki, bildi buları, insandır
*Bilməyən anı bil ki, **Şeytan**dır."* [12, s. 250]

MİFOANTROPONİMLƏR
(peyğəmbərlər və əfsanəvi şəxslərin adları)

ADƏM آدم [*ər.* آدم Adəm <*ivr.* אדמה a'dam *"torpaqdan yaradılmış"*]
1. Adəm peyğəmbər. Təkallahlılıqda Tanrı tərəfindən yaradılmış ilk insan.

2. *hüruf.* "Hürufî ontolojik anlayışında hz. Adəm mərkəzdə yerləşir. Bunun səbəbi Allahın təcəllisinin zahir olduğu ən üst səviyyə varlığın məhz hz. Adəm olmasıdır. O, yer üzündə Kəbə, səmada beytülməmur və Ərş, cənnətdə sidrətül-müntəhadır. Eyni zamanda Lövhi-məhfuz surətindədir. Beytülməmur Kəbənin göy üzündəki əvəzidir. Buna görə də ilk yaradılışından etibarən mələklər göy üzündə ona səcdə edirlər. Yer üzündə insanlar Kəbəyə səcdə etməklə əslində ona səcdə etmiş olurlar." [31, s. 47].

*"Səcdə edənlər mələkdir **Adəm**ə, ey adəmi,*
Səcdə qıl ixlas ilə, ta görəsən simamızı." [12, s. 33]

*"**Adəm**ün cismivü cani səndən oldu aşikar."* [17, s. 35]

*"**Adəm**in surətinə səcdə qılanlar ki, səni,*
Gördülər surəti-Rəhman dedilər, gerçək imiş." [24, s. 75]

*"Adəməm, həm **Adəm**ə qıldum sücud ixlas ilə."* [15, s. 35]

"Kaf ilə nundan yaratdı aləmi,
*Ərbəin gündə yoğurmuş **Adəm**i."* [12, s. 303]

□ **Adəmü xatəm** – peyğəmbərlərin birincisi Adəm və sonuncusu Məhəmməd peyğəmbər.

*"Gah **Adəmü xatəm** olur, gah İseyi-Məryəm olur,*
Gah Nəmrudü Fir'on olur, gəh Museyi-İmran gəlir." [12, s. 203]

ASƏF آصف [*ər.*] Süleyman peyğəmbərin çox ağıllı və tədbirli vəziri // *məc. klas.* Ağıllı, tədbirli.

Ey Nəsimi, Həq Süleyman mülkünü verdi sana,
*Hər sözün min **Asəfi**-sahibvəzarətdir bu gün."* [11, s. 178]

AZƏR آذر [*fars.* "qızıldan parlaq"] Quranda (6: 74) İbrahim peyğəmbərin atası kimi qeyd edilən şəxs. Nəmrudun zamanında Babilin Ur şəhərində yaşadığı güman edilir. Rəvayətlərə görə, o, bütpərəst dininə sitayiş etmiş, bütlərin düzəldilməsi və satışı ilə məşğul olmuşdur.

*"Həm büti-uşadıcı, həm **Azər**əm*
Həm hidayət eylərəm, həm azərəm." [12, s. 288]

*"Ey büti-maçinə tapan, **Azər** idin Nəmrud ilən,*
Eşqə Xəliləm demə çün, gül kimi narın yox imiş." [12, s. 233]

□ **Azəri** آذري Azərə aid olan, Azərin düzəltdiyi. *b a x* **Azər.**

Surəti-Həqsən, ey Qəmər, pərdəsiz eylə üzünü,
*Ta büti-**Azəri** yazan nəqşi-xəyalə düşməyə;*

Düşərəm oda göricək bu məlaknijad huri,
*Əcəba, bu Çin bütünün üzü nəqşi-**Azəri**mi?*

BİLQEYS بلقيس [*ər.* بَلْقِيس] Rəvayətlər əsasında Səba krallığının qadın hökmdarı. Quranın Nəml surəsində onun günəşə sitayiş edən bir tayfaya başçılıq etdiyi göstərilir. Süleyman peyğəmbər Bilqeysi öz

yanına dəvət etmiş və o, peyğəmbərin hüzurunda olarkən imana gəlmişdir. Bu hadisələr Quranda Nəml surəsinin 20-44-cü ayələrində anılmaqdadır.

*"Hüdhüdü **Bilqeys**ə rəsul eylədi,*
Naməni göndərdi Süleymanımız." [12, s. 13]

*"Həm mənəm **Bilqeys**i-dövran, insü cinnüvəhşü teyr,*
Həm Süleymani-zamanam, həm anın dəsturuyam." [12, s. 113]

CƏM جم [*fars.*] B a x **Poetik obrazların adları, Cəmşid**. İran mifologiyasına görə, Pişdadilər sülaləsinin dördüncü və ən böyük şahı olan Cəmşidin əsl adı.

*"**Cəm** ol arifdir, ey dilbərd kim, oldu*
Üzün ayineyi-geytinüması." [12, s. 51]

"Çü bilirsən sərəncamı, keçirmə püxtədən xamı,
*Qənimət gör bu əyyamı, bu gün sən camı çək **Cəm**dən."* [12, s. 70]

DAVUD داود [*ər.* <*ivr.* דָּוִד Davíd] İsrail oğullarının hökmdarı və peyğəmbəri. Yaqub peyğəmbərin oğlu Yəhudanın nəslindən gəlib, Süleyman peyğəmbərin atasıdır. "İşmuil peyğəmbərin vəfatından sonra ona peyğəmbərlik verilmiş və qaynatası Talutun ölümündən sonra da İsrail oğullarına hökmdar olmuşdur. Gözəl səsi və şairlik qabiliyyəti olmuşdur. Bir möcüzə olaraq əlləri ilə dəmiri mum kimi yumşaldıb dəmirdən zireh düzəldərmiş. Öz əli ilə qazandığı ruzi ilə dolanar, dövlət xəzinəsindən istifadə etməzmiş. Adil hökmdar olmuş, Qüds şəhərini fəth edərək paytaxta çevirmişdi." [4, s. 601].

*"**Davud**am, xətmi-Süleyman, məndədir məcmui-zat,*
Həm mənəm mehri-Xudavənd, divlərin ustasıyam." [12, s. 108]

"Eşqi-Həq irdi mütrib ilə çü saz,
*Nəğmeyi-**Davud** ilə gəldim baz."* [12, s. 239]

DƏCCAL دجّال [*ər.*] **1.** Dini inanclara görə, Qiyamətə yaxın dövrdə Qiyamətin əlamətlərindən biri olaraq insanları aldatmaq, yolundan azdırmaq üçün ortaya çıxacağı xəbər verilən, çox pis, fəsadçı və yalançı bir şəxs. Yəhudilər onu Armilus, xristianlar isə antixrist adlandırırlar. Dəccal sözü Qurani-kərimdə işlənmir. Amma Məhəmməd peyğəmbər onu "əl-məsihud-dəccal" və "məsihud-dalalə adlandıraraq təsvirini belə vermişdir: "Həmsöhbətini aldatmaq məqsədilə gözəl sözlər söyləyən, bir qaşı və gözü olmayan pis adam".

2. *məc.* Yalançı, fırıldaqçı.

"Tövhidi-xalisdir mana görmək camalın, ey sənəm
*Ölsün həsəddən müşrikin, lə'nət qamu **dəccal**ına."* [12, s. 64]

"Şol cahilü müşrik olan, ol kafirü əbtər olan
***Dəccal**a oldur xər olan, görməz ki, ol canan gəlir."* [12, s. 201]

*"**Dəccal** tə'nəsindən xövf eyləməz Nəsimi*
Niçün ki, ruhi-qüdsə övnü müin Xudadır." [12, s. 19]

FİR'ON فرعون [*ər.*] Musa peyğəmbərin zamanında yaşamış Misirin zülmkar, allahlıq iddiasında olan hökmdarı. Musa doğularkən Firon qorxunc bir yuxu görür. Yuxuyozanları İsrail oğulları arasında gələcəkdə onu məhv edəcək bir oğlan uşağı dünyaya gəldiyi xəbərini verirlər. Hökmdar yeni doğulmuş bütün oğlan uşaqlarını tapıb-öldürməyi əmr edir. Bunu eşidən Musanın anası uşağı taxta qutuya

qoyub Nil çayına buraxır. Fironun arvadı Asiya çayda üzən qutunu görüb gətizdirməyi əmr edir. İllərdir övladı olmayan hökmdarın xanımı körpəni gördükdə qəlbində ilahidən gələn sonsuz məhəbbət yaranır. Beləliklə, Allaha hiylə gəlmək istəyən Fironun düşməni onun sarayındaca böyüyüb boya-başa çatır və bir gün həqiqətən də Misir hökmdarının məhv olmasına gətirib çıxarır.

"Çün Turi-vücudunda təcəlli edəməzsən
***Fir'on** ilə sən Musiyi-İmran olamazsan."* [12, s. 81]

"Gah Adəmü Xatəm olur, gah İseyi-Məryəm olur
*Gəh Nəmrudü **Fir'on** olur, gəh Musiyi-İmran gəlir."* [12, s. 203]

HƏVVA حواء [*ər.* < *ivr.* חוה xa'va *"həyat verən"*] **1.** İnsan nəslinin anası, Adəmin zövcəsi. Dini əsatirə görə, Adəm cənnətdə yuxuda olarkən sol qabırğasından alınan bir sümükdən Həvva yaradılmış və bu əməliyyatdan Adəm heç ağrı hiss etməmişdir. Tövrata görə, Həvvaya adını Adəm verib. Adəmi cənnətdə günaha sövq edən də Həvva olmuşdur.

Bu asi qulların cürmü cahana imdimi gəldi,
*Bizə ol dəmdə qalıbdır günah **Həvva**vü Adəmdən.*

2. *hüruf.* "Həvva" adının rəqəmlə ifadəsi 21-dir. Deməli, behişt əhli Həvva surətində, yəni sadə olacaqdır [Cavidannameyi-kəbir. Fəzlullah Hürufi. Kembric. E. 1. 27. v. 359ª]. "Fatihə surəsi 21 növ hərfdən ibarətdir, ancaq bu Həvvanın 21 xəttidir ki, həqiqi Fatihətül-Kitabdır. Həvvanın üzündəki 21 xətt bunlardır: 7 ümmi xətt, bu 7 ümmi-xəttin məhəlli və 7 abavü xəttin məhəlli." [44, s. 218].

"Zülfü qaşü kirpigin gördükcə adam məst olar,
*Fitnələr çünkim qopar, ol surəti-**Həvva**yı gör."* [12, s. 141]

"Pərdə götrüldü üzündən dilbərin,
Üzü göründü üzündən dilbərin,
Gənc zahir oldu, ey gənc istayən,
*Adəmü **Həvva** üzündən dilbərin."* [12, s. 285]

XIZR, XİZR خضر [*ər. "yaşıl adam; yaşıl, yaşıllığı çox olan yer"*] **1.** Türk, islam və yaxın şərq inanclarında adı çəkilən və diri olduğu bildirilən peyğəmbərlərdən biri. "Qurani-Kərimdə adı və peyğəmbər olduğu barədə işarələr vardır. Şumer mənşəli olması ilə bağlı versiya da var. Şumer dastanlarındakı Xasısatra ilə eyni adam olduğu ehtimal olunur. Ölümsüzlük suyunu içdiyi üçün ölüb yenidən dirilir." [36]. Hara qədəmini basırsa, ora yaşıllığa qərq olur.

*"Abi-heyvan qiymətin heyvana sorma, **Xızr**a sor,*
Çünki idrak eyləməz hər dəgmə heyvan sizlərə." [11, s. 20]

*"**Xızr** əgər zülmətdə istər abını,*
Ləblərindir çeşmeyi-heyvanımız." [11, s. 77]

*"Divin libasını qo, **Xızr** ilə yoldaş ol kim,*
Zülmətdə zahir olmaz heyvana abi-heyvan." [12, s. 71]

"Ləbin abi-həyatındandır, ey can,
*Ki **Xızr** oldu rəvan, billah, degilmi?"* [12, s. 38]

"Mən ol Nəsimiyəm bu gün abi-həyatım içənə,
***Xızr**ın bəqa ömrü mənəm kim, çeşmeyi-heyvanıyam."* [12, s. 99]

*"Dodağın abi-heyvandır, mən anı sormuşam **Xızr**a,*
Və lakin abi-heyvanı qaçan idrak edər heyvan?" [12, s. 83]

2. *məc.* Dirilik suyu mənasında.// Əbədiyyət bəxş edən nitq.

*"**Xızr**ın abi-heyvanı nitqidir anın gəl iç,*
Gör kim, nə həyat axar mərcani-xoşabından." [12, s. 123]

*"Ləblərin çeşməsinə **Xızr**ü Skəndər, Dara,*
Zəmzəmü Kövsər ilə çeşmeyi-heyvan dedilər." [12, s. 132]

"Zülmət içində çeşmeyi-heyvan imiş ləbin,
***Xızr**ın həyatı abi-zülalındadır sənin."* [11, s. 176]

*"Zülhəyat oldu ləbindən **Xızr**ü İsa layəmut,*
Gör bu qüdrət mö'cüzü kim, lə'li sirabındadır." [11, s. 274]

*"Fəzlim mənim, ey **Xızr**ımü ey abi-həyatım,*
Şəmsim mənim, ey bədrimü saçı zülümatım." [12, s. 91]

Xızr abı, Xızrın abı.

"Nəsimi buldu vəslindən həyati-çeşmeyi-heyvan,
*Ki, **Xızr abı** içən, bişək, həyati-canbəqa gəldi."* [12, s. 36]

"Qaluda məni saqi əsritdi şərabından,
*İçirdi ləbi-lə'li **Xızrın** mənə **abı**ndan."* [12, s. 123]

"Nəsimi buldu vəslindən həyati-ceşmeyi-heyvan,
*Ki, **Xızr abı** icən, bişək, həyati-canbəqa gəldi."* [12, s. 36]

◊ **Xızrı gör! –** Xızırla görüşüb danışmaq, görüşüb məsləhətləşmək. // şeirdə: Fəzlullahın nitqini dinlə!

"Mişkin saçın zülmatına yol bulmaq istər, ***Xızrı gör****,*
Lə'lin şərabın içmişəm, mən abi-heyvan gəlmişəm." [12, s. 23]

İBRAHİM ابراهيم [*ər.* ابراهيم İbrahim <*ivr.* אַבְרָהָם Avraham] Allahın elçisi peyğəmbər. Quranda digər peyğəmbərlərə nisbətən daha çox hörmətlə yad edilir, Allahın xəlili və dostu məqamına yetişmişdir. "Ona Tanrı tərəfindən əta edilən lütflərdən bir neçəsini qeyd edirik: 1) ülul-əzm peyğəmbərlərdən biridir; 2) nübüvvət məqamını onun nəslində qoymuşdur; 3) ona elm, hikmət, kitab və şəriət vermişdir; 4) öz hidayətetmə mənsəbini ona vermişdir; 5) ona xüsusi salam və təhiyyət göndərmişdir; 6) onu və nəslini öz rəhmət və bərəkəti ilə bürümüşdür; 7) onu təklikdə "vahid ümmət" adlandırmışdır; 8) Kəbəni onun əli ilə tikdirmiş və bütün insanların qibləsi qərar vermişdir; 9) "tövhid" kəlməsinin ucalması üçün isti, yandırıcı ölkədə çəkdiyi əziyyətlərinə "Həcc mərasimi" şəklində şəriət verərək əbədi unudulmaz xatirələrə çevirmişdir" [19, s. 85]. B a x **Ləqəb, təxəllüs və künyələr. Xəlil.**

"Zahidü rə'na yügüşdür Şibliyi-Zünnun imiş,
Adı ***İbrahim*** *çoxdur, nedəyim Ədhəm degil."* [12, s. 330]

□ **İbrahimü Haşim** – Haşimilər ata tərəfdən İbrahim peyğəmbərin oğlu İsmayılın nəsli hesab olunur.

*"Zühuri-nuri-****İbrahimü Haşim****,*
Bədini-Müstafa əzha degilmi?." [12, s. 37]

"Çün Nəsimi sirri ***İbrahimü Haşim****dir bu gün,*
Çün həqqə vasil olubdur, cismü canı qandadır?" [12, s. 165]

İLİYA إيليا [*ər.* إيليا، إلياس < *ivr.* אליהו Elijah, Eliyahu] Bu peyğəmbərin İlyas və ya Xızır peyğəmbər olması haqqında versiyalar mövcuddur. Quranı-kərimdə İlyasın adı iki dəfə – Ənam və Saffat surələrində çəkildiyi halda, İliyanın ismi heç bir surədə yoxdur. İbni Məsud hətta onu İdris peyğəmbər hesab edir. Vəhb isə deyir ki, İlyas Zulkifldir. İbni Abbasa görə, İlyas Xızır peyğəmbərin adlarından biridir. O, Harun İbn İmranın övladlarından biri olub Yəsənin əmisi oğludur. İslam alimlərinin çoxu onun məhz İlyas peyğəmbər olması üzərində dururlar. Rəvayətə görə, İlyas peyğəmbər ərşə çəkilmiş və ya Xızır peyğəmbər kimi dirilik suyu içərək əbədilik qazanmışdır. Xızır quru yerlərin ağası olduğu kimi, İlyas da dəryaların sahibidir. Məhəmməd peyğəmbərin qeyri-səhih hesab edilən hədisinə görə, onlar hər il həcc ziyarətində bir-biri ilə görüşürlər. Bax: [21, s. 374-375].

Nəsiminin aşağıdakı beytinə əsasən belə nəticəyə gəlmək olur ki, o, Xızır və İliyanı (İlyası) eyni bir şəxs hesab edir.

"Bu ikidə birligin səbatı,
Xızr oldunü daxi ***İliya****san."* [12, s. 232]

İMRAN عمران [*ər.* < *ivr.* עַמְרָם Amram] Quran təfsirçiləri arasında İmranın şəxsiyyəti barəsində iki versiya mövcuddur: 1) Musa peyğəmbərin atası kimi; 2) həzrət Məryəmin atası kimi. Quranın Ali-İmran surəsinin 33-35-ci ayələrində deyilir: "(33) Allah Adəmi, Nuhu və İbrahim övladını və İmran ailəsini aləmlər (məxluqat, insanlar, bəşər övladı) üzərində (üstün) etdi; (34) Onlar, biri digərindən törəmiş bir nəsil idilər. Allah eşidəndir, biləndir!; (35) (Ya Rəsulum!) İmranın zövcəsinin (Hənnənin): "Ey Rəbbim, bətnimdəkini Sənə xidmətkar olmaq üçün nəzir edirəm. (Bu nəziri) məndən qəbul et! Əlbəttə, Sən eşidənsən, bilənsən" – dediyini xatırla!" [19, s. 53]. Sonuncu ayədə "İmranın zövcəsi" ifadəsi işlədilir ki, bu da həzrət

Məryəmin anasına işarədir.

Bibliyada Məryəmin valideynlərinin adına təsadüf edilmir. Amma Musa peyğəmbərin atasının adı İmran (Amraam) olaraq göstərilir.

Nəsiminin şeirlərində yuxarıda göstərilən iki versiyanın təsdiqini görmək mümkündür:

1) Musa peyğəmbərin atası kimi. Nəsimidə İmran adının Musa peyğəmbərlə yanaşı işlənmə halları böyük əksəriyyət təşkil edir. B a x **Musa** və **Musi**.

*"**Musa** əzəli qıldı vücudimi əsa çün,*
***Musa** sözünü dünyada, **İmran** dəxi bilməz."* [12, s. 11]

"Gah Adəmü xatəm olur, gah İsayi-Məryəm olur,
*Gəh Nəmrudü Fir'on olur, gəh **Musayi-İmran** gəlir."* [12, s. 203]

*"Hə mənəm **Musayi-İmran**, həm mənəm Həqdən kəlam,*
Həm mənəm Fəzl ilə Rəhman, şəkkərəm, qəndü nabat." [12, s. 187]

2) Həzrət Məryəmin atası kimi. Nəsimi yaradıcılığında bir yerdə İmranın adının İsa peyğəbərlə yanaşı çəkildiyini görə bilirik:

"Laməkanın təxtinə sultan mənəm
Küntə-kənzin sirrinə bürhan mənəm,
*Həmdəmi-**İsa**vü həm **İmran** mənəm*
Cənnətü Baqivü həm Rizvan mənəm." [12, s. 290]

İSKƏNDƏR اسكندر [*ər.* إسْكَنْدَر İskəndər <*yun.* αλέξανδρος Aleksandros *kişi adından < qədim.yun.* αλεξω alekso *"qovmaq, rədd etmək" +* ανηρ, ανδρ- anēr, andr-*"kişi, ər, kişi cinsində olan"*] Klassik ədəbiyyatda adı hallandırılan İskəndər bəzi versiyalara görə, Yəmən hökmdarının oğlu və peyğəmbər olmuş, Xızır və İlyasla birlikdə dirilik suyunu tapmış və hətta Çin səddini

düzəltmişdir. Digər versiyaya görə isə, o, Şərqdə Böyük İskəndər (İskəndəri Kəbir), İskəndəri-Rumi, İskəndəri-Zülqərneyn və Feyləqus (Filipp) oğlu İskəndər kimi adlarla məşhur olan Makedoniyalı İskəndərin (b.e.ə. 356-323) prototipidir. Zülqərneyn Qurani-kərimin Kəhf surəsi, 83-86-cı ayələrində Allah dərgahından elm və hikmət bəxş olunmuş, öz ölkəsini ədalətlə idarə edən bir hökmdar kimi təqdim edilir. A.Bakıxanov onun məhz Makedoniyalı İskəndər olduğunu iddia edərək, yerli əfsanələrə əsasən, Dərbənd qalasının onun tərəfindən təmir edildiyini göstərir. [2, s. 45].

"Klassik ədəbiyyatda İsgəndərin aynası cahanı göstərən bir güzgüdür və bu, birbaşa Makedoniyalı İsgəndərlə bağlıdır. Rəvayətə görə, Belinus, Hermis ve Valines adlı ustalar onu düzəltmişlər. Belə ki, İskəndəriyyəyə gələn gəmiləri bir aylıq məsafədən görə bilərmiş, düşmən gəmilərini isə ayna sayəsində günəş işığından faydalanaraq yandırmaq mümkün imiş. Bir başqa rəvayətdə "mir'ati İskəndər" Hind hökmdarı Qayd tərəfindən İsgəndərə hədiyyə edilmişdir. Bu ayna yalançıların üzünü göstərməzmiş. Dolayısı ilə İsgəndər kimin doğru söyləyib, kimin yalan söylədiyini bu ayna vasitəsilə anlaya bilərmiş. Klassik ədəbiyyatdakı İsgəndərin aynası Allahdan başqa hər şeydən arınan arifin qəlbini, insani-kamilin könlünü simvolizə edir." [40, s. 252]. Aşağıdakı beytdə "ayna", "İskəndər", "Cəm" sözlərinin yanaşı işlənməsi məhz insani-kamilin pisliklərdən arınan könlündən bəhs edildiyini göstərir. Burada İskəndərü Cəm insani-kamildir.

"Hər arifin kim, oldu ayinəsi camalın,
*Aləmdə şək degil kim, **İskəndər**ü Cəm oldur."* [12, s. 166]

QARUN قارون [*ər.*] Musa peyğəmbərin əmisi oğlu (قارون بن يصْهُرَ). Quranda bəni İsrail qəbiləsində həddindən artıq dövlətli, tamahkar və təkəbbürlü bir varlı şəxs kimi təsvir edilmişdir. İncildə Korah adı ilə anılır.

□ **Qarun gənci, gənci-Qarun** – Qarunun xəzinəsi.

*"Bulmuşam mülki-Süleymanı və **Qarun gəncini**,*
Fəzli, Həqdən çün vüsalin mülkü malı məndədir." [12, s. 162]

"Bir qılın qiymətini hər kimə sordumsa, ana
***Gənci-Qarun** ilə min mülki-Süleyman dedilər."* [12, s. 262]

LOĞMAN[1] لقمان [*ər.*] Quranda adına surə olan və həmin surənin 12-13-cü ayələrində haqqında danışılan müdrik bir insanın ismi.[5] Məhəmməd peyğəmbərin hədisindən onun peyğəmbər olmadığı anlaşılır. Saleh və hikmət sahibi olan həzrəti Loğman, rəvayətə görə, Davud peyğəmbərin zamanında yaşamışdır. Hətta Yunus peyğəmbərə qədər 3000-3500 il ömür sürdüyü rəvayət edilir. Tövrat və İncil kimi müqəddəs səmavi kitablarda onun barəsində heç bir məlumat verilmir. "Loğman həkim isminə şumer, yunan, arami, ərəb mədəniyyətlərinin əfsanələrində rast gəlinir" [34, s. 194]. Onun oğluna olan çox önəmli nəsihətləri Quranda yer almışdır. Divan ədəbiyyatında Loğman hər dərdə dəvası olan bir həkim kimi təsvir edilir. B a x **Loğman[2]**.

"Aşiq öz dərdinə çün buldu dərman,
*Həzaran hikməti-**Loğman** irişdi."* [11, s. 88]

MƏRYƏM مريم [*ivr.* מרים , *yun. Μαρία, ər.* مريم] İsa peyğəmbərin anası.

"Səfa bağışlamış bağa səba İsalə̇in dəmdən
*Yaşarmış quru ağaclar netəkim nəxl **Məryəm**dən"* [12, s. 69]

"Ruhülqüdüs dəmindən şol mürdə kim, dirildi
*Mə'nidə şöylə bil kim / İsəbni-**Məryəm** öldür."* [12, s. 166]

[5] Вах: Баранов, Харлампий Карпович (1970). Арабско-русский словарь. 6-е изд., стереотип. II том. М.: «Советская Энциклопедия», 1167 стр.

"Lə'li-ləbinə bəyani-mö'cüz
*Dedi ki, Məsihü **Məryəm** oldu."* [12, s. 233]

"Hər qətrə mühiti-ə'zəm oldu
*Hər zərrə Məsihü **Məryəm** oldu."* [12, s. 251]

*"İsanın əsli bilən **Məryəm**dədir*
Həq Süleyman hakimi xatəmdədir." [12, s. 268]

□ **İseyi-Məryəm** – *Məryəm oğlu İsa.*

*"Nərdiban buldu **İseyi-Məryəm**;*
*Gah adəmü xatəm olur, gah **İseyi-Məryəm** olur."* [12, s. 28]

MUSA موسی [*ər.* موسیٰ < *ivr.* מֹשֶׁה Mose] İudaizmin əsasını qoymuş 5 Ulul-əzm peyğəmbərdən (Nuh peyğəmbər, İbrahim peyğəmbər, Musa peyğəmbər, İsa peyğəmbər, Məhəmməd peyğəmbər) biri. Allah tərəfindən ona Tövrat göndərilmişdir. Dinə görə, Allah ilə birbaşa ünsiyyətdə olmuş yeganə peyğəmbərdir. Bu səbəbdən ləqəbi Kəlimullahdır. Nəsimi Tur dağında saçdığı nurdan atəş şəklində görünən Allah ilə Musanın görüşünü dəfələrlə vəsf edir.

*"**Musa** əzəli qıldı vücudimi əsa çün,*
***Musa** sözünü dünyada İmran dəxi bilməz."* [12, s. 11]

*"**Musa** kimi didarına müştaqsan, gəl üştə gör,*
Anəstünaram, həm şəcər, Musi-bin-İmran gəlmişəm." [12, s. 23]

*"İnşirahi-sədr hasil qılmayan **Musa** kimi,*
Kəsri-əlvah etmədi, görməz yədi-beyzamızı." [12, s. 33]

"Ey Turi-Sina, ərzə qıl həqqin təcəllisin mana,
***Musa** kimi didarına müştaqü heyran olmuşam."* [12, s. 117]

*"Endi İsa, gəldi **Musa**, doldu nur,*
Zahir oldu mö'minə cənnatü hur." [12, s. 169]

"Mən əzəldən məstü sərxoş gəlmişəm,
*Xızra su, **Musaya** atəş gəlmişəm."* [12, s. 289]

*"Həq təcəlli eylədi **Musa** üçün,*
Həm Əristalisü Busina üçün." [12, s. 294]

"Üç yüz altmış mənzili var surunun,
*Bu təcəlli şəhri **Musa** Turunun."* [12, s. 320]

□ **Musayi-İmran** – Musa ibn İmran. Bəzi alimlərin fikrincə, İmran həzrət Yəqub Peyğəmbərin (ə) nəvəsinin nəvəsi, həzrət Musa və Harun Peyğəmbərlərin (ə) atasıdır.

*"Mən ol **Musayi-İmran**am ki, daim aşiqi-Turam,*
Və leykin xeyli müddətdir cənabından ki, məhcuram." [12, s. 97]

Musayi-ləntərani – Quranın Ə'raf surəsi, ayə 143-də Allahın Onu görmək arzusunda olan Musa peyğəmbərə verdiyi cavabından iqtibas edilmişdir: "Sən məni əsla görə bilməzsən." [19, s. 166]

"Nari-cəhimə saldı məni hicri-firqətin,
***Musayi-ləntərani** kimi istərəm nəcat."* [12, s. 185]

Musavü lövh/Lövhi-Musa – *Tövrat.*

*"**Lövhi-Musa** çün üzündən sıydı, açıldı niqab,*
Sirri-tövhidi əyan etdivü götrüldü hicab;

*"Üzündür **lövhi-Musa**, qamətin Tur,*
Xətin Fürqan, üzündür rəqqi-mənşur." [12, s. 196]

*"Tis'ə ayat atəşi **Musavü lövh**ün sirrini,*
Anlayım dersən, gəl oxu sən bizim turamızı." [12, s. 33]

Sonuncu beytdə "Tis'ə ayat" birləşməsi Allahın Musa peyğəmbərə verdiyi doqquz möcüzəni ifadə edir. "Quranın şərhçilərinin yazdığına görə, Musaya verilən doqquz möcüzə bunlar idi: 1) Musanın əlindəki əsa, istədiyi zaman əjdahaya çevrilə bilərmiş; 2) Yədi-beyza – "işıqlı əl", Musa əlini qoltuğu altına salıb çıxartdıqda göz qamaşdıran nur saçırmış; 3) Nil çayı. Bu çay da Musanın əmrinə müti imiş. Ax desə axar, dayan desə dayanarmış; 4) Külək – guya Musanın əmri ilə tufan qoparmış; 5) Uçan çəyirtkələr. Guya bunlar da Musanın əmri ilə o istədiyi yerə hücuma keçər, oranın bitkisini məhv edərmiş; 6) Piyada çəyirtkələr; 7) Aclıq. Guya Musa istədiyi vaxt istədiyi adamları aclığa düçar edə bilərmiş; 8) Qurbağalar; 9) Qan.

Nəsimi yuxarıdakı beytdə sadalanan 9 möcüzənin, Musanın odu və lövhün sirrinin adını çəkərək deyir: bunları bilmək istəyirsənsə, gəl bizim xanəgahımızı ziyarət et." [12, s. 354]

Musaya zəban – həzrət Musa uşaq ikən bir atəş parçasını ağzına aldığına görə pəltək idi. Ona görə də Quranda Taha surəsi, ayə 27-də göstərilir ki, Musa Allaha dua edərək deyir: "Dilimdən düyünü aç" [19, s. 312].

"Mən atəşi-Nuri-Eşqi-Həqqəm,
***Musaya zəban**, zəban mənəm mən!"* [12, s. 25]

MUSİ موسی Musa adının şiə şairlərində müşahidə olunan "Musi" tələffüzü. *B a x* **Musa.**

"Qəmzeyi-çeşmin işarət qıldı əhli-vadiyə,
***Musi**yə gəldi xitabi-lən-təranidən cavab."* [12, s. 180]

*"Həm mənəm **Musi**lə atəş, həm mənəm anəstünar,*
Həm Kəlimin Turiyəm mən, həm təmənna, həm nəcat." [12, s. 187]

"Vəchi-adəmdə otuz iki odu,
***Musi**yə söylədi ənəllah nar"* [12, s. 239]

□ **Musiliqa** موسی لقاء [*ivr.*موسی Musa *+ ər.* لقاء liqa' *"görüş, qarşılama"*] Musanın (Allah ilə) görüşü.

"Xətü xalın kitabını məstur
*Yazdılar rəqq Turi-**Musiliqa**."* [12, s. 241]

NƏMRUD نمرود [*ər.* < *ivr.* נִמְרוֹד Nimrod] İbrahim peyğəmbərin müasiri olmuş bütpərəst Babil hökmdarı (e.ə. 2640). O, İbrahim peyğəmbəri oda atdırmış, məşhur Babil qülləsini tikdirmiş və özünü Tanrı elan etmişdir.

"Bu bidadı mana eşqin qılıbdır,
*Cahanda qılmadı **Nəmrud**ü Şəddad."* [11, s. 32]

"Gah Adəmü xatəm olur, gah İseyi-Məryəm olur.
*Gəh **Nəmrud**ü Fir'on olur, gəh Musiyi-İmran gəlir."* [12, s. 203]

*"Ey büti-maçinə tapan Azər idin **Nəmrud** ilən.*
Eşqə Xəliləm demə çün, gül kimi narın yox imiş." [12, s. 333]

NUH نوح [*ivr.* נֹחַ Noah *"sakitləşdirici"*] Qurana görə, Adəmdən sonra gələn dördüncü peyğəmbər. Dünyanı su basması əhvalatı onun adı ilə bağlıdır.

*"**Nuh**un gəmisin istə kim, yetişdi tufan qopmağa*
Seylabi-şövqü şöylə kim, bu çeşmi-giryan axıdar." [11, s. 195]

"Zülmətəm, mövtəm, məmatam, həm həyatam, həm məmat
*Mö'minə **Nuh**am, nicatam, kafirə tufan mənəm!"* [12, s. 86]

"Qaynadı çün tənurum eşq ilə cuşa gəldi
*Gör bu tufan içində **Nuh**amü həm nicatam."* [12, s. 87]

*"**Nuh** ilə tufan mənəm mən, həm nicatam, həm həlak*
Həm yeməm, həm gövhərəm, həm ol yemin məbhuruyam." [12, s. 109]

"Aşiq ol, eşq ilə bil məntiqi-eşqin dilini
*Mö'minə **Nuh**i-nəcat, kafirə tufan dedilər."* [12, s. 132]

"Bağ ilə bostan mənəm, tazə gülüstan mənəm
*Kafirə tufan mənəm, mö'minə **Nuh**ün-nəcat."* [12, s. 181]

*"Kəştiyi-**Nuh**a ki, hər kim girmədi, oldu həlak*
Gər nicat istərsən, istə sən bizim dəryamızı." [12, s. 34]

SKƏNDƏR سكندر [*yun.* ἀλέξω "qorumaq", ἀνήρ (ἀνδρός) "kişi"] *B a x* **İsgəndər**.

*"Həm Məsihəm, həm **Skəndər**, həm mənəm abi-həyat*
Həm həyati-Xızr buldum, çeşmeyi-heyvan mənəm!." [12, s. 86]

*"Ləblərin çeşməsinə Xızrü **Skəndər***
Dara Zəmzəmü kövsər ilə çeşmeyi-heyvan dedilər." [12, s. 132]

"Ləbin camından ol can kim, Xızırtək irdi məqsuda,
*Çıxa gəldi çü zülmətdən, bu gün adı **Skəndər**dir."* [12, s. 153]

"Can ilə kim ki, könlünü eşqinə qılmadı vətən,
*Divə müsəlləm eylədi məmləkəti-**Skəndər**i."* [11, s. 89]

□ **Skəndərhəşəm** سکندرحشم[*yun.* Skəndər *+ ər*. حشم həşəm "yanında olma; birgəlik, yoldaşlıq"] Yoldaşlıq edən İsgəndər.

"Zülmətdə bu gün çeşmeyi-heyvana irişdi □
*Şol Xızri **Skəndərhəşəm** əlminnətülillah."* [11, s. 304]

SÜLEYMAN سلیمان [*ər.*] Süleyman peyğəmbər. Davud peyğəmbərin oğlu. Atasının ölümündən sonra on üç yaşında ikən onun yerinə taxta çıxmışdır. Bu baxımdan atası kimi peyğəmbərliklə hökmdarlıq vəzifələrini bir arada cəm etmişdir.

"Hüdhüdü Bilqeysə rəsul eylədi,
*Naməni göndərdi **Süleyman**ımız."* [12, s. 13]

□ **Mülki-Süleyman.** Nəsimi Süleyman mülkünün adını çəkir, bəzən dünyanın var-dövlətinə işarə olaraq işlədir, bəzən isə hakimlik anlamında sözün qüdrətini vəsf edir:

*"Çün **Süleyman mülkü**nü qoyduvü getdi dünyadan,*
*Qaldı andan sonra bu **mülki-Süleyman** sizlərə."* [11, s. 20]

*"Nəsimi xəstəyə sənsiz **Süleyman mülkü**nü versən,*
Ol anı bir çöpə saymaz, təmənnayi-vüsal eylər." [11, s. 216]

"Bir qılın qiymətini hər kimə sordumsa ana,
*Gənci-Qarun ilə min **mülki-Süleyman** dedilər."* [11, s. 262]

"Çünki vüsalınlayam leylü nahar, ey sənəm,
*Cami-Cəm uş məndədir, **mülki-Süleyman** nədir?"* [11, s. 222]

"Fəzli-Həqdən Nəsimi, yetdi sana
*Mülkətü xatəmi-**Süleymani**."* [12, s. 54]

*"Ey Nəsimi, Həq **Süleyman mülkü**nü verdi sana,*
Hər sözün min Asəfi-sahibvəzarətdir bu gün." [11, s. 178]

Süleyman peyğəmbər məntiqüt-teyr (quş dili) elminə sahib olmuşdur. Təsəvvüf ədəbiyyatında bu termin məfhumların simvolik təsvirini ifadə edir. Nəsimi özü bu barədə belə söyləyir:

"Xəttü xalın "məntiqüt-teyri"dir əhli-vəhdətin,
Quş dilin sən tərcüman etmək dilərsən, etməgil!" [11, s. 123]

"Heç kimsə Nəsimi sözünü kəşf edə bilməz,
*Bu, quş dilidir, bunu **Süleyman** bilir ancaq."* [11, s. 28]

Təsəvvüfdə quşlar – saliklər, həqiqət yolunda seyrü-sülukun yolçularıdır. Hüdhüd quşları digər quşlara rəhbərlik edən mürşidlər, yol göstərənlərdir, Simurq isə Haqqın özüdür.

"Ey badi-səba, var, xəbəri yarə ilət kim,
*Hüdhüd dilidir bunu **Süleyman** dəxi bilməz."* [12, s. 11]

*"Ey **Süleyman** məntiqindən quş dilin ögrənməyən,*
Divə uymuşsan, anunçün tabeyi-əfsanəsən." [11, s. 165]

Nəsimi Süleyman əleyhissəlamın cinləri, divləri, şeytanları ram edə bilmək bacarığına işarə vurur:

*"Çün **Süleyman** xatəmi buldu,*
Bəs ana cinnü ins rəğbətdir." [12, s. 28]

*"Ey Nəsimi, çün **Süleyman** oldu quş dilin bilən,*
Qafa varıb görmək istərsən bizim ənqamızı." [12, s. 34]

"Gər quşlara tə'limi-zəban etməz olursan,
*Bu ins ilə cins içrə **Süleyman** olamazsan."* [12, s. 81]

"Zülfünü nafeyi-tatara bəha qılma ki mən,
*Qiymətin hər qılının mülki-**Süleyman** demişəm."* [12, s. 96]

*"**Süleyman**am mən, ey arif ki, xatəm məndədir, məndə,*
*Mən anın hökmünə təslim, **Süleyman** mürğü mahıyam."* [12, s. 98]

ŞƏDDAD شدّاد [*ər.*] Yəməndə Ad qövmünün tanrılıq iddiasında olmuş zülmkar hökmdarı. "Şəddad, Ad ibn İrəmin oğullarından biri idi. Qardaşının adı isə Şədid idi. Şəddad atası Adın yerinə keçdikdən sonra Şam, İran, Misir və Hindistanı hakimiyyəti altına almış, abadlıq işlərinə başlamış, tikdirdiyi su bəndləri, bina, köşk və bağçalarla ad qazanmışdı. Bu səbəbdən çox təkəbbürlənmiş və tanrılıq iddiasında olmuşdu, bunu ispat etmək üçün içində saray olan Bağı-İrəmi inşa etdirmişdi. Şəddad və ordusu, Suriyada tikintisi bitmiş İrəm bağına doğru gedərkən yolda həlak olmuşlar. Bu gün böyük tikintilərə "Şəddadi-bina" adı verilməkdədir." [40, s. 423].

"Dabanımdan yardılar başdan ayağa soydular,
*Almadılar dadımı bidadlar, **Şəddad**lar."* [12, s. 313]

"Bu bidadı mana eşqin qılıbdır,
*Cahanda qılmadı Nəmrudü **Şəddad**."* [11, s. 32]

YƏ'QUB يعقوب [*ər.* يَعْقُوب < *ivr.* יַעֲקֹבYakov *"daban"*] Yaqub peyğəmbər. İbrahimin (s) nəvəsi, İshaqın oğlu və İsrailoğullarının Papası yəhudi patriarxı olmuş həzrəti Yaqub Yusif peyğəmbərin atasıdır.

*"**Yə'qub** olub axıtmaz isən xun cigərdən,*
Misrə irişib, Yusifi-Kən'an olamazsan." [12, s. 81]

□ **Yə'qubi-Kən'an –** Kənanlı Yaqub. Kənan Yaqub peyğəmbərin vətəninin adıdır.

*"**Yə'qubi-Kən'an** Susadım vəslini görməkliyə, ey cani-cahan,*
Şöylə kim, Yusif üçün Yə'qubi-Kən'an susadı." [11, s. 109]

YUSİF يوسف [*ər.*] Quranda adı çəkilən İsrail peyğəmbərlərindən biri. Həzrəti Yusif Yaqub peyğəmbərin on bir oğlundan biri idi. Onun digər Allah elçilərindən əsas fərqi çox gözəl xarici görünüşə və yuxuyozma qabiliyyətinə malik olmasıdır. Fələstində doğulub boya-başa çatan Yusif qardaşlarının məkri ilə quyuya atılır və quldarlar tərəfindən tapılaraq Misirdə qul kimi satılır. Lakin illər sonra yuxuyozma qabiliyyəti sayəsində Misir fironunun vəziri vəzifəsinə qədər yüksəlir.

*"**Yusif**i-Misri canü dil, yə'ni ki, Fəzli-Zülcəlal*
Gəldi səfavü zövq ilə şəhri-bədən sərayinə." [11, s. 41]

"Susadım vəslini görməkliyə, ey cani-cahan
*Şöylə kim, **Yusif** üçün Yə'qubi-Kən'an susadı."* [11, s. 109]

"Gəh çıxmışam İsa kimi, çərx üstünə oturmuşam
*Gəh varmışam **Yusif** kimi, Misirdə sultan olmuşam."* [11, s. 135]

*"**Yusif**im, Misrim, Əzizim, dövlətim, başım tacı*
Şəkkərü qəndü nabatım, türkü tatarım mənim." [11, s. 148]

*"Yanağın şəm'inə hüsnü **Yusif**in pərvanədir*
Çox könüllər yağmalandı sən üzü mehparədən." [11, s. 154]

"Doldu könlüm Kə'bəsi nuri-səfa ilə, yəqin
*Hüsnü **Yusif**, xülqü Əhməd, nitqi İsadır gələn."* [11, s. 167]

*"Piri-Kən'anın əzizi, Misri-hüsnün **Yusif**i*
Üzünə baxın, zənəxdadındakı çahı görün!" [11, s. 179]

*"Xəlayiqlər xəyal eylər ki, hüsnün **Yusif**ə bənzər*
Əzizim yeydürür, billah, bu el yanlış xəyal eylər." [11, s. 214]

*"Gəl, ey tacir, uş **Yusif**i satın al*
Ki, kanında qiymətsiz olur göhər." [11, s. 239]

"Yə'qubsifət qılma məni zarü pərişan
*Ey **Yusif**i-sani!"* [12, s. 207]

□ **Yusifi-Kən'an** – *b a x* **Kən'an.**

ZƏKƏRYA زكريّا İsrail oğullarına göndərilən Zəkəriyyə peyğəmbər. Əhdi Cədidə görə, bu peyğəmbər həzrəti İsanın anası Məryəmin xalasının əri olmuşdur. Quranda onun Məryəmi himayəyə götürməsi, Allahdan

övlad istəməsi və Tanrının ona Yəhya adında oğlu olacağı ilə müjdə verməsi təsvir olunur. Nəsimi aşağıdakı beytdə Zəkəriyyənin şəhid edilməsinə işarə edir. Rəvayətə görə, hökmdar tərəfindən təqib edilən peyğəmbər qaçaraq ağacın arasında gizlənir. İnsan surətinə girmiş Şeytan məmurlara bələdçilik edir və onları ağacın yanına gətirir. Məmurlar ağacı Zəkəriyyə peyğəmbərlə birlikdə mişarla kəsib ikiyə bölürlər.

*"Gər **Zəkəriya**tək məni başdan ayağa yaralar*
Başıma ərrə qoya nəccar, səndən dönməzəm." [11, s. 130]

MİFOTOPONİMLƏR
(mifik coğrafi adlar)

Mifooronimlər
(dağ, vadi adları)

KUHİ-QAF – Qaf dağı (Qafqaz dağları nəzərdə tutulduğu güman edilir). B a x **Qaf**

*"Eşq imiş Simurğü aşiq **kuhi-Qaf***
Eşqə sığmaz lafü eşq olmaz gəzaf." [12, s. 279]

*"Eşq ilə hər dəm Nəsimi, seyr edərsən **Kuhi-Qaf**,*
Sənsən ol ali məqamda şəhpəri-ənqayi-eşq." [11, s. 345]

QAF قاف [*ər.*] Üzərində Ənqa quşunun məskun olduğu söylənən əfsanəvi bir dağ. "Amma hürufilər bu dağa ədəbiyyatda istifadə olunan simvolik və əfsanəvi xüsusiyyətindən fərqli bir məna verirlər. Bu

barədə hürufi təfsirinin əsasını hz. Məhəmmədə aid edilən hədis təşkil edir. "Qaf dağı nədir?" sualına hz. Məhəmməd – "Məkkədə bir dağdır", deyə cavab vermişdir. Əbdülməcid ibn Firişdəyə görə, peyğəmbərimiz Qaf dağını öz vücuduna nəzərən söyləmişdir. Çünkü qafın (ق) əbcədi 100-dür, hz. Məhəmmədə nazil olan 28 hərf və bu hərflərin əczasında zahir olan 72 hərfin cəminə bərabərdir. Bu səbəbdən hz. Məhəmməd özünə Qaf demişdir." [44, s. 390].

*"Eşq ilə hər dəm, Nəsimi, seyr edərsən Kuhi-**Qaf**,*
Sənsən ol ali məqamda şəhpəri-ənqayi-eşq." [11, s. 30]

*"Əhli-irfanın məqamı **Qaf** imiş,*
Arifi-rəbb, arifi-ə'raf imiş." [12, s. 278]

*"Bilməyən ol **Qafı** sözü laf imiş,*
Özünü bilən kişi sərraf imiş." [12, s. 278]

"Ey Nəsimi, çün Süleyman oldu quş dilin bilən,
***Qaf**a varıb görmək istərsən bizim ənqamızı."* [12, s. 34]

*"Baxmazam ənqayi-**Qaf**a, qürbəti-Lahuta mən,*
Seyr ilə simurği-eşqəm, pərrü balı məndədir." [12, s. 164]

□ **Qafi-qənaət** – yalnız Qaf dağının nemətləri ilə qidalanan Simurq quşu kimi.

"Ey Nəsimi, həqqi bildin, nəfsi əmmarəni qoy,
*Anı dut kim, buyurar **Qafi-qənaət** bifəna."* [12, s. 173]

SİNA سينا [*ər.* سَيْنَاء] Sina dağı və ya Tur dağı. Misirin Sina yarımadasında yerləşir.

*"Üzündür Turi-**Sina**, rəqqi-mənşur,*
Bilindi üştə gör nuri-əla-nur." [11, s. 250]

*"Ey Turi-**Sina**, ərzə qıl həqqin təcəllisin mana,*
Musa kimi didarına müştaqü heyran olmuşam." [12, s. 117]

"Yədi-beyza imiş hüsnün ki, Musa ana məhrəmdir,
*Təala şanəhü əkbər, bu necə Turi-**Sina**dır?"* [12, s. 126]

*"Ey yanağın Turi-**Sina**, vey xətin həyyi-qədim,*
Ey təcəllidən çü buldu haqqa yol Musa kəlim." [12, s. 355]

TUR[1] طور [*ər.*] **1.** Sina yarımadasında Sina dağı (Musa peyğəmbərlə Allahın ilk danışdığı yer); // Tur surəsinin adı. B a x **Ktematonimlər, İdeonimlər, Quran surələrinin adları, Tur[2].**

2. *hüruf.* "Hürufilərə görə, hz. Musanın Allahı görmək istədiyi Tur dağı insan vücuduna şamildir." [44, s. 85].

"Gərçi mühiti-ə'zəməm, adəm adımdır, adəməm,
***Tur** ilə künfəkan mənəm, mən bu məkana sığmazam."* [12, s. 377]

"Tis'ə ayat atəşi Musavü lövhün sirrini,
*Anlayım dersən, gəl oxu sən bizim **tur**amızı."* [12, s. 33]

*"Əshabi-kəhfin sirrini görmüş liqayi-**Tur**ə sor,*
*Niçün ki, "vət-**Tur**" əhlinin kəhfindədir Qətmirimiz."* [12, s. 79]

Turi-Sina طُورُ سَيْنَاءَ – Sina dağı. ""Tura və sətir-sətir incə dəri üzərinə yazılmış xitaba and olsun." (Tur surəsi, ayə 1-3) Bu ayədəki "incə dəri" Adəmin vücudu və üzünə işarədir. Hürufilər Adəmin üz və vücudundakı xətləri müşahidə etdikləri üçün özlərini böyük mələklərin bir zümrəsi olaraq hesab etmişlər." [44, s. 140].

"Gər sən istərsən həqi bilmək yəqin,
Gəl Nəsimidən apargil rəh bədin.
*Tə'vil eylə ayəti-**Turü Sin**in,*
Gər olam dersən min əshabül-yəqin." [12, s. 294]

*"Üzündür **Turi-Sina**, rəqqi-mənşur,*
Bilindi üştə gör nuri-əla-nur." [11, s. 250]

Turi-Musi/Musiyi-Tur – *məc.* İlahi feyz və təcəllilərin müşahidə olunduğu yer.

*"**Turi-Musi**də bir vərəq buldum,*
Yazılı xətti-ləntərə gördüm." [12, s. 246]

*"**Musiyü-Tur** nədir, Şibliyü Mənsur nədir,*
Əjdəha olan ağac, riştə ilən dar nədir?" [12, s. 15]

VADİYİ-ƏQDƏS وادی اقدص [*ər.*] Ən müqəddəs vadi. *B a x* **Vadiyi-müqəddəs.**

*"Həm mənəm **Vadiyi-əqdəs**, həm mənəm narü şəcər*
Həm mənəm nuri-təcəlla, həm Kəlimin Turuyam." [12, s. 110]

VADİYİ-MÜQƏDDƏS/MÜQƏDDƏS VADİ وادی مقدص [*ər.*] "Müqəddəs çöl", "Müqəddəs vadi". "Dini kitablarda müqəddəs vadi Musanın Allah ilə söhbət etdiyi yerə deyilir." [12, s. 356].

*"Həm mənəm **Vadiyi-müqəddəs**, həm mənəm narü şəcər*
Həm mənəm nurü təcəlli, həm Kəlimin Turiyəm." [12, s. 356]

*"Gəl ey həqq istəyən talib, **Müqəddəs vadi**ni teyy et*
Ki, zəhmətsiz ələ girməz nə kim, istərsən, ey dana." [12, s. 172]

Mifospeleonimlər

(mağara, uçurum, quyu adları)

ÇAHİ-BABİL چاه بابل [*fars.* və *akkad.*] Babil quyusu. Babil əsatirinə görə, Allahın cəzalandırdığı Harut və Marutun həbs edilərək başıaşağı asıldığı quyu. Cadu edənlər bu quyunun başına gedib onlardan cadugərliyin üsullarını öyrənirlərmiş.

"Gözün sehrindən ol Harutü Marut
*Asılmış **Çahi-Babil**də, yeridir."* [11, s. 254]

KƏHF كهف [*ər.*] **1.** Dini əsatirə görə, bütpərəst qövmlərindən qaçan 7 gənc oğlan və 1 itin sığındığı mağara. Allah onları vəhy yolu ilə doğru yola yönəltmiş, onlar da Allahın təkliyini etiraf edərək iman gətirmişlər. Bu səbədən Dəqyanus padşahın təqibindən qurtulmaq üçün gənclər qaçaraq mağarada gizlənmiş və burada yuxuya gedərək üç yüz il qalmışlar. Əshabu-kəhf haqqında ən qədim məlumat sanskrit dilində Mahabharata dastanında rast gəlinir. Quranda bu barədə ayrıca Əl-Kəhf surəsi var.

2. *məc.* Adəmin qəlbi. Hürufilikdə Tur dağı Adəmin bədəninə şamil edilir. Nəsimi tərəfindən "kəhf" Adəmin qəlbinə, yeddi əshabi-kəhfin yoldaşı olmuş itin ("kəlb") Qıtmir (قِطْمِيرٌ) adının ifadə etdiyi məna isə kamili-insanın nəfsi istəklərdən arınmış qəlbinin təvazökar xarakterinə işarə edilir. *B a x* **Qətmir** *və* **Tur.**

*"Həm cəbəl, həm **Kəhf,** həm Əshabi-**Kəhf**əm kəlb ilə,*
Həm Qafın Simurğuyam, həm quşların əsfuruyam." [12, s. 111]

*"Əshabi-**Kəhf**in sirrini görmüş liqayi-Turə sor,*
*Niçün ki, "vəttur" əhlinin **Kəhf**indədir Qətmirimiz."* [11, s. 79]

Mifohidronimlər

(mifik çay, bulaq adları)

KÖVSƏR[1] كوثر [*ər.* كَوْثَرٌ *"firavan və bol nemət"*] Cənnətdə çay və ya su hövzəsinin adı. "Peyğəmbər (s.ə.s) buyurdu: "Cənnətdə süddən ağ və (büllur) qədəhdən şəffaf bir çaydır. Bu çayın hər iki tərəfində dürr və yaqutdan günbəzlər vardır." [Məcməul-bəyan, 10-cu cild, s. 549]. Qurani-kərimdə həm 108-ci surənin adıdır, həm də 1-ci ayədə işlənir. Bu surə oğul övladı olmadığına görə ona edilən tənələrdən kədərlənən Məhəmməd peyğəmbərə (s) Allah tərəfindən nazil edilmiş və Rəbbimiz Peyğəmbərimizə Kövsər çayını bəxş etdiyini bildirmişdir.

□ **Kövsər lə'lin oldu** – Kövsər surəsi, ayə 1-dən iqtibas edilmişdir: "Həqiqətən Biz sənə Kövsəri verdik. (إِنَّا اَعْطَيْنَاكَ الْكَوْثَرَ)" [19, s. 602].

"Dedilər ol mimə fi-eynən-tüsəmma səlsəbil,
*Şimdi **Kövsər** lə'lin oldu küllə cənnatün-Nəim."* [12, s. 92]

"Məndən iç cami-müsəffa, saqiyi-şafi mənəm,
*Eyni-hövzün, **Kövsər**in abi-zülalı məndədir."* [12, s. 163]

*"Mən cənnətü abi-**Kövsər** oldum,*
Ey səhni-cinan, cinan mənəm mən!" [12, s. 26]

"Dəcləyəm, Niləm, Fəratam, həm mənəm abi-həyat,
***Kövsər**əm, mai-təhuram, səlsəbilin tasıyam."* [12, s. 108]

*"**Kövsər**ü Səlsəbilü mai-məin,*
Məqsədi-sidq ilə məqami-əmin." [12, s. 249]

*"Acı su şərabi-**Kövsər** oldu,*
Hər zəhr nəbatü şəkkər oldu." [12, s. 272]

*"**Kövsər**in xəmri ləbin səhbasıdır,*
İnci dişin lö'löi-lalasıdır."

*"Abi-Xızrü, cuyi-**Kövsər**dir ləbin,*
Lə'l ilə yaqutü əhmərdir ləbin." [12, s. 283]

SƏLSƏBİL سلسبيل [*ər.*] Cənnətdə olan çeşmənin adı. Quranın İnsan surəsinin 18-ci ayəsində adı çəkilir.

*"**Səlsəbil** əsrimiş dodağından*
Əcəb, ey can, nə abi-Kövsərsən?!" [11, s. 163]

*"Əsrimiş məstanə eynin sağərindən **Səlsəbil***
Susamış cənnətdə lə'lin abına mai-məin!" [12, s. 68]

"Bəhri-mühit imiş könül, yoxdur anın kənarəsi
*Lə'l ilə **Səlsəbil** imiş, ab ilə səngi-xarəsi."* [12, s. 50]

*"Əsrimiş məstanə eynin sağərindən **Səlsəbil***
Susamış cənnətdə lə'lin abına mai-məin!" [12, s. 68]

Mifoekklezionimlər

(dini ibadət yerlərinin adları)

BEYTİ-MƏ'MUR بيت معمور [*ər.*] 1) Yeddinci qat göydə olduğu hesab edilən mənəvi məbəd. "Bura göy əhlinin qibləsi sayılır. Buranın Kəbə olduğu da söylənir." [38, 1998:126]; 2) *hüruf.* "Hz. Adəmin

göylərdəki simvolu. Bütün mələklər ona səcdə edir" [33, 2015: 47]. Adəm peyğəmbərlə Yer üzərinə endirilib Tufandan sonra təkrar göyə qaldırıldığına inanılan göyün yeddinci qatındakı ev.

"Qibləsiyəm sadiqlərin, mə'şuquyam aşiqlərin
Məqsuduyam layiqlərin, çün ***Beyti-mə'mur*** *olmuşam."* [12, s. 118]

"Misrəmü həm came'əm, həm cüm'əyəm, həm adinə
Ruhi-qüdsün nəfxəsi, həm ***Beyti****nin* ***mə'mur****uyam."* [12, s. 112]

"Fəraqü mövnəti-hicrin yıxıbdır könlümün şəhrin
Nola bir gəz vüsalınla yapasan ***Beyti-mə'mur****i."* [11, s. 104]

"Həqqi bilən aləmə məşhur imiş
Həqq ilə ***Beyti*** *anın* ***mə'mur*** *imiş."* [12, s. 277]

"Söyləyən hər natiqin dilində məndən özgə yox
Səqfi mər'fuin əsası, ***Beyti****nin* ***mə'mur****uyam."* [12, s. 109]

"Üzün Darüssəlam oldu, səlamın
Yeridir Kə'bəvü həm ***Beyti-mə'mur****."* [11, s. 250]

Mifoaqoronimlər

(mifik meydanların, aləmlərin adları)

ALƏMİ-İTLAQ عالم اطلاق [*ər.*] Ruhların insan cisminə daxil olmazdan əvvəlki aləmi. "Sufilərə görə varlığın mərtəbələri vardır. İlk mərtəbə varlıq aləmi adlanan Aləmi Lahut və ya Aləmi-İtlaqdır. Tanrının zühura olan meyli və zatını olduğu şəkildə etiraf etməsidir. Bütün varlıqlar bu aləmdə öncə öz halındadır, sonra təfərrüatı ilə reallaşır." [40, s. 27].

*"Ol **Aləmi-İtlaq**dan, ol şəmsi-din Xəllaqdan,*
Ayrıldığiçün zərrəvəş bu dünyaya nalan gəlir." [12, s. 200]

ALƏMÜL-QEYB عالم الغيب [*ər.*] Gözlə görülməyən Allaha məxsus olan aləm, sfera. İncilə görə, İsa Məsih çarmıxa çəkilib dəfn olunduqdan sonra dirilib qeyb olmuş, Allahın yanına Aləmül-Qeybə qayıtmışdır. Şiələr bu anlayışı İmam Mehdiyə də aid edirlər. Xristian ehkamına görə, İsa Məsih mütləq qayıdıb Qiyamət gününün sahibi olacaqdır. Hürufilər Fəzlullahın edamdan sonra Aləmül-Qeybə getdiyinə inanırdılar"[6]. Hürufilikdə Allahın rəmzlərindən biri. Nəsimi şeirlərində məhz bu xüsusiyyəti vurğulayır.

*"**Aləmül-Qeyb**in süfatı məndən oldu aşikar*
Ey bəsirətsiz, məni gör kim, nə Zati-Ə'zəməm." [12, s. 85]

*"Bu gün gər **Aləmil-Qeyb**in vücudun görmək istərsən*
Rəyahin uş bəyan eylər zühurun çərxi-səyyarın." [12, s. 104]

Ə'RAF اعراف [*ər.*] **1.** Cənnət ilə cəhənnəm arasındakı yer. Axirətdə savabları ilə günahları tən gələn insanların qalacağı yer.

2. *hüruf.* "Hürufilər ərafı istiva xətti olaraq qəbul etmişlər. Dinin sirlərini öyrənərək tərəddüdsüz, şübhəsiz elm hasıl etmək üçün bütün əşyalarda olan istiva xəttini tanıyıb müşahidə etmək vacibdir. İstiva xəttinin hürufi fəlsəfəsindəki əhəmiyyəti 32 hərfin məzhəri olan 32 xəttin sadəcə istiva xətti ilə müşahidə edilə bilməsindəndir. Bu səbəbdən hürufilər üçün istiva xətti 32 hərf və ya 32 xətt anlamına gəlir." [44, s.146].

[6] Əliyev, Rəhim. Cavidannamə. Monoteizmin dördüncü kitabı. Bakı: Alatoran, 2016, 141 səh., s. 126

"Fəzli-Həqqin "Cavidanıdır" üzün
Aləmin doğru nişanıdır üzün
*Əhli-**Ə'raf**ə məanidir üzün,*
Bütpərəstin şəm'i-xanıdır üzün." [12, s. 281]

*"Əhli-irfanın yeri mə'nidə çün **Ə'raf** imiş*
*Çün sən ariflərdən oldun, ürfü **Ə'raf**ın qanı?"* [12, s. 32]

"Əhli-irfanın məqamı Qaf imiş,
*Arifi-Rəbb, arifi-**Ə'raf** imiş*
Bilməyən ol qafı sözü laf imiş
Özünü bilən kişi sərraf imiş." [12, s. 278]

ƏRƏSAT عرصات [*ər.*] Qiyamətdə diriləcək ölülərin öz əməllərinə dair haqq-hesab vermək məqsədilə toplanacağı meydanın adı.

"Bu gün duruş özüniçün, eyi əməl edə gör,
*Yarınkı mə'rəkələrdə behişt ola **Ərəsat**."* [12, s. 183]

"Həşrü hesabü məhşərə qail isən, gəl üştə gör,
*Həlqələrində zülfünün şol **Ərəsat**i-məhşəri."* [11, s. 89]

LAHUT لاهوت [*ər.*] *təsəv.* Ruhlar dünyası.[7] Tanrının zatına məxsus olan ilk və son aləm. Təsəvvüfdə bilinməyən mənəvi-ruhi aləmə "**Lahut** aləmi", insanlarla əlaqəli maddi aləmə isə "Nasut aləmi" deyilir. Lahut məqamına aləm-i həqiqət və tövhid də deyilir. Bura "Nuru-l-Ənvar – Nurların Nuru" və Tanrının ən böyük Ərşi-taxtıdır.

[7] Göyüşov, Nəsib. Təsəvvüf anlamları və dərvişlik rəmzləri (yığcam ensiklopedik açıqlamalar). Bakı, "Tural-Ə" Nəşriyyat-Poliqrafiya Mərkəzi – 2001. 240 səh., s. 113

*"Baxmazam Ənqayi-Qafa, qürbəti-**Lahut**a mən*
Seyr ilə simurği-eşqəm, pərrü balı məndədir." [12, s. 164]

Mifodrimonimlər

(bağların adları)

İRƏM ارم [*ər.*] Şərq əsatirlərində Şam və ya Yəməndə olduğu göstərilən Ad qövmünün hökmdarı Şəddad tərəfindən cənnətə bənzədilərək saldırılan əfsanəvi bir bağın adı. B a x **Mifoantroponimlər, Şəddad.** // *məc.* Behişt, cənnət.

*"**İrəm** gülzarı, ey huri, bu mə'nidən üzündir kim,*
Səkiz cənnət əyan oldu üzün bağı-baharından." [11, s. 156]

*"Şümşad qədin qıldı **İrəm** bağını cövlan,*
Sərv ana əsir oldu da məndən betər oldu." [11, s. 299]

"Camalını görən, ey rövzənin gülüstanı,
***İrəm** sarayını, ya səhni-gülsütanı nedər?"* [11, s. 288]

"Xəcil oldum bu səbəbdən ki, nigarın üzünə,
***İrəm**in gülşəniyü rövzeyi-rizvan demişəm."* [12, s. 96]

"Rüxün üzrə bənin şahanə hindudur, əcəb, yarəb,
*Yalançı oğrumu, yaxud **İrəm** bağında gülçindir?"* [11, s. 256]

*"Ta gülüstani-**İrəm** rüxsarını gördü gözüm,*
Bülbüli-şeyda kimi hər dəm gülüstan arzular." [11, s. 200]

*"Bağım, **irəm**im, rövzə ilə huri-cinanim,*
Bülbüllər üçün tazə gülüstanım əfəndi." [11, s. 86]

*"**İrəm**in gülü qurutdu qanını tənində hüsnün,*
Bu siminbərin üzün gör ki, necə lətifü tərdir." [11, s. 266]

Cənnət bağlarının adları

Dini təsəvvürlərə görə, Allah öz Ərşi və Kürsüsü altında yeddi qat göylərin üstündə, Ərşın nuru ilə bir-birindən yüksəkdə səkkiz cənnət yaratmışdır.

DARÜSSƏLAM دار السلام [*ər.*] **1.** Səkkiz cənnətdən ikincisi. Bu söz Quranda 3 yerdə işlənir: 1) Ənam surəsi, 127-ci ayə: "Onları Rəbinin yanında əmin-amanlıq yurdu (Cənnət) gözləyir. Allah onların gördüyü işləri himayə edəndir (və ya gördükləri yaxşı işlərə görə Allah onların dostudur). (لَهُمْ دَارُ السَّلَامِ عِنْدَ رَبِّهِمْ ۖ وَهُوَ وَلِيُّهُمْ بِمَا كَانُوا يَعْمَلُونَ)" [19, s. 143]; 2) Yunus surəsi, 25-ci ayə: "Allah (bəndələrini) əmin-amanlıq yurduna (Cənnətə) çağırır və istədiyini doğru yola salır! (وَاللَّهُ يَدْعُو إِلَىٰ دَارِ السَّلَامِ وَيَهْدِي مَنْ يَشَاءُ إِلَىٰ صِرَاطٍ مُسْتَقِيمٍ)" [19, s. 210]; 3) İbrahim surəsi, 35-ci ayə: "(Ya Rəsulum!) Xatırla ki, bir zaman İbrahim belə demişdi: "Ey Rəbbim! Bu diyarı (Məkkəni) əmin-amanlıq yurdu et. Məni və oğullarımı bütlərə tapınmaqdan uzaq elə! (وَإِذْ قَالَ إِبْرَاهِيمُ رَبِّ اجْعَلْ هَٰذَا الْبَلَدَ آمِنًا وَاجْنُبْنِي وَبَنِيَّ أَنْ نَعْبُدَ الْأَصْنَامَ)" [19, s. 259].

2. *hüruf.* "Allah salamat yurdunu (**Darüssəlam**) çağırır və dilədiyini dogru yola hidayət edir" (Yünus 10:25) deyilmişdir. Burada **Darüssəlam** Adəmin üzüdür. Çünkü oraya girənlər, yəni onun sirrinə çatanlar, sözlərin hikmətini bilənlər ayənin bəyanı ilə sabit olmuşdur ki, əmin olurlar: "Oraya girən güvənə çatar" (Ali-İmran 3:97). Bundan başqa, "Səlam" Allahın isimlərindəndir, dolayısı ilə **Darüssəlam** Allahın evi deməkdir və hədisdə

də möminin qəlbinin Allahın evi olduğu söylənmişdir. Buradakı mömin özünü doğrultmuşdur və əslində Adəm nəzərdə tutulur [Cavidannameyi-sağır, cd 58; İşknamə, cd 30283-4]. **Darüssəlam** cənnətdir. Ancaq o cənnətə varmaq, həcc və təvafın və Adəmin surətinə yönəlmənin həqiqətinə çatmaqla mümkündür. [Məhəbbətnameyi-ilahi, cd 29]" [44, s. 504-505].

*"Ey könül, **Darüssəlam**ı dünyanın ləzzatına*
Satma kim, şol bisəbatın dövrü cavidan degil." [12, s. 198]

*"Rövzənin **Darüssəlam**ı səndədir.*
Gör kəlamı həm səlamı səndədir." [12, s. 268]

"Sən üzü mahi-tamamı buldum uş
*Cənnəti-**Darüssəlam**ı buldum uş,*
Çəkmədən yolda bəriyyə zəhmətin,
Kə'beyi-beytülharamı buldum uş." [12, s. 278]

"Aşiqin beytülharamıdır üzün
*Arifin **Darüssəlam**ıdır üzün,*
Əhli-imanın imamıdır üzün
Dünyəvü üqba tamamıdır üzün." [12, s. 281]

*"Axirətdə mənzili **Darüssəlam***
Bulayım dersən sana gəl, vəssəlam." [12, s. 316]

*"Üzün **Darüssəlam** oldu, səlamın,*
Yeridir Kə'bəvü həm beyti-mə'mur." [11, s. 250]

"Rizvan idim əzəl günü ol rövzəyi görüb
*Hurü behiştü **Darüssəlam** olmadan hənuz."* [11, s. 72]

*"**Darüssəlam**i-hüsnünə, ey cənnətin gülü*
Düşdüm əzəldə, gör ki, nə gülzara düşmüşəm." [11, s. 147]

MƏ'VA مأوى [*ər.*] Üçüncü cənnətin adı. Məva sözü Quranda iki yerdə işlənir: 1) Əs-Səcdə surəsi, 19-cu ayə: "İman gətirib yaxşı işlər görənləri etdikləri əməllər müqabilində qonaq qalacaqları (sakin olacaqları) Məva cənnətləri gözləyir. (Onlar orada Allahın əbədi qonaqları olacaqlar). (أَمَّا الَّذِينَ آمَنُوا وَ عَمِلُوا الصَّالِحَاتِ فَلَهُمْ جَنَّاتُ الْمَأْوَىٰ نُزُلًا بِمَا كَانُوا يَعْمَلُونَ)" [19, s. 415]. 2) Ən-Nəcm surəsi, 15-ci ayə: "(Mələklər, şəhidlər və müttəqilər məskəni olan) Məva cənnəti onun yanındadır. (عِنْدَهَا جَنَّةُ الْمَأْوَىٰ)" [19, s. 525].

"Sidrəvü Kövsər nədəndir, nöh fələkin gərdişi
*On iki bürcü kəvakib cayı, **Mə'va**sı nədir?"* [12, s. 151]

"Nərrəşiri-bişeyi-tövhidi-sahibqüdrətəm
*Tülkülər qaçan biləsidir bizim **Mə'va**mızı?!"* [12, s. 34]

"Könlümün viranəsin mə'mur qıldı eşqi-yar
*Canımın xəlvətsərasın qılmışam **Mə'va**yi-eşq"* [11, s. 31]

□ **Cənnətul-Mə'va** – Mə'va cənnəti.

"Cənnəti-didar imiş məqsudi-əhli mə'rifət
*Bir nəfəs ansız gərəkməz **cənnətul-Mə'va** bizə."* [12, s. 168]

"Yar eşiyindən bizi, zahid, çağırma cənnətə
***Cənnətül-Mə'va** sizə, bu surəti-ziba bizə."* [12, s. 168]

*"Ey bağü gülzarı üzün çün **cənnətül-Mə'va** imiş*
Sən rövzəsisən, mən sənin qapında Rizvan olmuşam." [12, s. 117]

"Şol Məhəmməd Mehdi kimi ədl edib, cəhd edəsən
Hiç gümansız məskən ola cənnətül-Mə'va sana." [12, s. 176]

"Nun – Nihan oldu ləbindən çeşmeyi-abi-həyat
Hər kim içdi, vacib oldu cənnətül-Mə'va ona." [12, s. 217]

XÜLD خلد [*ər.* خُلْدٌ] Dördüncü cənnətin adı. Əbədiyyət, davamlılıq, sonsuzluq deməkdir. Quranda yalnız bir yerdə adı çəkilir. Furqan surəsi, 15-ci ayədə Allah-taala buyurur: "(Ya Rəsulum!) Onlara de: "Bu (cəhənnəm odu) yaxşıdır, yoxsa Allahdan qorxub pis əməllərdən çəkinənlərə bir mükafat və sığınacaq olaraq vəd edilən Xüld cənnəti? (قُلْ أَذَٰلِكَ خَيْرٌ أَمْ جَنَّةُ الْخُلْدِ الَّتِي وُعِدَ الْمُتَّقُونَ ۚ كَانَتْ لَهُمْ جَزَاءً وَمَصِيرًا)" [19, s. 360].

*"**Xüld**ün güli-xəndanıdır gülgün yanağın, ey günəş,*
Bülbül kimi məstəm, anın eşqindən uş zar olmuşam." [12, s. 114]

*"Sənsiz mühibbi-sadiqə nazü Nəimi-**Xüld**,*
Dərdü əzabü möhnətü rəncü əna derəm." [11, s. 141]

"Cənnət əhli ki, üzün bağına, ey cənnətü hur,
*Rövzeyi-**Xüld** ilə Rizvan dedilər, gerçək imiş."* [11, s. 313]

"Nurumsan, zülmətim, narım, şəbimsən, rövşənim, şəm'im,
*Münəvvər nurumü hurim, Nəimü **Xüld**ü Rizvanım."* [11, s. 143]

*"Yerü göy, **Xüld**ü rövzeyi-Rizvan, cənnəti-Ədn imiş gülüstanı;*
*Vüsalındır, vüsalındır, vüsalın, Nəimi-**Xüld**ü ömri-cavidani."*
[11, s. 110]

"Üzünə, arizinə xazini-cənnati-Nəim,
***Xüld**ü Firdövsi-bərin, rövzeyi-Rizvan dedilər."* [12, s. 132]

NƏİM نعيم [*ər.*] Beşinci cənnətin adı. Nəim cənnətinin adı Quranda 12 yerdə işlənir: 1) Maidə surəsinin 65-ci ayəsi: "Əgər kitab əhli (Muhəmməd peyğəmbərə və Qurana) iman gətirsə və Allahdan qorxaraq pis əməllərdən çəkinsə, Biz, sözsüz ki, onların günahlarının üstünü örtər və özlərini də (neməti bol olan) Nəim cənnətlərinə daxil edərik. (وَلَوْ أَنَّ أَهْلَ الْكِتَابِ آمَنُوا وَاتَّقَوْا لَكَفَّرْنَا عَنْهُمْ سَيِّئَاتِهِمْ وَلَأَدْخَلْنَاهُمْ جَنَّاتِ النَّعِيمِ)" [19, s. 118]; 2) Yunus surəsi, 9-cu ayə: "İman gətirib yaxşı işlər görənlərin Rəbbi iman gətirdiklərinə görə hidayətə (Cənnətə) qovuşdurar. (Bol nemətli) Nəim cənnətlərində onların (qəsrləri, köşkləri) altından çaylar axar. (Və ya Rəbbi onlara imanları müqabilində (ağacları) altından çaylar axan Nəim cənnətlərinə yol göstərər). (إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ يَهْدِيهِمْ رَبُّهُمْ بِإِيمَانِهِمْ ۖ تَجْرِي مِنْ تَحْتِهِمُ الْأَنْهَارُ فِي جَنَّاتِ النَّعِيمِ)" [19, s. 208]; 3) Həcc surəsi, 56-cı ayə: "O gün (qiyamət günü) hökm yalnız Allahındır. (Allah) onların (müşriklərin və möminlərin) arasında hökm edəcəkdir. İman gətirib yaxşı işlər görənlər Nəim cənnətlərində olacaqlar! (الْمُلْكُ يَوْمَئِذٍ لِلَّهِ يَحْكُمُ بَيْنَهُمْ ۚ فَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ فِي جَنَّاتِ النَّعِيمِ)" [19, s. 338]; 4) Şuəra surəsi, 85-ci ayə: (İbrahim demişdi:) "Məni Nəim cənnətlərinin varislərindən et! (وَاجْعَلْنِي مِنْ وَرَثَةِ جَنَّةِ النَّعِيمِ)" [19, s. 370]; 5) Loğman surəsi, 8-ci ayə: "İman gətirib yaxşı işlər görənləri Nəim cənnətləri gözləyir. (إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ لَهُمْ جَنَّاتُ النَّعِيمِ)" [19, s. 410]; 6) Saffat surəsi, 42-43-cü ayələr: "(Onlar üçün) növbənöv meyvələr vardır. Onlar hörmətə (şərəfə) nail olacaqlar – Nəim cənnətlərində. (فَوَاكِهُ ۖ وَهُمْ مُكْرَمُونَ فِي جَنَّاتِ النَّعِيمِ)" [19, s. 446]; 7) Rahmən surəsi, 46-cı ayə: "Şübhəsiz ki, Rəbbinin məqamından (hüzurunda haqq-hesab üçün durmaqdan) qorxanları iki cənnət (Ədn və Nəim cənnətləri) gözləyir! (وَلِمَنْ خَافَ مَقَامَ رَبِّهِ جَنَّتَانِ)" [19, s. 532]; 8) Vaqiə surəsi, 10-12-ci ayə: "Və öndə olanlar. Onlar (dünyada Allah yolunda, imanda, əməldə, xeyirdə öndə olduqları kimi, axirətdə də) öndədirlər! (Nə xoşbəxtdir onlar!). Onlar (Allah dərgahına, Allahın lütfünə) yaxınlaşdırılmış kimsələrdir. Onlar Nəim cənnətlərində olacaqlar. (وَالسَّابِقُونَ السَّابِقُونَ أُولَٰئِكَ الْمُقَرَّبُونَ فِي جَنَّاتِ

النَّعِيمِ)" [19, s. 533]; 9) Vaqiə surəsi, 88-89-cu ayə: "Amma əgər (ölən kimsə Allah dərgahına, Allahın lütf və mərhəmətinə) yaxın olanlardandırsa, (Onu) rəhmət, gözəl ruzi (yaxud xoş ətirli çiçəklər) və Nəim cənnəti gözləyir! (فَأَمَّا إِنْ كَانَ مِنَ الْمُقَرَّبِينَ فَرَوْحٌ وَرَيْحَانٌ وَجَنَّتُ نَعِيمٍ)" [19, s. 536]; 10) Qaləm surəsi, 34-cü ayə: "Həqiqətən, Allahdan qorxub pis əməllərdən çəkinənləri Rəbbi yanında Nəim cənnətləri gözləyir! (إِنَّ لِلْمُتَّقِينَ عِنْدَ رَبِّهِمْ جَنَّاتِ النَّعِيمِ)" [19, s. 564]; 11) Məaric surəsi, 38-ci ayə: "Məgər onların (kafirlərin) hər biri Nəim cənnətlərinəmi daxil olacağına ümid edir? (أَيَطْمَعُ كُلُّ امْرِئٍ مِنْهُمْ أَنْ يُدْخَلَ جَنَّةَ نَعِيمٍ)" [19, s. 568]; 12) Mutaffifin surəsi, 22-ci ayə: "Həqiqətən, yaxşı əməl və itaət sahibi olan möminlər Nəim cənnətlərində olacaqlar. (إِنَّ الْأَبْرَارَ لَفِي نَعِيمٍ)" [19, s. 587].

*"Axirətin **Nəim**inə olma hərisü baxma kim,*
Hur ilə cənnətü liqa cümlə anın vüsalıdır." [11, s. 217]

*"**Nəim**in bağıdır gülzari-vəchin,*
Əgər odlu üzün gülnara bənzər." [11, s. 248]

"Dedilər ol mimə fi-eynən-tüsəmma səlsəbil,
*Şimdi Kövsər lə'lin oldu küllə cənnatün-**Nəim**."* [12, s. 92]

*"Cənnət çəmənində salınan huri-**Nəim**in,*
Gül rayihəli sərvi-xuramanım əfəndi." [11, s. 86]

*"Nə hüsn olur, bu nə surət, zəhi behişti-**Nəim**,*
Nə lütf olur, bu nə mə'ni, zi Rəbbi-Ərşi-Əzim?" [12, s. 93]

"İbtidasız cövhərəm qaim bənəfsi labəğeyr,
*Həm **Nəim**i-xalidəm, həm ne'mətin məşkuruyam."* [12, s. 109]

*"Üzünə, arizinə xazini-cənnati-**Nəim**,*
Xüldü firdövsi-bərin, rövzeyi-rizvan dedilər." [12, s. 132]

□ **Nəimü Xüld** – dördüncü və beşinci cənnətlər.

*"Sənsiz mühibbi-sadiqə nazü **Nəimi-Xüld**,*
Dərdü əzabü möhnətü rəncü əna derəm." [11, s. 141]

"Nurumsan, zülmətim, narım, şəbimsən, rövşənim, şəm'im,
*Münəvvər nurumü hurim, **Nəimü Xüld**ü rizvanım."* [11, s. 143]

*"Həm **Nəim**əm, həm rəhiməm, həm kəriməm, həm kərəm,*
*Həm **Nəimü Xüld**əmü həm cənnəti-rizvan mənəm!"* [12, s. 86]

"Vüsalındır, vüsalındır, vüsalın,
***Nəimi-Xüld**ü ömri-cavidani."* [11, s. 110]

FİRDÖVS فردوس [*ər.*] Altıncı cənnətin adı. Peyğəmbərin hədisinə görə, Firdovs cənnətin tam ortası və ən yüksək mərtəbəsidir. Quranın Kəhf surəsi 107-ci ayəsində deyilir: "İman gətirib yaxşı işlər görənlərin mənzili isə Firdovs cənnətləri olacaqdır! (إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ كَانَتْ لَهُمْ جَنَّاتُ الْفِرْدَوْسِ نُزُلًا)" [19, s. 303].

*"Ey də'vət eyləyən bizi **Firdövs**ə, eylə bil,*
Cənnətdən özgə vardurur ə'la məkanımız." [12, s. 14]

*"**Firdövs**ə məni də'vət edən zahidə söylə,*
Ol tikənə göz dikmə ki, gülzarımı buldum." [12, s. 95]

*"Cənnəti-**Firdövs** üçün bir ləhzə qəmgin olmazam,*
Talibi-didari-yaram, şadimanam, xürrəməm." [12, s. 85]

"Üzünə, arizinə xazini-cənnati-nəim,
*Xüldü **Firdövsi**-bərin, rövzeyi-Rizvan dedilər."* [12, s. 132]

DARÜLQƏRAR دار القرار [*ər.*] Yeddinci cənnətin adı.

"Bu can pərvanədir, yanır camalın şəm'i tabından,
*Könül **Darülqərar** oldu pərişan zülfü tabından."* [11, s. 183]

ƏDN عدن [*ər.*] Səkkizinci cənnətin adı. Ədn sözü Quranda 13 yerdə işlənir: 1) Tövbə surəsi, 72-ci ayə: "Allah mömin kişilərə və qadınlara (ağacları) altından çaylar axan cənnətlər və Ədn cənnətlərində gözəl məskənlər vəd buyurmuşdur. Onlar orada əbədi qalacaqlar. Allahdan olan bir razılıq isə (bunların hamısından) daha böyükdür. Bu, böyük qurtuluşdur (uğurdur)! (وَعَدَ اللَّهُ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا وَمَسَاكِنَ طَيِّبَةً فِي جَنَّاتِ عَدْنٍ ۚ وَرِضْوَانٌ مِنَ اللَّهِ أَكْبَرُ ۚ ذَٰلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ)" [19, s. 197]; 2) Rad surəsi, 23-24-cü ayələr: "Özlərinin, həmçinin əməlisaleh ataları, övrətləri və övladlarının daxil olacaqları Ədn cənnətləri gözləyir. Mələklər də hər bir qapıdan (cənnət qapılarından) daxil olub (onlara): "(Dünyada Allah yolunda bütün çətinliklərə) səbr etdiyinizə görə sizə salam olsun! Axirət yurdu (Cənnət) nə gözəldir!" – deyəcəklər. (جَنَّاتُ عَدْنٍ يَدْخُلُونَهَا وَمَنْ صَلَحَ مِنْ آبَائِهِمْ وَأَزْوَاجِهِمْ وَذُرِّيَّاتِهِمْ ۖ وَالْمَلَائِكَةُ يَدْخُلُونَ عَلَيْهِمْ مِنْ كُلِّ بَابٍ)" [19, s. 251]; 3) Nəhl surəsi, 31-ci ayə: "Onlar (ağacları) altında çaylar axan Ədn cənnətlərinə daxil olacaqlar. Orada onların istədikləri hər şey vardır. Allah müttəqiləri belə mükafatlandırır! (جَنَّاتُ عَدْنٍ يَدْخُلُونَهَا تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ ۖ لَهُمْ فِيهَا مَا يَشَاءُونَ ۚ كَذَٰلِكَ يَجْزِي اللَّهُ الْمُتَّقِينَ)" [19, s. 269]; 4) Kəhf surəsi, 31-ci ayə: "Onları (ağacları) altından çaylar axan Ədn cənnətləri gözləyir. Onlar orada taxtlara söykənərək qızıl bilərziklərlə bəzənəcək (altun qolbaqlar taxacaq), nazik və qalın ipəkdən (taftadan və qumaşdan) yaşıl paltarlar geyəcəklər. O, nə gözəl mükafat, o (Cənnət) necə də gözəl məkandır! (أُولَٰئِكَ لَهُمْ جَنَّاتُ عَدْنٍ تَجْرِي مِنْ تَحْتِهِمُ الْأَنْهَارُ

يُحَلَّوْنَ فِيهَا مِنْ أَسَاوِرَ مِنْ ذَهَبٍ وَيَلْبَسُونَ ثِيَابًا خُضْرًا مِنْ سُنْدُسٍ وَإِسْتَبْرَقٍ مُتَّكِئِينَ فِيهَا عَلَى الْأَرَائِكِ ۚ نِعْمَ الثَّوَابُ وَحَسُنَتْ مُرْتَفَقًا)" [19, s. 296]; 5) Məryəm surəsi, 61-ci ayə: "Rəhmanın (Allahın) Öz bəndələrinə vəd etdiyi və onların görmədiyi Ədn cənnətlərinə. Onun vədi mütləq yerinə yetəcəkdir. (جَنَّاتِ عَدْنٍ الَّتِي وَعَدَ الرَّحْمَٰنُ عِبَادَهُ بِالْغَيْبِ ۚ إِنَّهُ كَانَ وَعْدُهُ مَأْتِيًّا) " [19, s. 308]; 6) Ta ha surəsi, 76-cı ayə: "Əbədi qalacaqları, (ağacları) altından çaylar axan Ədn cənnətləri. Bu, (günahlardan) pak olanların (təmizlənənlərin) mükafatıdır. (جَنَّاتُ عَدْنٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا ۚ وَذَٰلِكَ جَزَاءُ مَنْ تَزَكَّىٰ)" [19, s. 315]; 7) Fatir surəsi, 33-cü ayə: "Onlar Ədn cənnətlərinə daxil olacaq, orada altun bilərziklər və incilərlə bəzənəcəklər. Libasları da ipəkdən olacaqdır. (جَنَّاتُ عَدْنٍ يَدْخُلُونَهَا يُحَلَّوْنَ فِيهَا مِنْ أَسَاوِرَ مِنْ ذَهَبٍ وَلُؤْلُؤًا ۖ وَلِبَاسُهُمْ فِيهَا حَرِيرٌ)" [19, s. 437]; 8) Sad surəsi, 49-50-ci ayələrdə Alla-taala buyurur: "Bu, (onları tərifllə, minnətdarlıqla) yada salmaqdır (yaxud bu Quran sənin özün və ümmətin üçün bir öyüd-nəsihətdir). Allahdan qorxub pis əməllərdən çəkinənləri gözəl bir qayıdış yeri (Cənnət) gözləyir! Qapıları onlar üçün (taybatay) açılmış Ədn cənnətləri! (هَٰذَا ذِكْرٌ ۚ وَإِنَّ لِلْمُتَّقِينَ لَحُسْنَ مَآبٍ جَنَّاتِ عَدْنٍ مُفَتَّحَةً لَهُمُ الْأَبْوَابُ)" [19, s. 455]; 9) Ğafir surəsi, 8-ci ayə: "Ey Rəbbimiz! Onları da, atalarından, zövcələrindən və nəsillərindən əməlisaleh olanları da özlərinə vəd buyurduğun Ədn cənnətlərinə daxil et. Şübhəsiz ki, Sən yenilməz qüvvət, hikmət sahibisən! (رَبَّنَا وَأَدْخِلْهُمْ جَنَّاتِ عَدْنٍ الَّتِي وَعَدْتَهُمْ وَمَنْ صَلَحَ مِنْ آبَائِهِمْ وَأَزْوَاجِهِمْ وَذُرِّيَّاتِهِمْ ۚ إِنَّكَ أَنْتَ الْعَزِيزُ الْحَكِيمُ)" [19, s. 467]; 10) Fəth surəsi, 6-cı ayə: "(Cihad əmri həm də ona görədir ki) Allah (Muhəmmədin Rəbbi nə Muhəmmədin özünə, nə də möminlərə kömək edəcəkdir -deyə) Onun barəsində bədgüman (bədniyyət) olan münafiq kişi və qadınları, müşrik kişi və qadınları əzaba düçar etsin. Onların bədniyyətliyi öz başlarında çatlasın! Allahın onlara qəzəbi tutmuş və (Allah) onlara lənət etmişdir. (Allah) Cəhənnəmi onlar üçün hazırlamışdır. Ora necə də pis məskəndir! (وَيُعَذِّبَ الْمُنَافِقِينَ وَالْمُنَافِقَاتِ وَالْمُشْرِكِينَ وَالْمُشْرِكَاتِ الظَّانِّينَ بِاللَّهِ ظَنَّ السَّوْءِ ۚ عَلَيْهِمْ دَائِرَةُ السَّوْءِ ۖ وَغَضِبَ اللَّهُ عَلَيْهِمْ وَلَعَنَهُمْ وَأَعَدَّ لَهُمْ جَهَنَّمَ ۖ وَسَاءَتْ مَصِيرًا)" [19, s. 510]; 11) Rahmən surəsi, 46-cı ayə: "Şübhəsiz ki,

Rəbbinin məqamından (hüzurunda haqq-hesab üçün durmaqdan) qorxanları iki cənnət (Ədn və Nəim cənnətləri) gözləyir! (وَلِمَنْ خَافَ مَقَامَ رَبِّهِ جَنَّتَانِ)" [19, s. 532]; 12) Saff surəsi, 12-ci ayə: "(Əgər belə etsəniz) O sizin günahlarınızı bağışlayar və sizi (ağacları) altından çaylar axan cənnətlərə və Ədn cənnətlərindəki gözəl saraylara daxil edər. Bu, böyük qurtuluşdur (uğurdur)! (يَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَيُدْخِلْكُمْ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ وَمَسَاكِنَ طَيِّبَةً فِي جَنَّاتِ عَدْنٍ ۚ ذَٰلِكَ الْفَوْزُ الْعَظِيمُ)" [19, s. 551]; 13) Beyyinə surəsi, 8-ci ayə: "Onlardan öz Rəbbi yanındakı mükafatı (ağacları) altından çaylar axan Ədn cənnətləridir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan. Bu (nemətlər) Rəbbindən qorxanlar üçündür! (جَزَاؤُهُمْ عِنْدَ رَبِّهِمْ جَنَّاتُ عَدْنٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا ۖ رَضِيَ اللَّهُ عَنْهُمْ وَرَضُوا عَنْهُ ۚ ذَٰلِكَ لِمَنْ خَشِيَ رَبَّهُ)" [19, s. 598].

"Yerü gög, xüldü rövzeyi-Rizvan,
*Cənnəti-**Ədn** imiş gülüstanı."* [12, s. 53]

"Ey yanağın surəsi vəşşəms, üzün ayəti:
*Hazihi-cənnati **Ədn**in fədxəluha xalidin."* [12, s. 68]

*"Hazihi cənnati **Ədn**in, fədxəluha xalidin,*
Sureyi-səb'ülməsani hurü qılman göstərir." [12, s. 144]

"Boyun tuba, dodağın abi-heyvan,
*Rüxündür cənnəti-**Ədn**ü xətin hur."* [12, s. 196]

*"Yanağın hazihi cənnati-**Ədn**in,*
Üzündür kəşfi-müşkil, cənnəti-hur." [12, s. 197]

MİFOKOSMONİMLƏR

ƏRŞ عرش [*ər.*] **1.** Taxt. *// nücum., din.* Göyün 9-cu qatı. Qədim yunan alimi Ptolomeyin nəzəriyyəsinə əsaslanan orta əsr şərq nücum elmində 8-ci qatdakı Kürsidən sonra gələn **Ərş** sonuncu – 9-cu qatda yer alaraq bütün digər fələkləri çevrələyir.

"Abü xakı eylədi çün Həq xəmir,
***Ərş**ini xəlq eylədi yə'ni sərir."* [12, s. 267]

2. *hüruf.* "**Ərş** bütün fələklərin üzərindədir və 32 mücərrəd sözdən ibarətdir ki şəkil və surətdən arıdır. [Cavidanname Şerhi, cd 29580]" [44, s. 273]. "Bəzən insanın vücudu, bəzən üzü, 28 və 32 ilahi kəlmənin məzhəri olduqları üçün **Ərş** olaraq qəbul edilir. Məsələn, Fəzlullah üzü **Ərş**, üzdəki xətləri isə Kürsi olaraq qəbul edir. [Cavidannameyi Səğir, cd 3]" [44, s. 274].

*"Nə tubadır boyun, yarəb kim, irdi **Ərş**ə balası,*
Nə sünbüldür saçın gör kim, cahanı tutdu sevdası." [12, s. 52]

*"**Ərş**ü günəşü fərşü ərzü səmadan bərü*
Eşqilə layəmutəm, əqlilə həm həyatam." [12, s. 87]

*"Lövhi-məhfüz ilə **Ərş** oldu yanağın sifəti,*
Mən bu mə'nidən ana surəti-Rəhman demişəm." [12, s. 96]

*"Ol məqamı tanrının kim, **Ərş** oxuyurlar anı,*
Mö'minin qəlbidürür kim, təxti-şahənşahdır." [12, s. 143]

*"Cana dilək verən kişi, **Ərş** üzə ol şikar edər,*
Anda şikar edən quşa qüvvəti-balü pər nədir?" [12, s. 147]

□ **Ərşi-Həq –** Həqqin Ərşi.

*"**Ərşi-Həq**, ey can, üzündür, vəssalam,*
Lövh ilə Qur'an üzündür, vəssalam!" [12, s. 290]

Ələl-Ərş istiva (عَلَى الْعَرْشِ اسْتَوَى) – "Ərş üzərində istiva etdi". Qurandan iqtibas edilmiş ifadə (Ə'raf:54; Yunus:3; Furqan:59; Səcdə:4; Hədid:4; Rəd:2; Taha:5). "Fəzlullah demişdir: "Zahir aləmdə, yuxuda, xəyalda, təsəvvürdə hər nə varsa, hamısı istiva xətti ilə bölünmüşdür. İstiva xətti olmayan heç bir şey təsəvvür və xəyal belə edilə bilməz". [Məhəbbətnameyi-ilahi, cd 1 6]" [44, s. 286]. ""Daha sonra Ərş üzərinə istiva etdi" (A'raf 7:54, Yünus 10:3, Furkan 25:59, Secde 32:4, Hadid 57:4) və " ... bütün cütləri yaratdı" (Yasin 36:36, Zuxruf 43:12) ayələrində, yerdə və göydə var olan hər şeydə istiva xəttinin varlığına işarə olunmuşdur. Dolayısı ilə, mövcudatdakı istiva xətti də Allahın əşyadakı ölçü meyarını göstərən bir dəlildir, yəni Onu müşahidə etməmizə imkan verir." [44, s. 237]. "Bütün hürufilər, o cümlədən də Nəsimi insan bədəninin boğazından aşağısını yer kürəsi və boğazdan yuxarını göy aləmi hesab edirlər. İstiva xətti (ekvator) isə insanın çənəsindən başlayaraq dodaqları, burun deşiklərini, iki göz və iki qaşın arasından keçən və onları iki yerə ayıran xəttə deyilir." [12, s. 346].

"Nigara, küntə kənzin gövhərisən
***Ələl-Ərş-istiva**nın məzhərisən."* [12, s. 263]

*"Ənəlhəq söylərəm Həqdən, **ələl-Ərş istiva** gəldi*
Üzündür sureyi-Rəhman, ələl-Rəhman əla gəldi." [12, s. 36]

"Ərşi-ilahi ilə içər müdam
*Cam **ələl-Ərş** meyi-**istiva**."* [12, s. 167]

Ərrəhman ələl-Ərş istiva – Taha surəsi, ayə 5: "Rəhman Ərşi yaradıb hökmü altına almışdır. (الرَّحْمَنُ عَلَى الْعَرْشِ اسْتَوَى)" [19, s. 311]. // *hüruf.* "Rəhmanın Ərşin üzərinə istivası 28 və 32 ilahi kəlmənin (28 ərəb, 32 fars əlifbasının hərfləri – X.Heydərova) insan vücudundakı zühuruna işarətdir. [Cavidanname-i sağır, cd 7]" [44, s. 274].

"Təala-şanəhü hüsnün süfatı kim, müəlladır
*Ki, **ər-Rəhman ələl-Ərş istiva**, ol səhni-mövladır."* [12, s. 126]

*"**Ələl-Ərş istiva Rəhman** yəqin kim*
Üzündür ol məkan, billah, degilmi?" [12, s. 38]

*"Xətü xalindən, ey dilbər, **ələl-Ərş-istiva Rəhman***
Budur şol müşkül ayət kim, üqulu bizəban etdi." [11, s. 84]

"Əlif – Allah, sidrə boyun münəhadır müntəha
*Çün cəmalındadır **ər-Rəhman ələl-Ərş istiva**."* [12, s. 215]

"Ey saçından çün əyan oldu mana
*Sirri-**ər-Rəhman ələl-Ərş-istiva**."* [12, s. 263]

Ərşi-müəlla – uca, yüksək, ali Ərş.

*"Əya, şahi-səidəxtər, üzün **Ərşi-müəlladır**,*
Dodağın çeşməyi-heyvan, ləbin cami-müsəffadır." [12, s. 371]

Ərşi-Əzim – uca, ulu Ərş.

*"Əbcədü taha üzün **Ərşi-Əzim**,*
Surətin lövhündə Həq oldu müqim." [12, s. 292]

"Nə hüsn olur, bu nə surət, zəhi behişti-nəim?
*Nə lütf olur, bu nə mə'ni, zi rəbbi-**Ərşi-Əzim**?"* [12, s. 93]

Ərşi-Rəhman – Ərşdən etibarən Allahın elmi başlayır və Lövhi-məhfuz burada yerləşdiyinə görə, Allahın təqdir etdiyi yer hesab olunur. Allahın qüdrət və ululuğu kainata bu qatdan yayılır.

*"**Ərşi-Rəhman**dır camalın zülcəlal aydır anı,*
Ey üzün Qur'an, bəyani-zülcəlalı məndədir." [12, s. 162]

*"**Ərşi-Rəhman**dır üzün, Həqdir güvah,*
Xubluğun Misrində sənsən padişah." [12, s. 298]

"Nitqi-heyyi-zati-Yəzdandır bular,
*Nuri-**Ərşü** vəchi-**Rəhman**dır bular."* [12, s. 321]

*"Vəchi-Adəm ki, **Ərşi-Rəhman**dır,*
Gözlərim anda gördü subhanı." [12, s. 237]

"Həm mənəm insü mələk, həm adəmi-xaki ilən,
*Bulmuşam həm **Ərşi-Rəhman**, cümlə oldum kainat."* [12, s. 187]

*"Surətin **Ərş ilə Rəhman**dır sözün,*
Ey sözü Həq, cümlə Qur'andır sözün." [12, s. 187]

"Söylə, ey ziba ki, zibadır sözün,
***Ərşü ər-Rəhman**ü tahadır sözün,*
Gəl ki, əsmavü müsəmmadır sözün,
Nəfxeyi-nitqi-Məsihadır sözün." [12, s. 282]

***"Ərşi-Rəhman** dedi nəbi könülə,*
Çünki gördü, könüldə kandır söz." [12, s. 9]

Ərşlə fərş kafü nun – Ərşlə fərş (Yer və göy), kafü nun "kun" كن (ol!) sözünün hərflərlə ifadəsi. Quranda işlənən Allahın "kun!" (Ol!) əmri ilə Yer və göy yaranmışdır.

*"**Ərşlə fərşü kafü nun** məndə bulundu cümlə çün,*
Kəs sözünüvü əbsəm ol, şərhi-bəyana sığmazam." [12, s. 7]

*"Mən **Ərş ilə fərşü kafü nunam**,*
Mən şərhü bəyan, bəyan mənəm mən!" [12, s. 25]

Ərşi-Kürsi – *hüruf.* "Qədim nücum elminə görə (b a x **Fələk** – X. Heydərova), 7 göydən sonra 8-ci göydə Kürsü, 9-cu göydə isə Ərş yerləşir. Hürufilər Ərş və Kürsünün ümumi qəbul olunmuş bu anlamlarından kənar izahlar verməyə çalışmışlar. Ərş bütün digər fələklərin üzərindədir və 32 mücərrəd sözdən ibarətdir. Kürsü isə bürçlar fələyidir, 7 səma və Yer onun içindədir. [Cavidanname Şerhi, cd 29580]." [44, s. 273]. "Rəfi belə bir izah verir ki, möminin qəlbi Allahın Ərşi və evi olduğuna, onda kəlamdan, yəni 28 və 32 hərfdən başqa bir şey olmadığına görə, Rəhmanın kəlam, Ərşin də Adəm (insan) olduğunu söyləyə bilərik. Ayrıca Allahın kəlamı qəlbə enər, oradan da Kürsi olan ağıza gəlib zühur edər (Cavidanname Şerhi, cd 29569]." [44, s. 275].

*"Əqli-küll **Ərşü Kürsü**, lövhü qələm,*
Çar ünsür, nöh asimandır söz." [12, s. 9]

"Qəza ilə qədərdir fe'li-niyyət,
*Xirəddir **Ərşi-Kürsi**, lövhi-canım."* [12, s. 326]

"Həm Həqin sən məzhərisən la şərikü bigüman,
*Səndədir nuri-təcəlli **Ərşü Kürsi** həm nəsim."* [12, s. 94]

*"Gəl ki, sənsən, **Ərşü Kürsi** səndədir,*
Bistü həştü sivü düsi səndədir,
Ey Məsiha, ruhi-qüdsi səndədir." [12, s. 268]

"Əbcədü tahavü Yasindir üzün,
***Ərşü Kürsi**, Turi-sinindir üzün."* [12, s. 281]

Ərşüllah – Allahın Ərşi.

"Lövhi-ixlas eylədinsə könlünü, ey müttəqi,
*Kürsiyi-Rəhmana ağdın, gögdə **Ərşüllahı** gör!"* [12, s. 140]

*"Çıxdı **Ərşüllah,** xətm oldu kəlam*
Gəncini faş eylədi beytülharam." [12, s. 289]

FƏLƏK فلك [*ər.*] *nücum.* **1.** Səyyarənin orbiti mənasında. Nəsiminin şeirlərində istifadə etdiyi nücum elmi qədim yunanlara məxsus dünyanın geosentrik sisteminə əsaslanır. Bu sistem ilk dəfə yunan filosofu Amansimandr tərəfindən b.e.ə. 6-cı əsrdə qoyulmuş, Aristotel tərəfindən isə təkmilləşdirilmişdir. Lakin kainatın geosentrik sistemini tarixçilər bir çox hallarda Ptolomey sistemi də adlandırırlar. Ptolomey sisteminin əsasını aşağıdakı 4 postulat təşkil edir: Yer kainatın mərkəzindədir; Yer tərpənməzdir; Bütün göy cisimləri Yerin ətrafında hərəkət edir; Bütün göy cisimlərinin hərəkəti sabit sürətlə çevrə – fələk boyunca baş verir. "Dünyanı iç-içə keçmiş şəkildə soğanın qatları kimi doqquz fələk çevrələyir. Yerin səmasından başlayaraq yeddi səyyarənin yeddi fələyi vardır. Birinci fələkdə Ay olmaq üzrə sıra ilə Utarid (Merkuri), Zöhrə (Venera), Şəms (Günəş), Mərrix (Mars), Müştəri (Yupiter), Zühal (Saturn) səyyarələri yerləşir. Səkkizinci fələk sabit ulduzlar və bürclər fələyidir. Doqquzuncusu isə cisimdən arınmış olan və bütün fələkləri saran ən böyük, ən yüksək fələkdir ki, fələki-atlas (atlas fələyi), fələki-əzəm (ən böyük fələk), fələki-əflak (fələklər fələyi)

adı ilə tanınır. Hükəma fəlsəfəsinə görə, səkkizinci fələyə Kürsi, doqquzuncuya isə Ərş deyilir."[39, *felek* maddəsi].

"Bu doquz çərxi-müəlləq nədən oldu tərtib,
***Fələk** altında dönən kövkəbi-səyyar nədir?"* [12, s. 15]

"Şə'şəasində məhv olur ay ilə gün bu Zöhrənin,
*Gör ki, nə afitabmış şol **fələk**in sitarəsi."* [12, s. 50]

*"**Fələk**in əsli nədəndir, mələkin nəsli nədən,*
Adəmin surətinə bunca tələbkar nədir?" [12, s. 15]

*"**Fələk** üstündə heyrandır, mələk mat,*
Nə dəryasan, nə gövhərsən, nə kansan?" [12, s. 76]

"Həm mərkəz ilə kövkəbü bürc ilə mədarım,
*Səyyarəmü çərxim, **fələk**im, seyri-səbatım."* [12, s. 91]

"Mərkəzi-xakə qıldı cümlə sücud,
***Fələk**ü həm mələk, bu həft səyyar."* [12, s. 239]

*"**Fələk**ü asimanü həft zəmin,*
Həm kitab içrə, həm quru, yaşam." [12, s. 238]

2. Göy qübbəsi.

"Fikr edərəm ki, yazayım zərrəcə eşq sirrini,
*Bəhr midad, ağac qələm, tasi-**fələk** dəvat olur."* [12, s. 135]

3. *məc.* Taleyə təsiredici qüvvə mənasında.

"Bu dərin məani gör ki, bəyan qılır Nəsimi,
Fələyin dili tutuldu bu ulu bəyan içində." [12, s. 31]

"Könlümün şəhrində eşqin bir imarət yapdı kim,
*Ta əbəd qoparmaz andan nöh **fələk** bir daşını."* [12, s. 46]

*"Möhkəm oyunçudur **fələk,** mənsubəsindən gəl saqın,*
Ey bibəsirət, bax anın şol surəti-əhvalına." [12, s. 65]

"Qaf – Qur'andır camalın, bu kəlamı Həq dedi,
*Fi – **Fələk** dövründə buldu Kə'bənin içində Lat."* [12, s. 223]

4. *məc.* Dövran, zəmanə.

*"Çün çərxi-**fələk** cahilü nadan sevər oldu,*
Pəs lacərəm uş Fəzlə xəridar bulanmaz." [12, s. 17]

"Vəslə vasilsən, qənimət dut, Nəsimi, bu dəmi,
*Gərdişi-çərxi-**fələk** nagah hicran göstərir."* [12, s. 144]

KÜRSİ كرسی [*ər.*] **1.** Oturulacaq yüksək yer; taxt.

2. *din.* Ərşin altı, Lövhi-məhfuzun yerləşdiyi yer.

3. *hüruf.* "Quran ayələrinin özünəməxsus təfsirini verən hürufilər **Kürsü**nü aşağıdakı şəkildə izah edirlər: "Allah "öz üzərinə rəhmət yazmışdır" [Ənam 6:54] və "rəhməti hər şeyi bürümüşdür" [Əraf 7:156]. Digər bir ayədə isə "Onun Kürsüsü bütün göyləri və yeri əhatə etmişdir" [Bəqərə 2:255] deyilir. Bu son iki ayəyə əsaslanaraq **Kürsü** və rəhmət arasında bir əlaqə qurulur. Digər tərəfdən Allahın insanı Rəhman surəti üzərinə yaratdığını əks etdirən hədisə əsaslanaraq **Kürsü**nün insana, xüsusən də insanın üzündəki 7 xəttə işarə olduğu söylənir. Çünkü 28 və 32 kəlimənin zühuru bu 7 xətdən gerçəkləşmişdir. Mövcudatda (insanın üzündə zühur edən

Allahın kəlmələri vasitəsilə) insanı, dolayısı ilə Allahın hər şeyi əhatə etdiyini və insanda Allah kəlamının necə zühur etdiyini bilməkdən keçir ki, beləliklə, bütün mövcudat, **Kürsü**nün bürüdüyü hər şey, insanın üzündən müşahidə olunur. [İsknamə, cd 30269]" [44, s. 260-261].

□ **Ərşü Kürsü** – *b a x* **Ərş.** "Qədim nücum elminə görə, 7 göydən sonra 8-ci göydə **Kürsü**, 9-cu göydə isə Ərş yerləşir. Hürufilər Ərş və **Kürsü**ni də bilinən bu anlamlardan fərqli yorumlamışlar. Ərş hamısının üzərindədir və 32 mücərrəd kəlmədən ibarətdir ki, şəkil və surəti yoxdur. **Kürsü** isə bürçlər fələyidir ki, 7 səma və Yer onun içindədir [Cavidannamə Şərhi, cd 29580]" [44, s. 273]. "Fəzlullah bütöv üzü Ərş, üzdəki xətləri də **Kürsü** olaraq qəbul edir. [Caividannameyi Sağır, cd 3]" [44, s. 274].

*"Əqli-küll **Ərşü Kürsü**, lövhü qələm,*
Çar ünsür, nöh asimandır söz." [12, s. 9]

"Həm həqin sən məzhərisən la şərikü bigüman,
*Səndədir nuri-təcəlli **Ərşü Kürsi** həm nəsim."* [12, s. 94]

"Qaşınla kirpigin vəhyi mana gəldivü bildirdi,
*Ki sənsən **Ərş** ilə **Kürsü**, üzün yazısı Qur'andır."* [11, s. 257]

Kürsiyi-Rəhman – Allahın taxtı.

"Lövhi-ixlas eylədinsə könlünü, ey müttəqi,
***Kürsiyi-Rəhman**a ağdın, gögdə Ərşüllahı gör!"* [12, s. 140]

NOH/NÖH نه [*fars.*] *say.* Doqquz. / *nücum.* Göyün doqquz qatı; doqquz fələk.

"Əqli küllü, ərşi kürsü, lövhü qələm
*Çar ünsür, **nöh** asimandır söz!"* [II c., s. 9]

"Yarəb, nə şəm'in nuridir gülgün yanağın, ey qəmər
*Kim, **noh** fələk pərvanədir şol surətin ənvarinə."* [I c., s. 39]

MİFOKTEMATONİMLƏR

Mifoxrematonimlər

(mifik mədəniyyət əşyalarının adları)

NƏFİR نفیر [*ər. "toplantı, kütlə, camaat" < fars. "toplanma borusu"*]
1. B a x **Sur**.

"Qopdu qiyamət fitnəsi, uruldu surun nəfxəsi
*İştə **nəfir**in seyhəsi, çalındı sanma çalına"* [12, s. 64]

*"Çalındı Qiyamətin **nəfir**i*
Ey sağır, eşitmədin səfiri." [12, s. 253]

2. Toplantı, kütlə, camaat; bağırtı, fəğan, nalə, vay-şivən.

"Afaqa düşdü ğülğülə hüsnündən, ey qəmər
*Afaqa baxü gör ki, nə ahü **nəfir**dir."* [12, s. 30]

"Ənbərin zülfün tozundandır əbir
*Məhşər oldu, qopdu hüsnündən **nəfir**."* [12, s. 270]

SUR صور [*ər.*] Böyük buynuzdan qayrılmış, Qiyamət günü mələk İsrafilin çalacağı şeypur. "Qədim kitab və təfsirlərdə "Sur" haqqında fərqli məlumatlar verilir. "Mərifətnamə"yə görə, Ərşin altına yapışdırılmışdır. Sur qırmızı mərcan rəngində buynuz formasındadır. İçi boş olub divarları arı pətəyi şəklindədir və gəlib-gedən insan ruhlarının gözləmə yeridir. Göy və yer təbəqələri onun içində yerləşir. Daxilindəki arı pətəyi kimi olan gözlərdə ruhlar oturub Qiyamətə qədər gözləyirlər. Sur İsrafilin ağzında hazır vəziyyətdə durmuşdur. Ona üç dəfə üfürüləcəkdir. İlk üfürmənin çıxardığı dəhşətli səsdən dünyadakı bütün insanlar öləcəkdir. İkinci üfürmədə ruhlar Suru tərk edib Allahın izni ilə ətə, sümüyə bürünmüş bədənlərinə qaytarılacaqdır. Üçüncü üfürmədə isə dirilmiş insanlar Məhşər yerinə toplanacaqdır." [40, s. 422].

"Çıxar pənbə qulağından, gözün aç,
*Ki, həşr olduvü çalındı bu gün **sur**."* [11, s. 238]

*"Qopdu qiyamət fitnəsi, uruldu **sur**un nəfxəsi*
İştə nəfirin seyhəsi, çalındı sanma çalına" [12, s. 64]

"Çün ənəlhaq söyləyən Mənsurdur,
*Gəldi İsrafil, əlində **sur**dur." [12, s. 269]*

"Həq-təala pərdəsiz oldu əyan,
*Sur uruldu **sur**i-İsrafil oyan." [12, s. 294]*

Mifobiblionimlər

(mifik dini kitablar)

ƏRŞİ-MÜNƏQQƏŞ عرش منقّش B a x **Lövhi-məhfuz**.

*"**Ərşi-münəqqəş** mənəm, çar ilə nöh, şeş mənəm,*
Həm həsənat işlərəm, həm qılıram səyyiat." [12, s. 181]

LÖVHİ-MƏHFUZ لوح محفوظ [*ər.*] **1.** İlahi qatda qorunan bir kitab. İslam inancına görə, dünyanın əvvəlindən sonuna kimi baş vermiş və baş verəcək hər şey, bütün hadisələr, əməllər, sözlər, savab və günahlar, o cümlədən, Qurani-kərim və digər səmavi kitablar lövhi-məhfuzda qeyd edilir. Onun qorunan və hifz edilən kimi adlandırılmasının səbəbi burada yazılmış ilahi məlumatlara hər hansı bir müdaxilənin mümkün olmaması, onların dəyişdirilməsinin imkansızlığı və mütləq mühafizə edilməsidir.

2. *hüruf.* Adəmin vücudu. Bax: [26, s.18]. "Adəmin vücudunda 28 və 32 ilahi kəlmənin tamamı qeyd edildiyi üçün hürufilər tərəfindən Qurani-həqiqi, **Lövhi-məhfuz** və Məscidül-Həram olaraq qəbul edilmişdir." [44, s.147]. "Bütün varlığın surətinin əlamətlərinin Adəmin üzündə mövcud və yazılı olmasına sübuta yetirmək üçün hürufilər aşağıdakı ayələri zikr edirlər: "Nə quru, nə yaş heç bir şey yoxdur ki, o hər şeyi açıqlayan Kitabda olmasın" (Ən'am 6:59); "Biz Kitabda heç bir şeyi əksik buraxmamışıq" (Ən'am 6:38) və "Zatən biz hər şeyi açıq bir Kitabda, sayıb təspit etmişik" (Yasin 36: 12) Dolayısı ilə, Adəmi hər şeyi özündə yazılı olduğu Lövhi-məhfuz olaraq qəbul edildiyini söyləyə bilərik. [Cavidannameyi Sağır, cd 86]" [44, s. 268].

"Xətin ümmül-kitabıdır bəyanı əhli-tövhidin
Hürufu ***lövhi-məhfuz****un müsəvvər şərhi-Fürqandır."* [11, s. 206]

*"****Lövhi-məhfuz*** *oldu qaşın, kirpigin eşq əhlinə,*
Surətin lövhündə, ey can, həq dedi Fürqan gəlir." [11, s. 241]

"Hüsnünə baxdıqca daim, oxuram inna-fətəh,
Lövhi-məhfuz*un hürufun həq çü izhar etdi uş."* [11, s. 309]

"Nunü eynin, mimü dalın tilkə ayatül-kitab,
Lövhi-məhfuz *oldu üzün, hüvə Qur'anün mübin."* [12, s. 68]

*"**Lövhi-məhfüz** ilə Ərş oldu yanağın sifəti,*
Mən bu mə'nidən ana surəti-Rəhman demişəm." [12, s. 96]

*"**Lövhi-məhfuz**u mənəm, ruhül-əminin həmdəmi,*
Həşr üçün mizanü İsrafilü həm sur olmuşam." [12, s. 116]

"Aləmi qıldı münəvvər nuri-vəchin ta əbəd,
***Lövhi-məhfuz**unda rövşən oldu həm yövmil-hesab."* [12, s. 180]

"Surətin ayineyi-eşq oldu əhli-vəhdətə,
***Lövhi-məhfuz**unda Qur'an oldu hikmətdən kitab."* [12, s. 180]

*"**Lövhi-məhfuz**am, hürufam, əbcədəm mən, həm heca,*
Həm Xəlilə Kə'bə oldum, həm mənəm sövmü səlat." [12, s. 187]

ÜMMÜL-KİTAB أم الكتاب [*ər.*] **1.** *din.* Ana kitab, kitabın anası. Quranın Zuxruf surəsi, ayə 4 və Rad surəsi, ayə 39-da adı çəkilir və Allahın qatında olan bir kitab olan Lövhi-məhfuz kimi təqdim edilir. Nəsimi aşağıdakı beytdə insanın kirpik, qaş və saç sirrini Allahın kitabı adlandırır və o kitabı bilənin ərəb dilində "mən indəhu ümmül-kitab" (*ər.* o kəs ki, ümmül-kitab Onun yanındadır) deməklə yalnız və yalnız Tanrının özü olduğunu bildirir. "İndəhu ümmül-kitab" Rad surəsi, ayə 39-dan iqtibas edilmişdir (عِنْدَهُ أُمُّ الْكِتَابِ).

"Kirpigin, qaşınla zülfün Həq kitabıdır, vəli
*Ol kitabı kim bilir mən indəhü "**Ümmül-kitab**"* [11, s. 22]

2. *hüruf.* Hürufilər Məhəmməd peyğəmbərin hədisinə ("Rəbbimi merac gecəsində əmrəd qətət olaraq gördüm") əsaslanaraq "əmrəd qətət"i ümmül-kitab surəti hesab edirlər. "Ümmi-xətlər saç, iki qaş, dörd kirpik olmaq üzrə 7 xətdir." [44, s. 138].

*"Xətin **ümmül-kitab**ıdır bəyanı əhli-tövhidin*
Hürufu Lövhi-məhfuzun müsəvvər şərhi-Fürqandır." [11, s. 206]

"Kirpigin, qaşınla zülfün sirrini məndən eşit
*Ta sənə ərz oluna həm mə'niyi-**ümmül-kitab**."* [11, s. 21]

*"Çün Nəsimi zülfü xalından oxur **ümmül-kitab***
Kaşifi-əsrar olubdur ol zi Fəzli-Müstəan." [11, s. 153]

*"Zahir oldu surətindən mə'niyi-**ümmül-kitab***
Andan izhar oldu həqdən bunca ayatü bəyan." [11, s. 153]

3. Fatihə surəsi. "Ümmül-kitab olan Fatihə surəsində 21 hərf vardır. Ayrıca üzdə olan 21 xəttə də Fatihənin ayələri ilə olan bu uyğunluğa görə ümmül-kitab deyilir." [44, s. 201]. "Həvvanın üzündə də 21 xətt vardır: 7 ümmi-xətt, bu 7 ümmi-xəttin məhəlli və 7 abavi xəttin məhəlli." [44, s. 218]. Fəzlullah ümmül kitabın Həvvanın üzündəki xətlərin sayı qədər hərflərdən ibarət Fatihə surəsi olduğunu söyləyir və ümmül-kitabın sahibi hz. Məhəmməddir. [Cavidanname-i Sağir, cd 34]." [44, s. 379].

*"Əvvəl **ümmül-kitab** Fatihədir*
Ki müəyyən bilindi xilqətdir." [12, s. 27]

Mifoxrononimlər

(mifik bayramların, əlamətdar günlərin adları)

BƏZM بزم [*fars.*] İşrət, söhbət məclisi, yığıncaq, toplantı. B a x **Bəzmi-əzəl.**

*"Vəhdətin **bəzm**ində çün saqi mənəm*
Ənfusun ayatü afaqi mənəm." [12, s. 290]

□ **Bəzmi-əzəl (bəzmi-ələst, bəzmi-əzəli-ələst)** – Qurana görə (Əl-Əraf: 172-174), Allah insanı yaratmazdan əvvəl ruhları xəlq etmiş və onlara "mən sizin Rəbbiniz deyləmmi?" deyə soruşmuşdur. Ruhlar – "Bəli, Rəbbimizsən" deyərək təsdiqləmişlər. Bəzmi-əzəl Allah ilə ruhların ilk görüşünə verilən addır.

*"Həm mənəm **bəzmi-əzəl**, həm məndədir cami-ələst*
Həm şərabi-kövsərəm, həm xəmrinin məxmuruyam." [12, s. 112]

*"**Bəzmi-əzəl**də həmnəfəsim gərçi cam idi*
Şükr eylərəm ki, həmdəmi-peymanəyəm yenə." [12, s. 61]

*"**Bəzmi-əzəl**də içmişəm vəhdət meyinin cür'əsin*
Şol cür'ədən kim, ta əbəd sərməstü məxmur olmuşam." [12, s. 118]

*"**Əzəl bəzmi**ndə rüxsarın nə şey kim gördü məst oldu*
Əcəb meydir kim, içənlər hənuz uş məsti-şeydadır." [12, s. 126]

ƏRBƏİN اربعين [*ər.*] Qırxıncı gün. Allah-taala Adəmin palçığını 40 gün yoğurmuş, nəhayət 40-cı gün – ərbəin günündə vücudu tam əmələ gətirmişdir. Bax: [44, s. 302]. Aşağıdakı misralarda Nəsimi göstərilən əfsanədən bəhs edir.

"Kaf ilə nundan yaratdın on səkiz min aləmi,
*Qüdrətindən **ərbəin** gündə tamam oldu cəsəd."* [12, s. 193]

"Kaf ilə nundan yaratdı aləmi
***Ərbəin** gündə yoğurmuş Adəmi."* [12, s. 303]

FƏRDA فردا [*fars.*] *din.* Qiyamət günü. B a x **Qiyamət.**

*"Məni vaiz bu gün **fərda**ya salar*
Yalançı qissəxan, billah, degilmi?" [12, s. 39]

*"Bu gün-**fərda**dan, ey vaiz, məni qorxutma, əbsəm dur*
*Ki, qorxusuzdur ol arif ki, imruz oldu **fərda**sı."* [12, s. 52]

*"Zahida, biz çəkməziz imruzü **fərda** qüssəsin*
*İbnivəqtiz, lacərəm imruz olur **fərda** bizə."* [12, s. 168]

*"Fey – **Fərda** səni təftiş edə aşiq, göricək*
Nə rica ana behişt ola, nə heysiyyəti-yar." [12, s. 219]

"Bu gün şol mahi-tabanın üzün gör zahir, ey abid,
*Ki, məhrum oldu ol xasir ki, məğrur oldu **fərda**yə."* [11, s. 35]

"Aşiqi-həqbin qılır yarın tamaşasın bu gün,
*Zahidi-xudbin durubdur qüsseyi-**fərda** çəkər."* [11, s. 244]

"Ey istəyən liqayı, yarın günündə Həqdən,
***Fərda**ya düşmə, qalma fikri-məhal içində."* [12, s. 66]

"Mən ol zahid sözündən qorxmazam, çün,
*Ki, imruzu qoyub **fərda**ya düşmüş."* [11, s. 306]

"Meyü şahid bu gün, şəksiz, haramdır,
*Ana kim, qüsseyi-**fərda**ya düşmüş."* [11, s. 310]

QİYAMƏT قيامت [*ər.* قِيَامَةٌ] *din.* Dünyanm sonunda İsrafil surunu çaldığı zaman bütün ölülərin dirilib ayağa durduğu gün; Məhşər günü. Ayağa qalxma, durma mənasını ifadə edir.

*"Adinədir **Qiyamət**, ol gündədir nədamət,*
Ol gündə həşr olisər, ol gündə macəradır." [12, s. 18]

*"**Qiyamət** qamətindən oldu zahir,*
Bəlayi-nagəhan, billah, degilmi?" [12, s. 40]

*"Nə sidrədir ki, boyundan **Qiyamət** oldu faş,*
Görün qiyam ilə, qəddin bu sidrənin şabaş." [12, s. 101]

*"Və'deyi-yövməl-**Qiyamət** endi həqdən arifə,*
Ruzi-həşr oldu, çalındı vəhdətin günündə sur." [12, s. 194]

*"Nun – Nə mə'nidən **Qiyamət** qamətindən kəşf olar,*
Mim – Müvəhhidlər dedilər üzünə vən-naziat." [12, s. 223]

*"Qoparalı qamətin **Qiyamət**,*
Tubada gör e'tidal olurmu?" [12, s. 229]

*"Əşrati-**Qiyamət** oldu qəddin,*
Var surilə bu hesab içində." [12, s. 231]

◊ **Qiyamət qopdu –** Qiyamət günü başladı.

*"**Qiyamət qopdu**, ey tacir, zərülbi'*
Ki, yoxdur ol günün bey'ü şərası." [12, s. 51]

*"**Qiyamət qopdu** hüsnündən, yedi iqlimə yayıldı,*
Sənin qəddü qiyamından məgər axırzaman oldu?" [12, s. 43]

*"**Qopdu qiyamət** fitnəsi, uruldu surun nəfxəsi,*
İştə nəfirin seyhəsi, çalındı sanma çalına." [12, s. 64]

LEYLƏTÜL-ƏSRA ليلت الاسراء [*ər.* [*ər.* لَيْلَةُ leylətun *"bir gecə" + ər.* ال əl *müəyyənlik artikli + ər.* إسْراء isra *Məhəmməd peyğəmbərin (s) göylərə səyahət gecəsi*] **1.** İsra gecəsi. Həmid Araslı ikicildliyində "isra" əvəzinə "əsra" vermişdir. Bax: [11, s. 34, 297]. B a x **Leylətül-me'rac.**

*"**Leylətül-əsra**da vəlleyl endi zülfün şə'ninə,*
Ayəti-vəşşəms vəchindən göründü afitab." [12, s. 180]

"Sahibi-tə'vil həqdir bigüman,
***Leylətül-əsra,** rümuzi-cavidan."* [12, s. 324]

*"Rümuzi-**leylətül-əsra**, gəl, ey zahid, eşit məndən,*
Ki, ol bildi bu sirri kim, əmini kirdigar oldu." [11, s. 297]

2. *məc. Saçın qara rənginə işarə.*

Ay ilə günəş üzün ənvarıdır,
***Leylətül-əsra** saçın əsrarıdır;*
*Saçındır **Leylətül-əsra**, qaşın əsrari-ma əvha,*
Qanı həqdən irişmiş can bu ma əvhayü əvhayə.

LEYLƏTÜL-ME'RAC ليلت المعراج [*ər.* لَيْلَةُ leylətun *"bir gecə" + ər.* ال əl *müəyyənlik artikli + ər.* مَعْراج merac *Məhəmməd peyğəmbərin (s) göylərə səyahət gecəsi*] Merac gecəsi. Məhəmməd peyğəmbərin (s) Büraq adlı əfsanəvi heyvanın belində Məkkədən Qüdsə – Məscidi Əqsaya, ordan da Rəf-rəf adlı heyvanla sidrətül müntəhaya, daha sonra Allahın hüzuruna çıxışı. Bu hadisə Quranın İsra surəsinin 1-ci ayəsində xatırlanır.

"Nuni-eynin vəhyinə həqdən işarətdir bu gün,
***Leylətül-me'rac**a zülfündən işarətdir bu gün."* [11, s. 178]

*"**Leylətül-me'rac** zülfün, qabə qövseyndir qaşın,*
Hər kişi kim, oldu layiq, eydinə qurban budur." [11, s. 228]

□ **Seyri-Me'rac** – Merac səfəri.

*"Bu dəm ol dəmdir, Məhəmməd **seyri-Me'rac** eylədi*
Gəl qənimət gör bu dəmni kim, bu dəm ol dəm degil." [12, s. 330]

Təsəvvüfdə: "Salikin Haqqa doğru mənəvi yüksəlişi. Bu yüksəliş onu Qeyb aləminə qovuşdurur."[8]

*"**Me'rac**ə çıxdı ruhi-Nəsimi Buraq ilən*
Şol laşədən nə faidə kim, la-zəlul ola?" [11, s. 16]

Hürufilikdə: "Fəzlullaha görə, yuxuda və oyaq ikən iki cür merac vardır. Yuxudakı meracda hz. Peyğəmbər ənbiya və övliyanı, Beytül-məmuru, göyün qapılarını, sidrətül müntəhanı görmüşdür. Oyaq ikən bədən ilə gerçəkləşən merac isə Beytül-Həramdan Beytül-Məqdisə olan gedişi (isra) və sidrətül-müntəhaya gedib çıxmasıdır. Bu isə hz. Peyğəmbərin vücudundakı xətləri müşahidəsindən kinayədir [Cavidan-name-i Sağir, cd 1 09-1 1 O]. Hürufilərə görə, merac hz. Peyğəmbərin xətlərın elminə yüksəlməsi şəklində izah olunur. Əmir Qiyasəddin belə hesab edir ki, merac hz. Peyğəmbərin ayaqdan başlayaraq köks və sinənin həqiqətlərinə çatıb oradan üzə gəlib üzdəki xətlərın həqiqətinə varmasıdır." [44, s, 400-401].

"Zülfün gecəsi qədrdürür, al yanağın ay
***Me'rac** üzün, sidrə boyun, qaşın iki yay."* [11, s. 113]

[8] Göyüşov, Nəsib (2001). Təsəvvüf anlamları və dərvişlik rəmzləri (yığcam ensiklopedik açıqlamalar). Bakı, "Tural-Ə" Nəşriyyat-Poliqrafiya Mərkəzi. 240 səh., s.118.

"Ey sahibi-təxtü tac, canlar canına möhtac
*Vey görklü üzün **me'rac**, didarına müştaqəm."* [11, s. 138]

*"İrdim qaşın **Me'rac**ına kim, qabü-qövseyin oldurur*
Vüslət şəbindən gör məni, sər ta qədəm nur olmuşam." [12, s. 118]

"Əhsəni-təqvim bil məktubi-sübhanəlləzi
*Üştə **Me'rac**ı, ə'layi-laməkanı qandadır?"* [12, s. 165]

MİFOFİTONİMLƏR
(mifik bitki adları)

SİDRƏTÜL-MÜNTƏHA سِدْرَةُ مُنْتَهَى [*ər.* سِدْرَةٌ sidr ağacı + مُنْتَهَي müntəha *"son həddi"*] Son həddi olan sidr ağacı. Cənnətdə Məva bağının yanında son həddə olduğu bildirilən sidr ağacının kökü səmadadır. "Ərşdə sərhəd, son həddi (müntəha) rolunu oynayır. Heç bir məxluqat bu səddi keçə bilməz. Məhəmməd peyğəmbər merac edərkən "sidrətul-müntəha"ya qədər gəlib çatmışdır. "Hürufilərə görə isə, ""sidrətül-müntəha" Adəmin vücududur." [44, s. 401]. Ən-Nəcm surəsinin 14-cü ayəsindən iqtibas edilmişdir: "Son həddəki sidr ağacının yanında" (عِندَ سِدْرَةِ الْمُنتَهَىٰ).

*"Müntəhi **sidrə** boyun qaməti şümşadi-səhi*
*Ki, boyun **sidrə**sinə sərvi-xuraman dedilər."* [12, s. 132]

*"Əlif – Allah, **sidrə** boyun **münəha**dır **müntəha***
Çün cəmalındadır ərRəhman ələl-Ərş istiva." [12, s. 215]

*"Aşiqlərə **sidrə** qamətindir*
*Xubluqda zəhi, nə **müntəha**san."* [12, s. 232]

Sidrətül-müntəhanın əqsamı otuz ikidir – *hüruf.* "Sidrətül müntəhanın altından axan 4 çay hz. Məhəmmədin nitqində olmayan 4 fars hərfinin qarşılığıdır. Sidrəyə "müntəha" deyilməsi də bu səbəbdəndir ki. 4 fars hərfi ilə birlikdə hz. Məhəmmədin nitqindəki 28 hərf 32 hərf olur. Beləcə hz. Məhəmməd hərflərin sonuna çatmışdır." [Cavidannameyi Sağır, cd 76; Şerh-i Pəncah Paye, cd 29633]" [44, s. 408].

*"**Sidrətül-müntəhanın əqsamı**,*
*Sayır isən, haman **otuz ikidir**."* [12, s. 125]

TUBA طوبی [*ər.*] **1.** Cənnətdə bitən hündür, gözəl bir ağac.

*"**Tuba** ağacının nədir yemişi*
Həqq onu ər yaratdı, yoxsa dişi?" [12, s. 249]

*"Nihalın e'tidalından utanır sidrəvü **Tuba***
Bu qəddi bənzədən sərvə nihalın qədrini bilməz." [11, s. 63]

*"Ey **Tubi**yi arzulayan himməti alçaqlar kibi*
*Qəddini yarın arzula kim, **Tub**undən ə'la imiş."* [11, s. 317]

2. *məc.* Hündür boylu, ucaboy. İnsanın qaməti ona bənzədilir.

*"Gəl ey **Tuba**, sücud eylə bu siminbər səhi sərvə*
Ki, əmri-əscədü gəldi bu rə'na qəddü balayə." [12, s. 34]

*"Boyun **Tuba**, ləbindir abi-Kövsər*
Yüzün tə'nə qılır Şəmsü hilalə." [11, s. 45]

*"Boyundur sidrəvü **Tuba**, üzündür cənnətü hura*
Xətü xalın kəlam oldu, bu əsrarı bəyan etdi." [11, s. 84]

MİFOZOONİMLƏR
(mifik heyvan adları)

BURAQ/BÜRAQ براق [*ər.*] Məhəmməd peyğəmbər Meraca gedərkən Məkkədən Qüdsə qədər olan məsafəni minib qət etdiyi fövqəladə səma heyvanı. Rəvayətlərə görə, Buraq ağ rəngli, qatırdan kiçik, eşşəkdən böyük və yüksək sürətlə irəliləyən bir heyvan olmuşdur. Məhəmməd peyğəmbər Qüdsdən Meraca qədər olan məsafəni isə Rəf-rəf adlı miniklə qalxmışdır.

*"Me'racə çıxdı ruhi-Nəsimi **Buraq** ilən*
Şol laşədən nə faidə kim, la-zəlul ola?" [12, s. 16]

"İstiva sirrinə yol buldu üzündən ta ana
*Cəbrail çəkdi **Büraq**ı mindi getdi çün üqab."* [12, s. 179]

ƏJDƏHA اژدها [*fars.*] Ağzından od püskürən, insan və heyvanları udan, qanadlı nəhəng, ya ilan şəklində təsəvvür olunan əfsanəvi bir heyvan. Musa peyğəmbər Mədyəndən Misirə qayıtdığı zaman öz möcüzəvi əsasını Fironun qarşısında yerə atmış və o, əjdahaya çevrilmişdir.

*"**Əjdəha**yı göricək Musa əsasın daşladı,*
***Əjdəha** oldu əsası, **əjdaha**yı qapdı."* [11, s. 107]

□ **Əjdaha olan ağac** – Quranda bəhs edilən rəvayətə görə, əjdahaya çevrilən əsa. Bu möcüzəvi əsanı Musa peyğəmbərə qayınatası Şüeyb bağışlamışdır. Musa Misirə gəldiyi zaman onu Fironun qarşısında yerə atmış və o, əjdahaya çevrilmişdi. Rəvayətə görə, bu əsanı həzrəti Adəm cənnətdən gətirmiş və ondan da Şüeyb peyğəmbərə miras qalmışdır.

"Musiyu Tur nədir, Şibliyu Mənsur nədir,
***Əjdaha olan ağac**, riştə ilən dar nədir?"* [12, s. 15]

QƏTMİR/QİTMİR قطمير [*ər.* قِطْمِيرٌ qıtmir *"az və dəyərsiz, əhəmiyyətsiz bir şey"*] **1.** Əshabi-kəhfin köpəyinin adı. Bu dini rəvayətdə 7 gənc oğlanın yanında olmuş it. Əslində "Qıtmir" yazılmalıdır.

2. *məc.* Kamili-insanın eqoistlikdən, təkəbbürdən uzaq olan təvazökar qəlbi. Nəsimi bu beytdə köpəyin adındakı mənanı əsas götürmüşdür. B a x **Kəhf** *və* **Tur.**

"Əshabi-kəhfin sirrini görmüş liqayi-Turə sor
*Niçün ki, "vət-Tur" əhlinin kəhfindədir **Qətmir**imiz."* [11, s. 79]

Mifoornitonimlər

(mifik quşlar)

BUTİMAR بوتيمار [*fars.*] *zool.* Su kənarında yaşayan qırmızı dimdikli quş növü (lat. Ixobrychus exilis). *// klas.* İran mifologiyasında eşqindən ölən əfsanəvi quş. Susuzluğunu şirin su ilə deyil, dəniz suyu ilə qarşılayan bu quş rəvayətə görə, dənizə aşiq imiş. Dəryanın bir gün quruya biləcəyindən qorxduğu üçün suyundan içməyə qıymaz, eləcə susuzluqdan yana-yana baxarmış. Ən sonunda Butimar aşiq olduğu dənizin üstündən uçarkən susuzluqdan ölür və əngin dəryada qərq olur. Yarına zərər verəcəyi qorxusu ilə bir udum belə su içmədiyi halda heç olmamış kimi bu dünyadan silinib yox olur. Nəsimi aşağıdakı beytində sufini həyatını mənasız şəkildə qurban verən Bitumara bənzədir.

"Səfasız sufi daim qayğuludur
*Bu mə'nidən ki, **Butimar**a bənzər."* [11, s. 253]

ƏNQA عنقا [*ər.* عنقاء] Əfsanəyə görə, Qaf dağında yaşayan, bütün quşların hökmdarı olan mifik bir quş. B a x **Simurğ, Humay**. Ənqa quşu yanıb kül olduqdan sonra yeniden yaranır. Bu məqam insanın başına gələn bəlalardan sonra ayağa qalxa bilməsini də simvolizə edir. *// təsəv.* Allah.

"Eşq ilə hər dəm, Nəsimi, seyr edərsən Kuhi-Qaf
*Sənsən ol ali məqamda şəhpəri-**Ənqa**yi-eşq."* [11, s. 30]

"Ey Nəsimi, çün Süleyman oldu quş dilin bilən
*Qafa varıb görmək istərsən bizim **Ənqa**mızı."* [12, s. 34]

*"Baxmazam **Ənqa**yi-Qafa, qürbəti-Lahuta mən*
Seyr ilə simurği-eşqəm, pərrü balı məndədir." [12, s. 164]

□ **Ənqamisal** عنقا مثال [*ər.* عنقاء ənqa + *ər.* مثال misal *"örnək, nümunə"*] *sif.* Ənqa quşu kimi.

*"Çün Nəsiminin məqamı Qaf imiş **ənqamisal***
Şol müəllaqədrə gər ari göhər dersəm, nola?" [11, s. 14]

HÜDHÜD هدهد [*ər.*] Şanapipik, hop-hop quşu. Həzrəti Süleyman ilə Səba məlikəsi Bilqeyis arasında xəbər gətirib-aparan quş.

*"**Hüdhüd**ü Bilqeysə rəsul eylədi,*
Naməni göndərdi Süleymanımız." [12, s. 13]

"Ey badi-səba, var, xəbəri yarə ilət kim,
***Hüdhüd** dilidir bunu Süleyman dəxi bilməz."* [12, s. 11]

HÜMA/HÜMAY همای||هما [*fars.* Avestada humayā- "qutlu", Zərdüşt mifologiyasında Viştaspun qızının adı; *türk.* umay "qurtulma, qurtuluş"] B a x **Simurğ.** "Dövlət quşu, tale quşu, cənnət quşu. Qaf dağında, okean adalarında və ya Çində yaşadığına inanılan əfsanəvi bir quş. Sərçədən bir az böyük, yaşıl qanadlı, sarı dimdikli, boz sağsağanı xatırladan bir quş imiş. Keçmişdə bir meydanda hümay uçurulurmuş və kimin başına qonarsa, o adam padşah olurmuş. Bu baxımdan hümay bir dövlət quşu kimi də tanınır. Hümay göylərdə uçduğu zaman kölgəsi kimin başına düşərdisə, o adam gələcəkdə padşah olurmuş. Bu quşun ayaqsız olduğu və dərisinin ələ keçmədiyi söylənir. Sümüklə bəslənir və heç bir quşu incitməzmiş. Ədəbiyyatımızda rifah, qüdrət və səadət vəd edən bir bəxt açıqlığının simvolu olaraq tanınır. Çox zaman ənq və ya simurq ilə qarışdırılmışdır. Hümay divan şeirindəki sevgilini xatırladır. Sevgili də hansı aşiqinə iltifat edərsə, o, səadətə çatmış olur. "Hümayi beyzayi din" birləşməsi peyğəmbərimiz üçün istifadə olunan bir deyimdir." [40, s. 228, *hümâ* maddəsi]. "Bəzi xalqların mifologiyalarında ortaq xüsusiyyətləri olan bu tip əfsanəvi quşların adları çəkilir və qarışdırılır: farslarda "hümay" və "simurq", ərəblərdə "ənq", Misir mifologiyasında "feniks" və s. Hümayı digərlərindən ayıran ən önəmli özəllik onun cənnət və dövlət quşu olmasıdır. Bu quşun yeddi qat göyün üzərində, fələklər və bürclər arasında dolaşaraq Allaha çatacağına inanılır." [59].

Nəsimi şeirlərində "Hümay" Allaha şamil edilir.

"Düşürmüş ayə saçın zillinivü kölgəsini,
Düşürmək anciləyin sayə, şol ***Hümay****ə düşər."* [11, s. 289]

"Tabəndə üzün tabişi bədri-dücaya tə'n edər,
*Fərxəndə zülfün sayəsi zilli-****Hümay****a tə'n edər."* [11, s. 286]

"Gaf – Gönlüdür Nəsiminin məhəbbətdən sərir,
Şol şaha kim, kölgəsidir zilli-Simurğü ***Hüma****."* [12, s. 217]

Hümay-təl'ət – humay çöhrəsi; ilahi üz.

*"Sənınlədürür **Hümay-təl'ət**,*
Kim dedi sana ki, sən hümasan?" [12, s. 232]

□ **Hümatək** هماتك [*fars.* هما huma *+ türk.* tək] *Humay kimi.*

*"Hər quşun olmaz səadətli **hümatək** kölgəsi,*
Çünki simurğam deyərsən, laməkan Qafın qanı?" [12, s. 32]

SİMURĞ سیمرغ [*fars.*] Qədim İran əsatirində: Əlbürzdə yaşayan erkəyi, dişisi olmayan və balalamayan əbədiyaşar, ölməz böyük bir quş; Ənqa, Zümrüd quşu. Qədim Misir mitologiyasındakı Feniks və türk mitologiyasında Huma quşu ilə bənzərliyi var. // *təsəv.* Fəridəddin Əttar bu termini təmsili olaraq vəhdəti vücud – varlığın birliyi kimi izah edir. Onun fikrincə, quşlar – saliklər, həqiqət yolunda seyrü-sülukun yolçularıdır. Hüdhüd quşları digər quşlara rəhbərlik edən mürşidlər, yol göstərənlərdir. Simurq Tanrının zühuru, aşkara çıxmasıdır. B a x **Ənqa, Hümay.**

"Ey künhü rif'ətindən bibəhrə əqli-mütləq,
*Vey gənci-binəhayət, **Simurğ**i-Laməkansan."* [12, s. 79]

"Könlüm quşu əsfəldədir, vəqt oldu pərvaz eyləyə,
***Simurğ**i-Qafə qürb olan Ərş üstünə cövlan gərək."* [11, s. 114]

"Əfifiyə görə quşlar – bəşəri nəfslər, Simurq isə Haqqın özüdür." [31, s. 121-135]. Nəsimi aşağıdakı beytdə özünü əsfur (*ər.* عصفور "*sərçə*") adlandırır:

"Həm cəbəl, həm Kəhf, həm Əshabi-Kəhfəm kəlb ilə,
*Həm Qafın Simurğuyam, həm quşların **əsfur**uyam."* [12, s. 111]



Həm cəbəl, həm Kəht, həm Əshabi-Kəhfəm kəlb ilə,

Həm Qafın Simurğuyam, həm quşların əsiriyəm.



Nəsimi, uşbu ənvarın şüasından münəvvərdir,

Kitabü nərdü şətrəncü odü yel, su, türab oynar.

II Fəsil

ANTROPONİMLƏR

آنتروپونیملر



Ta ki, Fəzlullahə düşdü könlümüz,

Uş həqiqi raha düşdü könlümüz.

İSLAM DİNİ VƏ MƏZHƏBLƏRİ İLƏ BAĞLI ŞƏXSİYYƏTLƏRİN ADLARI

MƏHƏMMƏD محمّد [*ər.*] İslamın qurucusu, dini, sosial, siyasi lider (570-632). İslam təliminə əsasən, Adəm, İbrahim, Musa, İsa və digər peyğəmbərlərin təbliğ etdiyi monoteist təlimləri təsdiq və təqdim etmək üçün göndərilmiş peyğəmbər. İslamın bütün əsas qollarında Allahın sonuncu elçisi olaraq qəbul edilir. "Məhəmməd peyğəmbər İbrahim peyğəmbərin oğlu İsmayıla nisbətlə ismaililər adlandırılan və iki böyük ərəb tayfalarından birini təşkil edən adnanilərə mənsubdur. Soy şəcərəsinin iyirmi birinci göbəkdən atası olan Adnana qədər uzanan qismi zikr edilmiş, ondan sonrası Peyğəmbərin də göstərişi ilə yayğınlıq qazanmamışdır (İbn Sa'd, I, 56, 58). Özünün təsdiqlədiyi və bütün islam mənbələrində qeyd edilən soy şəcərəsi aşağıdakı şəkildədir: Məhəmməd ibn Abdullah ibn Abdülmüttəlib (Şeybə) ibn Haşim ibn Abdümənaf ibn Qusay ibn Kilab ibn Mürrə ibn Kə'b ibn Lüəy ibn Qalib ibn Fihr (Qüreyş) ibn Malik ibn Nədr ibn Kinanə ibn Hüzeymə ibn Müdrikə ibn İlyas ibn Mudar ibn Nizar ibn Məad ibn Ədnan." [59, s. 181]

*"Gəldi sonra **Məhəmməd**in nuru,*
Görə axır şu kimsə k'ümmətdir." [12, s. 28]

*"Şol **Məhəmməd** Baqiri gör şər' bazarında kim,*
Necə verdi hədyəni çün lütf ilə Allah ona." [12, s. 175]

*"Şol **Məhəmməd** Mehdi kimi ədl edib, cəhd edəsən,*
Hiç gümansız məskən ola cənnətül-mə'va sana." [12, s. 176]

*"Şol **Məhəmməd** Mustafanın üz suyu çün, ya ilah,*
Rəhmət etgil mən fəqirü asiyə ruzi-cəza." [12, s. 176]

"Bu mə'rifət, bü təriqət, həqiqət oldu tamam,
*Şəriət əmri üçün ver **Məhəmməd**ə sələvat."* [12, s. 184]

□ **Məhəmməd ümməti** – "ümumi mənbələrə görə, məhşər gününün dəhşətindən bütün peyğəmbərlər "nəfsi, nəfsi" söyləyəcəklər. Bircə hz. Məhəmməd "ümməti, ümməti", yəni "ümmətim, ümmətim" deyəcəkdir. Tanınmış hürufi şairi Müti "ümmət" sözünün əbcəd hesabını apararaq Fəzlullahın doğum tarixini alır. Başqa sözlə desək, yəni hz. Məhəmməd "ümməti, ümməti" deməklə Fəzlullahın zühurunu elan etmiş olur." [44, s. 34].

*"**Məhəmməd ümməti**ndən sən doğalı,*
Səni gözəllərin sultanı gördüm." [11, s. 140]

ƏLİ b a x **Şiə imamlarının adları.**

FATİMƏ فاطمه [*ər*. فاطمة] Məhəmməd peyğəmbərin qızı həzrəti Fatimeyi-Zəhra (tam adı: Fatimə binti Məhəmməd əl-Haşimi əl-Qüreyşi; 605,614 - 632).

*"**Fatimə**dir bir dəxi kim ol Həqqin ehsanıdir,*
Gəldi ondan iki gövhər biri xəlq ilə Həsən." [8, s. 49].

HƏSƏN B a x **Şiə imamlarının adları.**

HÜSEYN B a x **Şiə imamlarının adları.**

BİLAL بلال [*ər.*] İslamiyyətdə ilk dəfə azan oxumuş şəxs: Bilal ibn Rubah əl-Həbəşi (*ər.* بلال بن رباح Bilal ibn Rabah əl-Həbəşi) — Məhəmməd peyğəmbərin səhabəsi. İlk müəzzin. Bilalın ata-anası və özü qul olmuşdur. Məhəmməd peyğəmbər (s) peyğəmbərliyə seçildiyi vaxt Bilalın otuza yaxın yaşı vardı.

*Mə'rifət əhlinə üzün Kə'bə, **Bilal**i bənlərin,*
Mehrab can quşun, vəli eynin imami-Cə'fəri ." [11, s. 90]

"Hafiz əgərçi oxur yövmü-yünadi, vəli
*Sən bu nidayı ana sor ki, **Bilal**ı bilür."* [12, s. 139]

ƏDHƏM أدهم [*ər. "qara, tutqun"*] İslam təsəvvüfü və tarixində böyük rol oynamış, Xorasanda ilk irfan məktəbinin banisi kimi tanınan İbrahim Ədhəm (ölümü: h. 166 // m. 780). Rəvayətə görə, Xorasan dövlətinin şahzadəsi olmuş, lakin ona vəhy yolu ilə gələn irfani biliklər səbəbindən padşahlıq taxt-tacını buraxaraq riyazət, ibadət və təsəvvüf yolunu seçmiş, yoxsul həyat sürmüşdür.

Cuyəndə qılan məhəbbətindən,
*Kərxi ilə Şibli, **Ədhəm** oldu ."* [12, s. 233]

"Zahidü rə'na yügüşdür Şibliyi-zünnun imiş,
*Adı İbrahim çoxdur, nedəyim **Ədhəm** degil ."* [12, s. 330]

KƏRXİ كرخى [*ər.*] Məruf ibn Firuz əbu Məhfuz (ölümü h. 200/ m. 815). Bağdadın Kərx bölgəsindən olduğu üçün Mərufi Kərxi kimi tanınmışdır. Təsəvvüfdə Haqq-təalaya gedən yolda rəhbər, dövrünün aşiqlərinin əfəndisi olmuşdur. Ata-anası İran əsilli xristian olduğu halda islamı qəbul etmişdir.

"Cuyəndə qılan məhəbbətindən,
***Kərxi** ilə Şibli, Ədhəm oldu."* [12, s. 233]

MANİ مانی [*türk.*] III əsrdə Babildə meydana gəlmiş, bütün dünyada və xüsusilə Şimali Afrikada yayılmış manixeizm və ya manilik qnostik dini təliminin banisi (215-276). Maniçilik əslində zərdüşt dualizmi, xristian ünsürləri, buddist əxlaq prinsipləri və Babil folklorunu özündə birləşdirən, reankarnasiyanı qəbul edən sinkretik dini-fəlsəfi təlimdir. Manilik ən parlaq dövrünü XIII əsrdə Uyğur dövlətinin milli dini olaraq elan edilməsi ilə yaşamışdır. Mani İranda I Şapurun nəvəsi Bəhram şahın əmri ilə dərisi soyularaq edam edilmişdir. "O, mahir rəssam olmuş, yazdığı "Ərjənk və Ərtənk" adlı kitabını əlvan miniatürlərlə bəzəmiş, bu yolla özünə həmfikirlər qazanmışdır" [Gəncəvi, 1981: 359, 361]. Bu səbəbdən Mani klassik ədəbiyyatda gözəllik, gözəl təbiət və həyati lövhələr yaradan rəssam, nəqqaş simvolu kimi xatırlanır.

"Ey verən könlünü çin nəqşinə, şol surətə bax,
*Qüdrətin nəqşi yazan nəqşini **Mani** nə bilür?"* [12, s. 137]

MƏNSUR منصور [*ər.* مَنْصُور *"qalib gələn, müzəffər"*] Sufi tarixinin ən parlaq simalarından olan sufi-şair Hüseyn ibn Mənsur əl-Hallac (h. 244 / m. 858 – h. 309/ m. 922). Mənsur Allahı zikr etdiyi zaman ondan başqa hər şeyi, hətta öz nəfsini də unutduğu ekstaz hallarından (sufilikdə buna səkr halı deyilir) birində, "sən kimsən?", - deyə soruşanlara "Ənəl-Həqq" cavabını vermişdir. Ona görə də bu ifadəni ilk söyləyən məhz Mənsur hesab edilir. Səkkiz illik həbs cəzasından sonra Bağdadda Abbasi xəlifəsi Müqtədirin əmri ilə 922, bəzi məlumatlara görə isə 919-cu ildə edam edilmişdir.

*"**Mənsur** ənəlhəq söylədi, həqdir sözü, həq söylədi,*
Anın cəzası qəm degil, biganədən gər dar imiş." [11, s. 314]

"Nə qeyrətli ənəlhəqdir bu, yarəb,
*Ki, **Mənsur**u asar darına mənsur."* [11, s. 237]

"Şərabi-lə'linizdən cür'ə içdi,
*Ənəlhəq çağırır eşqində **Mənsur**."* [11, s. 251]

*"**Mənsur** kimi cuşa gələr, söylər ənəlhəq,*
Hər aşiqi-sadiq ki, bu meyxanəyə uğrar." [11, s. 223]

□ **Mənsur olmaq** – Mənsur kimi Haqq aşiqi olmaq, ilahi eşq uğrunda dara çəkilmək.

*"Hər bir səri-mu **Mənsur olub** söylər ənəlhəq,*
Həqqa mey içənlər irişərlər bu xəyalə ." [11, s. 46]

"Üzün ənəlhəqqi məni zülfündə bərdar eylədi,
***Mənsur olan**dır asılan aləmdə eşqin darinə."* [11, s. 57]

"Könlümün Mənsuri çünkim, zülfünü edindi dar,
*Yə'ni ki, **Mənsur olan** zülfündə bərdar istəməz."* [11, s. 64]

"Çün, ənəlhəq darını Mənsur olandır istəyən,
***Olmayan Mənsur** ənəlhəq, leysə fiddar istəməz."* [11, s. 65]

"Ənəlhəqdir münacatım, həq oldu bitdi hacatım,
*Gəl, ey **Mənsur olan**, qurtar bu darın girüdarından."* [11, s. 156]

SALMAN سلمان Ehtimal etmək olar ki, aşağıdakı beytdə adıçəkilən şəxs Məhəmməd peyğəmbərin dörd sadiq səhabəsindən biri olmuş İran əsilli Səlman Farisi olmuşdur. Çünki o, Məhəmməd peyğəmbərin saçına dəlləklik edərmiş. Nəsimi də aşağıdakı şeirində onu usta adlandırır və eyni zamanda etibarsız şəxs olduğunu göstərir. Lakin o, həqiqətdə Peyğəmbər tərəfindən əhli-beyt elan edilmiş və ölənə qədər ən etibarlı şəxs olmuşdur. Nəsiminin başqa bir Salmandan bəhs edib-etməməsi müəmmalı olaraq qalır.

*"Çünki, **Salman** oğlu usta var imiş,*
Hasili güldən cahanda xar imiş,
Həqqə yaram der, vəli əğyar imiş,
O yalançıdan Xuda bizar imiş." [12, s. 277]

ŞİBLİ شبلي Təsəvvüf tarixinin təriqətlər silsiləsindəki ilk sufilərdən olan Əbu Bəkr Şibli (h. 247/m.861 – h.334/m.946). "O, illər boyu hədis və fiqh oxumuş, imam Malikin "Əl-Muvatta"sını əzbər bilmişdir. Lakin sonralar fiqh və hədis elmlərini yetərsiz görən Şibli belə hesab etmişdir ki, həqiqi fiqh Allah ilə qul arasındakı halları açıqlayan fiqhi-ilahidir. Quran ayələrinin mənaları üzərində dərindən düşünərək təhlil etməyə üstünlük verən mütəsəvvif bu minvalla 43 ildə Allahın kitabının dörddə birini oxuyub bitirə bilmişdir. Şibli Həllac Mənsurun yaxın dostu olmuş və dediyinə görə, onu dəfələrlə xəbərdar etmişdir ki, ilahi sirləri xalqa açmasın. O, Həllac edam olunduğu zaman yanından heç ayrılmamış, dostuna çətin günündə dəstək olmağa çalışmışdır." [59]

*"Musiyü Tür nədir, **Şibli**yü Mənsur nədir,*
Əjdəha olan ağac, riştə ilən dar nədir?" [12, s. 15]

"Gözlərin süzmüş və üzmüş canını aşiqlərin,
Asılı zülfündə yüz min Şiblivü Mənsur idi." [12, s. 55]

"Cuyəndə qılan məhəbbətindən,
*Kərxi ilə **Şibli**, Ədhəm oldu."* [12, s. 233]

*"Zahidü rə'na yügüşdür **Şibli**yi-Zünnun imiş,*
Adı İbrahim çoxdur, nedəyim Ədhəm degil ." [12, s. 330]

FƏZL فضل [*ər.*] **1.** B a x **Fəzlullah.**

*"Nəsimi, **Fəzl**in Allahın üzün nurunda çün gördü,*
Təvafi-Kə'bə xətm oldu, səfavü həcci-əkbərdir." [12, s. 153]

*"Çün Nəsimidir bu gün Qur'ani-natiq **Fəzl** ilə*
Sirri-Yəzdan, nuri-sübhan, qövli-Qur'an oldu faş ." [12, s. 334]

*"**Fəzl**inə bel bağladım, ya Vahidü Fərdü Əhəd!"* [12, s. 193]

*"Allahın **Fəzl**i bizə oldu bəşir,*
Bəşrəna bimağfirən əcrən kəbir." [12, s. 271]

*"**Fəzl** Rəbbi-zülcəlal oldu bizə,*
Möhsünü hüsnü camal oldu bizə." [12, s. 298]

Fəzli-Nə'imi – Fəzlullah Nəimi.

"Kim ki, əsrari-Nəsimi bilmədi,
*İzzəti-**Fəzli-Nə'imi** bilmədi."* [12, s. 304]

2. "Fəzlullah" sözü ərəb dilində sintaktik baxımdan izafət təşkil edir: فضل الله (Allahın fəzli, yəni Allahın lütfü, yaxşılığı, fəziləti). Nəsimi şeirlərində bu izafət birləşməsinin "Allah" qismini Allaha aid edilən sifətlər, bəzən isə Qurandan tərkiblər ilə dəyişmişdir. O, ərəblə yanaşı fars izafət quruluşunu da tətbiq etmişdir.

□ **Bəndeyi-Fəzli-Xuda –** Allahın qulu Fəzl.

"Hər kimin kim, rəhbəridir sidqü ixlasü səfa,
Oldurur darın içində ***bəndeyi-Fəzli-Xuda*** *."* [12, s. 175]

Elmi-Fəzli-Həq – Haqqın Fəzlinin elmi.

"Ğeyn – Ğeyrə sümmə vəchüllah yox, ey müddəi,
Eyn – ***Elmi-Fəzli-Həq****dir kəşf edər hər müşkilat ."* [12, s. 223]

Fəzli-bismillahir-Rəhmanir-rəhim – bismillahir-Rəhmanir-rəhimin Fəzli.

*"****Fəzli-bismillahir-Rəhmanir-rəhim****,*
Surətin lövhündə yazmışdır qədim." [12, s. 292]

Fəzli-Əzim – Əzimin (Allahın 99 adından biri) Fəzli.

"Həqqi-mütləq sənsən, ey ***Fəzli-Əzim****,*
Ey üzü cənnatü firdövsi-nəim ." [12, s. 292]

Fəzli-Həq – Haqqın (Allahın 99 adından biri) Fəzli.

"Kə'b üzündə bizə, ey ***Fəzli-Həq****,*
Zülfü rüxün qibləvü imanımız ." [12, s. 12]

***Fəzli-Həq**dən Nəsimi, yetdi sana*
Mülkətü xatəmi-Süleymani ." [12, s. 54]

*"Çün Nəsiminin qəmindən **Fəzli-Həq** vaqifdürür,*
Qəm degil gər kimsə olmaz müttələ' əsrarına ." [12, s. 60]

Fəzli-Xuda – Xudanın Fəzli.

"Ey mə'rifət zərrai, gəl saç danənin varın yerə,
***Fəzli-Xuda**dan aləmə çün rəhməti-baran gəlir ."* [12, s. 203]

*"Adəmi **Fəzli-Xuda** bil, adəmi,*
Kainata kəndxuda bil adəmi ." [12, s. 302]

*"Qıldı gədayi müğtənim **Fəzli-Xuda**nın ne'məti,*
Ey divü xənnasü həsud, gör kim, ana eyşxan gəlir." [12, s. 203]

Fəzli-İlahəna – Bizim ilahimizin (Allahın) Fəzli.

"Üzün bu cəhətdən ola beyza,
*Min **Fəzli-İlahəna** təala ."* [12, s. 254]

Fəzli-İlahi – İlahinin (Allahın) Fəzli.

"Sən məndən olma qafil, istə ki, ta biləsən,
*Anı ki, tanımışsan, **Fəzli-ilah**ım oldur ."* [11, s. 230]

"Pərdə üzündən götür, ey surətin
***Fəzli-İlahi** ilə Rəhmanımız ."* [12, s. 12]

*"Ey Nəsimi, sana çün **Fəzli-İlah** oldu müin,*
Məni eyb eyləmə kim, tapuna sultan demişəm ." [12, s. 96]

Fəzli-Qeyb – Qeybin Fəzli. Qeyb – göz ilə görülməyən, ağıl ilə bilinməyən varlıqlar aləmi, Allahın sifətlərindən biridir.

"Sözə bu izzü cah yetməzmi,
*K'aydalar **Fəzli-Qeyb**dandır söz ."* [12, s. 10]

Fəzli-Müstəan – Pənah gətirilənin (Allahın sifətlərindən biri) Fəzli.

"Çün Nəsimi zülfü xalından oxur ümmül-kitab,
*Kaşifi-əsrar olubdur ol zi **Fəzli-Müstəan** ."* [11, s. 153]

*"Ey Nəsimi, Həq sənə oldu çü **Fəzli-Müstəan**,*
Şükri-əyyami-vüsalü rəhməti-Rəhmanidir ." [11, s. 260]

Fəzli-Rəb – Rəbbin Fəzli.

*"Əhli-fəsada çox təəb edərsə nola **Fəzli-Rəb**,*
Əhli-yəminiz, beytimiz ağ oldu, coşan xan gəlir ." [12, s. 203]

Fəzli-Rəhman – Rəhmanın Fəzli.

"Cövri-cəfası çox fələk tufan gətirdi başıma,
*Andan məni qurtarmağa, ey **Fəzli-Rəhman**, qandasan?"*
[11, s. 151]

Fəzli-Sübhan – Sübhanın Fəzli.

"Müshəfi-Həqdir imamı – cümlə əşya sərbəsər,
Gör imam oldu əyanü ***Fəzli-Sübhan*** *oldu faş ."* [12, s. 334]

Fəzli-Yəzdan – Xeyir Allahının Fəzli.

"Ey fəqihi-bitəharət, sor bu gün mai təhur,
Gəl təharət qıl bu gün, kim ***Fəzli-Yəzdan*** *oldu faş ."* [12, s. 178]

Fəzli-zül-Cəlal – Cəlalı (Allahın 99 adından biri) olan Fəzl.

"Yusifi-Misri canü dil, yə'ni ki, ***Fəzli-zül-Cəlal****,*
Gəldi səfavü zövq ilə şəhri-bədən sərayinə ." [11, s. 41]

Fəzli-zülərşi-Əzim – Ərş sahibi Əzimin Fəzli.

"Xandasan, ey ***Fəzli-zülərşi-əzim****,*
Mən fəraqından zi-can usanmışam." [12, s. 292]

Fəzləhü – Onun (Allahın) Fəzli.

*"****Fəzləhü*** *vəlqüvvəti-həblülmətin,*
Yutiyə min yəşa ələl-yovmədin ." [12, s. 294]

FƏZLULLAH فضل الله [*ər.*] Təsəvvüfün mistik cərəyanlarından olan hürufiliyin banisi Nəimi Şah Fəzlullah ibn Əbu Məhəmməd Astrabadi (Fəzl) (h. 740/m.1339 – h.796/ m.1394). Fəzlullah əvvəlcə özündə yuxuyozma qabiliyyətini kəşf etmiş, bir müddət mağarada xəlvətə çəkilərək abid həyatı sürmüşdür. Quranı çox gözəl bilən Fəzlullah mistik düşüncələrini sistemləşdirərək XIV əsrin sonlarında Azərbaycanda hürufilik cərəyanını bərqərar etməyə nail olmuşdur. Fəzlullah 1394-cü ildə Azərbaycanın valisi Miranşahın əmri ilə Şa-

maxıda həbs edilmiş və Əlincə qalasına salınmışdır. Həmin ilin 28 avqustunda isə fətva verilərək öldürülmüşdür. Fəzlullahın cəsədi ayaqlarına ip bağlanaraq küçələrdə gəzdirilmiş, sonradan müridləri onu basdırmışlar. Hürufilik cərəyanı Anadolu, İraq, İran, Suriya, müsəlman Şərqinin digər ölkələrinə yayılmışdır.

Fəzlullahın "Ərşnamə", "Cavidannamə" ("Əbədiyyət kitabı"), "Məhəbbətnamə", "Növmnamə" ("Yuxu kitabı") və ya "Növnamə", "Divan" adlı əsərləri vardır.

Nəsimi Fəzlullahın 15 xəlifəsindən (Fəzlullahdan sonra onun vəkili olan, hürufilərin rəhbərləri) biri olmuşdur.

"Elmi-hikmətdən bilirsən bir bəri gəl, ey həkim,
*Sən Nəsimi məntiqindən dinlə **Fəzlullah**ı gör!"* [12, s. 140]

*"Ta ki, **Fəzlullah**ə düşdü könlümüz,*
Uş həqiqi raha düşdü könlümüz ." [12, s. 275]

"Ləblərin camı məsihüllah imiş,
*Xilqətin tə'vili **Fəzlullah** imiş ."* [12, s. 276]

*"Gəldi **Fəzlullah** imami-qeybdan*
Küntə kənzin sirrini qıldı əyan ." [12, s. 295]

*"Ta ki, **Fəzlullah**ə verdim könlümü*
Bigüman Allaha verdim könlümü ." [12, s. 301]

MÖVLANƏ مولانا جلال الدين رومى Mövlanə Cələləddin Rumi (1207-1273). Əslən tacik olan, Anadoluda yaşamış təsəvvüfçü, ilahiyyətçi və sufi mistik şairi. Dünyaca məşhur olan Mövlanənin ədəbi irsi əsrlərdir sevilə-sevilə oxunur və yaşadılır.

"Zahidi-zərraqı hər dəm oda yandırmaq gərək
*Gərçi məndən eşidərsən Şeyx həm **Mövlanə**ni."* [11, s. 96]

ŞEYX شيخ Nəsiminin aşağıdakı beytində Mövlanə ilə yanaşı adını çəkdiyi Şeyxin kimliyi mübahisəli məsələdir. Yusif Seyidovun fikrincə, bu, XIII əsr Azərbaycanın böyük filosofu, sufizmin ən görkəmli nəzəriyyəçilərindən biri Şeyx Mahmud Şəbüstəridir (1287-1320) [28, s. 43]. Səadət Şıxıyeva isə onu İbn Ərəbi hesab edir [29, s. 163]. Bizim fikrimizcə, Nəsimi öz şeirlərində, adətən, iki adı yanaşı gətirdiyi zaman onlar arasındakı mənəvi bağı vurğulamaq niyyətində olur. Mövlanə Cəlaləddin-i Ruminin könül dünyasında böyük dəyişikliklərə səbəb olmuş şəxs məhz onun müəllimi iranlı mütəsəvvif **Şəmsi Təbrizi**dir (1185-1247). Təsadüfi deyil ki, Mövlanə ilahi eşqə həsr etdiyi nəzm əsərini "Divani Şəmsi Təbrizi" adlandırmışdır. Bu onunla əlaqədar idi ki, o, qəzəllərinin sonunda öz adının yerinə mənəvi müəlliminin adını yazmışdır.

"Zahidi-zərraqı hər dəm oda yandırmaq gərək
*Gərçi məndən eşidərsən ***Şeyx** həm Mövlanəni."* [11, s. 96]

YƏZİD يزيد Əməvilər sülaləsindən olan ikinci ərəb xəlifəsi Yezid ibn Müaviyə (646–683). Müaviyə ibn Əbu Süfyanın oğlu. Cəmi üç il hakimiyyətdə olmuş I Yezid hakimiyyətinin (680-683) birinci ilində imam Hüseyndən beyət istəmiş, o isə bundan imtina edərək qiyam qaldırmışdır. Peyğəmbər nəvəsi öz tərəfdarları ilə əvvəlcə Mədinədən Məkkəyə, ordan da Kufəyə doğru yola çıxdı. Lakin imamın dəstəsi 2 oktyabr 680-ci ildə Əməvi ordusu tərəfindən Kərbəlada durduruldu və 10 oktyabrda, aşura günündə imam Hüseyn və onun 72 tərəfdarı qətlə yetirildi. Aşura faciəsində Yezidin qoşunu insanlığa yad hərəkətlərə yol vermiş – su yolunu bağlamış, körpə uşaqları qətlə yetirmiş,

Peyğəmbər sülaləsindən sayılan qadın və uşaqları əsir götürmüşdü. Bu faciədən sonra xalqın qınağını görən I Yezid bütün məsuliyyəti Ubeydullah ibn Ziyadın üzərinə ataraq onu günahlandırmışdı.

"Fatimədir bir dəxi kim ol həqqin ehsanıdır,
Gəldi ondan iki gövhər biri xəlq ilə Həsən,
*Zəhr ilə qətl edən anı ol **Yəzid**in banıdır.*
Birisidir Şahi-Hüseyn və ol şəhidi-Kərbəla,
Eşqi-həqqə can verər din yolunun qurbanı." [10, s. 49]

ZÜNNUN B a x: **Ləqəblər, Zünnun.**

Şiə imamlarının adları

1-ci imam: ƏLİ علي [*ər.*] Əli ibn Əbu Talib (m. 600-661). Peyğəmbərin əmisi oğlu və kürəkəni olmuşdur. İslamı qəbul etmiş ilk kişi, sünnilikdə Ərəb xilafətinin və Raşidi xəlifələrin dördüncü xəlifəsi (m. 656-661), şiələrə görə Məhəmməd peyğəmbərin canişini, I imam və xəlifə, II məsumu olmuşdur. Bütün sufi müsəlmanlar arasında yüksək nüfuza malikdir. Həzrət Əli cənnətlə müjdələnən on səhabədən dördüncüsü və əhli-beytin birincisidir. Məhəmməd peyğəmbərin nəslinin onunla Fatimənin izdivacından davam etdiyinə inanılır. Kufə məscidində namaz qılarkən xarici təriqətinin üzvü Əbdürrəhman ibn Mülcəm əl-Muradi tərəfindən qətlə yetirilmişdir. Məzarı İraqın Nəcəf şəhərindəki İmam Əli məscidində yerləşir.

"Dedi ya kafüha, əyzə-bikə,
*Çün **Əli** bildi, müstəandır söz "* [12, s. 9]

*"Kərəmüllahi-vəchəhu ki, **Əli,***
Nə ki, dedi cahanda xidmətdir " [12, s. 29]

Nəfsini bilən bil ki, Həqi bildi həqiqət,
*İnkarına bel bağlama kim, qövli-**Əli**dir "* [11, s. 219]

*"Gər Nəsiminin pənahı Şahi-Mərdandır **Əli**,*
On səkiz min aləmə hökm eyləyən sərdar bir." [12, s. 130]

*"Gəl **Əli**, Musa Riza kimi Həqin əmrini tut,*
Necə kim Həqdən gəlir canü könüldən çun riza." [12, s. 175]

"Dedi ya kafüha, əyzə-bikə,
*Çün **Əli** bildi, müstəandır söz ."* [12, s. 9]

*"Kərəmüllahi-vəchəhu ki, **Əli,***
Nə ki, dedi cahanda xidmətdir ." [12, s. 29]

*"Gər Nəsiminin pənahı Şahi-Mərdandır **Əli**,*
On səkiz min aləmə hökm eyləyən sərdar bir ." [12, s. 130]

Anda imana gəlməyən bilmədi sirri-Əhmədi,
*Bunda **Əli** gərək, əli ta yıxa babi-Xeybəri."* [11, s. 90]

○ **Əvvəlü axir Əlidir, zahirü batin Əli** *həds.* **–** Nəsimi aşağıdakı beytdə İmam Əlinin (ə) bir neçə hədisinə istinad etmişdir:"Bir çöl ərəbi İmam Əlidən (ə) soruşdu: "Necə sübh etdin?" İmam (ə) buyurdu: "Mən Peyğəmbəri ilk təsdiq edən, haqqı batildən ayırd edən və onun vəsiyyətlərini icra edən şəxs kimi sübh etdim. Mən əvvələm. Mən axıram. Mən zahirəm. Mən batinəm. Mən hər şeyi bilənəm. Mən Allahın baxan gözüyəm..." Ərəb İmamın (ə) dediklərinə

çox təəccübləndi. Bunu görən İmam (ə) sözlərinə izah verərək buyurdu: "Mən əvvələm, yəni Peyğəmbərə (s) ilk iman gətirən şəxsəm. Mən axıram, yəni Peyğəmbəri (s) qəbrində son görən şəxsəm. Mən zahirəm, yəni İslamın zahirinə bələdəm. Mən batinəm, yəni elmin özüyəm. Mən hər şeyi bilənəm, yəni Allahın Peyğəmbərə (s) öyrətdiklərini Peyğəmbər (s) mənə öyrətmişdir...". Nəsimi qeyd etdiyimiz beytdə bildirmək istəyir ki, İmam Əli (ə) Peyğəmbərə (s) ilk iman gətirmiş, sonadək Peyğəmbərin (s) yanında olmuş və onu şəxsən dəfn etmişdir. (18, s. 44-45).

*"**Əvvəlü axir Əlidir, zahirü batin Əli**,*
Bir günəşdir kim, yüzünə qonmadı ğəmdən ğübar." [24, s. 57]

○ **Şəhr elminə Əlivü babuha dedi Rəsul** *həds.* **–** Məhəmməd peyğəmbərin hədisi: "Mən elmin şəhəri, Əli isə onun qapısıdır." (أنا مدينة العلم و علی بابها).

*"**Şəhr elminə Əlivü babuha dedi Rəsul**,*
Bəs Əli payində xak olmaq gərəkdi, xaksar." [24, s. 57]

2-ci imam: HƏSƏN حسن [*ər.*] Hz. Əli ilə Fatimeyi Zəhranın ilk övladı olmuş həzrət Həsən Müctəba (h. 3-50). Tam adı: Həsən ibn Əli ibn Əbu Talib əl-Haşimi əl-Qureyşi. Dörd, Yeddi və On iki imam şiələrinin xəlifəsi və 4-cü məsumu, əhli-beytin nümayəndəsi, səhabə. Hz. Əlinin şəhadətindən sonra (hicrətin qırxıncı ilindən) on il müddətinə qədər müsəlmanlara imamlıq (başçılıq) etmiş və nəhayət hicrətin əllinci ilində Müaviyənin hiyləsi ilə qırx səkkiz yaşında zəhərlənərək öldürülmüşdür. Həsən ibn Əli (əleyhissəlam) bir çox əxlaqi dəyərlər və insani fəzilətlərə malik olmuşdur. O, alicənab, səbirli, vüqarlı, mətin, səxavətli və camaatın hörmət bəslədiyi (rəğbətini qazanmış) bir şəxsiyyət kimi tanınmışdır.

"İsmi cəlalın məzhəri olan kişidə daima,
*Xülqi-**Həsən,** lütfü kərəm, həm Fəzl ilə ehsan gəlir."* [12, s. 201]

*"Çıxdı Nəsiminin sözü me'raca, ey xülqü **Həsən**,*
Gəlgil ki, sübhanəlləzi əsraya xoş əsra imiş." [11, s. 317]

"Həqiqət seyyid rəqblə kahım,
İmam pişvamız Murtuzadır,
***Həsən**dir Usqayi-əhli cənnət,*
Hüseyn şahi-şəhidi-Kərbəladır." [7, s. 154]

Həsən xülqi-riza – *din.* Allahın rizasını qazanmış gözəl əxlaq və xasiyyət sahibi Həsən.

"Şərbəti-maü təhuru istər isən, qəm yemə,
*Dövr əlindən zəhr nuş et, çün **Həsən xülqi-riza**."* [12, s. 175]

3-cü imam: HÜSEYN[1] حسين [*ər.*] Hüseyn ibn Əli ibn Əbu Talib əl-Haşimi əl-Qureyşi; İmam Hüseyn. Kərbəla şəhidi, həzrət Əli və Fatimənin ikinci oğlu və Məhəmməd peyğəmbərin (s) nəvəsi.

"Gər bu gün bunda susuzluqdan olursan sən şəhid,
*Yarın onda həşr olursan ba **Hüseyn**i-Kərbəla."* [12, s. 175]

4-cü imam: B a x **Ləqəblər, Zeynəl-İba.**

5-ci imam: B a x **Ləqəblər, Baqir.**

6-cı imam: CƏ'FƏR جعفر [*ər.*] Cəfəri məzhəbinin yaradıcısı İmam Cə'fəri-Sadiq (h. 80-148/ m. 699-765). İmam Bağırın oğlu. Cəfər Sadiq

islam hüquq elminin yaradıcısıdır. O, həzrəti Peyğəmbərin (s) dövründən mövcud olan dini elmləri sistemləşdirib konsepsiya şəklinə salmışdır. Bu səbəbdən şiəliyin banisi hesab edilir. İmam Sadiq (ə) həyatı boyu təzyiq və təqiblərə məruz qalmışdır. Hicrətin 148-ci ilində 65 yaşında ikən İmam Sadiq xəlifə Mənsurun təhriki ilə zəhərləndirilərək şəhid edilmişdir. **Cə'fəri-Sadiq, imami-Cə'fər**.

*"**Cə'fəri-Sadiq** məratibin dilərsən, sadiq ol,*
Sidq ilə bu yolda qul ol, bulasan mənzil ə'la." [12, s. 175]

"Mə'rifət əhlinə üzün Kə'bə, Bilali bənlərin,
*Mehrab can quşun, vəli eynin imami-**Cə'fər**i."* [11, s. 90]

7-ci imam: B a x **Ləqəblər, Kazım.**

8-ci imam: B a x **Ləqəblər, Riza.**

9-cu imam: B a x **Ləqəblər**, **Təqi.**

10-cu imam: B a x **Ləqəblər, Nəqi.**

11-ci imam: B a x **Ləqəblər, Əsgəri.**

12-ci imam: B a x **Ləqəblər, Mehdi.**

Ləqəb, təxəllüs və künyələr

BAQİR باقر [*ər.*] Beşinci imam Məhəmməd ibn Əlinin (h. 57 / m. 694 – h. 114 / m. 735) ləqəbi. Atası Zeynul-abidin vəfat etdiyi vaxt onun 37-38 yaşı olmuşdur. Adı Məhəmməd, künyəsi Əbu Cəfərdir. Həm ata, həm də ana tərəfi imam Əli və Fatimeyi Zəhra nəslindəndir. Belə ki anası imam Həsənin qızı Ümmü Abdullah idi. Onun imamlıq dövrü on doqquz və ya iyirmi il davam etmişdir. İmam Baqirin böyük elmi və əxlaqi keyfiyyətləri dostu da, düşməni də cəlb etmişdir. O, şəri hökmlər, Quran təfsiri, islam tarixi və başqa mövzuların dərin bilicisi olmuş, saysız hədislər və rəvayətlər nəql etmişdir. İmam Baqirin elminin əks-sədası islamın hökm sürdüyü bütün torpaqlarda geniş yayılmış və Baqirul-ülum (elm qapılarını açan, elmi müşkülatı həll edən) ləqəbini qazanmışdır. Təsadüfi deyil ki, Nəsimi aşağıdakı beytdə İmam Baqirin Tanrıdan gələn bir elmə sahib olduğunu vurğulayır.

*"Şol Məhəmməd **Baqir**i gör şər' bazarında kim,*
Necə verdi hədyəni çün lütf ilə Allah ona." [12, s. 175]

ƏBÜLFƏZL ابو الفضل [*ər.*] Nəsiminin künyəsi. Künyə ərəblərdə «əbu», «ibn» və ya «ümm» sözləri ilə başlanan ləqəbdir.

□ **Əbülfəzl oldu Həqdən künyəsi** – Nəsimi "Şah Fəzlullah Hürufi Astrabadiyə mürid olub, o münasibətlə də künyəsini Əbülfəzl qoymuşdur" (31, s.279). Künyə böyük oğula görə ataya verilən addır. Nəsimi həm Allahın təqdiri ilə oğul sahibi olduğuna işarə edir, həm də həqdən, yəni Fəzlullaha görə oğlunun adının Fəzl qoyduğunu vurğulayır (98).

*"Çün Nəsiminin **Əbülfəzl** oldu Həqdən künyəsi,*
Cümlə əsmanın hürufu eyni-əlqabındadır." [11, s. 274]

ƏHMƏD احمد [*ər.*] Məhəmməd peyğəmbərin xalq arasında söylənən adı. Mənası "daha çox tərifl ənən" deməkdir.

*"İsiyi-pak, Adəmü **Əhməd**,*
Mehdiyi-sahibəz-zəmandır söz." [12, s. 10]

*"Əlhəmdülillah **Əhməd**in girdik əbavü şalına*
Bu-Fəzli-Rəbbülaləmin oldu əliyyü alına." [12, s. 63]

"Oxuyan hərfü kitabü xəttin, ey can, bildi kim
***Əhməd**ə Tahavü Yasin, Musaya vət-Turdur."* [12, s. 154]

*"Ol şahın adı ki, Həqdən **Əhməd**ü Məhmud idi*
Ta qəzadır, maməzadır, ta müqəddərdir qədər." [12, s. 169]

□ **Əhmədi-mürsəl** – elçi göndərilmiş Əhməd.

"Bunları bilmək dilərsən bunları,
***Əhmədi-mürsəl**dən istəgil yeri."* [12, s. 323]

ƏLİYYÜL-MÜRTƏZA علي المرتضى [*ər.*] Həzrət Əlinin ləqəbi. Seçilmiş, bəyənilmiş, arzu edilən mənasını ifadə edir.

"Cövrünə səbrü təhəmmül eyləgil müşriklərin,
*Necə kim, gördü Rəsul ilə **Əliyyül-Mürtəza**."* [12, s. 175]

"Dal – Dəlil oldu dəhanın rəmzini qıldı əyan
*Bildi bildirdi rəsulu həm **Əliyyül-Mürtəza**."* [12, s. 215]

ƏSƏDULLAH اسد الله [*ər.*] Allahın aslanı. İmam Əlinin ləqəblərindən biri.

*"Özümnü **Əsədullah**a kəmtər qulam etdim,*
Həm mö'cüzü mən şahi-Xorasana yetirdim." [12, s. 120]

ƏSGƏRİ/ƏSKƏRİ عسکری [*ər.*] On birinci imam Həsən ibn Əli Əskəri; (h.232/m. 846 – h.260/m.874) Cəfəri şiələrinə görə 13-cü məsum və xəlifə. Künyəsi Əbu Muhəmməddir (Məhəmmədin atası). İmam Həsən Əsgəri Abbasi xəlifəsinin əmri ilə məcburi şəkildə Samirrada saxlanıldığı üçün Əskəri ləqəbini almışdır. Digər məşhur ləqəbləri Nəqi və Zəkidir. O, iyirmi iki yaşında ikən atası imam həzrət Nəqi vəfat etmişdir. Altı il şiələrin imamı olduqdan sonra zəhərlənərək öldürülmüşdür.

*"**Əsgəri** kimi əgər nəfsin çərisin basasan,*
Bigüman sənsən yəqin kim, maliki-hər dü səra." [12, s. 176]

HAŞİM هاشم [*ər.*] Məhəmməd peyğəmbərin (s) ata babasının ləqəbi (əsl adı – Əmr ibn Əbdül-Mənaf). Qureyş soyundan olmuşdur. O, aclıq içində olan insanlara ət şorbasının içinə doğranmış çörək qatıb verirmiş. Buna görə də onu Haşim (doğrayan) adlandırmışlar.

□ **İbrahimü Haşim** – Nəsəb alimlərinə görə, Məhəmməd peyğəmbərin (s) 20-ci babası Adnan İbrahim peyğəmbərin nəslindən gəlir.

*"Zühuri-nuri-**İbrahimü Haşim**,*
Bədini-Müstafa əzha degilmi?" [12, s. 37]

*"Çün Nəsimi sirri **İbrahimü Haşim**dir bu gün,*
Çün həqqə vasil olubdur, cismü canı qandadır?" [12, s. 165]

HƏBİBÜLHƏQQ حبيب الحقّ [*ər.*] Allahın sevdiyi. Məhəmməd peyğəmbər (s) nəzərdə tutulur.

*"Təqərrüb, ya **Həbibülhəqq**, mənə,*
Vücudun məscidül-əqsa degilmi?" [12, s. 37]

HÜSEYNİ حسينى [*ər.*] Nəsiminin təxəllüsü. "Gənc Nəsimi hələ mədrəsə tələbəsi ikən X əsrdə Bağdad şəhərində "ənəlhəq" dediyi üçün dara çəkilmiş Həllac Mənsur Hüseyninin təriqətini daha çox bəyənmiş, eyni zamanda Ərdəbildə geniş təbliğat aparmaqda olan Şeyx Səfi canişinlərinin görüşlərinə rəğbət bəsləmişdir. Məhz buna görə də o, ilk şeirlərini Hüseyni təxəllüsü ilə yazmışdır." [11, s. 5]. Bu fikri Hüseyin Ayan da təsdiq edir: "Nəsiminin şeirlərində Mənsura olan dərin heyranlığını və bağlılığını görməmək mümkün deyildir. "Ənəlhəq" (mən Haqqam) sözünü divanında 100 dəfədən çox istifadə etmişdir."[9]

*"Gəl, **ey Hüseyni**, same' ol, sən ruhi-qüdsidən yana,*
Gördün yəqin çün hər nəfəs avazeyi-Qur'an gəlir." [12, s. 204]

XATƏM خاتم [*ər.* خَاتَمٌ] Peyğəmbərlərin sonuncusu. Məhəmməd peyğəmbərin ləqəbi. Bu söz ilk dəfə Əbu Hüreyranın rəvayət etdiyi bir hədisdə "Xatəmi-ənbiya" şəklində işlənmişdir. B a x **Adəm.**

*"Qəmər dövründə, ey fitnə, sən oldun xublara **Xatəm**,*
Sənin xalın xəyalından cahan pür-şurü qovğadır." [12, s. 128]

[9] AYAN, Hüseyin. Nesimî Divanı, Akçağ Yay, Ankara 1990. s.17.

*"Gah Adəmü **Xatəm** olur, gah İseyi-Məryəm olur,*
Gəh Nəmrudü Fir'on olur, gəh Musiyi-İmran gəlir." [12, s. 03]

"Zey – Zühur oldu çü İsa Mehdiyi-sahibzəman,
*Tey – Tanıqdır, nitqi **Xatəm** qandasa getdi Məmat."* [12, s. 223]

"Çün hüsnünə xətm oldu bu gün dövri-məlahət,
*Ey fitnələrin **Xatəm**i, şəqqül-qəmər eylə!"* [11, s. 42]

XEYRÜL-BƏŞƏR خير البشر [*ər.*] Ən yaxşı insan. Məhəmməd peyğəmbərin (s) ləqəbi.

"Şey'ilillah nuru vəchindən təala şanəhü,
*Mərhəba, ya Mustafa, səllü əla **Xeyrül-bəşər**."* [12, s. 169]

"Cana, üz istivasına şəqqül-qəmər gərək,
*Ol mö'cüzün bəyanına **Xeyrül-bəşər** gərək."* [11, s. 115]

*"Mö'minin mir'atı mö'mindir", dedi **Xeyrül-bəşər**,*
Güzgüyi-safi dutun, güzgüdə Allahı görün!." [11, s. 179]

"Adəmi növ'ində mislin görmədi dövri-fələk,
*Şol cəhətdən gər sana **Xeyrül-bəşər** dersəm, nola?"* [11, s. 14]

XƏLİL خليل [*ər.* "həqiqi dost, arxadaş, sevgili, xəlil"] Quranda Allah tərəfindən İbrahim peyğəmbərə verilən ləqəb (bax: Nisa surəsi, ayə 125). Allahın dostu anlamını ifadə edir. Bütpərəstliyə qarşı çıxdığı üçün kahinlərin və hakimiyyət rəhbərlərinin əmri ilə İbrahim peyğəmbərin əli-qolu bağlanıb oda atılanda Cəbrayıl onu havada tutmuş və diləyini sormuşdur. O da "mən Allahın quluyam. Hacətim

onadır, sənə deyil. Allah nə istəsə, onu da etsin" söyləmişdir. Tanrı onu özünə dost etmiş və adı Xəlilullah olmuşdur. Bu zaman Allahın iradəsi ilə od kəndirləri yandırıb peyğəmbəri azad etmiş və sərinləşərək gül bağçasına çevrilmişdir.

"Ey büti-maçinə tapan, Azər idin Nəmrud ilən,
*Eşqə **Xəlil**əm demə çün, gül kimi narın yox imiş."* [12, s. 337]

"Hər kimi ki, yaxmadıvü yandırmadı firqət,
*İrmədi **Xəlil** kimi bu gün nuri-vüsalə."* [11, s. 46]

*"Gər **Xəlil** olmaq dilərsən yar ilə gerçəkləyin,*
Dilbərin yolunda şərt əvvəl budur kim, yanəsən." [11, s. 165]

"Həm mənəm anəstünarən sirrini faş eyləyən,
*Həm **Xəlil** oldum, bu nara Musiyi-İmran mənəm!"* [12, s. 86]

KAZİM كاظم [*ər.*] Yeddinci imam, cəfəri şiələrinə görə 9-cu məsum və xəlifə olan İmam Kazım (Əbul Həsən Musa ibn Cəfər əl-Kazım (m. 745 – 799)). O, cahil və nadan insanlarla çox güzəşt və səbirlə davrandığına görə Kazim ləqəbini almışdır.

*"Müddəi tə'ninə səbr et Museyi-**Kazim** kimi*
Həq bilir kim, həqq iləvü necə oldu macəra." [12, s. 175]

KƏLİM كليم [*ər.*] Musa peyğəmbərin ləqəbi. Söhbət edən, müsahib deməkdir. "Dini əfsanələrə görə, Musa peyğəmbər Allah ilə danışırmış. Ona görə də dini ədəbiyyatda bu peyğəmbərin adına "Kəlim" və yaxud "Kəlimüllah" deyilir." [12, s. 354].

"Nə günəşdir üzün, yarəb kim, anın uca Turundan
*Təcəlli gəldi yandırdı **Kəlim**in şəm'i-narından."* [11, s. 156]

"Həm mənəm Vadiyi-əqdəs, həm mənəm narü şəcər
*Həm mənəm nuri-təcəlla, həm **Kəlim**in Turuyam."* [12, s. 110]

KƏLİMÜLLAH كليم الله [*ər.*] B a x **Kəlim**.

"Rüxün narıdır ol atəş ki, dudi-iştialından
***Kəlimüllah** yol bulduvü həq həft asiman etdi."* [11, s. 84]

*"**Kəlimüllah**ın əsli sivü dü hərf*
Camalın lövhü üzrə oldu məstur." [12, s. 196]

KƏRRƏM كرّم [*ər.*] Şərəf və hörmət sahibi. Adəmin ləqəbi.

"On səkiz min aləmin sirrin bilən,
*Ol ləqəd **Kərrəm** bəni adəmdədir."* [12, s. 267]

KUHKƏN كوهكن [*fars.* كوه kuh *"dağ" + fars.* كن kən *"qoparan, sökən"*] Dağı qazan, dağ yaran. "Fərhad və Şirin" əsərinin qəhrəmanı Fərhadın ləqəbi.

"Gəl, ey Şirindəhən, eşqin yolunda
*Mənəm ol **Kuhkən** biçarə Fərhad."* [11, s. 32]

QASİM قاسم [*ər.*] Məhəmməd peyğəmbərin (s.a.v.) künyəsi. Künyə ərəblərdə kişinin ilk doğulan oğlan övladının adına nəzərən verilir: Əbul Qasim (أَبُو القَاسِم), yəni "Qasımın atası". Qasım Xədicə (Xədicət-ül Kübra) xanımdan dünyaya gəlmiş üç oğul övladından ilki idi. Peyğəmbərin digər iki oğlu kimi Qasim də uşaq ikən ölmüşdür.

*"Əhmədü Mahmudü **Qasim**, şahü sultani-Rəsul,*
Küntə kənzin mə'dəni, həm kəşfi-həlli-müşkilat." [12, s. 186]

MEHDİ مهدی [*ər.*] On ikinci imam həzrət Hüccət ibnəl-Həsənin (h. 255; m. 869) ləqəbi. Digər ləqəbləri Qaim, Xələfi-saleh, Sahibəz-zaman və Bəqiyyətullahdır. Onun adı və künyəsi həzrət Peyğəmbərin adı (Məhəmməd) və künyəsi (Əbul-Qasim) ilə eynidir. Şiə imamları onun əsl adının çəkilməsini qadağan etmişlər. Şiə mənbələrinə görə, Allahın göstərişi ilə qeybə çəkilmişdir. İmamın qeyb dövru ikiyə bölunur. 70 il (260–329) davam edən "Kicik qeyb" dövründə imam Mehdi numayəndələri vasitəsilə xalqla əlaqə saxlamışdır. 329-cu ildən sonra "Böyük qeyb" dövru başlamış və bu gunə kimi davam etməkdədir. İsa ilə birgə zühur edib haqsızlıq və ədalətsizliklə mübarizə aparacağına, dünyada ədalət və nizamı bərpa edəcəyinə inanılır.

"Əhli-fəna olsa fəna, iqlimi-həftin varına,
*Bil kim, həqiqət söz durur kim, **Mehdiyi**-dövran gəlir."* [12, s. 202]

"İsiyi-pak, Adəmü Əhməd,
***Mehdiyi**-sahibəz-zəmandır söz."* [12, s. 10]

*"Şol Məhəmməd **Mehdi** kimi ədl edib, cəhd edəsən,*
Hiç gümansız məskən ola cənnətül-mə'va sana." [11, s. 176]

*"Zey – Zühur oldu çü İsa **Mehdi**yi-sahibzəman,*
Tey – Tanıqdır, nitqi xatəm qandasa getdi məmat." [12, s. 223]

*"Gəldi **Mehdi**, hidayət etdi Məsih,*
Nitqə gəldi fəsih zəminü səra." [12, s. 242]

MƏHMUD محمود [*ər.*] Məhəmməd peyğəmbərin ləqəblərindən biri. Tərifl ənmiş, tərifə layiq bilinmiş deməkdir.

*"Ol şahın adı ki, Həqdən Əhmədü **Məhmud** idi*
Ta qəzadır, maməzadır, ta müqəddərdir qədər." [12, s. 169]

MƏSİH مسيح [*ər.* مَسِيحٌ məsih *"məsih edilmiş, əl ilə çəkilmiş", yəhudilikdə və xristianlıqda peyğəmbərlərin, çarın, baş keşişlərin üzünə zeytun yağının çəkilməsi; ivr.* məsih *"mübarək"*] İsa peyğəmbərin ləqəblərindən biri. Quranda 11 yerdə İsa peyğəmbər üçün işlənir. "İslam qaynaqlarındakı rəvayətlərə görə, həzrəti İsaya bu ad xəstələri əl ilə toxunaraq sağaltması, yağla məsih edilmiş doğulması, dünyaya gəldiyi zaman şeytan ilişməsin deyə Cəbrayılın ona qanadı ilə toxunması, gözəl üzlü olduğuna görə verilmişdir" [Raqib əl-İsfəhani, əl-Müfrədat, "msh" maddəsi]. B a x **İsa.**

*"Doğdu Məğribdən günəş, endi **Məsih**,*
Burğu çalındıvü həşr oldu səhih." [12, s. 265]

*"Gəldi Mehdi, hidayət etdi **Məsih**,*
Nitqə gəldi fəsih zəminü səra." [12, s. 242]

*"Cansız bədən nə bilsin ənfasını **Məsih**in,*
Şol cana sor kim, anı bildi ki, dəm, dəm öldür." [12, s. 166]

*"Həm **Məsih**əm, həm Skəndər, həm mənəm abi-həyat.*
Həm həyati-Xızr buldum, çeşmeyi-heyvan mənəm!" [12, s. 86]

*"Sözlərindən zahir oldu şol **Məsih**in mö'cüzat,*
Dodağından bir işarət aşiqə pək dur idi." [12, s. 55]

"Əlif – Allahdur ki, olmaz nitqi-zatından cüda,
*Uş kitabü həyyi-mütləq, uş **Məsih**i-mö'cüzat."* [12, s. 224]

*"**Məsih**i-zat ikən, billah, nədən div olmaq istərsən?*
Məgər cinnidürür əslin, deyilsən rəhmətə qabil?" [12, s. 106]

"Lə'li-ləbinə bəyani-mö'cüz,
*Dedi ki, **Məsihü** Məryəm oldu."* [12, s. 233]

"Hər qətrə mühiti-ə'zəm oldu,
*Hər zərrə **Məsihü** Məryəm oldu."* [12, s. 251]

□ **Məsiha** مسیحا[*ər.* مَسِيحٌ məsih *"çəkilmiş; yağlanmış"* + *fars.* -a *ey nidası*] Ey İsa! B a x **İsa.**

"Gər bəyan edəm sana əsmayi-ruhəfzamızı,
*Çün **Məsiha,** seyr edərsən aləmi-balamızı."* [12, s. 33]

"Nitqiyəm şirin ləbinin, İsiyi-cana həyat,
*Çün **Məsiha** istər isən, iştə gəldi dər rəmim."* [12, s. 94]

*"Ey Nəsimi, nəfəsin gərçi **Məsiha** dəmidir*
Mö'cüzün rəmzini Musa bilə, Isa nə bilür?" [12, s. 137]

"Gör bu Nəsimi nəfəsi kim, necə,
*Buyi-**Məsiha** kimidir canfəza."* [12, s. 167]

"Ruhi-qüdsidir Nəsiminin həqiqət sözləri,
*Gər **Məsiha** tək diriysən, yatma ki, çalındı sur."* [12, s. 195]

Məsihadəm مسیحادم [*ər.* مسیحا Məsiha + *fars* دم dəm *"nəfəs"*] İsa Məsihin ölüləri dirildən nəfəsi.

*"Ey **Məsihadəm**, niyşə can vermədin cansızlara*
Ol ki, hər dəm can ilə aydır ki, canan sizlərə." [11, s. 20]

Məsihüllah مسیح الله [*ər.*] Allahın Məsihi.

*"Ləblərin camı **məsihüllah** imiş*
Xilqətin tə'vili Fəzlüllah imiş." [12, s. 277]

MUSTAFA مصطفا [*ər.* مصطفی] Məhəmməd peyğəmbərin (s) xalq tərəfindən qoyulan adı. Mənası "seçilmiş" deməkdir.

*"**Mustafa**nın mö'cüzündən iki şəqq oldu Qəmər,*
Heybətindən Heydərin dağlar yerindən qopdu." [11, s. 107]

"Adinə surətindən endi Rəsula cüm'ə,
*Tanıq bu həq hədisə uş qövli-**Mustafa**dır."* [12, s. 18]

*"**Mustafa**nın ruhuna incigəz,*
Ver salavat ki, şərtü adətdir." [12, s. 29]

*"Vücudi-**Müstafa** əsma degilmi?*
Bu sirri bilməyən ə'ma degilmi?" [12, s. 37]

"Zühuri-nuri-İbrahimü Haşim,
*Bədini-**Müstafa** əzha degilmi?"* [12, s. 37]

MÜRSƏL مرسل [*ər.*] Göndərilən, göndərilmiş. // Məhəmməd peyğəmbərin (s) ləqəblərindən biri.

"Bunları bilmək dilərsən bunları
*Əhmədi-**Mürsəl**dən istəgil yeri."* [12, s. 323]

*"Üzündür həq kitabı-vəhyi-**Mürsəl***
Zəhi dövlət sana həqdən irişdi." [11, s. 88]

*"Gər desəm zülfünə **Mürsəl**, nə əcəb, ya hadi*
Mö'cüzat əhlinə hadiyü peyğəmbər dedilər." [11, s. 263]

NƏQİ نقی [*ər. "təmiz, pak"*] Onuncu imam Əli ibn Məhəmmədin (h. 214-254) ləqəbi. Künyəsi Əbul-Həsən, ən məşhur ləqəbləri Nəqi və Hadidir. İmam Hadi atasının vəfatından sonra səkkiz yaşında ikən imam olmuş, 42 yaşında Samirra şəhərində Abbasi xəlifəsi Mötəzin əmri ilə zəhərlənərək şəhid edilmiş və öz evindəcə də dəfn edilmişdir. Onun imamlıq dövrü aşağıdakı Abbasi xəlifələrinin hakimiyyəti dövrünə təsadüf edir: Mötəsim, Vasiq, Mütəvəkkil, Müntəsir, Müstəin, Mötəz.

*"Sirri-əsmadan xəbər bilmək dilərsən çün **Nəqi**,*
Müttəqi ol, müttəqi ol, müttəqi ol, biriya." [12, s. 176]

NƏSİMİ نسیمی [*ər.* نَسیمٌ nəsim *"meh, yüngül yel"* + *ər.* يٌّ-iyyun *nisbi sifət şəkilçisi*] Tam adı Seyyid Əli ibn Seyyid Məhəmməd olan şairin ləqəbi. "Fəzlullahla tanış olub, onunla görüşən Nəsimi hürufi görüşlərini qəbul etmiş və çox ehtimal ki, bu dövrdən etibarən şeirlərini "Nəimi" sözü ilə səsləşən Nəsimi təxəllüsü ilə yazmağa başlamışdır" [11, s. 6].

*"Hacəti vəsl oldu hüsnündən **Nəsimi** müşküli.*
Sübhdəm irdi, gətirdi ol səba xoş buyü tib." [11, s. 27]

*"Xəstə **Nəsimi**, yarın əhvalını heç sormaz.*
Sormağına çün gəlməz, barı gələ yasına." [11, s. 18]

*"Çün **Nəsimi**dir bu gün əyyami-eşqin xosrovu.*
Ey şəkərləb, yari-şirinruzigarım, qandasan?" [11, s. 150]

*"**Nəsimi**nin sininə gəl, qəmindən öləcəgin.*
Xoşamədi eşit, ey dost, mərhəba – sindən." [11, s. 160]

*"**Nəsimi** çünki buldu xoş məlahət,*
Şirindir hər sözü, şirindəhənsən." [11, s. 162]

*"Heç kimsə **Nəsimi** sözünü kəşf edə bilməz,*
Bu, quş dilidir, bunu Süleyman bilir ancaq." [11, s. 28]

RƏSUL رسول [*ər.*] Elçi, müjdəçi. // Peyğəmbər; Məhəmməd peyğəmbər.

*"Adinə surətindən endi **Rəsul**a cüm'ə*
Tanıq bu həq hədisə uş qövli-Mustafadır." [12, s. 18]

"Cövrünə səbrü təhəmmül eyləgil müşriklərin
*Necə kim, gördü **Rəsul** ilə Əliyyül-Mürtəza."* [12, s. 175]

*"**Rəsul**i-səyyidi-kövneynə mö'min ayinədir*
Bü mö'min ayinəsində göründü cümlə sifat." [12, s. 183]

*"Ya **Rəsul**i-fəxri-aləm, seyyidi-zatü sifat!*
Bəhri-zatın gövhərisən, həm sifatın eyni-zat." [12, s. 186]

*"Əhmədü Mahmudü Qasim, şahü sultani-**Rəsul***
Küntə kənzin mə'dəni, həm kəşfi-həlli-müşkilat." [12, s. 186]

"Təvaf əmr oldu çün Beytül-ətiqə
***Rəsul** ol evi çün xoş qıldı mə'mur."* [12, s. 197]

"Dal – Dəlil oldu dəhanın rəmzini qıldı əyan
*Bildi bildirdi **Rəsul**u həm Əliyyəl-Mürtəza."* [12, s. 215]

*"Rövzəsinə **Rəsul**i-Yəzdanın*
İrdiyincə təhiyyətü səlavat." [12, s. 260]

RİZA/RZA رضا [*ər.* رِضَاء *"razı, məmnun"*] Səkkizinci imam Əli ibn Musa ər-Riza Əbu əl-Həsənin (h. 148 – h. 203) ləqəbi. Atası imam Musa Kazım hicri 183-cü ildə Bağdad zindanında haqqa qovuşduqdan sonra Əli ibn Musa 35 yaşında imam olmuşdur. Künyəsi Əbul Həsəndir. İmam Rizanın iyirmi il davam edən imamlıq dövrü Harun ər-Rəşidin, Məhəmməd Əminin və Abdullah əl-Məmunun xəlifəlik dövrlərinə təsadüf etmişdir. Müsəlman və qeyri-müsəlman alimləri ilə etdiyi mübahisələr onu tanıtmışdır.

*"Gəl Əli Musa **Riza** kimi həqin əmrini tut*
Necə kim həqdən gəlir canü könüldən çun riza." [12, s. 175]

RUHÜLLAH روح الله [*ər.*] İsa Məsihin ləqəblərindən biri.

"Ənbərəfşan sünbülün əsrarı oldu aşikar,
*Gəldi **Ruhüllah**ü mənsux oldu zünnarü səlib."* [12, s. 46]

"Cənnəti-ədnin gülüstanı rüxündür, şək deyil,
*Ey gülüstanında **Ruhüllahi**-Rizvan əndəlib."* [24, s. 99]

SADİQÜL-QÖVLÜL-ƏMİNİ-MÜSTAFA صادق القول الامين مصطفى Doğru sözlü, güvənilən Mustafa. Məhəmməd peyğəmbərin ləqəbi. Dini

terminologiyada Muhammədul-Əmin şəklində işlənir.

"Sadiqil-qövlül-əmini istərisən sən bu gün
*Çün biləsən **sadiqül-qövlül-əmini-Müstafa**."* [12, s. 175]

SAHİBƏZ-ZƏMAN/SAHİBZAMAN صاحب زمان، صاحب الزمان [*ər.* صَاحِبٌ sahib *"yiyə, sahib"* + *ər.* زَمَانٌzaman *"vaxt; dövran"*] İmam Mehdinin (epitet) ləqəblərindən biri.

"Nəsimi, çün bu gün dövran sənindir,
*Cahanda xosrovi-**Sahibzaman**san."* [12, s. 78]

"Endi İsa, gətirdi şirki-xilaf,
*Uştə **Sahibzaman** otuz ikidir."* [12, s. 125]

*"Zey – Zühur oldu çü İsa Mehdiyi-**Sahibzəman**,*
Tey – Tanıqdır, nitqi xatəm qandasa getdi məmat." [12, s. 223]

"Nəfxi-Isa ölü dirildir haman.
*Adəmin sirridir ol **Sahibzaman**."* [12, s. 325]

"İsiyi-pak, Adəmü Əhməd,
*Mehdiyi-**Sahibəz-zəman**dır söz."* [12, s. 10]

ŞAHİ-XUBAN شاه خوبان Hürufilikdə: Fəzlullahın ləqəblərindən biri.

"Ey şahi-xuban, qapına irdim, mənə lütf eyləgil,
Sultan inayət qılmağa hər bir gəda mir olisər." [24, s. 80]

ŞAHÜ SULTANİ-RƏSUL شاه سلطان رسول Rəsulların şahı Məhəmməd peyğəmbər.

*"Əhmədü Mahmudü Qasim, **şahü sultani-Rəsul**,*
Küntə kənzin mə'dəni, həm kəşfi-həlli-müşkilat." [12, s. 186]

ŞİRİ-YƏZDAN شير يزدان Allahın aslanı. Həzrət Əlinin ləqəbi.

*"Buyurdu Şahi-mərdan **Şiri-Yəzdan**,*
Özün biləni yarılğar uğanım." [12, s. 326]

TƏQİ تقى Doqquzuncu imam Məhəmməd ibn Əlinin (h. 195 – h. 220) ləqəbi. Səkkizinci imamın oğludur, künyəsi Əbu Cəfər, məşhur ləqəbləri Təqi, İbni Riza və Cavaddır. Atasından sonra imamətə çatmışdır. Onun imamlıq dövrü iki Abbasi xəlifəsinin – Məmunun və Mötəsimin hakimiyyətləri dövrünə təsadüf edir. Məmun onu xilafətin o dövrdəki mərkəzi olan Bağdada çağıraraq nəzarətdə saxlamaq məqsədilə öz qızını ona ərə verib yanında saxlayır. İmam bir müddət Bağdadda qaldıqdan sonra Məmundan icazə alaraq Mədinəyə gedir. Məmunun vəfatından sonra Mötəsim xilafəti ələ keçirir və yenidən imamı Bağdada çağırıb ciddi nəzarət altına alır. İmam Təqi Abbasi xəlifəsi Mötəsimin buyruğu və Abbasi xəlifəsi Məmunun qızının (öz həyat yoldaşının) əli ilə zəhərləndirilərək öldürülmüşdür.

*"Həm **Təqi** kimi vücudun mülkünü viran qılıb,*
Bu fənada fani ol kim, bulasan mütləq bəqa." [12, s. 175]

ZEYNƏL-İBA/ZEYNƏL-İBAD زين العبا، زين العباد [*ər.*] Dördüncü imam Əli ibni Hüseyn əs-Səccadın (أبو الحسن علي بن الحسين بن علي السجاد h. 36-

95) ləqəbi. Peyğəmbərin (s) nəvəsi Hüseynin (əleyhissalam) kiçik oğlu. Ona Zeynəlabidin (qulların ziynəti) adının verilməsinə səbəbi ibadətində həddindən artıq aludəçiliyi olmuşdur. Digər ləqəbləri: "Səcdə edənlərin ağası", "Abidlərin zinəti", "Səccad", "Zus-Səfinat" və s. O, dəstəmaz aldıqdan sonra özgə bir aləmə girmiş kimi olur, bir başqa adama çevrilərmiş. Rənginin saraldığını, halının dəyişdiyini görənlərin "hər dəstəmazdan sonra niyə belə dəyişirsən?" sualına Zeynəl-İba belə cavab vermişdir: "Hüzuruna çıxdığım Zatı düşünmək, mənim dünyamı dəyişdirir, təfəkkür aləmimi qapayır. Bu aləmlə əlaqəm kəsilir, dəyişik ruh halına girirəm." Hişam ibni Əbdül-Məlikin qardaşı Vəlidin hakimiyyəti dövründə zəhərlənərək öldürülmüşdür. Dördüncü imam Mədinə şəhərində yerləşən Baqir qəbiristanlığında Peyğəmbər məzarından 300-400 metr kənarda dəfn edilmişdir. Onunla yanaşı digər 3 imamın – əmisi imam Həsən, övladı imam Baqir və nəvəsi imam Sadiqin məzarları yerləşir.

Nəsimi aşağıdakı beytində imam Zeynəl-İbanın ibadətindəki dönməzliyinə, səbatlılığına işarə vurur.

"Taətin fövt etmə, Şeytan gərçi yüz nur göstərir,
*Qiblədən döndərmə üzün, necə kim, **Zeynəl-İba**."* [12, s. 175]

ZÜNNUN ذو النون [*ər. "balıq sahibi"*] Misir sufilərinin lideri olmuş Zünnun Misri. Adı Sövban ibn İbrahim, künyəsi Əbülfəz, ləqəbi Zünnun, nisbəsi əl-Misridir (h. 155 / m. 772 – h. 245 / m. 859). Təsəvvüf tarixində Zünnun əl-Misri kimi məşhurdur.

*"Zahidü rə'na yügüşdür Şibliyi-**Zünnun** imiş,*
Adı İbrahim çoxdur, nedəyim Ədhəm degil." [12, s. 330]

TARİXİ ŞƏXSİYYƏTLƏRİN ADLARI

AYAZ آیاز [*türk.*] Qəznəvilər dövlətinin ən qüdrətli hökmdarı Sultan Mahmudun (971-1030) ağıllı, fərasətli, bilikli və sədaqətli qulu. Sultanın etimadını qazanan Ayaz köləlikdən xəzinədarlığa qədər yüksəlmiş və ən qiymətli cəvahirlərin, ən bahalı daşların etibar edildiyi bir şəxsə çevrilmişdir. O, sultanın ən sadiq sirdaşı idi. Hökmdar vəzirlərə etibar etmədiyi sirlərini Ayaza deyər, ondan məsləhət alarmış. Ayaz bir an da sultanın gözündən kənar olmazdı. Bu münasibət o qədər məşhur idi ki, hətta orta əsrlər Şərq ədəbiyyatında Mahmud və Ayaz misalı dostluq və sədaqətin rəmzi sayılırdı. Sultan Mahmud öldükdən sonra Ayaz onun oğlu Məsudun sərkərdəsi olmuş, yürüşlərə çıxıb bir çox torpaqları fəth etmişdir. Ömrünün sonunda hicri tarixlə 449-cu ildə bir sərkərdə kimi vəfat etmişdir. Təsəvvüf ədəbiyyatında Ayazın hökmdarına olan sədaqəti və etibarı arifin Tanrıya olan eşqinə bənzədilir.

"Hər kim istər məqami-Mahmudi,
*Fəzl eşigində olsun ol **Ayaz**."* [12, s. 240]

"Bəzm qurmuş, şərab içər Mahmud,
*Məclis əsbabını düzər **Ayaz**."* [12, s. 243]

BƏHMƏN بهمن [*fars.* "doğru danışan, doğru adam"] *tar.* Eramızdan əvvəl 474-cü ildə taxta oturmuş qədim İran Şahı (Əsl adı Ərdəşir). Rəvayətə görə, o, öz qızı Humay ilə zina etmiş və sonra onunla evlənmişdir. Ömrünün sonunda onu əjdaha udmuşdur. Klassik ədəbiyyatda Bəhmənin adı bəzən müasiri olmamış Dara ilə yanaşı çəkilir. Bu, tarixdə Makedoniyalı İsgəndərlə Daranın məktublaşma-

sında Bəhmanın adının çəklməsi ilə əlaqədardır. Rəvayətə görə, məktubunda Dara özünü Bəhmənə bənzətdiyinə görə İsgəndər ona cavab olaraq özünü əjdahaya oxşadır və bununla da Bəhmənin əjdaha tərəfindən udulması hadisəsini xatırladır.

"İqlimdə bil fani olan əhli-sülukun zümrəsi
*Daravü **Bəhmən**, Keyqubad ya Xosrovü xaqan gəlir."* [12, s. 202]

DARA دارا [*ər.*] *tar.* E.ə. 336-ci ildə İran şahənşahının taxtına oturmuş Əhəməni sülaləsinin yan şaxələrindən birinin nümayəndəsi olan Kodoman (III Dara). Klassik ədəbiyyatda bu adın qədim İran şahı Bəhmən ilə yanaşı çəkilməsi Makedoniyalı İsgəndərin müasiri olmuş III Daradan söhbət getdiyinə işarədir. B a x **Bəhmən**.

"İqlimdə bil fani olan əhli-sülukun zümrəsi
***Dara**vü Bəhmən, Keyqubad ya Xosrovü xaqan gəlir."* [12, s. 202]

XOSROV[1] خسرو [*fars.*] *tar.* Sasani İmperiyasının sonuncu və ən böyük padşahı olmuş II Xosrov Pərviz (570-628). B a x **Poetik obrazların adları, Xosrov.**

"İqlimdə bil fani olan əhli-sülukun zümrəsi
*Daravü Bəhmən, Keyqubad ya **Xosrov**ü xaqan gəlir."* [12, s. 202]

İSFƏNDİYAR اسفندیار [*fars.*] *tar.* İran tarixində haqq, qüdrət və lütf simvolu olaraq tanınan əfsanəvi qəhrəman. İranın qədim Kəyan sülaləsi şahlarından Kəştasbın ən böyük oğlu olmuşdur. Zərdüştlüyün müqəddəs kitabı Avestada "Sipuntü-Dutə" (müqəddəs yaradılmış) şəklində adlandırılmış və "taxma" (*fars.* təxm "*güçlü qəhrəman*") kimi tanıdılmışdır. İsfəndiyar müxtəlif iftiralara düşmüş, atası tərəfindən

həbsxanaya atılmışdır. Nəhayət, Rüstəmin haçalı oxu ilə öldürülmüşdür. O, Firdovsinin "Şahnamə" əsərində hünərli bir pəhləvan kimi təsvir edilir. Burada Rüstəmin hələ tarix səhnəsinə çıxmadığı dövrdə İranı turanlıların istilasından qurtaran və zərdüştlüyün yayılmasına nail olan dini bir qəhrəman kimi yer alır. İsfəndiyar ruyintən – yəni silahbatmaz hesab edilirdi. O da yenilməz pəhləvan Rüstəmi-Zal kimi yeddi tilsim sındırmış və misilsiz qəhrəmanlıqlar göstərmişdir.

*"Eşq meydanında hər kim olmadı **İsfəndiyar**,*
Bəlkə Söhrab olmadı şol Rüstəmi-dəstan üçün." [12, s. 177]

KEYQUBAD كيقوباد [*fars.*] *tar.* İranda Kəyan sülaləsinin birinci şahı və bu sülalənin banisi.

"İqlimdə bil fani olan əhli-sülukun zümrəsi,
*Daravü Bəhmən, **Keyqubad** ya Xosrovü xaqan gəlir."* [12, s. 202]

MAHMUD محمود [*ər.*] *tar.* Qəznəvilər dövlətinin ən qüdrətli hökmdarı olmuş (998-1030) Sultan Mahmud Qəznəvi (971–1030).

*"Hər kim istər məqami-**Mahmud**i,*
Fəzl eşigində olsun ol Ayaz." [12, s. 240]

*"Bəzm qurmuş, şərab içər **Mahmud**,*
Məclis əsbabını düzər Ayaz." [12, s. 243]

ALİMLƏRİN, ŞAİRLƏRİN ADLARI

BUSİNA بوسينا [*ər.*] İbn Sina (980-1037). Orta əsrlər dövrünün ən böyük təbiblərindən biri.

"Həq təcəlli eylədi Musa üçün,
Həm Əristalisü ***Busina*** *üçün."* [12, s. 294]

CALİNUS جالينوس [*yun.* Γαληνός Galenos, *lat.* Claudius Galenus] Yunan mənşəli romalı həkim, filosof Berqamalı Qalen Klavdi (129 – 201 ?). O, imperator Markus Avreliusun saray həkimi kimi fəaliyyət göstərmiş, Roma əsilzadələrini müalicə etmişdir. Qalen bir çox xəstəliklərin təsnifatını vermiş, onların müalicə yollarını araşdırmış, təbabət və anatomiya üzrə çoxlu biliklər əldə etmiş, tibb fəlsəfəsi üzrə 400-ə qədər əsərin müəllifi olmuşdur. Onlardan Avropa təbibləri 1300 il ərzində istifadə etmişdir. "O, həmçinin farmakologiya elminin əsasını qoymuşdur. Qalenin əsərləri islam təbabət elminin də inkişafında əhəmiyyətli rol oynamışdır. Müsəlman təbibləri və düşünürləri onun əsərlərini tərcümə etmiş və öz kitablarında onlara çoxlu istinadlar vermişlər."[10]

"Təbibim, şərbətim, dürdüm, nabatım, şəkkərim, qəndim,
Əlacım, mərhəmim, çarəm, ***Calinus*** *ilə Loğmanım."* [24, s. 158]

ƏTTAR عطّار [*ər.*] XIII əsr milliyətcə fars olan sufi şairi Fəridəddin ibn Məhəmməd Əttar (1136-1221). Aşağıdakı beytlərdə Nəsimi görkəmli mütəsəvvifin adını eyhamla anır. B a x **Teyyib.**

[10] Əlizadə A.A. Antik fəlsəfə tarixi. Ali məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı-2016, 288 s., s.212.

"Əbirindən çəmən, gör kim, nə teyb afaqa göndərmiş
Kim, olmuş buyü ətrindən məşamı tazə ***əttar****ın."* [12, s. 104]

"Ləblərindən varalı Misrə xəbər, ***əttar****ın*
Qutusundan dünü gün qənd ilə halva tökülür." [11, s. 233]

"Mişkin saçından bulmuşam şol buyi-canəfzayı kim,
Teybindən anın sanasan teyyibü ***əttar*** *olmuşam."* [12, s. 114]

LOĞMAN[2] لقمان [*ər.*] İbn Sina. Bütün dərdlərə, mətləblərə çarə edən, xilaskar mənasında. Aşağıdakı beytdə Loğman adının islam tibbinə böyük təsir göstərmiş həkim və filosof Calinus (*yun.* Galenos) ilə yanaşı çəkilməsi burada məhz İbn Sinadan söhbət gedildiyinə işarədir. B a x **Busina**. B a x **Loğman[1]**.

"Təbibim, şərbətim, dürdüm, nabatım, şəkkərim, qəndim,
Əlacım, mərhəmim, çarəm, Calinus ilə ***Loğman****ım."* [11, s. 143]

NİZAMİ نظامی S.Şıxıyevanın fikrincə, aşağıdakı beytdə məhz Nizami Gəncəvi nəzərdə tutulur:

"Vəsfində Nəsimi sözünü ərşə çıxardı,
Qanqı sədəfin incusi buldı bu ***Nizami****?"* [29, s. 161]

ŞİRAZİ شیرازی [*fars*] Orta əsr fars ədəbiyyatının qəzəl janrının ən görkəmli nümayəndələrindən biri olan Sədi Şirazi. Əsl adı Əbu Məhəmməd Müşrifuddin Müslih ibn Abdulla ibn Müşərrəfdir (1210-1291/1292). Bütün Şərqdə məşhur olan "Bustan" və "Gülüstan" əsərləri ona məxsusdur.

*"Nə kişidürür **Şirazi** ki, bəyan edə bu razı,*
Düzübən bu sözü sazı, mənəm uş zəbana gəldim." [12, s. 335]

"Çun "Şurə" gəlib eşq sözün qıla Nəsimi,
*Şövqündən anın cuşa gəlir **Sə'diyi-Şiraz**."* [11, s. 73]

Sonuncu misradakı "Sə'diyi-Şiraz" ismi ilə bağlı Səadət Şıxıyeva yazır: "Nəsiminin bu qəzəlinin məqtə beytində Sədinin adı keçsə də, bənzər strukturlu şeirə Sədinin divanının elmi-tənqidi mətnində rast gəlmədik. XIII əsrdə Şeyx Sədi Ümri Dəməşqi adlı bir musiqişünas yaşamış və əsərini nəzmlə nəsrin növbələşməsi ilə qələmə almışdır. Beləliklə də, son beytdə məhəbbətdən söz açıldığı üçün həm məhəbbət lirikasının ən görkəmli nümayəndələrindən biri olan Sədi Şirazi, həm də qəzəl boyu musiqi sənətindən bəhs edildiyi üçün bu sahədə risalə müəllifi olan Sədi Dəməşqi yad olunmuş olur. Bu eyni təxəllüslü müəlliflərdən birinə birbaşa (Sədiyi-Şiraz), digərinə isə dolayısı ilə işarə edilməklə fərdi xarakterli bir eyham örnəyi yaradılmışdır." [29, s. 162-163].

TEYB/TEYYİB طيب، طيّب [*ər.*] X əsrin məşhur ərəb şairi Əbut-teyyib əl-Mütənəbbi (أبو الطيّب المتنبّي).

*"Əbirindən çəmən, gör kim, nə **teyb** afaqa göndərmiş*
Kim, olmuş buyü ətrindən məşamı tazə əttarın." [12, s. 104]

"Mişkin saçından bulmuşam şol buyi-canəfzayı kim,
*Teybindən anın sanasan **teyyib**ü əttar olmuşam."* [12, s. 114]

Səadət Şıxıyeva yuxarıdakı beytlərə şərh verərək yazır: "Birinci beytdə "teyb" və "əttar", ikincidə "əttar" və "teyyib"i tənasüb və eyham poetik fiqurları vasitəsilə istifadə edən şair (Nəsimi – X.Heydərova)

sələflərinə ehtiramını dolayısı ilə nəzərə çatdırır. Bu iki beytdə "teyyib" və "əttar" kəlmələri ümumi isim kimi işlənsə də, bu iki ifadə həm də məşhur ərəb şairi Əbütteyyib əl-Mütənəbbi və görkəmli fars sufi şairi Fəridəddin Əttarı da yada salır. Qeyd etməliyik ki, şairin türkcə divanı boyu digər bir yerdə "teyyib" ifadəsinə ümumi isim olaraq belə rast gəlinmir." [29, s. 162]

POETİK OBRAZLARIN ADLARI

BİJƏN بیژن [*fars.*] Firdovsinin "Şahnamə" epopeyasındakı "Bijən və Mənişə" dastanında qəhrəman.

□ **Bijənü Söhrab** – Bijən və Söhrab. Orta əsr şərq ədəbiyyatının iki pəhləvan obrazları.

*"Nəfsini öldürməyən gər **Bijənü Söhrab** isə,*
Pəhləvan olmaz adı, həm Rüstəmi-dəstan degil." [12, s. 198]

CƏMŞİD جمشید [*fars.*] Qədim İran mədəniyyətinin və mifologiyasının məşhur fiqurlarından biri. İran şahı Cəm gözəl simaya malik olduğuna görə, onun adına "işıq" mənasını verən "Şid" ləqəbi əlavə edilmişdir. O, şərabın ilk icadedicisi, kainatda və dünyadakı bütün şey və hadisələri göstərə bilən qədəhin sahibi olmuşdur. Firdovsinin Şahnamə əsərinin personajlarından biridir. "Əfsanəyə görə, Zöhhakla apardığı müharibədə məğlub olacağını camda görəndən sonra qaçıb gizlənmiş, bu hadisədən yüz il keçəndən sonra Zöhhak onu tapıb mişarla doğramışdır. Cəmşid hind əsatirində Günəş məbududur." [27, s.72].

*"**Cəmşidi**-zamani-aləm oldum,*
***Cəmşidi**-zaman, zaman mənəm mən!"* [12, s. 25]

"Cəmşidi-aləm oldur mə'nidə, ey qəmər kim,
Fərxəndə surətindir cami-cahannüması." [12, s. 83]

□ **Cami-Cəmşid –** kainatda və dünyadakı bütün şey və hadisələri göstərə bilən qədəh.

*"İtirdin **cami-Cəmşid**, oyan uyxudan, ey qafil,*
Nə buldun uyxudan göstər, nə qıldın uyxudan hasil?" [12, s. 106]

ƏZRA عذراء [*ər. "bakirə (qız)"*] "Vamiq və Əzra" dastanında Vamiqin sevgilisi olan əfsanəvi gözəlin adı.

"Kişi hər nəyi kim sevsə, odur həm zikri-təsbihi,
*Netəkim, daima Vamiq dilində zikridir **Əzra**."* [12, s. 172]

FƏRHAD فرهاد [*fars.*] «Xosrov və Şirin» dastanında Şirinə qarşılıqsız sevgi ilə aşiq olan qəhrəman.

*"**Fərhad** ilə Xosrova, Nəsimi,*
Şirin gəlici şəkərdəhənsən." [11, s. 164]

*"**Fərhad**ıvü Xosrovu söz ilə,*
Şirin kimi şərmsar edərsən." [12, s. 234]

"Daşü kəsək oldu vərdi-nəsrin,
***Fərhad** ilə Xosrov oldu Şirin."* [12, s. 251]

"Hər ki, sən şirinləb üçün ad oxur,
*Xosrovi-xuban şəhi, **Fərhad** oxur."* [12, s. 271]

"Aşiqü mə'şuqəm ol məhbub idi,
*Eylə kim, **Fərhad** ilə Şirin idi."* [12, s. 302]

"Gəl, ey Şirindəhən, eşqin yolunda,
*Mənəm ol kuhkən biçarə **Fərhad**."* [11, s. 32]

"Gəlmişəm didarına ta canımı qurban edəm,
*Ey dodağı, cani-Şirin, gör nə **Fərhad** olmuşam."* [11, s. 131]

□ **Fərhadivar, Fərhadi var** فرهادی وار [*fars.* فرهاد Fərhad+ *fars.* وار var *"kimi" mənasını verən şəkilçi*] Fərhad kimi.

"Leyli cəmalından cüda Məcnun kimi sərgəştəyəm,
***Fərhadivar** istər könül Şirin dodağından şəfa."* [11, s. 17]

Fərhadvəş فرهاد وش [*fars.* فرهاد Fərhad + *fars.* وش vəş *"kimi" bənzətmə ədatı*] *sif.* Fərhad kimi.

*"Necə **Fərhadvəş** könlüm alıbsan,*
Ki, Şirintək camalın dilrübadır." [11, s. 194]

XOSROV[2] خسرو [*fars.*] "Xosrov və Şirin" əfsanəsinin qəhrəmanının adı. Sasani İmperiyasının sonuncu və ən böyük padşahı olmuş II Xosrov Pərvizin (570-628) prototipi. Firdovsinin "Şahnamə" əsərində, Nizami Gəncəvinin (1141-1209) " Xosrov" və "Şirin" poemasında Xosrovun uzun müddət bədbəxt hadisələr və çətinliklərlə dolu macəralardan sonra qovuşa bildiyi Şirinə olan sevgisindən bəhs edilir.

*"Fərhad ilə **Xosrov**a, Nəsimi,*
Şirin gəlici şəkərdəhənsən." [11, s. 164]

"Hər ki, sən şirinləb üçün ad oxur,
***Xosrov**i-xuban şəhi, Fərhad oxur."* [12, s. 271]

"Ləbi-lə'lin şəkərindən bal utandı, əridi,
*Səni Şirini-zaman **Xosrov**i-xuban dedilər."* [12, s. 132]

*"Fərhadıvü **Xosrov**u söz ilə,*
Şirin kimi şərmsar edərsən." [12, s. 234]

İSFƏNDİYAR b a x **Tarixi şəxsiyyətlərin adları, İsfəndiyar.**

KEYQUBAD b a x **Tarixi şəxsiyyətlərin adları, Keyqubad.**

LEYLİ ليلى [*ər.*] Leyli, qadın adı. "Leyli və Məcnun" sevgi rəvayətinin qadın qəhrəmanı.

*"**Leyli** cəmalından cüda Məcnun kimi sərgəştəyəm,*
Fərhadi var istər könül Şirin dodağından şəfa."

"Bu göftarın işaratı dərindir, əql ana irməz,
*Nə bilsin olmayan Məcnun ki, **Leyli** kimdir, ey aqil?"*
[12, s. 106]

*"**Leyli**nin bildigini Məcnuna sor, Məcnuna,*
Aqilin əqli qaçan bildi ki, Leyla nə bilür?" [12, s. 137]

*"**Leyli**-firqətdə taleyin bürcü, Sureyi-Şəmsi-vəzzüha gördüm;*
*Aşiqin Məcnunü hüsnün **Leyli**dir."* [12, s. 246]

*"Dust **Leyli**vü könül Məcnundur,*
Fitnəli qaşına can məftundur." [12, s. 274]

*"Xanda kim, **Leyli** olursa anda bir Məcnun olur,*
Xanda kim, bir gənc açılsa, anda itər başlar." [11, s. 55]

"Çünki Məcnun gördü ol üzündə həqqin surətin,
*Aşiqin mə'şuqəsi **Leyli** olur didarına."* [11, s. 55]

*"**Leyli**yi-şeyda idim seydinə düşdüm, ey nigar,*
Yanaram Məcnun kimi mən zar, səndən dönməzəm."
[11, s. 130]

MƏCNUN مجنون [*ər.*] "Leyli və Məcnun" sevgi rəvayətinin kişi qəhrəmanı.

*"Leyli cəmalından cüda **Məcnun** kimi sərgəştəyəm,*
Fərhadivar istər könül, Şirin dodağından şəfa." [11, s. 17]

"Bu göftarın işaratı dərindir, əql ana irməz,
*Nə bilsin olmayan **Məcnun** ki, Leyli kimdir, ey aqil?"*
[12, s. 106]

*"Leylinin bildigini **Məcnun**a sor, **Məcnun**a,*
Aqilin əqli qaçan bildi ki, Leyla nə bilür?" [12, s. 137]

"Saçların qədrü bəratın leylidir,
*Aşiqin **Məcnun**ü hüsnün Leylidir."* [12, s. 272]

*"Dust Leylivü könül **Məcnun**dur,*
Fitnəli qaşına can məftundur." [12, s. 274]

*"Xanda kim, Leyli olursa anda bir **Məcnun** olur,*
Xanda kim, bir gənc açılsa, anda itər başlar." [12, s. 307]

RÜSTƏM رستم [*pəhl. "iri cüssəli, güçlü"*] Rüstəm-Zal. İran xalq dastanlarının ən güclü qəhrəmanı. "Təsəvvüf ədəbiyyatına daxil olan bu dastanla insanın nəfsi-əmmarəsini yenib onu idarə edilə bilməsi arasında əlaqə yaradılmışdır." [59].

"Eşq meydanında hər kim olmadı İsfəndiyar,
*Bəlkə Söhrab olmadı şol **Rüstəm**i-dəstan üçün."* [11, s. 177]

"Nəfsini öldürməyən gər Bijənü Söhrab isə,
*Pəhləvan olmaz adı, həm **Rüstəm**i-dəstan degil."* [12, s. 198]

"Qaf – Qüvvət qalmadı artıq tənimdə taqətim,
*Kaf – Kafir gözlərin kim **Rüstəm**i-dəstan olur."* [12, s. 221]

"Gəlir susən qılınc ilən, soya donunu nəsrinin,
*Çıxar xətmi sügü ilən, qapar qalxanı **Rüstəm**dən."* [12, s. 69]

SÖHRAB سهراب [*fars.*] Firdovsinin "Şahnamə" əsərinin qəhrəmanı Rüstəm-Zalın oğlu. "Yürüşlərin birində Rüstəm turanlı qızı Təhminə ilə evlənir və ona qolbaq bağışlayıb deyir ki, oğlum olsa qoluna bağlayarsan. Onların izdivacından Söhrab adlı pəhləvan doğulur. Söhrab böyüyəndə atasının yanına gedir ki, onunla birləşib İran-Turan müharibələrinə son qoysun. Ancaq döyüşdə üz-üzə gələn Rüstəm və Söhrab bir-birini tanımır. Gənc Söhrab qoca pəhləvanı iki

dəfə məğlub edir, ancaq bilmir ki, qarşısındakı qocaman pəhləvan onun axtardığı doğma atası Rüstəmdir. Axırıncı dəfə Rüstəm Söhrabı məğlub edərkən onu ölümcül yaralayır. Rüstəm biləndə ki, yaraladığı doğma oğlu Söhrabdır, onda yarasını sağaltmaq üçün Keykavusdan məlhəm otu istəyir. Ancaq Keykavus həmin otu vermir. Baxmayaraq ki, Rüstəm onu üç dəfə ölümdən xilas etmişdi. Söhrab faciəli şəkildə ölür və onun İran-Turan müharibələrini dayandırmaq arzusu həyata keçmir." [7, s. 35].

"Eşq meydanında hər kim olmadı İsfəndiyar,
*Bəlkə **Söhrab** olmadı şol Rüstəmi-dəstan üçün."* [11, s. 177]

*"Nəfsini öldürməyən gər Bijənü **Söhrab** isə,*
Pəhləvan olmaz adı, həm Rüstəmi-dəstan degil." [12, s. 198]

ŞƏKKƏR شكّر [*ər.*] "Xosrov və Şirin" dastanında Şirinin rəqibi olan Şəkkər obrazı.

*"Bitibdir qisseyi-Şirin, tükəndi **Şəkkər**in dövrü*
Ləbin dövranıdır gəlgil ki, sənsən Xosrovi-dövran!" [12, s. 84]

ŞİRİN شيرين [*fars.*] "Xosrov və Şirin" dastanında əsas qadın qəhrəmanı personajının adı.

"Fərhad ilə Xosrova, Nəsimi,
***Şirin** gəlici şəkərdəhənsən."* [11, s. 164]

"Leyli cəmalından cüda Məcnun kimi sərgəştəyəm
*Fərhadi var istər könül **Şirin** dodağından şəfa."* [11, s. 17]

"Ləbi-lə'lin şəkərindən bal utandı, əridi
*Səni **Şirin**i-zaman Xosrovi-xuban dedilər."* [12, s. 132]

"Fərhadıvü Xosrovu söz ilə
***Şirin** kimi şərmsar edərsən."* [12, s. 234]

"Daşü kəsək oldu vərdi-nəsrin
*Fərhad ilə Xosrov oldu **Şirin**."* [12, s. 251]

□ **Şirindəhən** شیرین دهن [*fars.*] *məc.* Şirindilli Şirin (obrazı).

*"Gəl, ey **Şirindəhən**, eşqin yolunda*
Mənəm ol kuhkən biçarə Fərhad." [11, s. 32]

*"Sana **Şirindəhan**, ey Xosrovi-hüsn*
Deyən şirindəhan, billah, degilmi?" [12, s. 38]


VAMİQ وامق [*ər.*] "Vamiq və Əzra" dastanının qəhrəmanı. "Eşqində səbat və sədaqətə görə adı Məcnun və Fərhadla yanaşı olaraq şərq poeziyasında geniş yayılmışdır." [27, s. 381].

"Kişi hər nəyi kim sevsə, odur həm zikri-təsbihi
*Netəkim, daima **Vamiq** dilində zikridir Əzra."* [12, s. 172]

III Fəsil

TOPONİMLƏR

توپونیملر



Gəl vətanın bəhrinə dal, xalid ol,

Kə'bəyi tanrı Lata abid ol!

XORONİMLƏR
(ölkə, bölgə adları)

BABİL بابل [*akkad.* bab-İllu – *"Allahın qapısı"*] *tar.* E.ə. II minilliyin əvvəllərində Cənubi Mesopotamiya ərazisində (müasir İraq ərazisi) yerləşmiş qədim dövlətin və mədəniyyətin adı.

*"Əcəb eyninmi şol, ya sehri-**Babil**,*
Əcəb dişinmi şol, ya lö'löi-nab?" [11, s. 24]

ÇİN چین [*fars. < soğd. < sansk.* Cīna (चीन)] **1.** Çin ölkəsi.

"Rümü Şam mülki başına sədəqə,
***Çin**ü Maçin eli təninə zəkat."* [12, s. 259]

"Salıbdır daneyi-xalın könüllər quşuna çinə,
*Xəbər düşdü bu mə'nidən Xətavü Rum ilə **Çin**ə."* [11, s. 60]

2. *məc.* Saçın Çindən gətirilmiş müşk qoxulu ətri mənasında (b a x **Rum** və **Həbəş**). Nəsimi müşkün gətirildiyi ayrı-ayrı bölgələrin adlarını – Çin, Xəta, Maçin, tatar (Türküstan) – saçın gözəl ətri ilə sinonim olaraq işlədir, bunlar arasında assosiativ münasibət qurur:

"Ənbəri-zülfün nəsimi faş olalı aləmə,
*Oda düşdü nafeyi-**Çin**, ənbəri-sara ilən."* [11, s. 157]

"Afitabın təl'ətindən mahi-taban ru tutar,
***Çin**i-zülfündən Xətada nafeyi-ahu tutar."* [11, s. 196]

*"**Çin** nafəsindən bezdi can, ənbərdən usandı könül,*
Hər sübhdən şol dilbərin zülf ilə xalın arzular." [11, s. 201]

*"Səba saçından utandı ki, nafeyi-**Çin**dir,*
Məgər ki, silsiləsindən səba Xətaya düşər." [11, s. 289]

"Cə'di-zülfün ənbərəşfan eyləmiş,
*Nafeyi-**Çin**i pərişan eyləmiş."* [11, s. 312]

"Zülfü dağıtmış rüx üzrə ol sənəm,
*Kafiri-**Çin** qəsdi-iman eyləmiş."* [11, s. 312]

Çinü Xətay (Xətavü Çin, Çinü Xəta) – Çinin şimal hissəsi və Türküstan. Mahmud Kaşğari Çini Xıtay adlandırır. [14, I c. s.77].

*"Saçındandır **Xətavü Çin**ü Ruma,*
Səba ənbərfəşan, billah, degilmi?" [12, s. 38]

*"**Çinü Xəta**ya surətin nəqşini göndər, ey sənəm,*
Ta büti-Çinə tapanın göstərəsən xətasını." [12, s. 48]

"Həm cahanam, həm cahanın eynivü mahiyyəti,
*Həm **Xətavü Çin**ü Rumun qeysərü fəğfurüyam."* [12, s. 110]

*"Nafeyi **Çinü Xəta**dır bənlərin,*
Daneyi-dami-bəladır bənlərin." [12, s. 284]

Mişki-çin – Çin müşkü.

"Ey üzün bağında sünbül laləçin,
*Arizin güldür, saçındır **mişki-Çin**."* [12, s. 293]

*"Saçın çinində **Çin mişki** necə üzünü örtmüşdür,*
Görəndə ənbərin xəttin qələm çəkmiş xətasından." [11, s. 159]

"Səcdə eylər üzünə mehr ilə mah,
***Mişki-Çin** saçından oldu rusiyah."* [12, s. 298]

Çini-tatar – Çinin qərbindəki Türküstan ərazisindən gətirilən müşk ətri nəzərdə tutulur.

"Qaliyəbu saçınla çün can ilə vüslət etmişəm,
***Çini-tatar**ı bulmuşam ud ilə mişkü ənbəri."* [11, s. 89]

"Canımı ənbərin saçın seyd edəli kəməndinə,
*Rumü Xətayi dutmuşam, **Çinü Tatar** içindəyəm."* [11, s. 128]

3. Çin ölkəsi ilə əlaqəli olan.

*"Ey **Çin** nigarü nəqşinə heyranü məst olan,*
Gəl şol nigarı gör ki, nə nəqşü nigar edər." [11, s. 283]

□ **Büti-Çin** – Çin bütü; // *məc*. Səcdəyə layiq gözəl üz.

*"Vəslin hərəm oldu, ey **büti-Çin**,*
Çin eylədi Kə'bə ilə Latı." [12, s. 235]

"Çinü Xətaya surətin nəqşini göndər, ey sənəm,
*Ta **büti-Çin**ə tapanın göstərəsən xətasını."* [12, s. 48]

Bütxaneyi-Çin – səcdəgah.

"Aşiqə iman ilə dindir üzün,
*Bir adı **bütxaneyi-Çin**dir üzün."* [12, s. 281]

ÇİNÜ MAÇİN چین و ماچین B a x **Maçin**.

*"**Çinü Maçin**ü Həbəş rüxsareyi-Rum üstünə,*
Basmış zəngi saçın xeyli-xəyalı məndədir." [12, s. 163]

"Həm Xətayam, həm Xütən, həm nafəsi tatarının,
***Çinü Maçin**ü Moğolçin, həm gözəl fəğfuruyam."* [12, s. 113]

*"Varmıdır nisbət sana bir türk dər **Maçinü Çin**,*
Çini-zülfünüz yenə əz nafeyi-tatar tar." [11, s. 212]

HİNDUSTAN هندوستان [*fars.* هندو hindu *+ fars.* ستان -sitan *yer, məkan bildirən şəkilçi*] Hindistan.

*"Qıldı **Hindustan**ı nalan bənlərin,*
Oldu Rum elinə sultan bənlərin." [12, s. 284]

XƏTA/XƏTAY/XÜTƏN – Çinin şimal hissəsi və Türküstan əraziləri.

*"Həm **Xəta**yam, həm **Xütən**, həm nafəsi tatarının,*
Çinü Maçinü Moğolçin, həm gözəl fəğfuruyam." [12, s. 113]

*"Zülfünüz çəkdi çəri gəldi **Xəta**, Çin üstünə,*
Xalınız qopdu Həbəşdən Rum elini çapdı." [11, s. 107]

İRAQİSTAN عراق ستان [*ər.*] İraq.

"Ta İraqistanı gəzdim, bir müvəhhid bulmadım,
Aşiqi-Misrəm, yenə müştaqi-Bağdad olmuşam." [28, s. 66]

İRAN ایران [*fars.*] Şimaldan Xəzər dənizi, şimal-şərqdən Türkmənistan, şərqdən Əfqanıstan və Pakistan, cənubdan Fars və Oman körfəzləri, qərbdən Türkiyə və İraqla əhatə olunmuş ölkə və region adı.

"Mülki-İran, Mülki-Turan, Mülki-Hindü Mülki-Sind
Mülki-Şamam, Mülki-qeysər, Rumiyəm, Ənkuriyəm." [12, s. 113]

KƏLALƏ کلاله [*fars.* شهرستان کلاله] İranın Gülüstan əyalətinin şərqində yerləşən, 12 rayonundan (şəhristandan) biri. Qədim Kəlalə 7500 illik bir tarixə malikdir. O, şərqdən Şimali Xorasan vilayəti, qərbdən Kavos Qübbəsi, şimaldan Mərave Təpə və cənubdan Qalikeş şəhəri ilə əhatələnmişdir. Müasir dövrdə Kəlalə şəhərinin əhali tərkibi türkmən, fars, xorasani, sistani və bəluc tayfalarından ibarətdir və bu bölgənin əhalisinin əksəriyyəti sünnilərdir.

"Gülü reyhanü laləmdir, meyü sağər, piyaləmdir
*Gülüstanü **Kəlalə**mdir, müzəyyən növbaharımdır."* [11, s. 245]

KƏN'AN کنعان [*ər.*] Yaqub peyğəmbərin məmləkəti, Fələstin [Bax: Qamus-i Osmani, s. 259]. Yaqub peyğəmbər Yusif peyğəmbərin atası olmuşdur.

□ **Yusifi-Kən'an** – Kənanlı Yusif. // *təsəv.* "Mənəvi aləm, mələkut aləmi (ruhların və nəfslərin məqamı olan aləm – X.Heydərova). Həzrəti Yusifin içinə atıldığı quyu, maddi və cismani aləmi." [34]

"Ya'qub olub axıtmaz isən xun cigərdən,
Misrə irişib, ***Yusifi-Kən'an*** *olamazsan."* [12, s. 81]

"Höccəti-bürhan mənəm, Musiyi-İmran mənəm,
Yusifi-Kən'an *mənəm, Misr ilə qəndü nabat."* [12, s. 181]

"Cim – Cümlə xubların sultanı sənsən, ey pəri,
Hey – Hüsn içrə nigarım ***Yusifi-Kən'an*** *olur."* [12, s. 221]

KƏŞMİR كشمير [*sansk.* कश्मीर] Hindistan yarımadasının şimal-qərbində, Orta Asiya ilə Cənubi Asiya arasında yerləşən ərazi. Qədim və orta əsrlərdə tarixi proseslər nəticəsində müxtəlif din və mədəniyyətlərin qarşılıqlı təsiri nəticəsində hindlilər və bütpərəstlər arasında sinkretizmin mühüm mərkəzinə çevrilmişdir. // Kəşmir keçisinin yunundan əldə edilən, incə və yumşaq şal növü. Bu şal növü orta əsrlərdə bütün dünyada məşhur olmuş və ölkəsinə böyük gəlir gətirmişdir. Nəsimi aşağıdakı beytdə Kəşmirlə olan ticari əlaqələrə eyham vurur.

"Şol sünbüli-pürçin ilə sevdayə düşdüm, nedəvüz,
Tüccariyiz hüsnün, budur kisbatilə ***Kəşmir****imiz."* [11, s. 79]

MAÇİN ماچين [*çin.* 玛沁 Maçin<*maçin dilindən alındığı ehtimal olunur. Müasir Çində maçin xalqı etnik azlıq kimi Qinghai əyalətinin dağlıq zonasında Maçin rayonunda yaşayır*] Orta əsrlərdə Çinin cənub-şərq hissəsi. O dövrlərdə "Çin üç hissədən ibarət olmuşdur: Xıtay (indiki Çinin şimali), Çin və Maçin (indiki Çinin cənub-şərqi)" [53, s. 37]. Mahmud Kaşğari Maçini Tawğac adlandırır. O, "Tawğac" sözünün maddəsində belə bir izah verir: "Tawğac: Macinin adıdır. Bura Çindən dörd aylıq məsafədədir. Çin əslində üç qismdir: birincisi Yuxarı Cindir

ki, şərqdədir, buraya Tawğac deyirlər. İkincisi Orta Çindir, bura Xıtay adlanır. Üçüncüsü Aşağı Çindir, buraya isə Barxan adı verilir. Barxan Kaşğardadır. Lakin indi Macin Tawğac adı ilə tanınmışdır, Xıtay ölkəsinə isə Çin deyilməkdədir." [14, I c., s. 443]. "Cin və Maçin xalqlarının ayrı dilləri olsa da, onların şəhərliləri türk dilini yaxşı bilirlər. Məktublarını bizə türk yazısı ilə yazırlar." [14, I c., s. 77-103].

*"Çinü **Maçinü** Həbəş rüxsareyi-Rum üstünə,*
Basmış zəngi saçın xeyli-xəyalı məndədir." [12, s. 163]

"Ol pəripeykər ki, taci-səltənət başındadır,
*Çinü **Maçin**i müsəxxər eyləmək başındadır."* [11, s. 189]

*"Varmıdır nisbət sana bir türk dər **Maçin**ü Çin,*
Çini-zülfünüz yenə əz nafeyi-tatar tar." [11, s. 212]

"Xətadır Çinə həml etmək müənbər zülfünü, billah,
*Ki, hər bir qılı saçının həzaran Çinü **Maçin**dir."* [11, s. 256]

"Həm Xətayam, həm Xütən, həm nafəsi tatarının,
*Çinü **Maçin**ü Moğolçin, həm gözəl fəğfuruyam."* [12, s. 113]

"Rümü Şam mülki başına sədəqə,
*Çinü **Maçin** eli tənina zəkat."* [12, s. 259]

*"Ey büti-**Maçin**ə tapan, Azər idin Nəmrud ilən,*
Eşqə Xəliləm demə çün, gül kimi narın yox imiş." [12, s. 333]

MAZANDARAN مازانداران [*ər.*] İranın şimalında, Xəzər dənizinin cənub sahilində yerləşən ostan.

"Həq oldu könlümün şəhrində zahir,
*Zəhi **Mazandaran**, billah, degilmi?"* [12, s. 39]

MİSR مصر [*ər.*] **1.** Misir. Afrikanın şimal-şərqində və Sinay yarımadasında yerləşən ölkə. XIV əsrin sonu, XV əsrin əvvəlində Misir Məmlüklərin əlində idi və islam xilafəti hökmünə malik bir imperiya idi. "Nəsiminin yaşadığı dövrdə Misir Məmlükləri və Teymurilərin Qaraqoyunlu və Ağqoyunlulara münasibətində cəbhələşmə mövcud idi. Misir hökmdarı Şeyx əl-Müəyyəd əl-Mahmudi Qaraqoyunlulara, Teymurilər isə Ağqoyunlulara dəstək verirdilər. Nəsimi Misir sultanına qarşı çıxmış Zülqədər bəylərinin müttəfiqi idi və bu ittifaq son nəticədə Misir taxt-tacında hakimiyyət dəyişikliyini nəzərdə tuturdu." [Şıxıyeva, 2013: 186-188]. Nəsiminin bu siyasi mövqeyinə görə onun haqqında qəddarlıqla edam fərmanı verən Misir sultanı ona "dinsiz" epitetini də aid edir. S.Şıxəliyevanın fikrincə, Zülqədəroğlu Əli bəy məhz Nəsiminin edamından sonra əfv olunması barəsində Misir hökmdarına məktub yazır." [Şıxıyeva, 2013, s. 195].

2. *məc.* Adəm. Nəsimi insan gözəlliyinin simvolu olan Yusif peyğəmbər ↔ Misir ↔ Adəm arasında paralelliklər aparır.

*"**Misr**i Nəsimi buldu, Qur'an imamı oldu,*
Came'də cüm'ə qıldı, məqbuli-kibriyadır" [12, s. 224]

Höccəti-bürhan mənəm, Musiyi-İmran mənəm,
*Yusifi-Kən'an mənəm, **Misr** ilə qəndü nabat."* [12, s. 181]

*Yusif kimi əzizəm **Misr**in içində daim,*
Həqqi bilən həmişə aləmdə müqtədadır." [12, s. 18]

*"**Misr**i oda yaxdı eşqin odu,*
Kasid ləbin eylədi nabatı." [12, s. 235]

"Ərşi-Rəhmandır üzün, həqdir güvah,
*Xubluğun **Misr**ində sənsən padişah."* [12, s. 298]

□ **Misrü came'** – 1) Misirdə məscid. Ola bilsin ki, Nəsiminin şeirlərində Misirin ən qədim və ilk məscidi olan, Fustat şəhərinin Köhnə Qahirə məhəlləsində yerləşən Ömr İbn əl-Aas Məscidi (جامع عمرو بن العاص h.20/m.641) nəzərdə tutulur; 2) *məc.* Şair hürufi anlayışlara görə insan vücudunu Tanrının təcəllisi kimi təqdim etdiyi üçün Allahın evi ilə məna paralellikləri aparır.

*"Cüm'ə namazı niçün şərt oldu **Misrü came'**,*
Şərtin bil əvvəl, andan məşrutun et, səladır." [12, s. 18]

*"Səvadi-ə'zəmilə **Misri-came'***
Üzündür, ya filan, billah, degilmi?" [12, s. 39]

*"Həm səvadi-ə'zəməm, həm **Misri-came'**, həm mühit.*
Həm bu bəhrin gövhəri, həm lö'löi-mənşuruyam." [12, s. 110]

*"**Misri-came'**dir vücudum, anda qıldım cüm'əyi,*
Gör nə şəhrəm, gör nə möhkəm qəl'əvü sur olmuşam."
[12, s. 116]

*"**Misr**əmü həm **came'**əm, həm cüm'əyəm, həm adinə,*
Ruhi-qüdsün nəfxəsi, həm beytinin mə'muruyam." [12, s. 112]

"Şəm'iyəm, həm aləmin şəm'inə mən pərvanəyəm,
***Misri-came'**uş mənəm, həm mə'bəd ilə sövmənat."* [12, s. 187]

MÜLKİ-HİND ماك هند Hindistan.

*"Mülki-İran, Mülki-Turan, **Mülki-Hindü** Mülki-Sind*
Mülki-Şamam, Mülki-Qeysər, Rumiyəm, Ənkuriyəm." [12, s. 113]

MÜLKİ-QEYSƏR ملك قيصر [*ər.* mülk + *ər.* qeysər < *yun.* kaisar < *lat.* caesar. *Yuli Sezarın adından*] Qədim Roma və Bizans imperiyasının əraziləri.

"Mülki-İran, Mülki-Turan, Mülki-Hindü Mülki-Sind
*Mülki-Şamam, **Mülki-Qeysər**, Rumiyəm, Ənkuriyəm."* [12, s. 113]

RUM روم [*yun.* ῥέω (rhèo) < *lat. ruo "axın"; Rumon və ya Rumen Tiber çayının qədim adı.*] **1.** Bizans İmperatorluğu **//** Anadolu.

"Məcməri-şəm'i-səfadır bənlərin
*Mülki-**Ruma** padişadır bənlərin."* [12, s. 284]

2. *məc.* Ağ dərili adam, ağ üz mənasında. Aşağıdakı beytlərdə qara saçın ağ üzə tökülməsi təsvir olunur.

*"Çinü Maçinü Həbəş rüxsareyi-**Rum** üstünə*
Basmış zəngi saçın xeyli-xəyalı məndədir." [12, s. 163]

"Zülfünüz çəkdi çəri gəldi Xəta, Çin üstünə,
*Xalınız qopdu Həbəşdən **Rum** elini çapdı."* [11, s. 107]

!Canımı ənbərin saçın seyd edəli kəməndinə
***Rum**ü Xətayi dutmuşam, Çinü Tatar içindəyəm."* [11, s. 128]

"Zülf dağıtmış rüx üzrə, örtər imanı, məgər
***Rum**a gəlmiş kafiri-Çin qarəti-iman üçün?"* [11, s. 117]

□ **Rumi** رومی *sif.* Anadolu ilə əlaqəli, Anadoluda yaşayan, anadolulu.

*"Mülki-İran, Mülki-**Turan**, Mülki-Hindü Mülki-Sind*
Mülki-Şamam, Mülki-Qeysər, Rumiyəm, Ənkuriyəm." [12, s. 113]

SİND سند [*urdu.*] Pakistanın 4 böyük bölgəsindən biri. Ölkənin cənubunda Hind okeanının sahilində yerləşir.

*"Mülki-İran, Mülki-Turan, Mülki-Hindü Mülki-**Sind**,*
Mülki-Şamam, Mülki-Qeysər, Rumiyəm, Ənkuriyəm." [12, s. 113]

ŞAM شام [*ər.* الشام] Suriyanın paytaxtı; "Şam" ərəbcə sol, "yəmən" isə sağ mənasını verdiyindən Hicaza nisbətlə sol tərəfdəki məmləkətlərə Şam, sağ tərəfdəki bölgəyə Yəmən adı verilmişdir. "Fəzlullahın "Cavidannamə"sindəki qeydlər hürufilərin Şama xüsusi əhəmiyyət verməsinin səbəbini açıqlayır: "Həqq-təala dedi: "Bütün yaradılmışı (hərfən: əvvəlinci və axırıncı yaradılışı) Şam torpağında cəm edəcəyəm, çünki qiyamətin (qopacağı) torpaq ora olacaqdır"." [65]

*"Vücudun Misri-came'dir, saçın **Şam**,*
Xorasanü Əcəm, Bulqara bənzər." [11, s. 248]

*"Mənəm əxtər bu Misrü **Şam** içində,*
Kəvakib türrəsi timara bənzər." [11, s. 248]

*"Rümü **Şam** mülki başına sədəqə,*
Çinü maçin eli tənina zəkat." [12, s. 259]

TURAN توران [*fars.*] Qədim türklərin yerləşdiyi, yurd saldığı ərazilər. Əslində türk xalqları Avrasiya boyu daha geniş ərazilərə yayılmış olsalar da, keçmiş tarixdə Turan deyərkən Mərkəzi Asiyadakı türk toplumlarının məskunlaşdığı torpaqlar nəzərdə tutulurdu. Turan adına Avesta ve Firdovsinin "Şahnamə" əsərində rast gəlinir. Tarixi İran-Turan savaşlarında Əfrasiyab Turan hökmdarı kimi təsvir edilir. VI əsrdən etibarən Turan sözü türklərin yaşadığı ölkə anlamını ifadə etməyə başlamışdır.

*"Mülki-İran, Mülki-**Turan**, Mülki-Hindü Mülki-Sind,*
Mülki-Şamam, Mülki-Qeysər, Rumiyəm, Ənkuriyəm." [12, s. 113]

ASTİONİMLƏR
(şəhər adları)

BAĞDAD بغداد [*fars.* بغ bəğ *"Tanrı"* + *fars.* داد dad *"verilən" = "Tanrının verdiyi, Tanrının hədiyyəsi"*] XIV-XV əsrlərdə siyasət, ticarət və mədəniyyət mərkəzi olmuş Bağdad şəhəri. Mesopotamiyaya aid "Hammurabi qanunları"nda (e.ə. 1760-cı il) "Bağdadu" şəhərinin adı çəkilir; Talmudda "Bağdasa" şəhəri haqqında məlumatlar var.

*"Həm mənəm **Bağdad** ilə Şətt, həm xəlifə, həm zaman,*
Həm ənəlhəq söylərəm, həm dar, həm Mənsuruyam." [12, s. 113]

*"**Bağdad**a gəl, ey qasid, ilət şol xəbəri kim,*
Şol şö'bədəçi dilbəri-əyyarımı buldum." [12, s. 95]

"Nil irmağı daşdı, tutdu Misrin çöhrəsin
*Uş Hələb **Bağdad**ı buldum, gör necə şad olmuşam."* [28, s. 66]

BULQAR بلغار [*türk.*] 965-ci ildə Volqa — Kama çayları ətrafında yaradılmış İdil Bulqar dövlətinin paytaxtı.

"Vücudun Misri-came'dir, saçın Şam,
*Xorasanü Əcəm, **Bulqar**a bənzər."* [11, s. 248]

BURSA بورسا [*yun.* Βύρσα, Προύσα Bursa, Prusa] Anadolunun şimal-qərbində yerləşən və Osmanlı imperiyasının ilk paytaxtı olmuş şəhər.

"Neylərəm mən bunda durub, çünki dildar andadır,
*Sanma kim, anda dedigim **Bursa** ya Larandadır."* [11, s. 202]

ÇAÇ چاچ [*fars.*] İndiki Özbəkistan Respublikasının paytaxtı Daşkəndin qədim adı. Bəziləri bunun Kaşqar şəhərinin köhnə adı olduğunu da söyləyirlər (33). *// məc.* Qaş mənasında. Çaçda istehsal olunan yaylar o dövrdə ən keyfiyyətli hesab edilirdi. Nəsimi gözəlin qaşını Caçı yayına bənzədir.

*Şol qaşı **Çaçı** büti-məhvəş gəlir,*
Kirpik oxundan dolu tərkəş gəlir. [11, s. 19]

□ **Çaçi-kəman** – Çaçda (Daşkənddə) hazırlanan kaman növü.

"Kirpiyin navək oxudur, qaşların Çaçi-kəman,
Uğramaz aşiqdən özgə şol oxun peykanına." [11, s. 19]

ƏNKURİ انکوری [*yun.* Ἄγκυρα Anküra *"lövbər", klassik yunanca Angira oxunur*] Ankara. Müasir Türkiyə Respublikasının paytaxtı. Kiçik Asiyanın ən qədim şəhərlərindən biri. Hələ b.e.ə. VII əsrdə Ankarada

Avropa ilə Asiya ticarət yollarının kəsişdiyi məlum idi. Qədim yunan dilində "Anküra" olaraq tələffüz edilən şəhər adı ərəblər tərəfindən qorunub saxlanılmışdı. Böyük Səlcuq İmperiyasının Anadoluya gəlməsindən sonra bu ad "Ankara" və "Əngürü", qərb dillərində isə "Anqora" (Angora) olaraq dəyişmişdir. Ərəb şəkilçisi ilə "Əngüriyyə" əski əlifba ilə "Ənküri" və ya "Əngüri" şəklində oxunmuşdur.

"Mülki-İran, Mülki-Turan, Mülki-Hindü Mülki-Sind,
*Mülki-Şamam, Mülki-Qeysər, Rumiyəm, **Ənkuri**yəm."* [12, s. 113]

HƏLƏB حلب [*ər.*] İndiki Suriyanın şimal-şərqində yerləşən şəhər. Nəsiminin yaşadığı dövrdə mərkəzi Misir olan Məmlüklər dövlətinə tabe idi. Aşağıda nümunə gətirilən "Etdilər" qəzəlinin Nəsimiyə aid olması bir çox tədqiqatçılar tərəfindən şübhə ilə qarşılanır. Bax: [8, s. 70-71; 25, s. 90-98; 41, s. 24-25].

"Əhli-iman usları ol dəmdə inkar etdilər,
*Çün Hüseyniyi **Hələb** şəhrində bər-dar etdilər."* [12, s. 309]

"Nil irmağı daşdı, tutdu Misrin çöhrəsin
*Uş **Hələb** Bağdadı buldum, gör necə şad olmuşam."* [28, s. 66]

XEYBƏR خيبر [*ər.* خيبر "qala, möhkəm hasar"] Ərəbistanda, Mədinə şəhərinin yaxınlığında kiçik bir şəhər. Sakinləri yəhudilər olmuşdur. 628-ci ildə islam peyğəmbərinin əmri ilə Əli ibn Əbu Talibin başçılığı altında fəth edilmişdir.

□ **Babi-Xeybər** – Xeybər qalasının qapısı. Aşağıdakı beytdə bu qalanın alınması əhvalatına işarə olunur. "Məhəmməd peyğəmbər (s) dörd yüz piyada və iki yüz süvari ilə Xeybəri mühasirəyə alıb

hücumlara cəhd etsə də bir nəticə alınmır. Həzrət Əli gözü ağrıdığı üçün qoşundan geri qalmışdı. Peyğəmbər (s) buyurdu: "Sabah islam bayrağını elə bir kimsəyə təslim edəcəyəm ki, o, davamlı olaraq düşmənə hücum edib əsla geri çəkilməz. O, Allahı və Peyğəmbərini sevir, Allah və Peyğəmbəri də onu sevir. Allah onun əlləri ilə fəth (zəfər) bəxş edəcəkdir. Ertəsi gün həzrət Əli Mədinədən gəlib orduya yetişdi. Peyğəmbər Əfəndimiz islam bayrağını həzrət Əliyə verdi və o, hücuma keçib qalib gəldi." [4, s. 640].

"Anda imana gəlməyən bilmədi sirri-Əhmədi,
Bunda Əli gərək, əli ta yıxa ***babi-Xeybər****i."* [11, s. 90]

KƏMAX كماخ [*türk. Göytürk dövlətinin bir üzvü olan və qıpçaq türklərinin əcdadı sayılan kimak türkləri*] İndiki Türkiyənin Ərzincan ilində Kəmax (Kemah) ilçəsində yerləşən qala; Kəmax qalası. Fərat çayının ana qolu olan Qarasu çayının axıb töküldüyü boğazın (Kəmax boğazı) cənub yamacında qurulmuşdur.

"Gər mühit oldun, cəhatın qandadır
Ey ***Kəmax,*** *axar Fəratın qandadır?"* [12, s. 268]

KƏRBƏLA كربلاء İraqın ən böyük şəhərlərindən biri. Şiə məzhəb və təriqətlərinə görə, Məkkə, Mədinə və Nəcəfdən sonrakı ən müqəddəs şəhərdir. Kərbəla döyüşü (Kərbəla Hadisəsi) burada cərəyan etmişdir. Bu savaş 10 oktyabr 680-ci ildə islam peyğəmbəri Məhəmmədin nəvəsi Hüseyn ibn Əli ilə Əməvi xəlifəsi I Yezid arasında baş vermişdir. Kərbəla döyüşü islam aləmində, xüsusən şiəlikdə böyük önəm daşıyır. Peyğəmbərin qızı Fatimənin, Əli bin Əbu Talibdən olan oğlu Hüseynin öldürülməsi şiə ölkələrində hər il Aşura günü adı ilə qeyd olunur. İmam Hüseynin qəbri Kərbəla şəhərində yerləşir.

"Həqqi bilən bilir bu gün eşqi hədisi-pürbəla,
*Nəhvlə sərfi neylər ol, oldu şəhidi-**Kərbəla**."* [12, s. 174]

"Kafirin nəfəsi əlindən gəl gör, ey könül,
*Ğər şəhid olmaq dilərsən, çün Hüseyni-**Kərbəla**."* [17, s. 94]

"Gər bu gün bunda susuzluqdan olursan sən şəhid,
*Yarın onda həşr olursan ba Hüseyni-**Kərbəla**."* [12, s. 175]

LARAN لاران [*fars.*] *İranın Bəxtiyari əyalətində Şahrəcord şəhərinin bir hissəsi.*

"Neylərəm mən bunda durub, çünki dildar andadır
*Sanma kim, anda dedigim Bursa, ya **Laran**dadır."* [11, s. 202]

HİDRONİMLƏR
(su hövzələri)

BƏHREYN بحرين [*ər.* بحر bəhr *"dəniz" sözü təsniyədə, yəni"iki dəniz"*] Bəhreyn. Bəsrə körfəzi ilə Hind okeanı, (bəzi rəvayətlərə görə, "Aralıq dənizi ilə Hind okeanı" və ya "Qara dəniz ilə Aralıq dənizi"). // *məc.* Dəryalar qədər dərin və mənalı iki göz mənasında. Aşağıdakı beytdə: Nəsiminin iki gözündə 28 və ya 32 müqəddəs hərflərin əks olunması ilə gözlərinin iki həqiqət dənizinə çevrilməsi və dəyər qazanması.

"Dişlərin əksi Nəsiminin gözünə düşəli,
*Bəhri-**Bəhreyn** olduvü lö'löi-şəhvar andadır."* [11, s. 202]

BƏHRİ-ÜMMAN بحر عمّان [*ər.*] Hind okeanının bir bölümünə verilən ad. // *məc*. Okean qədər böyük və dərin.

"Zey günəş kim, zərrəsindən mahi-taban göstərər
*Zey dəniz kim, qətrəsindən **bəhri-Ümman** göstərər."* [12, s. 145]

CEYHUN جیحون [*fars.*] Orta Asiyada yerləşən Amudərya çayına tacik farslarının verdiyi ad. Tacik dilində dərya çay anlamını ifadə edir. Tarixən bu su hövzəsi qədim İran diyarının sərhəddində yerləşirdi və mifoloji əsərlərdə İranla Turan sərhəddi hesab edilirdi. Əvvəllər Xəzər dənizinə tökülürdü, sonralar məcrasını dəyişərək Sırdərya ilə birləşib Aral gölünə axmağa başlamışdır.

"Gör ki, məni nə bəhrəm qətreyi-eşq içində
*Dəclәvü Şəttü **Ceyhun**, həm Ərəsü Fəratam."* [12, s. 87]

DƏCLƏ دجله [*ər.*] Türkiyə, Suriya və İraq ərazisindən keçən, Bəsrə şəhəri yaxınlığında Fəratla qovuşaraq, Şəttül-Ərəb çayını əmələ gətirən çayın adı.

"Gör ki, məni nə bəhrəm qətreyi-eşq içində,
***Dəclə**vü Şəttü Ceyhun, həm Ərəsü Fəratam."* [12, s. 87]

*"**Dəclə**yəm, Niləm, Fəratam, həm mənəm abi-həyat,*
Kövsərəm, mai-təhuram, səlsəbilin tasıyam." [12, s. 108]

ƏDƏN عدن [*ər.*] Ədən dənizi. Ərəb yarımadası ilə Afrika qitəsinin arasında yerləşən və yaqut lə'li ilə məşhur olan bir dəniz. Vaxtilə Yəmənin Ədən adlı körfəzi sahilində paytaxt-şəhər də olmuşdur.

"Gəl dürri pakü saf olub, dal vəhdətin dəryasına,
*Gərçi **Ədən**dən bişümar dürrü gühər, mərcan gəlir."* [12, s. 204]

*"Ey Nəsimi, satmagil sən cahilə dürri-**Ədən**,*
Cahilü nadan nə bilsin qiyməti-dürdanəni." [11, s. 96]

ƏRƏS ارس [*fars.* ارس *"Ərəs" < yun.* Araxes] Araz (çayı). Qədim Midiyada Araziaş adlı əyalətin adı ilə əlaqələndirilir.

"Gör ki, məni nə bəhrəm qətreyi-eşq içində,
*Dəcləvü Şəttü Ceyhun, həm **Ərəs**ü Fəratam."* [12, s. 87]

□ **Ərəsvar** ارسوار [*fars.* ارس Ərəs *Araz (çayı)* + *fars.* وار var *"kimi, oxşar" mənasını verən şəkilçi*] Araz (çayı) kimi.

"Sənin gülgün yanağın həsrətindən,
*Axar çeşmim yaşı həm çün **Ərəsvar**."* [11, s. 198]

FƏRAT فرات [*ər.*] Qərbi Asiyada ən böyük çay. Başlanğıcını Türkiyə ərazisində, Murad və Qarasu çaylarından götürür və İraqın Bəsrə şəhəri yaxınlığında Dəclə ilə qovuşaraq Şəttül-Ərəb çayını əmələ gətirir. Türkiyə, Suriya və İraq ərazisindən keçir.

"Gör ki, məni nə bəhrəm qətreyi-eşq içində,
*Dəcləvü Şəttü Ceyhun, həm Ərəsü **Fərat**am."* [12, s. 87]

*"Dəcləyəm, Niləm, **Fərat**am, həm mənəm abi-həyat,*
Kövsərəm, mai-təhuram, səlsəbilin tasıyam." [12, s. 108]

"Kə'bə yolunda eşq ilə yoldaş ol, ey həcə varan,
*Susamaz ol ki, yoldaşı Zəmzəm ilə **Fərat** olur."* [12, s. 135]

*"Çünki dəryaya irişə bu **Fərat,***
Lacərəm derlər ana bəhr ilə zat." [12, s. 243]

"Gözümün Şətti həsrətində müdam
*Niligun eyləmiş donunu **Fərat**."* [12, s. 259]

"Gər mühit oldun, cəhatın qandadır?
*Ey Kəmax, axar **Fərat**ın qandadır?"* [12, s. 268]

NİL نيل [*ər.*] Afrikada yerləşib 11 ölkə ərazisindən keçən dünyanın ən uzun çayı.

*"Dəcləyəm, **Nil**əm, Fəratam, həm mənəm abi-həyat,*
Kövsərəm, mai-təhuram, Səlsəbilin tasıyam." [12, s. 108]

*"**Nil** irmağı daşdı, tutdu Misrin çöhrəsin*
Uş Hələb Bağdadı buldum, gör necə şad olmuşam." [28, s. 66]

ŞƏTT شط [*ər.*] Fərat çayının Dəclə ilə qovuşaraq əmələ gətirdiyi Şəttül-Ərəb çayı.

"Gör ki, məni nə bəhrəm qətreyi-eşq içində
*Dəcləvü **Şətt**ü Ceyhun, həm Ərəsü Fəratam."* [12, s. 87]

ZƏMZƏM زمزم [*ər.*] **1.** Məkkə şəhərində Məscidül-Həram ərazisində Kəbədən 19 metr şərqdə yerləşən bulaq. İslam inanclarına görə, bu bulaq min illər əvvəl, İbrahim peyğəmbərin körpə oğlu İsmayıl susuzluqdan ağladığı vaxt möcüzəvi şəkildə Allah tərəfindən yaradılmışdır. Hər il milyonlarla zəvvar həcc və ya ümrə ziyarətləri zamanı bu bulağın suyundan içir və özü ilə götürür.

"Dəm keçərmi kim, Nəsimi, ol fəraqü dərd ilə
*Nalişin əflaka çıxmaz, göz yaşı **Zəmzəm** degil."* [12, s. 330]

2. *məc.* Nitq, ilahi söhbətlər.

*"Çeşmeyi-**Zəmzəm** ləbin, sirri-ələstdir gözlərin*
Kim ola ol kim, qıla mehr ilə vəslinə səbur." [11, s. 235]

"Kə'bə yolunda eşq ilə yoldaş ol, ey həcə varan
*Susamaz ol ki, yoldaşı **Zəmzəm** ilə Fərat olur."* [12, s. 135]

*"Ey Kə'beyi-həqiqi, lə'lin nə **Zəmzəm** olmuş*
*Kim susamış, Nəsimi aydır ki, **Zəmzəm** öldür."* [12, s. 166]

"Mehrab qaşın və Kə'bə üzün
*Fitnəsi cahana **Zəmzəm** oldu."* [12, s. 233]

3. Əzizləmə mənasında.

"Hənnan ilə mənnanımü, ey Mərvə Səfalım
*Həm **Zəmzəm** ilə qibləmü Kə'bəm, Ərəfatım."* [12, s. 91]

EKKLEZİONİMLƏR
(dini ibadət yerləri)

BEYTÜL-ƏTİQ بيت العتيق Kəbə; islamiyyətə görə, ən qədim ev olduğu üçün Kəbəyə bu ad verilmişdir. "Hürufilikdə Kəbə hz. Adəmin yer üzündəki simvoludur ki, hər kəs ona səcdə edir" [32, s. 47]**.**

*Təvaf əmr oldu çün **Beytül-ətiqə***
Rəsul ol evi çün xoş qıldı mə'mur.

BEYTÜLHƏRAM بيت الحرام [*ər.*] Məkkə şəhərində Kəbənin olduğu sahədəki məscidin adı. Onun haram adlandırılmasının səbəbi isə hörmət, sayğı göstərilməsi və qayğı ilə yanaşılmasından ötrüdür.

"Çıxdı Ərşüllah, xətm oldu kəlam
*Gəncini faş eylədi **Beytülhəram**."* [12, s. 289]

*"Kafirin bütxanəsi var, mö'minin – **Beytülhəram***
Aşiqin yar eşigidir Kə'bəvü bütxanəsi." [12, s. 49]

"Ey qaşın mehrabü üzün qiblə iman əhlinə
*Aşiqin **Beytülhəram**ı surəti-Rəhman olur."* [12, s. 133]

*"Canü dil **Beytülhəram**ı vəslin oldu, ey nigar*
K'əlləzi əsrayı hər dəm anda sultan göstərər." [12, s. 145]

"Çəkmədən yolda bəriyyə zəhmətin
*Kə'beyi-**Beytülhəram**ı buldum uş."* [12, s. 278]

*"Aşiqin **Beytülhəram**ıdır üzün*
Arifin Darüssəlamıdır üzün." [12, s. 281]

BEYTÜLLAH بيت الله [*ər.*] Hərfən: Allahın evi; Kəbə.

"Həcci-əkbər qılmaq istərsən gəl, ey zahid, bəri
*Aşiqin qəlbi içində sən bu **Beytüllah**ı gör!"* [12, s. 140]

*"Mö'minin qəlbi içində çünki **Beytüllah**dır*
Neçin izzət eyləməzsən, anda çün Allahdır." [12, s. 143]

"Gözləri meyxanədir anun, üzü Beytülhəram
*Gör bu **Beytullah**ı kim, meyxanə mehrabındadır."* [11, s. 274]

KƏ'BƏ كعبه [*ər.*] **1.** *din.* Müsəlmanların Məkkədə yerləşən əsas ibadətgahı. Məscidi-Haram adlanan Cameyi-Şərifin ortasında təxminən 13 m hündürlüyü və 12 m eni olan daşdan tikilmiş dördbucaq bir binadır. İçərisində Həcərul-əsvəd (qara daş) var.

2. *hüruf.* "Adəmin baş və alın hissəsinin torpağı Kəbədən götürülmüşdür, dolayısı ilə Kəbə Adəmin üzünün məqamıdır, 28 və 32 ilahi kəlmənin aləmi onun üzündə zahirdir. Toplamı 28 ve 32 rəkat olan namaz da üzdə zühur edən ilahi kəlmələr qarşılığında olduğu üçün namaz Adəmin üzü məqamına, yəni Kəbədə təvaf etməklə dinin şərtlərini yerinə yetirməyə bərabərdir. [Cavidannameyi Sagır, cd 21 O; İşknamə, cd 30290-1)" [44, s. 455].

"Dərgahınızda qoyma rəqibi-münafiqi,
*Zira ki, **Kə'bə**nin hərəmi istəməz kilab."* [11, s. 25]

*"**Kə'bə** üzündə bizə, ey Fəzli-Həq,*
Zülfü rüxün qibləvü imanımız." [12, s. 12]

*"**Kə'bə**vüdeyr nədir, qeyr nədir, seyr nədir?*
Məscidü bütkədəvü xirqəvü zünnar nədir?" [12, s. 15]

*"Bütxanə ilə **Kə'bə**yi surətdə fərq edən,*
Mə'nidə baliğ olmamış ol, gərçi pirdir." [12, s. 30]

"Gəl vəfanın bəhrinə dal, xalid ol,
***Kə'bə**yi tanıvü Lata abid ol!."* [12, s. 287]

*"**Kə'bə**də hər dəm iqamət eylədi,*
Gözlərin ana imamət eylədi." [12, s. 303]

*"**Kə'bə**dir çün vəchi-xuban, beyti-həqdir **Kə'bə** gör,*
Küntə kənzən oldu əyan sirri canan oldu faş." [12, s. 334]

KƏ'BƏTEYN كعبتين [*ər.* كعبة *sözünün təsniyəsi* (*ikili kəmiyyəti*)] İki Kəbə: Məkkədə olan Kəbə və Qüds şəhərindəki Məscidi Əqsa.

"On səkiz min aləmin sirrin bilən,
***Kə'bəteyn**i atacaq se şeş gəlir."* [12, s. 350]

"Çərxi-nərradin nüquşin tərs oxur gözsüz fəqih,
***Kə'bəteyn**i gör ki,atar hoqqabazın tasinə."* [11, s. 53]

QİBLƏ قبله [*ər.* قبلة] *is.* **1.** Namaz qılarkən müsəlmanlarm üzlərini çevirdikləri tərəf // pənah aparılan yer; Kəbə.

2. *hüruf.* B a x **Kə'bə.**

"Kə'bə üzündə bizə, ey Fəzli-Həq,
*Zülfü rüxün **qiblə**vü imanımız."* [12, s. 12]

*"Cananə üzü **qiblə**dir, mehrabi-məscid qaşları,*
*Div olma, candan səcdə qıl şol **qiblə**nin iqbalına."* [12, s. 63]

*"**Qiblə**mizdir surətin, əlhəmdülillah, ey nigar,*
Ta əbəd iyyakə nə'buddur camalın nəstəin." [12, s. 68]

MƏRVƏ مروه [*ər.* مَرْوَةُ] Məkkədə hacıların təvaf etdiyi Səfa və Mərvə adlanan qoşa təpələrdən biri. Hər iki ad "sərt qaya" və ya "qayalar" mənasını daşıyır. Hacılar onlar arasında 7 dəfə gedib gəlirlər ki, bu da həcc fərzinin rükünlərindəndir. Quranda "Bəqərə" surəsinin 158-ci ayəsində Allahın əlamətləri kimi dəyərləndirilir.

*"Hənnan ilə Mənnanımü, ey **Mərvə** Səfalım*
Həm zəmzəm ilə qibləmü Kə'bəm, ərəfatım." [12, s. 91]

*"Sən **Mərvə** ilə mana Səfasan*
Ucdan-uca könlümə səfasan." [12, s. 232]

"Hər məkan məscid oldu, həm Kə'bə
***Mərvə** haqqında çün Səfa gördüm."* [12, s. 246]

*"Eşigin aşiqlərə Beytülhəramın **Mərvə**si*
Kə'bə üzün oldu, zülfün ürvətül-vüsqa imiş." [11, s. 316]

MƏSCİDÜL-ƏQSA المسجد الأقصى [*ər.*] Əl-Əqsa məscidi (ən uzaqdakı məscid). Qüds şəhərində yerləşən müsəlmanlar üçün müqəddəs yerlərdən biri. Qurana görə, Məhəmməd peyğəmbər Rəcəb ayının 27-si gecəsi Məscidül-Həramdan Əl-Əqsa məscidinə Buraq ilə aparılmışdır.

"Xeymeyi-mir'ati-İsrafilü İsa hikmətin,
*İstər isən gəl təvaf et **məscidi-Əqsa**mızı."* [12, s. 33]

"Ey camalın nuri-sübhanəlləzi əsra imiş,
*Əbdəhu leyla tapundur, **məscidi-Əqsa** imiş."* [11, s. 316]

MİNA منى [*ər.* مِنَى] Məkkə və Ərəfat arasında kəsişən yol üzərində bir yer. Qurban bayramının birinci günü burada qurban kəsilir. Bayramın birinci, ikinci, üçüncü və dördüncü günlərində Minada cəmrələrə (Ula, Vusta, Əqəbə) daş atılır. Bu adətə "Şeytanı daşlama" deyilir.

Cəmalun qibleyi-əhli səfadur
Vüsalun Kəbəvü rüknü **Mina**dur. [15, s. 270]

SƏFA صَفَا [*ər.*] *coğr. din.* Məkkədə təvaf edilən qoşa təpələrdən birinin adı. *B a x* **Mərvə**.

*"Sən Mərvə ilə mana **Səfa**san,*
Ucdan-uca könlümə səfasan." [12, s. 232]

"Nəsimi, Fəzlin-Allahın üzün nurunda çün gördü,
*Təvafi-Kə'bə xətm oldu, **Səfa**vü həcci-əkbərdir."* [12, s. 153]

"Hər məkan məscid oldu, həm Kə'bə,
*Mərvə haqqında çün **Səfa** gördüm."* [12, s. 246]

"Kə'bə üzündür, ey sənəm, üzünə səcdə eylərəm,
*Hacısıyam bu Kə'bənin, mən bilirəm **Səfa**sını."* [12, s. 47]

IV Fəsil

KTEMATONİMLƏR

كتئماطونيملر



Ey sifatın qülhüvəllah , vey camalın fatihə ,

Üştə Furqan , üştə Tövrat , üştə İncilü Zəbur .

İDEONİMLƏR
(əsərlərin adları)

Biblionimlər
(dini kitablar)

CAVİDANNAMƏ جاودان نامه [*fars.*] Fəzlullah Nəiminin eyni adlı əsəri. İki cür «Cavidannamə» olmuşdur: «Cavidannameyi-sağir» və «Cavidannameyi-kəbir». Əsl «Cavidannamə» – «Cavidannameyi-kəbir» hesab edilir. Bu əsər Qurani-kərimin hürufi təliminə əsasən təfsiri, yozumu və şərhidir.

"Eşqi-biəncama düşdü könlümüz,
*"**Cavidaninama"** düşdü könlümüz."* [12, s. 275]

*"Ey Nəsimi, "**Cavidaninamə"**dir*
Həlli-əşkali-cəmii-müşkilat." [12, s. 191]

*"**Cavidannamə"**yi gətirgil ələ,*
Ta biləsən ki, nəsnə candır söz." [12, s. 10]

İNCİL انجيل [*ər.* < *həbəş.* wangel < *yun.* euaggelion (euangelion) *"müjdə, yaxşı xəbər"*] Xaçpərəstlərin müqəddəs kitabı. Bibliyanın Əhdi-Cədid qismi. Bu bölüm İsa Allahın dərgahına çəkildikdən 50 il sonra yunanca qələmə alınmışdır. Ümumilikdə 27 kitabdan ibarətdir: həzrət İsanın həyatını əks etdirən rusca və yunanca "Evangeiliya" (*rus.* Ева́нгелие, *yun*. εὐαγγέλιον "müjdə") adlanan, İsanın həvariləri Matfey, Mark, Luka və Yəhyanın müəllifləri olduğu 4 İncil; həvarilərin əməllərinə həsr olunmuş kitab; həvarilən vəhylərinin əks olunduğu 21 ədəd kitab; Yəhyaya nazil olan vəhylər kitabı (*yun.* Apokalipto

ἀποκαλύπτω “aşkar edirəm, üzə çıxarıram”). “Tədqiqatçılar sübut edirlər ki, İsa peyğəmbər və onun həvariləri Fələstin və Yaxın Şərqin dili olan arameycə danışıb başa düşmüşlər. Yevangeliya adlanan 4 kitabda bu dilin izlərini, arameycədən yunancaya kalka edilmiş ifadələri görmək mümkündür.” [49, s. 5].

Qurani-kərimdə Maidə surəsi, ayə 46-da İncil haqqında belə buyurulur: “Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içində haqq yolu və nur olan, özündən əvvəlki Tövratı təsdiq edən, müttəqilər üçün doğru yol və nəsihət olan İncili verdik”. [19, s. 115]

*“Həm Lövhü Tövratü Zəbur, **İncil**ü Qur’anü Sühəf,*
Həm mən kəlami-natiqəm, həm cəm’i-Qur’an gəlmişəm.”
[12, s. 23]

*“Lövhü Tövratü Zəbur, **İncil**ü Fürqan, həm sühəf,*
Həm kəlami-natiqəm, həm rəqqinin mənşuruyam.” [12, s. 110]

*“Tövratü **İncil**ü Fürqan qamu hüsnün sifəti,*
Adəmin şərhidüdür, ayəti şeytan nə bilür?” [12, s. 138]

*“Kirpigin Tövratü **İncil**ü Zəburun sirridir,*
Dörd kitabın mə’nisi səb’ülməsani qandadır?” [12, s. 165]

“Ey sifatın qülhüvəllah, vey camalın fatihə,
*Üştə Fürqan, üştə Tövrat, üştə **İncil**ü Zəbur.”* [12, s. 195]

*“Qənim olsun mana Fürqanü **İncil**,*
Əgər könlümdə səndən özgə kəs var.” [11, s. 198]

FÜRQAN[1] فرقان [*ər.* < *arami*] **1.** Quranın başqa bir adı; Quranın 25-ci surəsinin adı. Quranda "Furqan" sözü 7 dəfə işlədilmişdir (Bəqərə: 53,185; Ali İmran: 4; Ənfal: 29,41; Ənbiya: 48; Furqan: 1) və mənası bölüm-bölüm deməkdir. Bu da Quranın bir yerdə bir anda nazil olmadığına, bölüm-bölüm və fərqli zamanlar və məkanlarda nazil olduğuna işarədir. "Fürqan haqqı batildən ayıran kitab olaraq dəyərləndirilir. Bəzən Fürqanı Quranla yanaşı müqəddəs kitabın ən mühüm adlarından sayırlar. Xüsusilə sufilər bu ada önəm verirdilər. Onların fikrincə, Quran elmləri bütöv, cəm halında ehtiva edir, Fürqan isə onları bir-birindən ayırıb fərqləndirir" [16, s. 7].

*"Qənim olsun mana **Fürqan**ü İncil*
Əgər könlümdə səndən özgə kəs var." [11, s. 198]

2. *məc. hüruf.* İnsanın üz cizgiləri.

"Oxudum dərsi-hüsnün ayətini,
*Yeddi Müshəf kimi **Fürqan**ı gördüm."* [11, s. 140]

"Rüxün inna fətəhnadır, saçın vəlleyl-qəd-əfləh,
*Bu lövhün əbcədin gör kim, qomuş Həqq adını **Fürqan**."* [12, s. 83]

*"Tövratü İncilü **Fürqan** qamu hüsnün sifəti,*
Adəmin şərhidüdür, ayəti şeytan nə bilür?" [12, s. 138]

"Səb'əxan hafizə sordum qaşın ilə üzünü,
*Həqq ilə batili fərq edici **Fürqan** dedilər."* [12, s. 132]

*"Ey üzün səb'ülməsani, nəzzələl-**Fürqan** budur,*
Vəhyi-mütləq Həq kəlamı, qaf-vəl-Qur'an budur!" [12, s. 159]

"Vav – Veylindən iraq olmaq üçün,
Hey – Həmişə aşiqəm ***Fürqan****a mən."* [12, s. 225]

"Ey sifatın qülhüvəllah, vey camalın Fatihə,
Üştə ***Fürqan****, üştə Tovrat, üştə İncilü Zəbur."* [12, s. 195]

QUR'AN قرآن [*ər.* < *sury.*] **1.** İslamın müqəddəs kitabı. Qiraət, oxu, avazla oxuma mənasını ifadə edir. Quran m. 610-632-ci illər arasında, iyirmi üç illik risalət dövründə Məhəmməd peyğəmbərə (s) Allah tərəfindən göndərilmiş vəhylərin məcmusudur. Quran 114 surə və 6236 ayədən ibarətdir. "Bir çox sözlər islamdan yüz illər öncə ərəb dilinə daxil olmuşdur. Bu sözlərdən biri də "quran"dır. Eyni kökdən olan "qiraət" və "quran" süryanicədən ərəb dilinə keçmişdir. Quran qiraət və qutsal kəlamı öyrənmək anlamındadır. Bu səbəbdən adi bir sözü "Quran" adlandırmaq olmaz. Yalnız Tanrının Məhəmmədə verdiyi vəhylər cəminə – Quran deyilir." [15, s. 75].

*"Elmü-****Qur'an****ü hədisü xəbərü və'z ilə dərs*
Cümlə bir mə'ni imiş, bunca bu təkrar nədir?" [12, s. 15]

"Hiç imiş zöhdü vü zərqi, zahidin əfsanəsi
*Şol fəqihdən mə'niyi-****Qur'an*** *umarsan, nə əcəb!"* [12, s. 177]

"Came'də cüm'əyi uş hər gün qılan mənəm bil
Qur'an *imamım oldu, daim yönüm həqadır."* [12, s. 19]

"Divi-heyvani-natiqin həqinə,
*Qövli-****Qur'an*** *bəlhüm ayətdir."* [12, s. 28]

"Gəl, ey Hüseyni, same' ol, sən ruhi-qüdsidən yana
*Gördün yəqin çün hər nəfəs avazeyi-****Qur'an*** *gəlir."* [12, s. 204]

*"Çün Nəsimidir bu gün **Qur'an**i-natiq Fəzl ilə*
*Sirri-Yəzdan, nuri-Sübhan, qövli-**Qur'an** oldu faş."* [12, s. 334]

2. *məc. təsəv. hüruf.* İnsanın üzündəki yazı.

*"Üzün Müshəfdir, ey huri, yanağın Qaf-vəl-**Qur'an***
Budur həqdən gələn taha, budur Yasinü ər-Rəhman!" [12, s. 83]

Surəti-Rəhman buldum, surəti-rəhman mənəm!
*Ruhi-mütləq həq kəlamı Qaf-vəl-**Qur'an** mənəm!"* [12, s. 86]

"Həq gördüvü həq dedi, Nəsimi nə desin kim
*Həm şe'rimi mən ayəti-**Qur'ana** yetirdim."* [12, s. 120]

*"Həm Lövhü Tövratü Zəbur, İncilü **Qur'an**ü Sühəf*
*Həm mən kəlami-natiqəm, həm cəm'i-**Qur'an** gəlmişəm."* [12, s. 23]

*"**Qur'an**ımü hökmüm, hədisim, şərhi-bəyanım*
Elmim, əməlim, zikrimü sövm ilə səlatım." [12, s. 91]

□ **Bəşər şəklində Quran göstərir –** "Korbinə görə, "Quran olmaq Allahın ad və atributlarını özündə əks etdirən kamil insan mərtəbəsinə yüksəlməkdir". Nəsiminin aşağıdakı şeiri ilə İbn Ərəbinin tərcümeyi-halını əks etdirən bir rəvayət arasında paralelləri görmək mümkündür. İbn Ərəbi çox gənc ikən ona qeyri-adi qabiliyyətlər verildikdən sonra bir müddət ağır xəstə yatır. Vəziyyəti o dərəcədə pis olur ki, canvermə halına gəlir və gözünə cürbəcür şeytanvari məxluqlar, dəhşətli surətlər görsənir. Bu zaman olduğca gözəl, insanı valeh edici ətri olan bir insan peyda olur. İbn Ərəbi, "Sən kimsən?" –deyə soruşur. O, "Mən Yasin surəsiyəm" deyir. Bu zaman oğlunun ölüm ayağında olduğunu zənn edən atası həqiqətən də onun başının üstündə Yasin

oxuyurdu. Korbinə görə, ilahi kəlamın insanla birləşməsi dini düşüncə tarixində rast gəlinən bir haldır." [16, s. 7].

"Camey-i cümlə xəlayiq nüsxey-i Ummul-Kitab
*Olduğiçin, bu **bəşər şəklində Quran göstərir**."* [12, s. 145]

MÜSHƏF مصحف [*ər.*] Lülə halında bükülmüş kitab. Bir araya toplanıb bağlanmış səhifələr. "Müshəf" sözü yalnız Qurana məxsusdur. Yəmamə döyüşündə bir çox qurra (hafız) şəhid olduqdan sonra xilafət Quranın bir araya toplanmasını vacib bildi. Hz. Ömərin təklif və tövsiyəsi ilə hz. Əbu Bəkir hicrətin 12-ci ilində Qurani Kərimin cəm edilib bir araya toplanmasını həyata keçirdi. Bu ilk kitaba "Müshəf" deyilmişdir.

"Oxudum dərsi-hüsnün ayətini,
*Yeddi **Müshəf** kimi Fürqanı gördüm."* [11, s. 140]

*"Mən ayəti-**Müshəf**ü kitabam,*
Ey nöqtədəhan, dəhan mənəm mən!" [12, s. 25]

*"Saçınla arizin can **Müshəf**idir,*
Adı nurü düxan, billah, degilmi?" [12, s. 39]

*"Ey mə'rifətin **Müshəf**i, uş kənz ilə misbah,*
Miftah budur, məcməi-muxtara yapışma!" [12, s. 57]

"Zülfü qaşın, kirpigindir tilkə ayatül-kitab,
*Üştə **Müshəf**, gəl bax anın surəvü ayatına!"* [12, s. 62]

*"Üzün **Müshəf**dir, ey huri, yanağın qaf-vəl-Qur'an,*
Budur həqdən gələn taha, budur Yasinü ərrəhman!" [12, s. 83]

*"Üzündür, ey sənəm, ol **Müshəf**i-ilahi kim,*
Bilindi xətti-siyahında həm quru ilə yaş." [12, s. 101]

"Ey üzün həqdən otuz iki nişan,
***Müshəf**in əsrarını qıldı əyan."* [12, s. 294]

□ **Müshəf açdım, falıma gəldi** – *Quran açıb fala baxdım.*

*"**Müshəf açdım**, falıma gəldi camalın ayəti,*
Əhli-tövhidin kəlamı falımı niku tutar." [11, s. 196]

Müshəfi-ba bəsmələ – Quranda bə (ب) hərfi ilə başlayan bismillah.

*"Ol **Müshəfi-ba bəsmələ** insani-kamildir kim ol,*
Hər yerdə bilgil kim, yəqin ol əbbi-insü can gəlir." [12, s. 201]

Müshəfin ayəti otuz ikidir – hərfən: Quranın ayələri 32-dir. Fəzlullah Nəiminin "Cavidannamə" əsərinin yazıldığı fars əlifbasının 32 hərfi nəzərdə tutulur.

*"**Müshəfin ayəti otuz ikidir**,*
Cavidannamə, sən nə dəftərsən?!
Biri Müshəf, biri axar su derlər,
Bu iki nəsnəyə baxsan kifayət." [12, s. 20]

Müshəfi-natiq – *Quranı təfsir edən, Quran təfsirçisi.*

*"**Müshəfi-natiqəm**, kəlam oldum*
Bəndeyi-favü zadü lam oldum." [12, s. 236]

Müshəfi-Həq – Haqqın (Allahın) Müshəfi.

*"**Müshəfi-Həqq**in bəyanidir üzün*
Rövzeyi-xüldün nişanidir üzün." [12, s. 282]

"Jey – vü jalə, çeşmü əbru, zülfü rüx, bu xəttü xal
***Müshəfü-Həq**dir müəyyən gər oxursan taliba."* [12, s. 217]

*"**Müshəfi-Həq**dir imamı – cümlə əşya sərbəsər*
Gör imam oldu əyanü Fəzli-Sübhan oldu faş." [12, s. 334]

Müshəfi-ləmyəzəl – ölməz Quran.

"Ta ruzi-həşr nuri-hidayətdir, ey sənəm
***Müshəfi-ləmyəzəl** ki, camalındadır sənin."* [11, s. 176]

SÜHƏF صحف [*ər.* صَحِيفَةٌ; صُحُفٌ səhifə sözünün cəmi] Quran.

*"Həm Lövhü Tövratü Zəbur, İncilü Qur'anü **Sühəf***
Həm mən kəlami-natiqəm, həm cəm'i-Qur'an gəlmişəm." [12, s. 23]

*"Lövhü Tövratü Zəbur, İncilü Fürqan, həm **Sühəf***
Həm kəlami-natiqəm, həm rəqqinin mənşuruyam." [12, s. 110]

TÖVRAT تورات [*ivr.* תּוֹרָה Tōrā təlimat, öyrətmə və ya qanun] Musa peyğəmbərə nazil edilmiş yəhudilərin müqəddəs kitabı. Bibliyanın ivrit dilində 36 hissədən ibarət Əhdi-Ətiq qisminin ilk beş bölümü – Təkvin, Çıxış, Levililər, Saylar və Təsniyə. Tövrat xaçpərəstlər tərəfindən də müqəddəs hesab edilir.

"Ey sifatın qülhüvəllah, vey camalın Fatihə
*Üştə Fürqan, üştə **Tövrat**, üştə İncilü Zəbur."* [12, s. 195]

"Ünzilət fil kəlami vəl-İncil
*Kütübət fiz Zəburu vət-**Tövrat**."* [12, s. 259]

ZƏBUR زبور [*ər.*] Davud peyğəmbərə nazil edilmiş yəhudilərin müqəddəs kitabı. Bibliyanın Əhdi-Ətiq qisminin Tövratdan sonra gələn bölümü. Zəbur özü beş hissədən ibarətdir, mədh və duaları, əxlaqi öyüd və nəsihətləri əks etdirir. Buradakı 150 məzmurdan 73-ü Davud peyğəmbərə məxsusdur və "Davudun məzmurları", yəni "Davudun Allahı mədh edən mahnıları" adlanır. Əhdi-Ətiqin yerdə qalan 33 bölümü başqa peyğəmbərlərə – Süleyman (2 məzmur), Musa (1 məzmur) və Levililərə, yəni başqa peyğəmbərlərə məxsus (24 məzmur) vəhyləri əks etdirir. Bir sıra məzmurların müəllifləri naməlumdur. Zəbura sonradan əlavə edilmiş 151-ci qisim isə yəhudilər tərəfindən qəbul edilmir.

Dini əfsanəyə görə, Davud evli bir qadın olan Batşebaya aşiq olur və onu əldə etmək üçün qadının əri Xititli Uriyanı öldürür. Tanrı buna görə Davudu lənətləyir. Batşebadan dünyaya gələn oğlu yeddi günlük ikən ölür. Məzmurların bir bölümü peyğəmbərin bu səbəbdən duyduğu acı və peşmanlığa həsr olunmuşdur.

Zəbur xaçpərəstlər tərəfindən müqəddəs hesab edilir.

"Ünzilət fil-kəlami vəl İncil
*Kütübət fiz-**Zəbur**u vət-Tövrat."* [12, s. 259]

*"Həm Lövhü Tövratü **Zəbur**, İncilü Qur'anü Sühəf*
Həm mən kəlami-natiqəm, həm cəm'i-Qur'an gəlmişəm."
[12, s. 23]

*"Lövhü Tövratü **Zəbur**, İncilü Fürqan, həm sühəf*
Həm kəlami-natiqəm, həm rəqqinin mənşuruyam." [12, s. 110]

"Ey sifatın qülhüvəllah, vey camalın fatihə
*Üştə Fürqan, üştə Tövrat, üştə İncilü **Zəbur**."* [12, s. 195]

Quran surələrinin adları

DÜXAN دخان [*ər.*] **1.** Duman; tüstü. Qurani-Kərimin 44-cü surəsinin adı.

"Dilərəm zaman-zaman kim, səni faş edəm cahana,
*Necə bir yana bu şəm'in cigəri **düxan** içində?"* [12, s. 31]

2. *hüruf.* "Düxan Adəmin üzündəki siyah xətlərin qarşılığıdır (İşknamə, cd 30333; Cavidannamənin Şərhi, cd 29566)." [44, s. 539].

*"**Düxan** əzəli kim, sözünü vermədi yarə,*
***Düxan** sözünü dünyada **düxan** dəxi bilməz."* [12, s. 11]

□ **Nuri-Düxan** – Nəsimi nur (işıq) və düxan (qaranlıq duman; qiyamətin ilk əlaməti olan 40 gün 40 gecəlik Şərqdən Qərbə uzanacaq duman) arasında təzad yaradır: Adəmin üzünü, yanağını "nur", yəni "Nur" surəsi, qaralığına görə saçını Quran surəsinin adı ilə "Düxan" adlandırır.

*"Sureyi-**Nuri-Düxan**dır zülfi-yar,*
Yə'ni küfr ilə imandır zülfi-yar." [12, s. 274]

"Saçınla arizin can Müshəfidir,
*Adı **Nurü Düxan**, billah, degilmi?"* [12, s. 39]

"Çəlipa zülfü xalından saçın leylidürür, amma
*İrişdi ayəti-"Fanzur" adı **Nurü Düxan** oldu."* [12, s. 43]

"Surətindən zahir oldu mə'niyi-Zatül-Əhəd,
Əlləməl-əsmavü tahadır üzün ***Nuri-Düxan****."* [11, s. 153]

FÜRQAN[2] فرقان [*ər.* < *arami*] **1.** Quranın başqa bir adı; Quranın 25-ci surəsinin adı. Əl-Furqan (haqqı batildən ayıran) 77 ayədən ibarətdir və Məkkədə nazil olmuşdur. Quranda "Furqan" sözü 7 dəfə işlədilmişdir (Bəqərə: 53,185; Ali İmran: 4; Ənfal: 29,41; Ənbiya: 48; Furqan: 1). "Fürqan haqqı batildən ayıran kitab olaraq dəyərləndirilir. Bəzən Fürqanı Quranla yanaşı müqəddəs kitabın ən mühüm adlarından sayırlar. Xüsusilə sufilər bu ada önəm verirdilər. Onların fikrincə, Quran elmləri bütöv, cəm halında ehtiva edir, Fürqan isə onları bir-birindən ayırıb fərqləndirir" [16, s. 7].

2. *məc. hüruf.* İnsanın üz cizgiləri.

"Oxudum dərsi-hüsnün ayətini,
Yeddi Müshəf kimi ***Fürqan****ı gördüm."* [11, s. 140]

"Rüxün inna fətəhnadır, saçın vəlleyl-qəd-əfləh,
Bu lövhün əbcədin gör kim, qomuş Həqq adını ***Fürqan****."* [12, s. 83]

"Tövratü İncilü ***Fürqan*** *qamu hüsnün sifəti,*
Adəmin şərhidüdür, ayəti şeytan nə bilür?" [12, s. 138]

"Ey sifatın qülhüvəllah, vey camalın fatihə,
Üştə ***Fürqan****, üştə Tovrat, üştə İncilü Zəbur."* [12, s. 195]

"Xətin ümmül-kitabıdır bəyanı əhli-tövhidin,
*Hürufu lövhi-məhfuzun müsəvvər şərhi-****Fürqan****dır."* [11, s. 206]

"Qaşın vəhyi bizə bürhan irişdi,
*Üzündə tə'vili-****Fürqan*** *irişdi."* [11, s. 88]

*"Lövhü Tövratü Zəbur, İncilü **Fürqan**, həm sühəf,*
Həm kəlami-natiqəm, həm rəqqinin mənşuruyam." [11, s. 153]

HƏL-ƏTA هَلْ أَتَى [*ər.*] "İnsan" surəsinin birinci ayəsinin ilk ifadəsi. "Əl-İnsan" surəsi ayə 1: "İnsanın elə bir dövrü olub keçmişdir ki, o həmin dövrdə xatırlanası bir şeyi olmasın?! (**هَلْ أَتَىٰ** عَلَى الْإِنسَانِ حِينٌ مِّنَ الدَّهْرِ لَمْ يَكُن شَيْئًا مَّذْكُورًا)" [19, s. 175]. // "İnsan" surəsinin dindarlar arasında qeyri-rəsmi adı.

*"Kitabi-**Həl-əta**vü sirri-tənzil*
Qaşınla zülfün öv ədna degilmi?" [12, s. 37]

"Şol kim, anın şə'ninə oldu nüzul,
*Sureyi-taha ilə həm **Həl-əta**."* [12, s. 167]

"Məntiq ilə məaniyi çox oxuma, bu gün yenə
*Gəldi gətirdi bigüman müdhəti-eşqi-**Həl-əta**."* [12, s. 174]

İXLAS اخلاص [*ər.* إِخْلَاصٌ] Könüldən gələn dostluq, səmimiyyət, doğruluq, sədaqət, bağlılıq, saf və təmiz sevgi; Quranın 112-ci surəsinin adı.

*"Hər kimin kim, rəhbəridir sidqü **ixlas**ü səfa,*
Oldurur darın içində bəndeyi-Fəzli-Xuda." [12, s. 175]

*"Surətin vəşşəms oxuram dəmbədəm **ixlas** ilə,*
Ta ki, hüsnünü bəladən saxlasın cəbbarınız." [11, s. 68]

*"**İxlas** ilə ta canımı canana yetirdim,*
Düşmənləri bu həsrət ilə cana yetirdim." [12, s. 120]

*"Adəməm, həm Adəmə qıldım sücud **ixlas** ilə,*
Tutmadı ol əmri, şeytani-ləini nara at." [12, s. 187]

"Səcdə edənlər mələkdir adəmə, ey adəmi,
*Səcdə qıl **ixlas** ilə, ta görəsən simamızı."* [12, s. 33]

*"Lövhi-**ixlas** eylədinsə könlünü, ey müttəqi,*
Kürsiyi-Rəhmana ağdın, gögdə Ərşüllahı gör!" [12, s. 140]

*"Həqqə yəqin **ixlas** ilə çün niyyətül-mö'min gərək,*
Eşqə mühübb ol, ey könül, bax innəməl-ə'malına." [12, s. 64]

□ **İxlas eylə -** səmimi ol və ya İxlas surəsini oxu.

"Höccətüllah oldu nitqin, natiq ol!
*Həqqə **ixlas eylə**, həqqə sadiq ol!"* [12, s. 287]

KÖVSƏR[2] B a x **Hidromifonimlər, Kövsər.**

QAF VƏL-QƏLƏM قاف والقلم [*ər.*] 1) *din*. Qaf – Quranın Qaf surəsinin adı, vəl-qələm – Qələm surəsinin birinci ayəsindən iqtibas edilmiş ifadə; 2) *hüruf*. Əfsanəyə görə, Nuhun gəmisi Kəbəni 7 dəfə təvaf etmişdir. Hürufi məzhəbli "Əmir Nurullah həmin təvafı **qələmin qaf (ق) hərfini cızaraq yazması** şəklində izah etmişdir. Bu hərf yazılarkən iki nöqtə ilə birlikdə 7 hərəkət yerinə yetirilir. [İstivanamə, cd 5-6]" [44, s. 334].

"Mə'şuq ilə aşiq oldu Vahid ,
***Qaf vəl-qələm** oldu, qissə kutah."* [11, s. 302]

MÜRSƏLAT مرسلات [*ər.*مرسل mürsəl *sözünün cəmi*] Quranın 77-ci surəsinin adı (المرسلات). Göndərilmiş elçilər (peyğəmbərlər) mənasını ifadə edir.

"Müşrik olub bu günə baxma gəl, ey yəqinsiz,
*Ayəti-fəthi-babam, sureyi-**mürsəlat**am."* [12, s. 88]

□ **Vəl-mürsəlat** – Mursəlat surəsinin 1-ci ayəsindən iqtibas edilmişdir: "And olsun bir-birinin ardınca göndərilənlərə (mələklərə, peyğəmbərlərə, yaxud küləklərə) (**وَالْمُرْسَلَاتِ عُرْفًا**)" [19, s. 579].

"Hey – Hilalın qabü qövseyn, qaşların mehrabdır,
*Vav – Vəhdət nuru üzün, saçların **vəl-mürsəlat**."* [12, s. 223]

"Əhli-ülvi, qövmi-süfli, əqli-külli dedilər,
*Üzünə Şəmsüz zühavü saçına **vəl-mürsəlat**.* [11, s. 293]

RƏHMAN[2] رحمان [*ər.*] Quranın Rəhman surəsi.

*"Yazmış üzündə sureyi-**Rəhman** ələssəlam*
Ərş ilə kürsü, lövhü qələm olmadan hənuz." [12, s. 71]

SAD ص Quranın 38-ci surəsinin adı və bu surə "sad" müqəttəə hərfi ilə başlayır. "Sad-ın əbcədi 90-dır və hz. Məhəmmədin meracda Allahla danışdığı 90.000 kəlməyə işarədir." [44, s. 391].

"Zad – Zəlalət mülkünü nitqilə mə'mur eylədi
***Sad** – Səfa kəsb etdi andan əhli-həq buldu səbat."* [12, s. 223]

*"Ey camalın kafü hey, yey, eynü **sad***
Mə'niyi-Yasin saçında müstəfad." [12, s. 267]

TAHA طه [*ər.*] **1.** Quranın Taha surəsinin adı. Nəsimi Taha surəsini insanın üzündəki cizgilərlə əlaqələndirir.

*"Üzün vəş-Şəmsü Yasindir, müsənna kirpiğin **Taha***
Tanıqdür əlləzi-əsra bu me'racü bu əsrayə." [11, s. 34]

*"Əzəl günündə oxudum üzündə uş **Taha***
Bu rəmzi kim, anı heç kimsə verməmişdi xəbər." [11, s. 205]

"Üzün Müshəfdir, ey huri, yanağın qaf-vəl-Qur'an
*Budur həqdən gələn **Taha**, budur Yasinü ərRəhman!"* [12, s. 83]

*"Sana **Taha** vü Yasin oldu münzəl*
Qəmər oldu camalından müşəqqəq." [12, s. 103]

"Surətindən zahir oldu mə'niyi- zatül-əhəd
*Əlləməl-əsmavü **taha**dır üzün nuri-düxan."* [11, s. 153]

2. Taha surəsinin birinci ayəsi.

"Dilbəra, Şəmsüzzühadır ayəti-rüxsarınız
*Ayəti-**taha**vü Yasin surəti-didarınız."* [11, s. 68]

*"Xətindən buldum ərRəhmanü **taha***
Budur səndən nişan, billah, degilmi?" [12, s. 38]

3. Müqəttəət hərflər olan Taha-nın (طه) əbcədi. Nəsimi əbcəd hesabını hürufilikdəki üzdə olan 14 xətt ilə əlaqələndirməyə çalışır. Əbcəd hesabı ilə: ta (ط) - 9, ha (ه) – 5, cəmi 14.

*"Əbcədü **Taha** üzün Ərşi-əzim*
Surətin lövhündə həq oldu müqim." [12, s. 292]

Tavü-ha – Ta-ha (طه) surəsinin adının hərflərlə ifadəsi.

"Otuz iki hürufu kim, üzündən həq əyan etdi,
*Bəşarət bu idi həqdən, xətindən **Tavü-ha** gəldi."* [12, s. 36]

TUR[2] طور [*ər.*]: **vət-Tur –** "And olsun Tur (dağına)!". Quranda 52-ci surənin 1-ci ayəsi və adı. Nəsimi şeirlərində əfsanəvi Tur dağı ilə Tur surəsinin adını mənaca əlaqələndirməyə çalışır.

*"Əshabi-kəhfin sirrini görmüş liqayi-**Tur**ə sor,*
*Niçün ki, "vət-**Tur**" əhlinin kəhfindədir Qətmirimiz."* [11, s. 79]

Turi-Sina طُورُ سَيْنَاءَ – Sina dağı. Tur surəsinin 1-3-cü ayələrində deyilir: "And olsun (Allahın Musa ilə danışdığı) dağa (Turi-Sinaya). And olsun yazılmış kitaba. And olsun açıq dəri üzərində (olan kitaba)." [19, s. 522]. "Bu ayədəki "incə dəri" Adəmin vücudu və üzünə işarədir. Hürufilər Adəmin üz və vücudundakı xətləri müşahidə etdikləri üçün özlərini böyük mələklərin bir zümrəsi olaraq görmüşlər." [44, s. 140].

"Gər sən istərsən həqi bilmək yəqin,
Gəl Nəsimidən apargil rəh bədin,
*Tə'vil eylə ayəti-**Turü Sin**in,*
Gər olam dersən min əshabül-yəqin." [12, s. 294]

YASİN يس [*ər.*] Quranın 32-ci surəsinin adı; 14 hərfi-müqəttəətdən biri.

"Məhbubi-dilaramsan bir bax mana sən, yarəb
*Yarəb, dilərəm səndən bu sureyi-**Yasin**ə."* [11, s. 18]

"Vəsfini vənnəcmü vəşşəmsü təbarək söyləndi
*Şə'ninə Tahavü **Yasin** gəldi həqdən bəyyinat."* [12, s. 186]

"Oxuyan hərfü kitabü xəttin, ey can, bildi kim
*Əhmədə Tahavü **Yasin**, Musaya vət-Turdur."* [12, s. 154]

"Zahidin heç oldu zöhdü, heçə keçdi taəti
*Başladı **Yasin**ə, şimdi kimsə gəlməz yasinə."* [11, s. 53]

"Üzün Müshəfdir, ey huri, yanağın qaf-vəl-Qur'an
*Budur həqdən gələn taha, budur **Yasin**ü ərRəhman!"* [12, s. 83]

*"Sana taha vü **Yasin** oldu münzəl*
Qəmər oldu camalından müşəqqəq." [12, s. 103]

"Saçından bil ki, şərh oldu ələm nəşrəh ləkə, yarəb
*Camalın şəm'i **Yasin**dir, yanağın nuru tahadır."* [12, s. 126]

2. "Quranda hz. Məhəmmədə xitabən يس (ya Sin (36: 1), yəni "ey Sin!") deyilmişdir [Cavidannameyi Sağır, cd 5; Məhəbbətnameyi ilahi, cd 078; İşknamə, cd 30360)" [44, s. 302].

□ **Yasini-nun** – "Yasin surəsinin və Qələm surəsinin 1-ci ayələrində işlənən hərfi-müqəttəət: يس və ن "Yasin" – "ya Məhəmməd!" və nun (ن) 50 əlamət sahibi Adəmə işarətdir" [44, s. 217, 392]. "Adəm asimandan enən 28 hərf və 22 nöqtəsidir. Nun (ن) kəlmeyi-ilahi isə ona işarədir." [44, s. 491]. **Yasini-nun** – yəni Məhəmməd peyğəmbər və Adəm.

"Qaşın dəbiri gör necə çəkmiş bu qövsü kim
***Yasini-nun**u yazmaya bu şəklə min dəbir."* [12, s. 127]

Artionimlər

(musiqi adları)

BÜZÜRG بوزورك [*fars. "böyük, iri, yekə"*] "Yaxın Şərq xalqları klassik musiqisinin əsasını təşkil edən 12 muğamdan səkkizincisi; Şur dəstgahında son şöbələrdən biri." [3].

*"Ba "Çargahi" lütf qıl, ey hüsnü "**Büzürg**i",*
"Kuçik" dəhənindən bizə, ey dilbəri-"Tənnaz". [11, s. 73]

ÇARGAH چارگاه [*fars.* چار çar *"dörd tərəf: şimal, şərq, cənub, qərb"* + *fars.* گاه gah *yer və zaman bildirən şəkilçi*] "Yaxın Şərq xalqları musiqisində ən çox şöhrət qazanmış muğamlardan biri, Yaxın və Orta Şərq xalqları musiqisinə mənsub muğam kökü (məqamı). Qədim musiqi alimlərinin fikrincə, Çahargah məqamı göy gurultusu ilə əlaqədar olaraq yaradılmışdır (M.M.Nəvvab "Vüzuh-ül-ərqam"). "XIX əsr Azərbaycan musiqisində Çahargah dəstgahı aşağıdakı muğam şöbələrindən ibarət idi: Çahargah, Segah, Zabol-Segah, Yədi-Hasar, Müxalif, Məğlub, Mənsuriyyə, Zəminxara, Mavərənnəhr, Hicaz, Şahnaz, Azərbaycani, Əşiran, Zəngi-şütür və Kərkuki. Hazırda dəstgahın yığcam və lakonik ifası məqsədilə: Bərdaşt, Mayəyi-Çahargah, Bəstə-nigar, Hasar, Müxalif, Məğlub, Mənsuriyyə (zərbli muğam) ilə kifayətlənilir. İran musiqisində: Çahargah dəstgahı Dəraməd, Piş-Zəngulə, Zəngulə, Nəğmə, Zabol, Bəstə-nigar, Muyə, Hasar, Müxalif, Məğlub, Hodi, Pəhləvi, Rəcəd (Ərcuzə) və Mənsuri şöbələrindən ibarətdir." [3, s. 49].

*"Ba "**Çargah**i" lütf qıl, ey hüsnü "Büzürgi",*
Küçik dəhənindən bizə, ey dilbəri-"Tənnaz". [11, s. 73]

ƏRAQ عراق [*ər.*] Yaxın və Orta Şərq xalqları klassik musiqisinin əsasını təşkil edən 12 muğamdan beşincisi ("Üşşaq", "Nəva", "Busəlik", "Rast", "Əraq", "İsfahan", "Zirəfkənd", "Büzürk", "Zəngulə", "Rəhavi", "Hicaz", "Hüseyni"). "Müasir dövrdə Azərbaycan musiqisinin yeddi əsas muğamı var: "Rast", "Şur", "Segah", "Şüştər", "Çahargah", "Bayatı-Şiraz", "Hümayun". Yalnız "Rast" muğamı orta əsrlərdən mükəmməl şəkildə qorunaraq, bu gün də əsas muğam dəstgahı sayılır. "Üşşaq", "Hüseyni", "Əraq" isə onun tərkibinə muğam şöbəsi kimi daxil olmuşdur. "Rast" muğamında "Mayə"nin bir oktava yuxarı səslənməsinə Əraq deyilir."[11] Əfrasiyab Bədəlbəyli "Musiqi lüğəti" kitabında bu şöbənin adı haqqında belə yazır: "Bu muğam şöbəsinin "Əraq" yoxsa "İraq" adlandırılmasında hansı sözün daha düzgün olduğu məsələsi muğamat ifaçıları arasında çox vaxt mübahisəyə səbəb olur. Son illərdə respublikamızda çıxan musiqi kitablarında bu sözün hər nə qədər təkid və israrla "İraq" yazıldığına baxmayaraq, bu kəlmə əvvəllərdə olduğu kimi, yenə də "Əraq" deyə işlədilir. Zənn etmək olar ki, "İraq" sözü çox işlədilmə nəticəsində tədricən təhrif olunaraq "Əraq" sözünə çevrilmişdir. Həm də düşünmək olar ki, bu sözün iki növ söylənməsinin səbəbi onun ərəb əlifbası ilə eyni şəkildə, bir cür, bir tərzdə transkripsiyasından irəli gəlir. Bu hər iki ehtimal hər nə qədər məntiqi görünsə də, bu məsələdə bir vacib cəhəti də nəzərdən qaçırmaq olmaz. İş burasındadır ki, muğamatın şöbə və guşələrindən bir çoxunun adı, bilindiyi kimi, coğrafi adlarla əlaqədardır, həm də belə hallarda muğam adları çox vaxt ölkə, məmləkət adı ilə yox, məhz şəhər adları ilə adlanır. Belə olan surətdə, hamıya məlum olan "İraq" ölkəsi

[11] "Konservatoriya" jurnalı № 4 (34), s. 19.

olduğu kimi, həm də Şiraz, İsfahan, Zabol, Nişapur, Nəhavənd şəhərlərinin "qonşuluğunda" "Əraq" adlı şəhərin də olduğunu nəzərə arsaq, muğamın ifaçılar və musiqi ictimaiyyətimiz tərəfindən "İraq" deyil, "Əraq" adlandırılması tamamilə düzgün sayıla bilər." [3, s. 58]

*"Ahəngi-"Sifahan" qılır ol nami-"**Əraq**i"*
"Rəhavi" yolunda yenə canım qıla pərvaz." [11, s. 73]

HİCAZ حجاز [*ər.*] "Azərbaycanın klassik muğamlarından birinin adı. XIX əsr Azərbaycan musiqisində Rast dəstgahında Bal-kəbutər ilə Şahnaz arasındakı, Rəvahi dəstgahında Balkəbutər ilə Bağdadi arasındakı, Çahargah dəstgahında Mavərənnəhr ilə Şahnaz arasındakı əsas muğam şöbəsi; Şur dəstgahında Səmayi-Şəms zərbli muğamı ilə Sarənc arasındakı şöbə; İran musiqisində: Əbu-Əta muğamının əsas şöbələrindən biri." [3, s. 66].

"Zəngulə" sifət nalə qılam zar "Segaha",
*Çün əzmi-"**Hicaz**" eyləyə məhbubi-xoşavaz."* [11, s. 73]

HİSAR حصار [*ər.* hisar, *fars*. hesar – *"istehkam, barı, çəpər, mühasirə"*] Muğam şöbəsinin adı; hasar. "Çahargah dəstgahında Müxalif şöbəsindən əvvəl (Bəstə-Nigar şöbəsindən sonra) ifa olunan parça. Melodik cəhətdən Çahargahın mayəsinə çox oxşayır, lakin Çahargahdan bir kvinta yuxarıda (tarı nəzərə alsaq, mayəsi sarı simin şah pərdəsinə düşür) yerləşir; Zabol Segahı dəstgahında çox zaman Mübərriğə şöbəsindən sonra (Manənd-Müxalif şöbəsinə keçməzdən əvvəl) Hasar guşəsində dayanılır." [3, s. 64]. Beytdə: "Hisar" sözü həm hərfi mənada, həm də muğam şöbəsinin adı kimi istifadə edilmişdir.

□ "**Hisar" eyləmək –** əhatə etmək, mühasirəyə salmaq.

*"Könlümü **"Hisar" eylədi** ol ruhi-"Mübarğə",*
Gəl olma "Müxalif" bizə, ey dilbəri-"Şahnaz"." [11, s. 73]

HÜSEYNİ[2] حسینی [*ər.*] Orta əsrlərdə Şərq xalqlarının klassik musiqisində 12 əsas muğamdan biri. Müasir muğam ifaçılığı təcrübəsində muğam guşəsi. "Rast" və "Mahur Hindi" muğam dəstgahlarında "Üşşaq" guşəsi ilə "Vilayəti" şöbəsi arasında ifa olunur.

"Üşşaq" meyindən qılalı işrəti-"Novruz",
*Ta "Rast" gələ çəngi-"**Hüseyni**"də sərəfraz."* [11, s. 73]

*"Müxalif Rast əgər olsa **Hüseyni**,*
Hicaz ikən sifətdə banəvadır." [15, s. 264]

NİGAR نکار [*fars.* نگار] Qədim muğam şöbəsinin adı. "Klassik türk musiqisində birləşik muğam. Bəzi nəzəriyyəçilər onun Büzürg və Süzi-Dilara muğamlarına bənzər olduğunu göstərirlər." [59].

"Nun – Novruz olucaq yar ilə xoşdur gülü mül
*Çalına çəngü rübab, oxuna Üşşaqi-**Nigar**."* [12, s. 220]

NOVRUZ[1] نوروز [*fars.*] Yaxın Şərq xalqları klassik musiqisinin 6 avazatından biri.[12]

*"Üşşaq" meyindən qılalı işrəti-"**Novruz**",*
Ta "Rast" gələ çəngi-"Hüseyni"də sərəfraz" [11, s. 73]

[12] Hacıbəyli Üzeyir. Azərbaycan xalq musiqisinin əsasları. Bakı, "Şərq-Qərb", 2019, 360 səh., s.20.

RAST راست Rast muğamı. "Yaxın Şərq xalqları klassik musiqisinin 12 muğamından biri". "Qədim musiqişünaslar Rastı muğamların anası adlandırmışlar. Rast muğamı nəinki öz adını və kökünün səs düzümünü, hətta öz tonikasının (mayəsinin) ucalığını belə zəmanəmizə qədər mühafizə edib saxlaya bilmişdir."[13] "Azərbaycan musiqisində: Novruz-Rəvəndə, Rast, Üşşaq, Hüseyni, Vilayəti (Bəzən Dilkəş), Xöcəstə, Xavəran, Əraq, Pəncgah, Rak, Əmiri və Məsihi şöbələrindən ibarət bir dəstgahdır." [3, s. 108]

"Üşşaq" meyindən qılalı işrəti-"Novruz",
*Ta "**Rast**" gələ çəngi-"Hüseyni"də sərəfraz"* [11, s. 73]

*"Müxalif **Rast** əgər olsa Hüseyni*
Hicaz ikən sifətdə banəvadır." [15, s. 264]

RƏHAVİ رهاوی Orta əsr Yaxın Şərq xalqları klassik musiqisinin 12 əsas muğamından onuncusu.

"Ahəngi-"Sifahan" qılır ol nami-"Əraqi"
*"**Rəhavi**" yolunda yenə canım qıla pərvaz."* [11, s. 73]

SEGAH سگاه [*fars.* سه se *"üç" + fars.* گاه- gah *"mövqe, məkan, vəziyyət"*] Yaxın və Orta Şərq xalqları musiqisində çox işlənən muğamlardan biri. Bir dəstgah olaraq Segah Azərbaycanda daha geniş yayılmış muğamlardandır. Eyni zamanda bir məqam kimi də Azərbaycan musiqisində mühüm yer tutur. Azərbaycan xalq mahnıları, oyun havaları, eləcə də aşıq musiqi yaradıcılığına mənsub musiqi forma və janrlarından bir çoxu məhz Segah kökündə yaranmışdır.

[13] Göstərilən əsər, s. 21.

*"Zəngulə" sifət nalə qılam zar **"Segah"**a*
Çün əzmi-"Hicaz" eyləyə məhbubi-xoşavaz." [11, s. 73]

SİFAHAN سفاهان [*fars.* İsfahan adından] Yaxın və Orta Şərq xalqları klassik musiqisinin əsasını təşkil edən 12 muğamdan biri.

*"Ahəngi-"**Sifahan**" qılır ol nami-"Əraqi",*
"Rəhavi" yolunda yenə canım qıla pərvaz." [11, s. 73]

ŞAHNAZ شاهناز [*fars.* شاه şah *+ fars.* ناز naz] Muğamda altı avazatdan biri.

"Könlümü "Hisar" eylədi ol ruhi-"Mübarğə",
*Gəl olma "Müxalif" bizə, ey dilbəri-"**Şahnaz**"."* [11, s. 73]

ÜŞŞAQ عشّاق [*ər*. "aşiq" sözünün cəmi] Orta əsrlərdə Yaxın Şərq ölkələrində geniş yayılmış 12 klassik muğamdan biri. Müasir Azərbaycan musiqisində "Üşşaq" "Rast" muğamının tərkibinə muğam şöbəsi kimi daxil olmuşdur.

*"**Üşşaq**" meyindən qılalı işrəti-"Novruz"*
Ta "Rast" gələ çəngi-"Hüseyni"də sərəfraz." [11, s. 73]

ZƏNGULƏ زنکوله [*fars. "zınqırov, xırda zəng, cınqral"*] Yaxın Şərq xalqları klassik musiqisinin əsasını təşkil edən 12 muğamdan (Üşşaq, Nəva, Busəlik, Rast, Əraq, İsfəhan, Zirəfkənd, Büzürg, Zəngulə, Rəhavi, Hüseyni və Hicaz) doqquzuncusu.

*"**Zəngulə**" sifət nalə qılam zar "Segaha"*
Çün əzmi-"Hicaz" eyləyə məhbubi-xoşavaz." [11, s. 73]

MÜBƏRQƏ' مبرقع [*ər.* مُبَرْقَعٌ mübərqə' *"pərdə ilə örtülmüş, örtük gəzdirən"*] Zabul və Rəhab dəstgahlarında Şikəsteyi-fars ilə Əraq arasında yerləşən şöbənin adı. İran musiqisində: "Rast-Pəncgah dəstgahında Qaraçə ilə Nəhib arasında, ya da Bayatı-əcəm ilə Qaraçə arasındakı şöbə." [3, s. 93, "Mübərriqə" maddəsi].

*"Könlümü "Hisar" eylədi ol ruhi-"**Mübərqə'**",*
Gəl olma "Müxalif" bizə, ey dilbəri-"Şahnaz"." [11, s. 73]

MÜXALİF مخالف [*ər.* مخالف "zidd, əks, uyğun gəlməyən"] Çahargah dəstgahında Hasar ilə Məğlub arasındakı şöbə.

*"**Müxalif** Rast əgər olsa Hüseyni*
Hicaz ikən sifətdə banəvadır." [15, s. 264]

"Könlümü "Hisar" eylədi ol ruhi-"Mübərqə'",
*Gəl olma "**Müxalif**" bizə, ey dilbəri-"Şahnaz"."* [11, s. 73]

XREMATONİMLƏR
(maddi mədəniyyət əşyalarının adları)

MİSRİ QILINC مصری قیلینج [*ər.* مصری misri "Misirə aid" və *türk.* قیلینج qılınc] Mənşə etibarilə islam-türk mədəniyyətində Misir Məmlüklərinə məxsus ən qədim qılınc növü. Formaca incə və uzun olub, üçdə iki hissədən əyilməyə başlayır. Koroğlu dastanında göstərilir ki, Misri qılınc göydən düşmüş ildırım parçasından düzəldilmişdir. Əfsanəyə əsasən, səmadan olduğuna görə, Misri qılıncın özündə bir Tanrı sehri, Tanrı gücü olduğu güman edilmişdir. Nəsimi aşağıdakı beytində Misri qılıncın qədim türklərə məxsus olduğunu bildirir.

*"Qəmzədən **Misri qılınc** vermişsən əsrük türkə kim,*
Qanbəhasız necə qan etmək dilərsən, etməgil!" [11, s. 123]

ZÜLFİQAR ذو الفقار [*ər. "iki onurğalı, iki fəqərəli"*] Məhəmməd peyğəmbərin həzrət Əliyə hədiyyə etdiyi qılıncının adı. Ucu ikihaçalı, iki tərəfi kəskin, yeddi qarış uzunluğunda və bir qarış enində olduğu rəvayət edilir. Bəzi məlumatlara görə, bu qılınc əvvəl Qüreyşilərin başçısı, məkkəli Münəbbih ibn Həccaca məxsus olmuşdur. Məhəmməd peyğəmbər (s) onu Bədr savaşında qənimət olaraq əldə etmişdir. Bunun təsdiqini Nəsiminin aşağıda verilən misralarında görə bilirik. Burada Zülfiqar kəlməsi ilə eyni beytdə işlənən "fəzrəbu" (vurun) ifadəsi Quranın Ənfal surəsi, ayə 12-də "fəzrəbu fövqə ə'nəb" boynunlarını vurun, başlarını kəsin (فَاضْرِبُوا فَوْقَ الْأَعْنَاقِ) birləşməsindən iqtibas edilmişdir. Bu ayədə Bədr müharibəsində müsəlmanlara kömək etmək məqsədilə Allahın mələklərə Qüreyş kafirlərinin boynunu vurmağı və barmaqlarını doğramağı əmr etdiyi göstərilir: "..«Mən də sizinləyəm. Mö´minlərə qüvvət (mətanət) verin. Mən kafirlərin ürəklərinə qorxu salacağam. Onların boyunlarını vurun, bütün barmaqlarını (əl-ayaqlarını) doğrayın!» (إِذْ يُوحِي رَبُّكَ إِلَى الْمَلَائِكَةِ أَنِّي مَعَكُمْ فَثَبِّتُوا الَّذِينَ آمَنُوا ۚ سَأُلْقِي فِي قُلُوبِ الَّذِينَ كَفَرُوا الرُّعْبَ **فَاضْرِبُوا فَوْقَ الْأَعْنَاقِ** وَاضْرِبُوا مِنْهُمْ كُلَّ بَنَانٍ)". Beləliklə, Nəsimi Zülfiqar qılıncının Bədr müharibəsi zamanı "türabilər"in, yəni Qüreyş kafirlərinin əlində olmasına işarə vurur:

*"Tey – türabilər əlində **Zülfiqar** şəmşirü tiğ*
Fəzrəbu buyruldu Həqdən, həm buyurdu Mustafa." [12, s. 215]

Zülfiqar qılıncı Peyğəmbərə (s) keçdikdən sonra qeyri-adi, fövqəladə güc qazanmışdır. Allahın elçisi sonra (Uhud döyüşündə; başqa bir versiyaya görə, ölümündən sonra) bu qılıncı həzrət Əliyə hədiyyə etmişdir.

Başqa bir əfsanəyə görə, mələklər Məhəmməd peyğəmbərə qeyri-adi dəmir material gətirmiş, o, iki Zülfiqar qılıncı düzəltdirmiş, birini özündə saxlamış, o birini həzrət Əliyə vermişdir. Amma tarixdə bir Zülfiqar qılıncdan bəhs edilmişdir. Onun sonrakı aqibəti barəsində şiələr belə hesab edir ki, qılınc irsi olaraq imamlara ötürülmüş və hazırda on ikinci imamdadır. "İslam ensiklopediyası"nın 44-cü cildinin 553-554-cü səhifələrində [59] isə qılıncın xəlifələrin əlinə keçməsi və sonra itməsi haqqında məlumat əks olunmuşdur.

Nəsimi aşağıdakı beytində Zülfiqar kimi iti olan doğru sözünün şəkk gətirən münkirin qəlbini doğradığını bildirir.

"Doğru söz doğrar həsudun bağrını şol mə'nidən
Münkirə oldu Nəsiminin kəlamı ***Zülfiqar****."* [11, s. 192]

○ **La fəta illa Əli, la seyfə illa Zülfüqar** *həds.* **–** "Zülfiqardan başqa qılınc yoxdur, Əlidən başqa igid yoxdur." Məhəmməd peyğəmbərin həzrət Əli haqqında dediyi hədisdən iqtibas edilmişdir. Hədis belədir: "Zülfiqardan kəskin qılınc, Əlidən başqa igid yoxdur." (لَا سَيفَ إِلَّا ذوُ الفِقار ولَا فَتًى إلَّا عليٌّ). "Uhud savaşında "Rəsulullah öldü" xəbərini alan bir çoxları qılınclarını atıb Mədinəyə geri dönmüş, bəziləri isə bu xəbərdən sarsılsa da "Məhəmməd öldü bu dünyada siz niyə yaşayırsınız", deyərək müşrikləri öldürməyə davam etmişdilər. Onlardan biri də İmam Əli (ə) idi. "O ölsə də onun dini yaşayır", deyərək qılıncını bir anlıq da olsa yerə qoymamış, savaşa-savaşa bir gözü ilə də Peyğəmbəri (s) axtarır və Onu Uhudun təpəsində, üzü-gözü qan içində görüncə yanına yaxınlaşaraq bütün varlığı ilə onu qorumağa çalışmışdı. Onun bu şücaətini görən Peyğəmbər (s) bu sözləri buyurmuşdu: "Əli kimi igid, Zülfüqar kimi qılınc yoxdur" (18, s. 45). Maraqlıdır ki, bu hədisin Cəbrayıl (ə) tərəfindən deyildiyini qeyd etmişdir. Bəzi mənbələr, o cümlədən İbn Əsir bu

hədisin mələk Cəbrayıla məxsus olduğunu bildirir [61; 18, s. 45].

Nəsimi aşağıdakı beytində həmin hədisin Məhəmməd peyğəmbərə (s) aid olduğunu göstərir:

"Uş hədisi Mustafadır ***la fəta illa Əli***
Həm Nəbinin sözüdür, ***la seyfə illa Zülfiqar****."* [12, s. 166]

Mən Nəsimi şahın mədhini daim söylərəm,
Lə fəta illə Ali lə seyfə illə Zülfiqar*.* [9, s. 505]

XRONONİMLƏR
(bayramların, əlamətdar günlərin adları)

ADİNƏ آدنه [*fars.* "ziynət; əylənmə"] B a x **Cüm'ə.**

*"****Adinə*** *günü gördü camalını Nəsimi,*
Əmdi ləbi-lə'li-şəkkərin ol qanə-qanə." [11, s. 61]

*"****Adinə*** *surətindən endi Rəsula cüm'ə,*
Tanıq bu Həq hədisə uş qövli-Mustafadır." [12, s. 18]

*"****Adinə****yi bilənlər məğfurü nacidirlər*
Məğfur olan cahanda hadiyü pişvazdır." [12, s. 18]

*"****Adinə*** *neçin oldu,* ***Adinə****nin adın bil*
Bu sirri ol bilir kim, Həq ilə aşinadır." [12, s. 18]

*"**Adinə**dir Qiyamət, ol gündədir nədamət*
Ol gündə həşr olisər, ol gündə macəradır." [12, s. 18]

*"Misrəmü həm came'əm, həm Cüm'əyəm, həm **Adinə***
Ruhi-qüdsün nəfxəsi, həm beytinin mə'muruyam." [12, s. 112]

AŞUR عاشور [*ər.*] *din.* Məhərrəm ayının 10-u – İmam Hüseynin öldürüldüyü gün. Dini inanclara görə, məhərrəm ayının 10-da Allah-taala on peyğəmbərinə lütf bəxş etmişdir. Həmin günün aşura adlanması məhz bununla bağlıdır.

"Həm bəratü qədrü əsra, həm siyamü həccü eyd,
*Həm mühərrəm, həm mühərrəm şəhrinin **aşur**uyam."* [12, s. 110]

BƏRAT برات [*ər. "bəraət qazanma, günahlardan təmizlənmə"*] İslam aləmində 50 illik ibadət ömrü qazandıra bilən, insanların günahlardan təmizlənə bildiyi Şaban ayının 15-i. Bu tarixdə Məhəmmədə peyğəmbərlik xəbəri verilmiş, Qurani-kərim Lövhi-məhfuzdan dünya səmasına endirilmiş, şiələrin XII imamı Mehdi dünyaya gəlmişdir.

"Zat iləyəm, sifat ilə, gülşəkərəm nabat ilə,
*Qədr iləyəm **bərat** ilə, bəstə dəhana sığmazam."* [12, s. 8]

"Nurü nəharü leyləm, kəşfəm iki cahanda,
*Qədrə irişdim iştə qədrəmü həm **bərat**am."* [12, s. 87]

"Ruzim, şəbimü ayü ilim, həftəvü günüm,
*Novruzumü eydim, diləyim, qədrü **bərat**ım."* [12, s. 91]

*"Həm **bərat**ü qədrü əsra, həm siyamü həccü eyd,*
Həm mühərrəm, həm mühərrəm şəhrinin aşuruyam." [12, s. 110]

CÜM'Ə جمعه [*ər.* جُمْعَةٌ] *din.* Müsəlmanların Allah tərəfindən xeyir, bərəkət, yaxşılıq və xeyir-dualı, günahlarının bağışlandığı mübarək gün. Məhəmməd peyğəmbərin hədislərinə görə, Adəm cümə günü yaradılmış, Cümə günü cənnətə girmiş, yenə Cümə günündə cənnətdən çıxmışdır. Qiyamət Cümə günü qopacaqdır. Həmin gün qılınan namazlar günahların bağışlanmasına səbəb olar. Hətta Peyğəmbər Cümə günü qılınan namazdan əvvəl qüsl edilməsini məsləhət bilmişdir. B a x **Adinə.** Nəsimi öz şeirlərində Cüməni çox yüksək dəyərləndirir.

*"**Cüm'ə** günün süfatı şərhü bəyana sığmaz*
*Mə'nidə **Cüm'ə** gərçi cami-cahannümadır."* [12, s. 19]

*"Ey bilməyən bu Misri, itirmə **Cüm'ə**yi kim*
***Cüm'ə** bu Misr içində məqbuli-kibriyadır;* [12, s. 18]

*"Adinə surətindən endi Rəsula **Cüm'ə***
Tanıq bu Həq hədisə uş qövli-Mustafadır." [12, s. 18]

*"Çün höccətül-məsakin **Cüm'ə** günüdür, ey can*
Miskinə sor ki, miskin ayinəsi səfadır." [12, s. 19]

*"Misrəmü həm came'əm, həm **Cüm'ə**yəm, həm adinə*
Ruhi-qüdsün nəfxəsi, həm beytinin mə'muruyam." [12, s. 112]

"Həqdən Həqi gəl istə, Həq ilə vasil ol kim
*Həq və'də verdi çünkim, **Cüm'ə** günü liqadır."* [12, s. 124]

◊ **Cüm'əyi qılmaq, cüm'ə qılmaq** – Cümə namazını qılmaq.

*"Ol müşriki-nəcisdir **cüm'əyi qılmayan** kim*
Qövlivü fe'li anın təqlid ilən riyadır." [12, s. 19]

*"Came'də **cüm'ə**yi uş hər gün **qılan** mənəm bil*
Qur'an imamım oldu, daim yönüm Həqadır." [12, s. 19]

*"Misr came'dir vücudum, anda **qıldım cüm'əyi***
Gör nə şəhrəm, gör nə möhkəm qəl'əvü sur olmuşam." [12, s. 116]

"Misri Nəsimi buldu, Qur'an imamı oldu
*Came'də **cüm'ə qıldı**, məqbuli-kibriyadır."* [12, s. 124]

QƏDR قدر [*ər.*] **1.** Qədr gecəsi. Qurani Kərimin nazil olduğu Ramazan ayının 17, 19, 21-ci və 27-ci gecələri.

*"Hər gecəsi, hər günü **Qədr** ilə bayram olur,*
Vəslinə hər kim qərib oldu, bəid olmadı." [11, s. 105]

□ **Qədrü Bərat** – Nəsiminin şeirlərində "Bərat" sözü "**Qədr** gecəsi" ilə yanaşı işlənir. Bərat şaban ayının on beşinci gecəsidir: borc, cinayət və cəza günahlarından yaxa qurtarmaq və niyyətlərinə çatmaq üçün həmin gecə səhərədək Allaha ibadət və dua edərək əfv diləmək lazımdır. **Qədr** gecəsi isə Qurani-kərimin nazil olduğu vaxtdır. Həmin gecə oyaq qalmaq, namaz qılmaq, Quran oxumaq və dinləmək, dualar etmək müstəhəb hesab olunur. Nəsimi "**Qədr**" və "Bərat" sözlərini qoşa işlətməklə hər iki gecənin müqəddəsliyinə işarə edir.

"Nurü nəharü leyləm, kəşfəm iki cahanda,
*Qədrə irişdim iştə **Qədr**əmü həm **Bərat**am."* [12, s. 87]

"Surəti-ənvarının hər zərrəsi şəmsü qəmər,
*Türreyi-ənbərfəşanın leylətül-**Qədrü Bərat**."* [12, s. 186]

"Camalındır həqqin zatü sifatı,
*Müənbərdir boyun **Qədrü Bərat**ı."* [11, s. 111]

"Zat iləyəm, sifat ilə, gülşəkərəm nabat ilə,
***Qədr** iləyəm **Bərat** ilə, bəstə dəhana sığmazam."* [12, s. 8]

2. Qədr gecəsinin saçın qara rənginə təşbehi.

"Ey xətin Xızrü ləbin abi-həyat,
